Göründüyü kimi iki strateji tərəfdaş ölkə müasir dünyanın ən aktual çağırışları fonunda tam həmrəylik nümayiş etdirir və istər qlobal, istərsə də proseslərlə bağlı vahid yanaşma ortaya qoyur. Bu isə Azərbaycanın daha öncə Rusiya və Türkiyə kimi nüfuzlu dövlətlərlə imzaladığı strateji müttəfiqlik əlaqələrinin Çin ilə qurulan strateji tərəfdaşlıqla davam etdirildiyinin rəsmi təsdiqidir. Bundan başqa birgə bəyannamə habelə iqtisadi sahədə digər sənədlərin imzalanması Azərbaycanın Beynəlxalq miqyasda nüfuz və çəkisinin daha da yüksəldiyini, Prezident İlham Əliyevin yürütdüyü siyasətə onun şəxsiyyətinə olan hörmət və etibarın artdığını əyani şəkildə ortaya qoyur.

Əməkdaşlığın daha bir real sübutu: Çinin yük avtomobilləri transxəzər beynəlxalq nəqliyyat marşurutundan, yəni orta dəhlizdən istifadə etməyə başlayıblar. Azərbaycana çatan avtomobillər burdan Gürcüstan və Türkiyə vasitəsilə Avropa ölkələrinə yüklənərək yola salınır. Bəli Çin Azərbaycanın ilk idxal mənbəyidir və ölkəmizin 5 əsas ticarət tərəfdaşından biridir. Rəsmi Bakı Çinin irəli sürdüyü "Bir Kəmər, bir yol "təşəbbüsünü dəstəkləyir və bu ölkə ilə nəqliyyat-loqistika müstəvisində sıx əməkdaşlıq qurur. Tərəflər "Kəmər və yol" layihəsinin mühim hissəsi olan Orta Dəhliz infrastrukturunun inkişafına əhəmiyyətli invenstisiyalar yatırır.

Azərbaycan-Çin strateji tərəfdaşlığının statistik rəqəmlərinə nəzər salaq.

-2023-cü ildə Azərbaycan və Çin arasında ticarət, dövriyyəsi 3,1milyard ABŞ dolları təşkil edib;

-Azərbaycanda 300-dən çox Çin şirkəti qeydiyyata alınıb və onlar sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, nəqliyyat və xidmət sahələrində aktiv fəaliyyət göstərirlər;

-Çindən Azərbaycana 930,8 min dollar, Azərbaycandan Çinə 263,3 min dollar həcmində investisiya qoyulub;

-2023-cü ilin 9 ayı ərzində Orta Dəhliz üzərindən yükdaşımaların həcmi 88% artaraq 2 milyon tona çatıb;

-2022-ci ildə Azərbaycan üzərindən tranzit axını təxminən 75% artıb, Zəngəzur dəhlizinin açılmasından sonra isə bu tranzit həcminin ildə 5-8 milyon ton artması gözlənilir.

Azərbaycan-Çin strateji tərəfdaşlıq bəyannaməsinin regional çəkisini göstərən faktlardan biri də qonşu Ermənistan mətbuatında Astarada imzalanan sənədin mahiyyətinə dair məqalələrinin dərc edilməsi və erməni ekspertləri tərəfindən narahatlığın ifadə olunmasıdır. Siyasi mərkəzlər hesab edirlər ki, Prezident İlham Əliyevin Çin lideri ilə görüşünün nəticəsi olaraq bundan sonra ölkələr arasında əməkdaşlıq bütün sahələr üzrə daha

da dərinləşəcək, qarşılıqlı təmaslar və dialoq daha da intensivləşəcək. İkitərəfli münasibətlər yeni məzmun və keyfiyyət qazanacaq (Məmmədov, 2024).

Astanada daha bir mühim hadisə Azərbaycan və Türkiyə Prezidentləri və Pakistanın Baş Naziri arasında keçirilən 3 tərəfli görüş oldu. Liderlər belə bir formatda Zirvə Toplantısının ilk dəfə keçirildiyini vurğuluyaraq bu formatın gələcəkdə mütəmadi xarakter daşıyacağına əminliklərini ifadə etdilər. Qeyd edək ki, tarixi dini köklər və qardaşlıq münasibətləri ilə bir-birinə bağlı olan Azərbaycan, Türkiyə və Pakistan hazırda Beynəlxalq fəal əməkdaşlığa sahibdir. Və tərəflər qarşılıqlı dəstək prosesinin bundan sonra da davam etdirilməsinin vacib oldugunu düşünürlər.

**Nəticə**

Beləliklə Prezidentin Astana səfəri zamanı keçirdiyi görüşlər və çıxışlar Azərbaycanın yeni dövr hədəfləri və xarici siyasətinin prioritetlərinə tam şəkildə aydınlıq gətirir. Prezident onu da qeyd edib ki, *"Biz ümumiyyətlə bu yeni dövrdə xarici siyasət istiqamətində yeni üfüqlər açmalıyıq. Əgər, əvvəlki dövrdə bizim xarici siyasətimizin əsas istiqaməti Azərbaycan - Ermənistan münaqişəsinin həlli idisə, bu gün artıq bu məsələ gündəlikdə demək olar ki durmur. Ona görə xarici siyasətmizin yeni istiqamətləri üstünlük təşkil etməlidir. Biz dünyanı narahat edən problemlərin həllində daha fəal olacağıq. O cümlədən, iqlim dəyişikliyi ilə əlaqədar...*" (Prezident.az, 2024)

Bəli, fevralın 14-də andiçmə mərasimində dövlət başçısının dediyi bu sözlər həftəiçi baş tutan iki mühüm tədbir-türk dövlətləri təşkilatının Şuşa Sammiti, eləcə də ŞƏT Astana zirvəsi fonunda nə qədər aktual olduğunu göstərir. Bütün bunlar həm də, Azərbaycanın ikitərəfli və çoxtərəfli siyasətinin uğurlarıdır. COP29-a sədirliyimizə verilən dəstək isə Azərbaycanın qlobal aktora çevirildiyini və dünyanın aparıcı ölkələrinin Bakı ilə əməkdaşlığa xüsusi önəm verdiyini göstərir. Daha bir mühüm detal- TDT və ŞƏT çərçivəsində verilən mesajlar bir daha təsdiqləyir ki, Cənubi Qafqazda davamlı sülh və təhlükəsizlik məhz Azərbaycanın yaratdığı post müharibə reallıqlarına əsaslanacaq. Ümumiyyətlə, bu gün dünyada intensiv inkişaf edən az təşkilat var. Nəzərə alsaq ki, dünyada son vaxtlar regional təşkilatlara meyil güclənib, onların arasında irəlidə gedəni məhz Şanxay Əməkdaşlıq Təşkilatıdır. İlk yarandığı dövrlərdə beynəlxalq terrorizmə, narkotiklərlə mübarizə üçün nəzərdə tutulan təşkilat kimi fəaliyyətə başlasa da, getdikcə iqtisadi əməkdaşlıq, qlobal layihələrin gündəmə gəldiyi və həyata keçdiyi bir platformaya çevrilib. Bu baxımdan Azərbaycanın ŞƏT-də iştirakı hər tərəfdən faydalı və böyük əhəmiyyətə malikdir.

## Ədəbiyyat

Azerbaijan-news. (2024, Temmuz 5). *Qardaşxanova Əsmər Astana Zirvə görüşü yeni uğurların təməlini qoydu*. https://azerbaijan-news.az/az/posts/detail/astana-zirve-gorusu-yeni-

Azərtac. (2024, Temmuz, 4). *Astanada Şanxay Əməkdaşlıq Təşkilatının sammiti başlayıb*. https://azertag.az/xeber/astanada_sanxay_emekdasliq_teskilatinin_sammiti_baslayib-3081054

BBC News. (2022, Eylül 22). *4 sualda Şanxay Əməkdaşlıq Təşkilatı* https://www.bbc.com/azeri/articles/c

Bizim.media. (2024, Temmuz 3). *Astana zirvəsinin Strateji Əhəmiyyəti-Azərbaycanla əməkdaşlıq ŞƏT üçün niyə vacibrir?,* https://bizim.media/az/siyaset/200248/astana-zirvesinin-stratej-hmyyt-azerbaycanla-e

Bədirxanlı, İ. (2024, Temmuz, 5). *Şanxay Əməkdaşlıq Təşkilatı Avropaya doğru genişlənir*. Xalqqəzeti.az.https://www.xalqqazeti.az/

Məmmədov, (2024, Temmuz 7). *Rövşən Həftə verlişi*. https://www.youtube.com/live/a

President.az. (2024 Temmuz 03). *Astanada İlham Əliyevin Çin Xalq Respublikasının Sədri Si Cinpin ilə görüşü keçirilib*. https://president.az/az/articles/view/66386

President.az. (2024 Temmuz 03). *Astanada İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putin ilə görüşü olub*. https://president.az/az/articles/view/66383

President.az. (2024 Temmuz 03). *Astanada Azərbaycan və Qazaxıstan prezidentlərinin görüşü keçirilib.* https://president.az/az/articles/view/66384

President.az. (2024 Temmuz 03). *İlham Əliyev Astanada "ŞƏT plyus" formatında görüşdə çıxış edib*. https://president.az/az/articles/view/66396

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:06.11.2024*
*Kabul tarihi |Accepted:09.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Mədinə Əsgərzadə**

*https://orcid.org/0009-0003-2788-8134*
*PhD student, Department of Social Work, Baku State University, Azerbaijan, m.asgarzade@yandex.com*

*Atıf Künyesi | Citation Info*

Əsgərzadə, M. (2024). Qədim zamanlardan günümüzədək islam şəriəti əsasında sosial yardımlar. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 14-28.

# Qədim zamanlardan günümüzədək islam şəriəti əsasında sosial yardımlar

***Xülasə***

*Bu tədqiqat İslam hüququna əsaslanan sosial yardımın qədim zamanlardan hazırkı dövrəqədər olan təkamülünü araşdırır. Yarandığı dövrdən etibarən İslam təlimləri xeyriyyəçiliyin və ehtiyacı olanlara yardımın vacibliyini vurğulayır. İslamda sosial yardım anlayışı ədalət, mərhəmət və cəmiyyətin rifahı prinsiplərində dərin kök salmışdır. Tədqiqat İslam cəmiyyətlərində mövcud olan sosial yardımın tarixi inkişafını araşdırır, əldə olunan təcrübələri və zamanla baş verən dəyişiklikləri analiz edir. Araşdırmada İslam xilafətlərindən müsəlmanların çoxluq təşkil etdiyi ölkələrdəki müasir rifah sistemlərinə qədər, sosial ehtiyacların təmin olunmasında İslam prinsiplərinin tətbiqi ilə bağlı fikirlər öz əksini tapır. Araşdırma tarixi mətnləri, hüquqi mənbələri və müasir siyasətləri təhlil edərək sosial yardım proqramlarının formalaşdırılmasında İslami dəyərlərin davamlı aktuallığı və onların cəmiyyətin rifahına təsirini vurğulayır. Tədqiqatda Müsəlman dünyasında və ölkəmizdə sosial yardımın göstərilməsinin forma və üsulları, sosial yardımın subyekt və obyektləri və yardımın göstərilmə texnikası burada öz əksini tapır. İslam ənənələrinə əsaslanan yardımın insanların mənəvi tərəfinin təzahürü kimi göstərilməsi, vicdan və yardımsevərlik keyfiyyətləri ilə eyniləşdirilməsi mövzunun əsasını təşkil edir.*

***Açar sözlər:*** *İslam hüququ, ictimai yardım, sədəqə (zəkat), vəqf, xilafət,şəriət, ənənə*

# Social assistance based on Islamic law from past to present

***Abstract***

*This study analyses the evolution of social assistance based on Islamic law from ancient times to the present day. Since its inception, Islamic teachings have emphasised the importance of charity and*

BY NC
Creative Commons Licence

*helping those in need. The understanding of social assistance in Islam is based on the principles of justice, compassion and the welfare of society. The study examines the historical development of social welfare in Islamic societies and analyses the experiences and changes that have occurred over time. From the Islamic caliphates to modern welfare systems in Muslim-majority countries, the study reflects ideas on the application of Islamic principles in meeting social needs. It analyses historical texts, legal sources and contemporary policies to highlight the continuing importance of Islamic values in shaping social assistance programmes and their impact on social welfare. It discusses the forms and methods of providing social assistance in the Islamic world and in Turkey, the subject and objectives of social assistance, and the techniques of providing assistance. At the heart of the subject is the presentation of the Islamic traditions of charity as a manifestation of the spiritual side of human beings and its identification with the qualities of conscience and benevolence.*

***Keywords:*** *Islamic law, public assistance, charity (zakat), foundation, caliphate, Sharia, tradition*

## Giriş

İslam hüququna əsaslanan sosial yardım tarix boyu müsəlman cəmiyyətlərinin əsas aspekti olub, İslam təlimlərində yer alan etik və mərhəmət prinsiplərini özündə əks etdirir. İslamın yarandığı ilk dövrlərindən günümüzüdək sosial yardım anlayışı ədalət, xeyriyyəçilik və icma məsuliyyəti prinsiplərini rəhbər tutaraq inkişaf edib uyğunlaşmışdır. Bu araşdırma İslam hüququ çərçivəsində sosial yardımın tarixi trayektoriyasını araşdırır, qədim dövrlərdən müasir təcrübələrə qədər mövcud olan inkişaf yolunu izləyir. İslam təlimlərində fərdlərin və icmaların yardıma ehtiyacı olanlara dəstək olma öhdəliyi vurğulanmış və bu təşəbbbüs əsrlər boyu müxtəlif mexanizmlərlə özünü göstərmişdir. Hələ Xilafət zamanı sosial bərabərsizlikləri aradan qaldırmaq və əhalinin aşağı təbəqəsinə yardım etmək üçün məcburi sədəqənin bir növü olan zəkat sistemi yaradılmışdır. Bundan əlavə, o dövrdə vəqfin təsis edilməsi davamlı xeyriyyə təşkilatlarının yaradılmasına töhfə verərək icma rifahına şərait yaratdı. Müsəlman cəmiyyətləri Səfəvilər, Osmanlı İmperiyası kimi imperiyaların tərəqqisi və süqutu da daxil olmaqla tarixi transformasiyalara məruz qaldıqca sosial yardımın xarakteri dəyişən ictimai-siyasi mənzərələrə uyğunlaşdı. İslam etikası, hüquqi çərçivələr və sosial-iqtisadi şərtlərin qarşılıqlı təsiri sosial rifah təcrübələrinin təkamülünü formalaşdırdı.

Müasir dövrdə müsəlmanların əksəriyyətini təşkil edən ölkələr müasir idarəetmə və iqtisadi strukturun mürəkkəbliyi ilə üzləşərkən sosial yardım göstərmək problemi ilə mübarizə aparmaqda davam edir. Bu tədqiqat sosial yardım siyasətinin formalaşdırılmasında İslam prinsiplərinin tarixi köklərini və davamlılığını araşdırmaq, müasir problemlərin həllində və cəmiyyətin rifahının yüksəldilməsində onların aktuallığına işıq tutmaq məqsədi daşıyır.

Araşdırma sosial yardım mexanizmlərinin təkmilləşməsini müşahidə edərək İslam hüququnun fərdlərin və icmaların rifahına davamlı təsirinin daha dərindən dərk edilməsinə kömək edir.

## 1. İslam şəriətinə əsasən yardımın müxtəlif formaları

İslam şəriəti dedikdə ictimai ədalət vəköməksevərlik prinsipləri əsasında yaradılan həyat tərzi nəzərdə tutulur. İslam mədəniyyətində sosial yardımların bir institut kimi qədim dövrlərdən inkişafı onun müxtəlif forma və prinsiplərinin cəmiyyətin rifah səviyyəsinin yüksəldilməsində böyük rolunu vurğulayır. Bu sosial yardımlar maddi dəstəyi əhatə etməklə kifayətlənməyib, eyni zamanda mənəvi və psixoloji dəstəyi də özündə ehtiva edir. Qədim köklərə malik İslam şəriəti əsasında formalaşan sosial yardımlar ilk dövrlərdə dini öhdəliklərin bir hissəsi kimi başa düşülürdü.

İslamın meydana gəlməsi və yayılmasıyla islam şəriətində sosial yardım növü olan vəqf müəyyən xidmətlər müqabilində mülk sahiblərinə iqtisadi təhlükəsizlik vermək üçün etibarlı bir öhdəlik vasitəsi kimi ortaya çıxmışdır (Kuran, 2001). Bütün Yaxın Şərqdə o, uzun müddət ictimai malların mərkəzləşdirilməmiş şəkildə çatdırılması üçün əsas vasitə kimi çıxış etmişdir. Vəqf, əslində daimi olaraq malın və ya mülkün xalqın rifahına xidmət etməsi üçün bağışlanmasıdır. Bu sistem, təhsil, səhiyyə və digər ictimai sahələrin dəstəklənməsində böyük rol oynayır və yardımlaşma ənənələrinin cəmiyyətin inkişafına davamlı töhfəsini təmin edir.

Vəqf İslam şəriətində sosial yardım və xeyriyyəçilik sisteminin ayrılmaz tərkib hissəsi kimi meydana gəlmiş bir institut hesab edilir. İslam dünyasında vəqf, müəyyən bir sərvətin və ya mülkün xeyriyyə məqsədləri üçün başqasına əbədi istifadəyə verilməsi ilə şərh edilir. Bu anlayış İslam hüququnda yalnız fərdi yardım deyil, həmçinin cəmiyyətin davamlı rifahını təmin edən genişmiqyaslı bir sistem kimi formalaşmışdır. Vəqfin inkişaf tarixinə nəzər salsaq, yaranması İslamın ilk dövrlərinə, Məhəmməd Peyğəmbərin (s.ə.s) dövrünə qədər uzandığının şahidi olarıq. Xüsusilə Peyğəmbərin səhabələri arasında geniş yayılan bu sistem, müxtəlif sahələrdə, məsələn məscidlərin tikintisi, yoxsullara maddi yardım və təhsil sahəsində sosial dəstək göstərilməsini təmin etmişdir. Müsəlman cəmiyyətlərinin inkişafında o əhəmiyyətli rol oynamış və bir institut kimi, qədim dövrdən etibarən İslam mədəniyyətinin iqtisadi və sosial həyatına əsaslı şəkildə təsir göstərmişdir. Vəqf, İslam şəriəti hüququna əsaslanan bir praktika hesab edilir və onun hüquqi tələbləri dəqiq şəkildə müəyyənləşdirilmişdir. Belə ki, vəqf qurmaq üçün sahibkar öz malını və ya əmlakını cəmiyyətin rifahına xidmət edəcək bir məqsədə həsr edir. Bu əmlak və ya mülk, daimi olaraq sahibinin mülkiyyətindən çıxarılır və geri alınması mümkün olmayan bir mülkiyyətə çevrilir. Ənənəvi olaraq, vəqf formaları arasında məscidlər, məktəblər (mədrəsələr), xəstəxanalar, karvansaraylar, körpülər, su mənbələri (quyular) kimi infrastruktur layihələri üçün ayrılan mülklər geniş yayılmışdı. Vəqf, İslam cəmiyyətləri üçün

sosial ədalətin və iqtisadi bərabərliyin təmin edilməsində mühüm rol oynayır. O, İslamda varlı və yoxsul təbəqələr arasında tarazlığı qorumaq və cəmiyyətin rifahını təmin etmək üçün əsas vasitə olmuşdur. Ənənəvi olaraq vəqflər vasitəsilə yoxsullara yardım, təhsil, səhiyyə və digər sosial xidmətlər göstərilmişdir. Bununla yanaşı, vəqflər cəmiyyətin iqtisadi inkişafına və iş yerlərinin yaradılmasına da təkan vermişdir. Hazırki dövrdə vəqfin əhəmiyyəti dəyişməz olaraq qalmaqdadır. Əksər müsəlman ölkələrində vəqf sistemi yenidən canlandırılaraq cəmiyyətin sosial və iqtisadi problemlərinin həllində mühüm rol oynayır. Müasir vəqf layihələri təhsil, səhiyyə və texnologiya sahələrində innovativ təşəbbüsləri dəstəkləyir və eyni zamanda tarixi və mədəni irsin qorunması üçün də maliyyə dəstəyi təmin edir. Vəqf İslam cəmiyyətlərinin sosial strukturunda bənzərsiz bir mövqeyə sahibdir. O, yalnız fərdi xeyriyyəçilik aktı kimi deyil, həm də cəmiyyətin rifahını təmin edən davamlı bir sosial model kimi çıxış edir. Vəqf vasitəsilə insanlar öz sərvətlərini cəmiyyətin rifahı üçün yönləndirir və bu, cəmiyyətin iqtisadi inkişafına və sosial ədalətinə xidmət edir. Müasir dövrdə də vəqfin rolunu qorumaq və genişləndirmək, cəmiyyətin sosial ehtiyaclarının davamlı şəkildə təmin olunmasına mühüm töhfə verir.

Görünür ki, İslamın bu dinə xas olan əsas cəhəti sosial sferada şəriət və ya müqəddəs qanunlardır. Təqvalı müsəlman üçün bütün əsrlər boyu ilahiyyat və hüquq, sosial yardım elmləri əhəmiyyət kəsb etmişdir. İlahiyyat insanların, xüsusilə də sosial yardım göstərənlərin inanmalı olduğu hər şeyi təyin edir, qanun isə onun etməli olduğu və ya yarımçıq qoyduğu hər şeyi özündə ehtiva edir. İslamda qanunun bu ikisinin ən böyük elm olduğuna heç bir şübhə ola bilməz (Anderson, 1960). Müsəlman cəmiyyətində infaq Allah yolunda mal-mülk xərcləmək və yardım etmək mənasına gəlir. İnfaq xüsusi bir şərtdən və ya vaxt məhdudiyyətindən asılı olmayaraq könüllü şəkildə edilən yardımlardır. İnfaqın bir növü olan vacib infaq müəyyən şərtlərlə yerinə yetirilməsi vacib olan sədəqə, zəkat, fitrə zəkatı, və ya kəffarə kimi yardımlardır. Belə yardımların edilməsi məcburi olub hər bir müsəlmanın icra etməli olduğu məsələlərdir. İnfaq cəmiyyətdə kasıblara və ehtiyacı olanlara yardım etməklə sosial ədaləti və yardımlaşmanı təmin edir. Belə yardımlar əhali arasında mövcud maddi fərqləri azaldır və əhalinin aşağı gəlirli təbəqəsinin həyat şəraitini yaxşılaşdırır. İnfaq, xalq arasında bağları gücləndirərək müsəlman aləmində qarşılıqlı yardımlaşma və dəstəyi təşviq edir. Həmçinin, şəxsi mənfəətdən çox cəmiyyətin həyat səviyyəsinin yaxşılaşmasına diqqət yetirməyə çağırır. Eyni zamanda, infaq məscid və ya məqbərə tikilməsi, məktəb və ya xəstəxanaların açılması və ya su quyusu qazılması kimi uzunmüddətli və davamlı bir proses də ola bilər. Kəffarə sosial yardımların bir forması kimi, edilən yardımlar nəticəsində cəmiyyətdə həmrəylik artır və müxtəlif təbəqədən olan insanları bir-birinə daha da yaxınlaşdırır. Kəffarə dedikdə, İslam mədəniyyətində

günahların bağışlanması və ya dini əmrin pozulması zamanı müsəlman üçün müəyyən edilən əməlləri yerinə yetirməklə həmin günahdan təmizlənmə vasitəsi nəzərdə tutulur. Bu əməllər sırasına kasıblara kömək etmək, bəzi günlərdə oruc tutmaq, qədim zamanlarda qul azad etmək və ya digər yaxşı əməlləri misal çəkmək olar. Kəffarə, fərdi tövbə aktı olmaqla yanaşı, sosial yardım və cəmiyyətdəki ehtiyacı olan şəxslərin rifahını yaxşılaşdırmağa xidmət edən bir vasitədir. Kəffarə verən müsəlman günahlarının Allah qatında bağışlanması üçün kasıblara ərzaq, pul və ya digər maddi yardım etməklə cəmiyyətdəki ehtiyacı olan insanlara birbaşa dəstək təmin edir. Kəffarə, insanlara yanlış davranışlarının məsuliyyətini dərk etməyə və bu sosial məsuliyyəti yerinə yetirərək cəmiyyətə töhfə verməyə kömək edir. Beləliklə, xalqın kasıb təbəqəsinə yardım etməklə insanlar həm günahlarının əvəzini ödəyir, həm də onların rifahını artırır. Xalqın aşağı gəlirli təbəqəsi maddi yardımlardan faydalanarkən, zənginlər günahlarını təmizləməklə həm mənəvi, həm də dünyəvi rahatlıq tapır. İslam mədəniyyətində zəkat, infaq və kəffarə kimi yardımlar müsəlman cəmiyyətinin sosial təhlükəsizlik sistemi kimi fəaliyyət göstərir. Bu yardımların göstərilməsi nəticəsində aşağı gəlirli insanlar heç zaman özlərini kimsəsiz və yardımsız hiss etmir, nəticədə sosial rifahın qorunması təmin olunur. Kəffarə, İslam aləmində sosial yardımların mühüm rol oynadığını göstərir. Belə ki, bu sosial yardım fərdi günahların təmizlənməsindən daha çox, cəmiyyətin bir-birinə dəstək olmaq üçün qurduğu bir sosial mexanizmdir.

İslama xas sosial yardım dedikdə ağlagələn digər bir məsələ isə zəkatın verilməsidir. Zəkat İslam dininin beş əsas şərtindən biri hesab edilməklə, maddi rifahı yüksək olan hər bir müsəlmandan ildə bir dəfə əmlakının bir hissəsini əhalinin ehtiyacı olan hissəsinə verilməsini əmr edirdi. Zəkat sözünün lüğəvi mənası “təmizləmə və bərəkət” kimi başa düşülür. Xilafət dövründə aparılan sosial siyasətin tərkib hissəsi kimi müsəlmanlardan alınan zəkat, fitrə və sədəqəni misal göstərə bilərik (Esposito,1999). Zəkat dedikdə, varlı müsəlmanlardan yoxsul əhali üçün alınan vergi nəzərdə tutulur. Bu vergi dənli bitkilər, meyvələr, ev heyvanları üzərinə qoyulurdu. Hazırki dövrdə də aktual olaraq qalan zəkat əl-fitr orucluğun son günü münasibətilə imkanlı şəxslər tərəfindən öz əmlaklarına uyğun şəkildə ailədə yetkinlik yaşına çatan hər şəxsə görə verilən maddi yardımdır. Sədəqə isə, yoxsullara verilən ianə növü hesab olunur. Zəkat, İslamda məcburi bir vergi kimi, cəmiyyətin zəngin təbəqələri ilə kasıb təbəqələri arasında iqtisadi balansı təmin edir. Zəkat, yalnız kasıblara yardım məqsədilə deyil, eyni zamanda İslam cəmiyyətində sosial bərabərliyi və həmrəyliyi qorumaq üçün vacibdir.

Fitrə, İslam ənənəsində sosial birliyin və yardımlaşmanın vacibliyini vurğulayan bir əməl hesab olunur (Fitre, zekati 2024). Bu, həmçinin İslam cəmiyyətlərində ədalətli sərvət bölgüsünü təmin etmək və bayram sevincini bütün insanlar arasında paylaşmaq üçün bir

vasitədir. Zəkat həm ehtiyacı olanlara yardım etmək , həm də sosial ədaləti və bərabərliyi bərpa etmək məqsədi güdürdü. Zəkatın alınması və paylanması sosial təminatın bazisi kimi çıxış edir və müxtəlif səbəblərdən– əlillik, müharibə, qıtlıq, xəstəlik və s. səbəbdən maddi çətinlik çəkən əhaliyə xidmət edirdi. Zəkat vermək üçün müsəlmanın malının üzərindən bir il keçməlidir (Zekat kime vacip, 2024). Zəkatın bir qolu hesab edilən sədəqə isə könüllü olaraq edilən yardımdır. Bir sıra mənbələrdə "zəkat" sözü böyümək, artmaq mənasında da işlənir. Şəriətdə istifadə edilən zəkat anlayışı çox zaman sədəqə ilə eyniləşdirilir. Təsadüfi deyil ki, Əl Mavardi "Sədəqə zəkatdır, zəkat isə sədəqədir. Onlar eyni şeyin iki adıdır" deyə bildirmişdir (Qardawi, 2000). Zəkat ehtimal ki, islam dinində sosial yardım sferasında iqtisadi sistemin ilk sütunudur. Zəkat vasitəsilə insanlar yoxsul şəxsləri ərzaq, geyim və s. ilə təmin edilir. Zəkat islamın ədalətli sərvət transferi sisteminin təməl daşı və İslam cəmiyyətində yoxsulluğun və digər iqtisadi və sosial problemlərin azaldılması üçün ən təsirli vasitədir.

Yoxsulluq, işsizlik, təbii fəlakətlər, borc və qeyri-bərabər gəlir bölgüsü kimi ciddi sosial problemlər müsəlmanların yaşadığı cəmiyyətlərə xas cəhətlər olaraq zəkatın yaranmasında mühüm rol oynamışdır. Ümumiyyətlə, islam sosial rifahının çərçivəsi zəkatla təmin edilirdi. Zəkatın sosial-iqtisadi problemləri təkbaşına həll edə bilməyəcəyi ilə bağlı iddialara baxmayaraq o, hər hansı müsəlman mədəniyyətində sərvətin ədalətli bölüşdürülməsində əsas və ən əhəmiyyətli cəhət kimi hamı tərəfindən qəbul edilir. İslama görə kimsəsizlərə, aman diləyənlərə, yoxsullara, yolda qalanlara da yardım göstərilməlidir. Bu yardım sadəcə sığınacaq verməklə kifayətlənməyərək onların sağlamlığı və normal qidalanma və şəraitlə təmin olunmasına kömək etməkdən ibarət olmalıdır. Bu zaman yardım göstəriləcək şəxs müsəlman və ya qeyri-müsəlman əcnəbi və ya yerli, yaşlı və ya uşaq ayırd edilmədən seçilməlidir. Qurani-Kərimdə "Namazı qılın, zəkatı verin" əmrini buyurur. Maddə ilə mənanın ayrılmazlığı, bədən ilə ruhun birliyini gözlər önünə sərmək baxımından Uca Allaha ibadət etməklə dövlətə vergi verməyi– yəni namaz qılmaqla zəkatı ödəməyi eyni səviyyəyə qaldırmağın İslamda dövlətçiliyə də böyük önəm verilməsinin bariz bir nümunəsi kimi baxılmalı olduğu faktı burada işıq üzü görür (Nəbibəyli, 2013). Quranın 9-cu surəsinin 103-cü ayəsində Peyğəmbərə xitabən buyurulur: "Onların mallarından sədəqə (zəkat) alın. Bununla onları (günahlarından) təmizləmiş, pak etmiş (mallarına bərəkət vermiş, əməllərinin savabını artırmış) olarsan" (Kuran, 2024). Bölmənin təfərrüatlı olduğu 9-cu surənin 60-cı ayəsində deyilir ki, sədəqələr (zəkatlar) Allah tərəfindən bir fərz olaraq ancaq yoxsullara, miskinlərə, (zəkat yığan) işçilərə, qəlbləri İslama isindiriləcək kimsələrə, (azad olmağa çalışan) kölələrə, borclulara, Allah yolunda olanlara və yolda qalan yolçulara aiddir.

Zəkat tarixən müsəlman hökumətləri tərəfindən xəzinədə fond və ya hesab kimi təyin edilmiş, ondan əldə olunan gəlir şəriət standartlarına uyğun olaraq bölüşdürülmüşdür. Osmanlı İmperiyasının süqutuna qədər bu ənənə davam etdirilmişdir. Bildiyimiz kimi, zəkat sosial müdafiənin təmin edilməsi və yoxsulluğun azaldılması mexanizmi kimi böyük əhəmiyyətə malikdir. O müxtəlif İslam cəmiyyətlərində eyni prinsiplərə əsaslansa da, ölkələr zəkatın institusionallaşdırılmasında icbari töhfələrdən könüllü töhfələrə qədər əhəmiyyətli dərəcədə bir-birindən fərqlənir. Dövlət büdcəsindən müstəqil olduğu üçün zəkatın müxtəlif maliyyə mənbələri ola bilər. Məsələn, Fələstində zəkatla maliyyələşdirilən proqramlar cəmiyyətin ən həssas üzvlərinə yardım göstərmək ənənəsinə malikdir və bu, məhdud dövlət strukturları fonunda- qismən də İsraillə münaqişə ilə əlaqədar görülməlidir. İslamda kimsəsiz uşaqlara verilən pul yardımı xüsusi əhəmiyyət kəsb edir, lakin sistem könüllü töhfələrə əsaslanır və xarici ünsürlərdən asılıdır. Bu sistemi idarə edən Zəkat Komitələri ictimai etimada malik olsalar da, sonrakı siyasi münaqişələr və mərkəzləşdirmə islahatları nəinki ictimai etimadın həmçinin zəkatın ümumi həcminin azalmasına səbəb olmuşdur. Yaxın Şərq və Şimali Afrikada subsidiya islahatları sosial sahədə daha çox ünvanlı yardıma yönəlmişdi. Bu mənada, zəkatla maliyyələşdirilən sosial yardımlar yoxsulluğun azaldılması strategiyasını dəstəkləmək məqsədi güdürdü. Sosial yardım sahəsində Sudan, Fələstin və İordaniyada zəkat sosial müdafiə xidmətlərinin göstərilməsində mühüm rol oynayır. Bu ölkələrin müqayisəsi göstərir ki, Sudanda zəkat sosial müdafiə üçün ən mühüm maliyyə mənbələrindən birini təşkil etsə də, İordaniya və Fələstindəki sistemlər bu ölkələrin digər milli sosial müdafiə proqramları ilə müqayisədə kifayət qədər kiçikdir. Lakin, bu Zəkat fondlarının ümumi həcmi, digər milli sosial müdafiə proqramları ilə əlaqələndirilməsi, şəffaflığı ilə bağlı problemlər qalmaqdadır.

Zəkat fondlarının sosial müdafiə təminatçısı kimi rolunu artırmaq üçün dövlət qurumları arasında koordinasiyanın təkmilləşdirilməsi çox vacibdir. Bununla belə, koordinasiyanın məqsədəuyğunluluğunun qiymətləndirilməsi (məsələn, məlumat bazalarının paylaşılması) və müvafiq maraqlı tərəflərin öhdəliklərinin təmin edilməsi bu prosesdə mühüm addımlardır (Machado, Bilo & Helmy, 2018). İslam sosial rifah təşkilatları xeyriyyə və xidmət təşkilatları olmaqla iki geniş kateqoriyaya bölünür. Xeyriyyə təşkilatları maliyyə yardımları və qida dəstəyi şəklində sədəqə verməklə, eyni zamanda geyim və sığınacaq kimi digər nüansları əhatə edir. Xidmət təşkilatları isə, təhsil, peşə təlimi və tibbi yardım kimi sahələri özündə ehtiva edir. Bu sahələr konkret şəkildə bir-birindən ayrışmamışdır, çünki bir sahə ilə məşğul olan digər sahədə də özünü göstərə bilər.

İslam sosial təminat təşkilatları tərəfindən verilən yardımların yönləndiyi əsas subyekt aztəminatlı ailələrdir. Müntəzəm proqramların benefisiarlarına boşanmış qadınların və dulların

rəhbərlik etdiyi ailələr və ərinin xroniki xəstə, daimi əlil, işsiz və həbsdə olduğu ailələr daxildir (İnternational Crisis Group, 2003). Hər il dekabrın 19-u Beynəlxalq Yoxsullara Yardım Günü kimi qeyd olunur. 1995-ci ildə Birləşmiş Millətlər Təşkilatı (BMT) tərəfindən təsis edilən bu gün hər bir dövr üçün ən aktual problem olan yoxsulluğa diqqət çəkmək və həlli yollarını axtarmaq üçün vacib rol oynayır. Mütəxəssilərin araşdırmalarına əsasən dünya əhalisinin təxminən dörddə bir hissəsinin, yəni, yarım milyard insanın XX əsrdə dilənçi vəziyyətində olduğu məlum olmuşdur. Tədqiqatçıların fikrincə, 1999-cu ildən günümüzədək yoxsulluq nəticəsində 300 milyon şəxs həlak olmuşdur. Bu göstərici iki dünya müharibəsində ümumilikdə həlak olan insan tələfatından daha çoxdur.

## 2. Xeyriyyəçilik anlayışı və ölkəmizdə müxtəlif dövrlərdəki yardımın təzahür formaları

Yoxsul əhaliyə yardım göstərilməsi islam dini zəmnində xeyriyyəçilik adı altında həyata keçirilir. Xeyriyyəçilik anlayışı yoxsul əhaliyə pul, ərzaq və geyim məhsullarının verilməsi, müəyyən xeyriyyəçilik tədbirlərinin keçirilməsi, müxtəlif xidmətlərin göstərilməsi formasında özünü göstərir. Bu fəaliyyət özündə nəyi ehtiva etməsindən və kim tərəfindən tətbiq edilməsindən asılı olmayaraq əvəzsiz və könüllü şəkildə edildikdə xeyriyyəçilik hesab edilir. Əslində, xeyriyyəçilik fəaliyyəti şəxsin hər hansı direktiv və göstərişlər olmadan öz ürəyi və vicdanının səsi ilə maddi və mənəvi enerjisini sərf edərək etdiyi xeyirxah əməllərdir.

Xeyriyyəçiliyi yalnız cəmiyyətin sosial siyasətinə xidmət edən institut kimi qiymətləndirmək yetərli olmazdı. Əgər bu anlayışa belə səthi yanaşsaq, dünya ölkələrinin iqtisadiyyatı inkişaf etdikcə xeyriyyəçilik fəaliyyətinin çərçivəsinin məhdudlaşması zərurəti yaranması mənasına gələrdi. Bunun əksinə dövlətin sosial sahəni maliyyələşdirmə imkanı daha yüksək olan ölkələrdə, bir qayda olaraq, yardımlaşmada iştirakın kütləviliyi və yardımın miqyası yüksək olması meyli özünü göstərir.

Xeyriyyəçilik fəaliyyəti ictimai tələblərə cavab verməli və ən ciddi sosial problemlərə istiqamətlənməlidir. Bu problemlər daha çox ölkəmizin müxtəlif bölgə və rayonlarında özünü göstərir. Problematika həmin əraziyə bağlı olaraq, əhalinin içməli su ilə təmin olunması, ekologiya, məktəb və ya yaşayış binasının çatışmazlığı ilə bağlı ola bilər. Bəzi rayonlarda isə kitabxanalara , kompyuter siniflərinə, gənclər evinə, tibb müəssisələrinə ehtiyac duyulur. Xeyriyyəçilik resurslarının səmərəli və məqsədyönlü şəkildə, bu və ya digər yerli problemlərin kəskinliyi və aktuallığı nəzərə alınmaqla bölüşdürülməsi son dərəcə vacib və arzu ediləndir (Əliyeva, 2008). Digər müsəlman ölkələrində olduğu kimi, Azərbaycanda müxtəlif dövrlərdə mövcud olan dövlətlərdə də bütün ictimai münasibətlər sosial müdafiəyə əsaslanan şəriət

qaydalarıyla nizama salınırdı. Sözügedən qaydalar hər bir varlı müsəlmanın yoxsul şəxslərə zəkat, fitrə, xüms şəklində etdiyi yardımların normasını müəyyənləşdirirdi. Fərman və əmrlərlə şahlar, səlahiyyətli şəxslər tərəfindən əhalinin müxtəlif təbəqələrindən olan ayrı-ayrı şəxslərə fərdi mükafat şəklində təminatlar da verilirdi.

Xüsusilə, Səfəvi və Osmanlı İmperiyaları dövründə fəaliyyət göstərən aşevləri yoxsul əhaliyə pulsuz yemək vermək məqsədi daşıyırdı. Yemək təklif etmək və onu qəbul etmək, şübhəsiz ki, fizioloji mənasının xaricində bir çox sosial, iqtisadi və siyasi mənalara malikdir. Yeməkdən siyasi alət kimi istifadə bütün cəmiyyətlərdə həmişə tətbiq olunmuşdur. Bununla da əhalinin yoxsul təbəqəsini daim nəzarət altında saxlamaq mümkün olurdu. İslam ənənələrini güclü şəkildə yaşadan Səfəvi dövləti güclü bir imperiya kimi 3 əsrdən artıq mövcud olmuşdur. Səfəvi imperiyası dövründə İslami dəyərlərə, xüsusilə də sosial yardım və xeyriyyəçilik ənənələrinə böyük əhəmiyyət verilirdi. Səfəvilər İslamın Şiə təlimlərinə uyğun olaraq, dövlət səviyyəsində, o cümlədən fərdi səviyyədə yardımlaşma fəaliyyətlərini təşviq edirdilər. Bu dövrdə sosial yardımın bir çox forması mövcud idi, bunlar arasında zəkat, sədəqə və vəqf sistemi önəmli yer tuturdu. Səfəvi imperiyası dövründə müxtəlif ticarət yollarının və karvansarayların inşası da sosial yardımın mühüm bir hissəsi hesab edilirdi. O dövrdə tikilən karvansaraylar yalnız tacirlər üçün deyil, eyni zamanda yolçular və yoxsullar üçün də nəzərdə tutulmuşdu. Karvansaraylar kasıblara pulsuz yemək və sığınacaq təmin edən obyektlər idi. Bu cür ictimai yerlər həm yerli əhali, həm də səfərdə olan insanlar üçün sosial dəstək mənbəyi rolunu oynayırdı.

Səfəvi imperiyası dövründə, İslam şəriətinin dəyərlərinə uyğun şəkildə, xüsusilə dini bayramlarda və mərasimlərdə göstərilən sosial yardımlar artırdı. Məhərrəm ayı kimi dini əhəmiyyətli günlərdə aztəminatlı ailələrə və ehtiyacı olanlara xüsusi yardımlar göstərilir, qurbanlar paylanırdı. Bu dövrdə sözügedən sosial yardımlar, İslamın şiə təlimlərinin ictimai ədalət və yardımlaşma prinsipinə uyğun şəkildə həyata keçirilirdi.

Azərbaycanda kapitalist münasibətlərinin inkişafı nəticəsində XIX əsrin sonlarından etibarən xeyriyyəçilik geniş vüsət alır, bunun əsas səbəbi kapitalist münasibətlərinin əhalinin təbəqələşməsinə təsiri nəticəsində xalqın böyük əksəriyyətini təşkil edən yoxsullar ordusunun yaranması idi. Azərbaycanda kimsəsiz, evsiz, yaşlı və xəstələrə arxa durmaq, təhsil almağa imkanı olmayan uşaqlara əl tutub, onların oxumasına yardım etmək kimi humanist ideyalara qulluq edən belə bir cəmiyyətin yaradılması xalqımızın ictimai fikir tarixində xüsusi yeri olan böyük maarifçi Həsən bəy Zərdabinin adı ilə bağlıdır. Azərbaycanda sosial-mədəni həyatın on doqquzuncu əsrin ikinci yarısından etibarən sürətli canlanmasında və ictimai fikrin maarifçi-demoktratik ideyalarla zənginləşməsində Həsən bəy Zərdabinin müstəsna xidmətləri vardır

(Azərbaycan maarifinin yorulmaz çarçısı: Həsən bəy Zərdabi, 2012). Azərbaycanda ilk xeyriyyə cəmiyyətinin yaranması ilə bağlı məlumat Zərdabinin yaradıcısı olduğu «Həyat» qəzetində nəşr olunan «Cəmiyyəti xeyriyyə binası» adlı məqalədə öz əksini tapmışdır. Burada qeyd olunur ki, "1871-ci ildə mən bizim müsəlmanlar üçün bir cəmiyyəti-xeyriyyə nizamnaməsi tərtib edib və bir neçə qeyri adamlara da onun ərizəsinə qol çəkdirib, Sərdara verib təsdiq elətdirdim. Amma mənim çağırışıma nə ki, bir qeyri müsəlman, hətta ərizəyə qol çəkənlər də gəlmədi" (Zərdabi, 1960, s. 211). Bu uğurda mübarizə aparan Zərdabi 1905-ci il oktyabrın 10-da "Bakı Müsəlman Xeyriyyə Cəmiyyəti"nin təsis edilməsinə nail olur. Bu cəmiyyətin yaradılmasında əsas məqsəd əlillər evi, müalicəxana və digər xeyriyyə müəssisələrində ahıllara qayğı göstərmək, yoxsul müsəlman uşaqların orta və ali tədris müəssisələrinə daxil olub, təhsillərinin başa vurulmasına maddi yardım göstərməkdən ibarət olmuşdur.

XIX əsrin sonu - XX əsrin əvvəlində Azərbaycanda mənəvi təməl üzərində qurulan filantropiyanın bir növü kimi messenatlıq geniş vüsət almağa başlamışdı. Mesenatlıq çərçivəsində əhalinin rifahı naminə - elm və təhsilə, memarlıq və incəsənətin inkişafına, mədəniyyətin müxtəlif sahələrinə külli məbləğdə vəsait sərf edilmişdir. Çətin həyat şəraiti olan şəxslərə yardım etməyə hazır olmaq keyfiyyətləri əsrlər boyu xalqımıza xas olmuşdur. H. Z. Tağıyev özünün əməlləri, müdrikliyi, xalqının gələcəyinə qayğısı, heyranedici səxavəti, alicənablığı, zamanla ayaqlaşmaq bacarığı ilə nəsillərin yaddaşında silinməz iz qoydu (Milli Azerbaycan tarihi muzeyi, 2024). Belə ki, başda Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev olmaqla bir çox ziyalıların adı ölkəmizdə xeyriyyəçilik tarixinə qızıl hərflərlə yazılmışdır. Gövhər xanım Qacar, Həmidə xanım Cavanşir, Nigar xanım Şıxlinskaya kimi dövrün qadın ziyalılarının yaratdığı qadın xeyriyyə cəmiyyətləri sözügedən dövr üçün bir növ "göyərçin" hesab olunmuşdur. Bu cəmiyyətləri bir növ qadın sığınacaqlarının banisi hesab etmək olar.

İslam mədəniyyəti əsasında messenatlıq, imkanlı və güclü şəxslərin, dini və etik prinsiplərə uyğun olaraq, cəmiyyətin ehtiyacı olan təbəqələrinə yardım etməyi və onları maddi və mənəvi cəhətdən dəstəkləməyi qarşısına məqsəd qoyur. Sözügedən anlayış, İslamın əxlaqi və sosial ədalət prinsiplərinə uyğun olaraq həyata keçirilən bir təcrübədir. İslam şəriətinin əsası hesab olunan ədalət və mərhəmət prinsiplərinə uyğun olaraq, messenatlıq yoxsul əhaliyə ədalətli şəkildə yardım etməyi və onlara mərhəmət göstərməyi tələb edir. Bu, həm fərdi, həm də ictimai səviyyədə sosial bərabərliyi təmin etməyə yönəlmiş bir aktdır. Bu dövrdə sosial yardımlar əsasən kasıblara, yetimlərə, müharibə qurbanlarına və ehtiyacı olan digər şəxslərə yönəlirdi. Göstərilən yardımların tətbiq sahələri isə qida, geyim, tibbi yardım, sığınacaq və

digər ehtiyaclar idi. Sözügedən yardımlar, cəmiyyətin zəif müdafiə olunan təbəqələrinə dəstək olmaq və onların həyat şəraitini yaxşılaşdırmaq məqsədini güdürdü. İslam şəriətinə əsaslanan messenatlıq, infrastruktur və müxtəlif ictimai layihələrin dəstəklənməsini də əhatə edirdi. Bu, əsasən məktəblərin, xəstəxanaların, su və kanalizasiya sistemlərinin yaradılması və təmiri ilə əlaqədar olmaqla cəmiyyətin sosial və iqtisadi inkişafını təmin edirdi. İslam şəriəti əsasında fəaliyyət göstərən messenatlıq, cəmiyyətdə sosial bərabərliyi təşviq edirdi. Sosial yardımlar və zəkat, iqtisadi bərabərsizliyi azaltmağa kömək edir və ehtiyacı olanlara dəstək olmaqla sosial ədaləti təmin edirdi. İslam şəriəti əsasında messenatlıq, dini və etik prinsiplərə uyğun olaraq həyata keçirilən sosial yardım və xeyriyyəçilik fəaliyyətləri hesab olunurdu. Sədəqə, zəkat, vəqf və digər sosial yardımlar, cəmiyyətin ehtiyacı olan təbəqələrinə dəstək olmaq və sosial bərabərliyi təmin etmək məqsədini güdürdü. Bu fəaliyyətlər, cəmiyyətin rifah səviyyəsini yüksəldir, sosial ədaləti bərpa edir və müsəlman cəmiyyətində xeyirxahlıq və əməkdaşlıq ruhunu gücləndirirdi. Sovet İttifaqı dövründə Azərbaycanda İslam ənənəsini davam etdirmək çox ziddiyyətli bir məsələ idi. Belə ki, Sovet İttifaqı ölkələrində İslam dininə qarşı sərt təzyiqlər həyata keçirilmişdi. Ölkəmizdə Sovet dövründə İslam dininin qadağan edilməsi, dini qurumların ləğv edilməsi və insanların sıxışdırılması siyasəti güclü şəkildə aparıldığından müsəlman icmaları ciddi problemlərlə üzləşirdi. Bununla belə, bir sıra dini adət-ənənələrin fonunda sosial yardım üstüörtülü şəkildə yaşadılmağa davam edilirdi. Sosial yardımların müxtəlif növlərinin xüsusilə kənd yerlərində ailə daxilində zəkat və sədəqələrin verilməsi gizli şəkildə davam etdirilirdi. Müstəqillik qazandıqdan sonra xalqımızın quruculuq enerjisi və məişət səviyyəsindən tutmuş korporativ filantropiyaya qədər olan müxtəlif formalarda özünü büruzə verən xeyriyyəçiliyin böyük potensialını gözardı etmək olmaz. Keçmişdə olduğu kimi, bu potensialın əsas tətbiq sahəsi yenə də sosial və humanitar sahələrdədir. Sevindirici haldır ki, son illərdə ölkəmizdə sosial sahədə filantropiya sürətlə genişlənir və bu proses müstəqil və əhəmiyyətli bir amil kimi özünü göstərir. Ümumilikdə, ölkəmizdə xeyriyyəçilik üçün fəaliyyət sahəsi qeyri-məhduddur. Ən əsas prioritet isə filantropiyanın ənənəvi istiqaməti olan sosial imkanları məhdud olan əhali qruplarına – aztəminatlı vətəndaşlara, əlillərə, yetimlərə, qaçqınlara və məcburi köçkünlərə, eləcə də təbii fəlakətlərdən və texnogen qəzalarından zərər çəkmiş insanlara müxtəlif formalarda yardım etməkdir. Təbii ki, bu qeyd edilənlər, sosial problemlərin həllində dövlət və xeyriyyəçilik institutlarının bir-birindən təcrid edilmiş şəkildə fəaliyyət göstərməsi demək deyil. Əksinə, dövlət, filantropiyaya cəlb olunan vətəndaşlar və özəl sektorun qarşılıqlı əməkdaşlığı daha yüksək nəticələr verə bilər. Bu əməkdaşlıq isə yalnız bərabərhüquqlu birgə fəaliyyət formasında mümkün ola bilər. İnkişaf etmiş, böyük iqtisadi

potensiala, güclü vətəndaş cəmiyyətinə və yetkin xeyriyyəçilik institutlarına malik ölkələrdə də bu cür birgə fəaliyyət müşahidə olunur.

Beynəlxalq İslam Xeyriyyə Təşkilatına tabe olan Asiya Müsəlmanları Komitəsinin region respublikalarında nümayəndəlikləri yaradılmış və 1995-ci ildə Komitənin Azərbaycandakı nümayəndəliyi rəsmi olaraq qeydiyyatdan keçmişdir. Burada kimsəsiz uşaqlara, aztəminatlı ailələrə, qaçqınlara yardım göstərmək, infrastrukturları, inkişaf layihələrini dəstəkləmək, universitetlərin müəllim və tələbələrini elmi ezamiyyətlərə göndərmək, yerli təşkilatlarla birgə müxtəlif kofranslar təşkil etmək və sair əhəmiyyətli tədbirləri həyata keçirilirdi (Əl-Fəlah, 2007). Azərbaycanda hal-hazırda sosial yardım göstərən bir neçə dini qurum və təşkilat mövcuddur. Bu qurumlar İslam şəriətinin çoxillik tarixi dəyərlərinə əsaslanaraq fəaliyyət göstərir, belə ki, ehtiyacı olan şəxslərə maddi və mənəvi dəstək verir, cəmiyyətin həyat səviyyəsini yüksəltməyə yönəlmiş müxtəlif sosial layihələr həyata keçirirlər. Bəhs edilən dini qurumlardan biri Qafqaz Müsəlmanları İdarəsidir. Qafqaz Müsəlmanları İdarəsi, İslami dəyərlərə uyğun olaraq müxtəlif dini və sosial fəaliyyətlər həyata keçirir. Qurum, ehtiyacı olanlara yardım etmək, məcburi köçkünlərə dəstək olmaq, sədəqə və zəkat vəsaitlərini toplamaq kimi fəaliyyətlərdə iştirak edir. Həmçinin bu dini qurum müxtəlif humanitar layihələr təşkil etmək və xeyriyyə məqsədli tədbirlər keçirməklə məşğuldur.

Qədim dövlətçiliyə malik Azərbaycanda islam dininin yayılması və möhkəmlənməsi cari dövrdəki insanların mənəvi həyatına da zühur etmişdir. Uzun illərdir, Qafqaz Müsəlmanları İdarəsinin Səhiyyə Nazirliyi ilə birgə keçirdiyi qanvermə aksiyası artıq bir ənənəyə çevrilmişdir. Aksiya nəticəsində toplanan qan hemofiliya və talassemiya kimi bir çox xəstəliklərdən əziyyət çəkən insanların müalicəsində istifadə olunur (Kafkas müslümanları, 2024). Hər il Aşura günü insanların "dini ritual" adı altında özlərinə verdikləri zərərin kifayət qədər qarşısını almağa çalışan bu qanvermə aksiyası, cəmiyyətin sağlamlığına xidmət etməklə yanaşı, həm də dini və ictimai dəyərləri bir araya gətirən əlamətdar bir təşəbbüs olaraq diqqət çəkir. Bu tədbir, insanların bir-birinə yardım etməsi və cəmiyyətə töhfə verməsinin vacibliyini vurğulayan bir nümunədir. Qanvermə aksiyasının əsas məqsədi, ölkədəki qan ehtiyacını qarşılamaq, xəstə və yaralı insanlara kömək etməkdir. Xüsusilə, bu cür tədbirlər cəmiyyətdə könüllülüyü və yardımlaşma ruhunu təşviq edir. Qafqaz Müsəlmanları İdarəsi ilə Səhiyyə Nazirliyinin əməkdaşlığı nəticəsində, məscidlərdə və dini mərkəzlərdə təşkil olunan bu aksiyalar, müxtəlif dini icmaların da bu xeyirxah missiyaya qoşulmasına səbəb olmuşdur.

Aksiyalarda iştirakçılarının əksəriyyəti, mənəvi məqsəd güdən bu aksiyanın insanların bir-birinə qarşı olan məsuliyyətini vurğuladığını qeyd edirlər. Onlar qan verməninin həm dini,

həm də mənəvi borc olduğunu düşünürlər. Bununla yanaşı, aksiyada iştirak edən səhiyyə işçiləri, qan bağışlanmasının xəstələrin həyatını xilas etməkdə nə dərəcədə əhəmiyyətli olduğunu vurğulayırlar.Tədbirin təşkilatçıları qeyd edirlər ki, bu cür aksiyalar bir günlə məhdudlaşmamalı, mütəmadi olaraq keçirilməlidir. Bu cür tədbirlərin genişləndirilməsi və cəmiyyətə tanıdılmasını təmin etmək üçün daha çox təbliğat işlərinin aparılması planlaşdırılır.

Məscidlər və dini icmalar arasında bu təşəbbüsün daha da geniş yayılması, cəmiyyətin sosial problemlərinin həllinə də müsbət təsir göstərir. Qafqaz Müsəlmanları İdarəsi və Səhiyyə Nazirliyi tərəfindən keçirilən bu qanvermə aksiyası, insanlıq, din və dövlət arasında mövcud olan harmoniyanın gözəl bir nümunəsidir. Bu cür tədbirlər, xalqın birliyini və yardımlaşma ruhunu gücləndirərək, sağlam bir cəmiyyətin qurulmasına töhfə verir. Ölkəmizdə uzun illərdir fəaliyyət göstərən Heydər Əliyev Fondu dini təşkilat olmasa da, İslam dəyərlərinə əsaslanan humanitar və xeyriyyəçilik fəaliyyətləri ilə tanınır. Fond, aztəminatlı ailələrə, yoxsul və ahıl şəxslərə, xəstələrə və kimsəsizlərə maddi dəstək verir, təhsil və səhiyyə sahəsində sosial yardımlar təşkil edir. Xüsusilə Ramazan və Qurban bayramı kimi dini bayramlar zamanı fond tərəfindən müxtəlif ərzaq və geyim yardımları göstərilir. Azərbaycanda vəqf ənənələri əsasında fəaliyyət göstərən bəzi dini xeyriyyə təşkilatları mövcuddur. Bu vəqflər maddi yardımlar toplamaq, sədəqə və zəkat vəsaitlərini ehtiyacı olan insanlara çatdırmaqla məşğul olurlar. Vəqflər, həmçinin sosial rifahın artırılmasına yönəlmiş layihələr həyata keçirir və cəmiyyətin inkişafına dəstək olur. İslam Əməkdaşlıq Təşkilatı (OIC) üzv dövlətlər arasında İslam həmrəyliyi və əməkdaşlığını gücləndirmək məqsədi daşıyan bir qurumdur. Bu qurumun ölkəmizdə fəaliyyət göstərən nümayəndəliyi də müxtəlif sosial yardım layihələrinə dəstək verməklə cəmiyyətin rifah səviyyəsinin artırılmasına xidmət göstərir. İslam Əməkdaşlıq Təşkilatı tərəfindən toplanan müxtəlif yardım fondları, xüsusilə aztəminatlı ailələrə, kimsəsizlərə, yoxsul əhaliyə və qaçqınlara yardım məqsədilə istifadə olunur. Müasir dövrdə ölkəmizdə fəaliyyət göstərən bir çox məscid və dini icmalar da sosial yardımların göstərilməsində fəal iştirak edirlər. Bu dini icmalar, məscidlərin nəzdində təşkil edilən xeyriyyə aksiyaları və maddi dəstək proqramları ilə yoxsullara, xəstələrə və ehtiyacı olan insanlara yardım edir. Xüsusilə Ramazan ayı və Qurban bayramı kimi dini bayramlarda bu yardımlar geniş miqyas alır. Beləliklə, bu dini qurumlar İslam dəyərlərinə uyğun olaraq sosial yardımların təşkilində mühüm rol oynayır və Azərbaycanda cəmiyyətin rifahını artırmaq məqsədi ilə xeyriyyə fəaliyyətlərini davam etdirirlər.

**Nəticə**

İslam hüququna əsaslanan sosial yardım anlayışı qədim dövrlərə gedib çıxan və müasir təcrübələri formalaşdırmaqda davam edən zəngin tarixə malikdir. Əsrlər boyu İslam

təlimlərində yer alan filantropiya, mərhəmət, xeyriyyəçilik və sosial ədalət prinsipləri müsəlman icmaları daxilində müxtəlif sosial yardım formalarını ilhamlandırmışdır. Qədim dövrlərdə "vəqf" və ya "zəkat" kimi tanınan sədəqə anlayışı ehtiyacı olanlara dəstək olmaqda mühüm rol oynayırdı. Quran və hədis sərvət bölgüsü və varlıların imkansızlara kömək etmək öhdəliyi ilə bağlı aydın təlimatlar verir. Orta əsrlər dövründə İslam cəmiyyətləri müxtəlif xeyriyyə işlərini, o cümlədən xəstəxanaları, məktəbləri və şorbaxanaları maliyyələşdirən mürəkkəb vəqf sistemlərinin inkişafının şahidi oldular. Bu vəqflər çox vaxt varlı şəxslər tərəfindən cəmiyyət üçün daimi dəstək mənbəyi kimi yaradılırdı. İslam sosial yardım təcrübəsi dəyişən cəmiyyətlərin ehtiyaclarına uyğunlaşaraq inkişaf etməyə davam etdi. Azərbaycanda İslam mədəniyyətinin dərin kök saldığı dövrdən etibarən göstərilən sosial yardım tarixi ənənələrə malik olub, hazırki dövrdə də cəmiyyətin sosial ehtiyaclarının təmin olunmasında mühüm rol oynamaqdadır. İslam dini yardımlaşma dini olub, zəkat, sədəqə və digər sosial dəstək mexanizmləri ilə həm cəmiyyətin həyat səviyyəsini yüksəltməyi, həm də insanların mənəvi borcunu yerinə yetirməyi özündə vurğulayır. İslam şəriətinin sosial bərabərlik və ədalət prinsiplərinə əsaslanan yardım proqramları Azərbaycan cəmiyyətində tarixi və dini köklərə malikdir. Ölkəmizdə İslam hüququna əsaslanan sosial yardımlar, müxtəlif dini və xeyriyyə qurumlarının təşəbbüsləri ilə həyata keçirilir. Xüsusilə Qafqaz Müsəlmanları İdarəsi və digər dini qurumlar vasitəsilə həyata keçirilən yardımlar həm maddi, həm də mənəvi dəstəyi özündə ehtiva edir. Bu qurumlar xüsusilə dini bayramlar və mərasimlər zamanı geniş miqyaslı yardım tədbirləri təşkil edərək cəmiyyətin müxtəlif təbəqələrinə xitab edir. Nəticə etibarilə, islam şəriəti əsasında yaranan sosial yardımlar qədim dövrdən günümüzədək geniş inkişaf yolu keçmişdir. Qədim zamanlarda zəkat, vəqf kimi təməl yardımların göstərilməsi ilə başlayan bu anlayış müasir dövrdə daha kompleks və mütəşəkkil şəkildə davam etdirilir. Hal-hazırda sosial yardım anlayışı islamın sosial ədalət və bərabərlik prinsiplərinə əsaslanaraq sistematik şəkildə həyata keçirilir. Həm qədim, həm də müasir zamanda islam şəriəti əsasında qurulan sosial yardım anlayışı həyati əhəmiyyətli sosial məsuliyyət kimi ifadə edilir. İslam sosial maliyyə mexanizmləri İslam prinsiplərinə uyğun gəlir, iqtisadi inklüzivliyi və sərvətin ədalətli bölüşdürülməsini təşviq edir. Bundan əlavə, İslam etikasına əsaslanan müxtəlif humanitar təşkilatlar və QHT-lər yoxsulluq, münaqişə və ya təbii fəlakətlərdən təsirlənən icmalara yardım və inkişaf yardımı göstərməklə qlobal miqyasda fəaliyyət göstərirlər. Beləliklə, İslam qanunlarına əsaslanan sosial yardım əsrlər boyu davamlılıq və uyğunlaşma qabiliyyəti nümayiş etdirmişdir. Şəfqət, ədalət və həmrəyliyin əsas dəyərləri müsəlmanlara öz icmalarının sosial-iqtisadi ehtiyaclarının həllində rəhbərlik etməyə davam edir. Cəmiyyətlər təkamül etdikcə,

İslamın zamansız prinsiplərinə bağlı qalaraq, müasir maliyyə alətlərini və qlobal humanitar səyləri özündə birləşdirən İslam sosial yardımının təzahürü də artır.

**Ədəbiyyat**


Anderson J.N.D. (1960). The Significance of Islamic Law in the World Today. *The American Journal of Comparative Law, 9* (2), 187-198 https://doi.org/10.2307/837190

*Azərbaycan maarifinin yorulmaz çarçısı: Həsən bəy Zərdabi* (2012). (tərt.ed. A. Abdullayeva; ixt. red. və bur. məs. K.Tahirov; red. G.Səfərəliyeva). M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.

Esposito, J. L. (Ed.). (1999). *The oxford history of Islam*. Oxford University Press.

Əl-Fəlah, A. A. (2007). *Heydər Əliyev və milli-mənəvi dəyərlər.* Qismət.

Əliyeva, M. (2008, mart) Xeyriyyəçilik fəaliyyəti insanlara məhəbbətdən, bəşəri dəyərlərə hörmətdən doğmadır. Xalq qəzeti, https://anl.az/down

İnternational Crisis Group. (2003, April). *İslamic Social Welfare Activism in the Occupied Palestinian Territories: A Legitimate Target Middle East Report.* 5-7 https://www.files.ethz.ch/isn/27405/013

Kuran T. (2001). The Provision of Public Goods under Islamic Law: Origins, Impact and Limitations of the Waqf System. *Law & Society Rewiew, 35* (4), 841-898. http://doi.org/10.2307/3185418

Qardawi, Y, Al. ( 2000). *Fiqh Al Zakah.*(Vol 1). (Trans.M. Kahf). Scientific Publishing Centre. King Abdulaziz University.

Machado, A. C., Bilo, C., & Helmy, I. (2018). *The role of zakat in the provision of social protection: A comparison between Jordan, Palestine and Sudan* (No. 168). Working Paper.

Nəbibəyli, Z. (2013). Əxlaqa aparan yol. Adiloğlu Nəşriyyatı.

Zərdabi, H. bəy. (1960). *Seçilmiş əsərləri.* Azərnəşr.

Fitre ve zekat, https://islam.az/1689/fitre-zekati-nece-verilir/amp/

Zekat kive vacib, https://islamevi.az/zekat-zekat-kime-vacibdir

Milli Azerbaycan Muzeyi, http://azhistorymuseum.gov.az/az/about/2

Kafkas müslümanları, https://qafqazislam.com/index.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:07.11.2024*
*Kabul tarihi |Accepted:10.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Kənan Novruzov**

***https://orcid.org/0009-0003-3220-7276***
*PhD student, Department of New Media and Communication Theories, Faculty of Journalism, Baku State University, Azerbaijan, n.kenan99@mail.ru*

***Atıf Künyesi | Citation Info***

Əsgərzadə, M. (2024). Onlayn Mühitdə Publisistika. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 29-34.

# Onlayn Mühitdə Publisistika

***Xülasə***

*Rəqəmsallaşma bir çox sahə kimi jurnalistikaya da təsir göstərir. Media, bəlkə də, İnformasiya Kommunikasiya Texnologiyalarının (İKT) ən çox təsir etdiyi sahələrdəndir. İKT-nin təqdim etdiyi imkanlar nəticəsində jurnalistikanın inkişafında yeni mərhələ başlanıb. Müxtəlif onlayn platformalar, o cümlədən sosial şəbəkələr jurnalistikaya bir çox cəhətdən təsir edir. Təsadüfi deyil ki, bəzi nəzəriyyəçilərin fikrincə, medianın mahiyyəti transformasiyaya uğrayır. Bu, özünü həm də janr və format dəyişikliklərində göstərir. Yeni medianın, o cümlədən onlayn medianın inkişafı jurnalistlər üçün yeni, tamam fərqli imkanlar təqdim edir. Elmi məqalədə məhz İKT-nin publisistikaya təsirini araşdırmağa çalışmışıq. Xüsusilə qeyd etmək lazımdır ki, bu gün internetdə publisistika aktuallaşıb. Tədqiqatda həm də yeni media mühitində publisistikanın aktuallaşması məsələsinə toxunmuşuq və bunun səbəblərini araşdırmağa çalışmışıq. Yeni media bir fenomen kimi publisistikanın sərhədlərini dəyişib. Məhz təqdim olunan imkanlar nəticəsində publisistikaya indi tamamilə fərqli tələblər verilir. Bu, əlbəttə, onlayn medianın özünün səciyyəvi xüsusiyyətləri ilə bağlıdır. Elmi məqalədə həm də bu məsələlərə toxunmağa çalışmışıq. Bu gün jurnalistikada və publisistikada müşahidə olunan yeni meyillərin bir çoxu bilavasitə İKT-nin imkanları ilə bağlıdır. Məhz*

BY NC
Creative Commons Licence

*intrnet medianın inkişafı "IV hakimiyyət"lə balı təsəvvürləri də dəyişir, jurnalistika ilə bağlı cəmiyyətdə yeni fikirlər oyadır.*

***Açar sözlər:*** *Jurnalistika, yeni media, internet, ictimai rəy, manipulyasiya*

## Journalism in the Online Environment

***Abstract***

*Digitalisation affects journalism as it does many other fields. Perhaps one of the fields most affected by Information Communication Technologies (ICT) is the media. As a result of the opportunities offered by information and communication technologies, journalism has entered a new stage in its development. Various online platforms, including social networks, affect journalism in many ways. It is no coincidence that the essence of the media, according to some theorists, is being transformed. This is reflected in changes in genre and format. The development of new media, including online media, offers journalists new, completely different opportunities. In the scientific article, we tried to explore the impact of ICT on journalism. It is worth noting that journalism is gaining importance over the internet, especially today. In the study, the importance of journalism in the new media environment was also mentioned and the reasons for this were tried to be investigated. The new media phenomenon has changed the boundaries of journalism. Precisely as a result of the opportunities that have emerged, completely different demands are being placed on journalism. This is of course due to the unique characteristics of online media. Many of the new trends observed in journalism and public relations today are directly related to the possibilities of information and communication technologies. It is precisely with the development of Internet media that the perception of the 'fourth estate' is changing and new ideas about journalism are awakening in society.*

***Keywords:*** *Journalism, new media, internet, public opinion, manipulation*

### Giriş

Publisistikanın tarixi kifayət qədər qədimdir. Hələ qədim Romada bizim eranın 59-cu ilinə aid "Akta senatus" və "Akta diurna populi Romani" jurnalistikanın ilk nümunələri hesab olunur. " "Akta senatus"da əsasən senatdakı çıxışlar barədə məlumatlar verilirdi. Bu lövhə forumun binasında asılırdı və elitar "qəzet" sayılırdı. "Akta diurna populi Romani" isə əhalinin çox toplaşdığı bazar meydanlarında görkəmli yerlərdə asılırdı" (Rüstəmov, 2021. s 9). Bir çox mətbuat tarixçisi və nəzəriyyəçiyə görə, dünyada mətbuatın yaranması məhz yuxarıda qeyd etdiyimiz iki "nəşr"lə hesablanır. Həmin vaxtdan sonra publisistika daim inkişaf etmiş, müxtəlif mərhələlərdən keçmişdir.

Ümumiyyətlə, publisistika dünyada ən dinamik sahələrdən biri hesab olunur. Bu, təsadüfi deyil. Çünki jurnalistika ictimai rəy yaratmaqla yanaşı, həm də zaman – zaman ictimai təsirə məruz qalır. Bu, o deməkdir ki, cəmiyyət həyatında baş verən hadisələr bu və ya digər şəkildə publisistikaya da təsir edir. Bütövlükdə publisistika cəmiyyət həyatı ilə sıx bağlıdır. "Sinkretizm, yəni eyni

zamanda həm elmi, həm aydın səmərəli vasitə, həm də bədii, emosional vasitə kimi istifadə etmək publisistikanın mühüm cəhətlərindən biridir. Bu, habelə gerçəkliyin ictimai rəydə inikasının xarakteri ilə bağlıdır (Vəliyev, 2014, s. 14). Yarandığı ilk günlərdən etibarən publisistikanın vəzifəsi ictimai rəyi yaratmaq olub. Bu, dünən belə idi, bu gün belədir və yəqin ki, sabah da belə olacaq. Ancaq mahiyyət və məramı eyni qalsa da, vasitələr dəyişir. Bu mənada publisistlərin cəmiyyəti öz arxalarınca aparmaları ilə yanaşı, həm də cəmiyyətin müasir inkişaf meyilləri ilə uyğunlaşırlar. Publisistika dinamik, daim dəyişən sahədir. Təsadüfi deyil ki, az qala, hər il informasiyanın çatdırılması texnologiyaları fərqlənir. Qeyd etmək yerinə düşər ki, müxtəlif tarixi dövrlərdə informasiyanın çatdırılması, habelə ictimai rəyin formalaşdırılması texnologiyaları tamamilə fərqli olub.

Yaşadığımız hazırkı informasiya cəmiyyəti isə bu istiqamətdə tamamilə yeni imkanlar təqdim edir. "İnformasiya cəmiyyətə keçid zamanı insan həyatının bütün sahələrində informasiya ehtiyatlarının toplanması ilə onlardan istifadə olunması arasındakı məhdudiyyətlər aradan qaldırılır ki, bu da ictimai tərəqqinin sürətlənməsinə səbəb olur" (Babayev, 2021, s. 3). Beləliklə, informasiya cəmiyyəti publisistikanın inkişafında tamamilə yeni mərhələdir.

## 1. İnternet platformaları və publisistika arasında qarşılıqlı əlaqə

İnformasiya cəmiyyətinin özünəxas xüsusiyyətləri var. Bunlardan başlıcası informasiyanın cəmiyyət həyatında aparıcı yer tutmasıdır. Bununla bağlıdır ki, informasiyanın cəmiyyətə çatdırılmasında yeni imkanlardan istifadə edilir. *"İnformasiya cəmiyyətində mediatexnologiya sürətlə dəyişdiyi üçün hansı kütləvi informasiya vasitəsinin digərindən üstün olduğu barədə dəqiq hökm vermək mümkün olmasa da, KİV-in bütün platformalarında siyasi proseslərə təsir edən, ictimai rəyi formalaşdıran mühüm vasitə olması əsas yer tutur"* (Babayev, 2021, s. 3). Bununla belə, etiraf etməliyik ki, bu gün informasiyanın çatdırılmasında onlayn platformalar öz "rəqiblərini" qabaqlayıblar. Bu, birbaşa olaraq yeni medianın səciyyəvi xüsusiyyətləri, o cümlədən interaktivliyi, multimedialılığı, sürətliliyi ilə bağlıdır. Habelə, nəzərə almaq lazımdır ki, yeni media üçün zaman və məkan anlayışları yoxdur. Bu da informsiyanın daha geniş auditoriyaya çatmasına şərait yaradır. Elə buna görə də artıq publisistikada yeni mərhələ başlanıb. Bu, birbaşa olaraq internet jurnalistikası ilə bağlı olan mərhələdir. İnternet saytlarının və sosial şəbəkə platformalarının sayının artması publisistikanın təqdimatına təsir edir. Bu, yeni medianın səciyyəvi xüsusiyyətləri ilə bağlıdır. Belə ki, onlayn platformalar özünün bir çox xüsusiyyətinə görə ənənəvi mediadan kəskin fərqlənir. İnternet mühitində publisistikanın aktuallaşması yeni şəraitin çevikliyi, interaktivliyi,

multimedialılığı ilə yanaşı, həm də vətəndaş jurnalistikasının yeni şərtlər daxilində daha rahat təzahürü ilə bağlıdır. Belə ki, bir çox nəzəriyyəçiyə görə "vətəndaş jurnalistikası" termini elə yeni medianın imkanları ilə bağlıdır. Bir məqama diqqət çəkək ki, son illər ölkədə publisistlərin sayı artıb. Çünki yeni internet məkana çıxış bəzən ənənəvi mediada çıxış etməkdən daha rahatdır. Bunun üçün istifadəçinin sadəcə sosial media platformalarından istifadə etməsi kifayətdr.

Etiraf etmək lazımdır ki, internet media vasitəsilə özlərini tanıdan publisistlərin bəziləri, həqiqətən, özünü təsdiqləməyi bacarıb. Məsələn, müasir Azərbaycan ədəbiyayt və jurnalistikasında tanınan Ulucay Akif, Türkan Turan, Şahanə Müşfiq kimi qələb sahibləri məhz sosial şəbəkələrdəki paylaşımları, o cümlədən esse, şeiri ilə tanınıb, ictimai rəy tərəfindən qəbul ediliblər. Sonradan onlar kitab çıxarmış, tanınan, orijinal üslublu müəlliflərə çevrildilər. Müəllif vaxtı ilə sosial şəbəkə hesablarında yazdığı və "525-ci qəzet"də dərc etdirdiyi esselərinin bir çoxunu sonrada "O" adlı kitabında toplamışdı. "Türkan 2028-ci ilin aprel ayından "525-ci qəzet"ə mütəmadi esselər yazır. Hər essesində də insanın hiss və duyğuları, ağrı və əzabları, müxtəlif çalarları üzə çıxır və o yazılara elə abzaslar, elə cümlələr olur ki, içəridən aşıb- daşan hədsiz şövqü, böyük enerjini hiss edirsən" (Məcid, 2019). Qeyd etdiyimiz kimi, yeni media publisistikada yeni tranformasiyalara səbəb olub. Bunun ən bariz nümunəsi kimi Azərbaycan Mətbuat Şurasının sədri Rəşad Məcidin "status esseler" adlandırdığı və artıq müstəqil janr kimi səciyyələndirə biləyimiz formatı göstərə bilərik. Belə ki, Rəşad Məcid uzun illərdir ki, özünün fikirlərini qısa formatda "feysbuk" sosial şəbəkəsində yazır. Həmin fikirlər format baxımından esseni xatırlatsa da, esse deyil. Çünki esse həcm etibari ilə daha geniş olur. Yəni R.Məcidin "feysbuk"da yazdıları ənənəvi media üçün uyğun deyil. Ancaq sosial şəbəkələr yeni formatlar üçün belə demək mümkünsə, açıqdır. Bu da publisistikanın yeni media mühitində aktuallaşmasının əsas səbəblərindəndir.

Yeri gəlmişkən, qeyd edək ki, Rəşad Məcid sözügedən statuslarının bir hissəsini sonradan "Qələmsiz yazılanlar" kitabında cəmləşdirdi. Akademik İsa Həbibbəyli həmin statusları ədəbiyyatda yeni janr kimi qiymətləndirir. *"Son on ildə Azərbaycan ədəbiyyatə və mətbuatı tarixində Rəşad Məcid tam yeni janrlara imza atmışdır. "Status esselər" və "sms esselər" adlandırdığı sosial şəbəkə yazışmalarından ilk dəfə Rəşad Məcid müstəqil janr kimi söz açmışdır"* ( Həbibbəyli, 2019).

Məsələnin üstündə çox qalmadan sadəcə onu deyək ki, müəllifin statuslarından bəziləri bir cümlə, bəziləri bir və ya iki abzas həcmindədir. Bu, o deməkdir ki, müəllif yeni medianın imkanlarından istifadə edərək dərin fikirləri az sayda cümlə ilə, konkret şəkildə ifadə etməyə üstünlük verir. Bu baxımdan müəllifin "İndi evdə, yerinin içində uzanıb bütün işləri idarə etmək

mümkündür. Ona görə də həyat maraqsızdır", "Saf olanları hamı aldadır", yaxud da "Yad- təzə və maraqlı görünür" sitatlarını göstərmək olar.

Yeni medianın imkanlarından istifadə edən yeganə tanınmış qələm sahibi Rəşad Məcid deyil. BDU-nun Jurnalistika fakültəsinin mərhum müəllimi Ayaz Musayev uzun müddət öz fikirlərini bir neçə cümlə ilə sosial şəbəkələrdə ictimailəşdirmiş və sonra "Fikirlərə bürünmüş sətirlər" kitabını nəşr etdirmişdi. Həmin kitaba öz söz yazmış professor Cahangir Məmmədlinin fikrincə, İKT birbaşa olaraq publisistikaya təsir edib: *"Zaman keçdi və ömrümüzə internet dünyası FB fornatı daxi oldu. Bu format babaların min illərlə yaratdığı folklorun yaddaşlara yeni tərzdə yazılan qısa, lakonik fikirlər meydanına da çevrildi"* (Məmmədli, 2021).

Belə nümunələr çox çəkmək olar. Bir məqam da budur ki, internet media – istər saytlar, istər bloqlar, istərsə də sosial şəbəkələr hadisəyə operativ münasibətə imkan verir. Yəni qəzetin dərcini, yaxud verilişin efirə verilməyini gözləmək lazım olmur. Bu, sürət əsrində vacib məqamdır. Odur ki, müəlliflər bu imkandan istifadə edirlər. Bu da öz növbəsində publisistikanı internet məkanında aktuallaşdıran daha bir faktordur.

*"Bütün dünyada ictimai – siyasi proseslərin inkişaf istiqamətlərinin müəyyənləşməsində kütləvi informasiya vasitələrinin rolu getdikcə artmaqdadır. KİV elə bir sosial vasitədir ki, bu və ya digər problemlərə diqqət yetirmək və bunlara həll etmək üçün təsir göstərir"*( Rüstəmov, 2021, s. 139).

Bəzilərin görə, bu gün sosial şəbəkə platformaları da bir KİV növünə çevrilib. Hər halda biz KİV-in digər qollarına aid etdiyimiz xüsusiyyətlərin bir çoxunu sosial şəbəkələrə də şamil edə bilərik. "Sosial şəbəkələrin yeni KİV növü kimi qəbul edilməsinin mümkünlüyü ilə bağlı suallar daha çox elm və jurnalistika aləmində qaldırılır. Əgər bu məsələ ilə ilk zamanlar əsasən jurnalistika nəzəriyyəsi və təcrübəsi sahəsinin tədqiqatçıları məşğul olurdularsa, hazırda sosial şəbəkələrin intrntdəki statusu haqda mübahisələr çox geniş şəkildə aparılır. Bu problemə müxtəlif baxışlar mövcuddur (Babayev, 2021, s. 98). Bütün hallarda sosial şəbəkələr artıq bir platformadır. Və bu, ictimai rəydə olan və ya olmaq istəyən insanlara yardımçı olur. Təsadüfi deyil ki, sosial şəbəkə istifadəçilərinin bir çoxu gündəmdən asılı olaraq fikirlərini ifadə edir, mövqe bildirirlər. Beləliklə, publisistikanın internet məkanına nəinki ayaq açması, həm də kütləviləşməsi üçün zəmin yaranır.

**Nəticə**

İnternet artıq gündəlik həyatımızın tərkib hissəsinə çevrilib. Bu gün bir çox işimizi məhz internet vasitəsilə həyata keçiririk. Nəzəriyyəçilər internetin funksiyalarından danışarkən onun

kommunikativ və sosioloji funksiyalarını xüsusilə fərqləndirirlər. Hər iki funksiya jurnalistikanın müasir vəziyyətinə təsir edir. Əslində publisistikanın daim dəyişən, dinamik sahə olması da birbaşa İKT-nin inkişafı ilə bağlıdır. Bəzi nəzəriyyəçilər düşünürlər ki, yeni medianın artan imkanları nəticəsində ənənəvi KİV sistemi artıq tarixə qovuşur. Hərçənd, bizcə, indidən bu barədə bədbin proqnoz vermək tezdir.

*"Bu gün artıq internetdən istifadə edə bilməyən jurnalistə rast gəlmək çox çətindir. Belə ki, öz işində jurnalist müxtəlif informasiya mənbələrindən istifadə etməli olur. Günümüzdə isə belə mənbələrdən biri məhz elə internt dünya komputer şəbəkəsidir"* (Babayev, 2018, s. 198). Əslində məsələ təkcə bununla bitmir. İKT-nin imkanları həm də nəinki informasiyanın daha sürətli axtarışına, tapılmasına, dəqiqləşdirilməsinə və ötürülməsinə, həm də təqdim olunan materialın "qablaşdırılmasına"- montaja, dublaja şərait yaradır. Bunlar jurnalistikanın gələcəyi ilə bağlı fərqli proqnozlar meydana çıxarır. Bu gün dünyada artıq informasiya yox, dezinformasiya müharibəsi gedir. Bu, İKT-nin yeni imkanları ilə bağlıdır. Süni intellekt texnologiyaları artıq nəinki ayrı- ayrı fərdləri, bütövlükdə cəmiyyəti çaşdır bilər. Belə bir vəziyyətdə sual yaranır: publisistikanın vəzifəsi nədir- manipulyasiya, yoxsa manipulyasiyadan müdafiə? Əslində bu, müasir tədqiqatçıları düşündürən əsas suallardandır. Məhz bu sual kontekstindən gələcəkdə jurnalistikanın funksiyaları ilə bağlı yeni yanaşmaların da ortaya qoyulması mümkündür. İnternet istifadəçilərinin sayının günü-gündən artması, yeni texnologiyaların publisistikaya sürətli təsiri belə qənaətə gəlməyə əas verir ki, hazırkı tendensiya gələcəkdə də davam edəcək. Bu isə publisistikanın janr və formatlarının növbəti transformasiyasını istisna etmir.

## Ədəbiyyat

Babayev, Z. (2018). *Azərbaycan media mühitində onlayn jurnalistika*. Bakı Universiteti.

Babayev, Z. (2021). *İnternet jurnalistika.* Bakı Universiteti.

Həbibbəyli, İ. (2019). Rəşad Məcidin statusları və sms dünyası. https://525.az/news/126704-resad-

Məcid, R. Üsyankar tələbənin düşündürən esseləri, 2019. https://525.az/news/122558-

Məmmədli, C. (2021). *Fikirlərə bürünmüş sətirlər*. Füyuzat nəşriyyatı.

Rüstəmov, A. (2021). J*urnalistika Kütləvi İnformasiya Vasitələri sistemi kimi*. SkyE nəşriyyatı.

Vəliyev, H. (2014). *Xarici ölkələrin jurnalistikası tarixi.* Zərdabi LTD nəşriyyatı.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

***Mass Communication Special Issue***
***Derleme Makalesi | Review article***
***Geliş tarihi |Received:07.11.2024***
***Kabul tarihi |Accepted:10.12.2024***
***Yayın tarihi |Published:15.12.2024***

**Pərvanə İbrahimova**

***https://orcid.org/0000-0002-3611-0362***
*Associate Professor,Baku State University Department of International Journalism and Information Policy Doctor of Philosophy in Political Sciences, Azerbaijan, pervanei@mail.ru*

***Atıf Künyesi | Citation Info***

İbrahimova, P. (2024). COP29 və Türk Dünyası: Regional Birlik və Əməkdaşlıq Prosesinin Mediada Əksi. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 35-46.

# COP29 və Türk Dünyası: Regional Birlik və Əməkdaşlıq Prosesinin Mediada Əksi

***Xülasə***

*Azərbaycanın COP29-a ev sahibliyi ölkənin qlobal iqlim siyasətindəki mövqeyini gücləndirməklə yanaşı, dayanıqlı inkişaf sahəsində strateji hədəflərini ön plana çıxarmışdır. Bu tədbir Azərbaycanın beynəlxalq diplomatiyada rolunu artıraraq bərpa olunan enerji sahəsindəki təşəbbüsləri və qlobal iqlim dəyişikliyi ilə mübarizədəki səylərini nümayiş etdirmişdir. Bu konteksdə Şuşada 2024-cü ilin iyul ayında keçirilmiş Türk Dövlətləri Təşkilatının Zirvə görüşü Türk dünyasında həmrəyliyi möhkəmləndirmiş və iqlim dəyişikliyi, yaşıl enerji, dayanıqlı inkişaf sahələrində əməkdaşlığın artırılması üçün yeni imkanlar yaratmışdır. Bişkekdəki 11-ci Zirvə görüşündə bu xüsusda müzakirələr davam etdirilmiş, konkret fəaliyyət planları qəbul edilmişdir. COP29 zamanı Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşündə yaşıl enerji üzrə strateji əməkdaşlığa dair Saziş imzalanaraq regional enerji siyasətində yeni mərhələ başlanmışdır. Türk dünyasının iqlim siyasətindəki mövqeyi, bu əməkdaşlığın regional inkişaf və geosiyasi dinamikalara təsirləri media materialları əsasında tədqiq edilmişdir. Azərbaycanın bu*

Creative Commons Licence BY NC

*təşəbbüslərdəki liderliyi, həm regional əməkdaşlığa, həm də qlobal iqlim siyasətinə mühüm töhfə vermişdir.*

***Açar sözlər:*** *COP29, Türk dünyası, Azərbaycan*

## COP29 and the Turkic World: Media Coverage of Regional Unity and Co-operation Process

***Abstract***

*Azerbaijan's hosting of the COP29 not only strengthened the country's position in the global climate policy, but also highlighted its strategic goals in the field of sustainable development. The event strengthened Azerbaijan's role in international diplomacy, highlighting its initiatives in the field of renewable energy and efforts to combat global climate change. In this context, the Summit of the Organisation of Turkic States held in Shusha in July 2024 strengthened solidarity in the Turkic world and created new opportunities for enhancing cooperation in the fields of climate change, green energy and sustainable development. Discussions on this issue continued at the 11th Bishkek Summit and concrete action plans were adopted. A new stage in regional energy policy was initiated with the signing of the Green Energy Strategic Cooperation Agreement at the trilateral meeting attended by the presidents of Azerbaijan, Kazakhstan and Uzbekistan at COP29. The place of the Turkic world in climate policy, the impact of this cooperation on regional development and geopolitical dynamics were analysed through media materials. Azerbaijan's leadership in these initiatives has made a significant contribution to both regional cooperation and global climate policy.*

***Keywords:*** *COP29, Turkic world, Azerbaijan*

### Giriş

İqlim dəyişikliyi aktual və prioritet mövzulardan biri kimi dövlətlərin daxili siyasətində və beynəlxalq platformalarda önəmli müzakirə predmeti olmağa davam etməkdədir. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfranslarında davamlı inkişaf məqsədlərinin həyata keçirilməsi və ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində müzakirələr aparılmış, hər il keçirilən bu sammitlər qlobal iqlim siyasətinin istiqamətini müəyyənləşdirməklə yanaşı, dövlətlərarası əməkdaşlıq mexanizmlərinin qurulmasında mühüm rol oynamışdır.

COP29 Azərbaycanın diplomatik mövqeyini gücləndirmiş, dayanıqlı inkişaf hədəflərinə sadiqliyini nümayiş etdirmiş, regional əməkdaşlıq imkanlarını genişləndirmiş, iqlim dəyişikliyinə qarşı birgə mübarizədə beynəlxalq ictimaiyyətin diqqətini Azərbaycana və onun təşəbbüslərinə yönəltmişdir. COP29, xüsusilə, Türk Dövlətləri Təşkilatına üzv ölkələrin əməkdaşlığı baxımından birgə fəaliyyətin güclənməsi və yeni perspektivlərin ortaya çıxması üçün mühüm platforma

olmuşdur. Şuşa Zirvə görüşündə başlanan təşəbbüslərin COP29 çərçivəsində reallaşması Türk dövlətləri arasında yaşıl enerji sahəsində inteqrasiyanın təməlini qoymuşdur. Bu çərçivədə imzalanan müqavilələr bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi və ekoloji təhlükəsizliyin təmin edilməsi istiqamətində müştərək səylərin əhəmiyyətini bir daha vurğulamışdır. COP29-da qəbul edilən qərarlar və imzalanan sazişlər gələcəkdə həm regional, həm də qlobal səviyyədə iqlim dəyişikliyi ilə mübarizədə yeni strategiyaların inkişaf etdirilməsinə zəmin hazırlamışdır.

## 1. COP29: Azərbaycanın qlobal iqlim siyasətində rolu və davamlı inkişaf hədəfləri

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası iqlim sisteminə təhlükəli müdaxilənin qarşısını almaq məqsədilə 1992-ci ilin iyununda Rio-de-Janeyro şəhərində keçirilmiş Yer Sammitində imzalanmış sazişdir. COP-a sədrlik rotasiya əsasında BMT-nin 5 regionunun - Afrika, Asiya, Latın Amerikası, Karib Hövzəsi və Avropa (Mərkəzi, Şərqi, Qərbi və digər) ölkələrinə keçir. Həmçinin bu regionlardakı qrup ölkələri arasında da sədrliklə bağlı növbələşmə mövcuddur. COP29-un Bakıda keçirilməsi ölkənin beynəlxalq iqlim diplomatiyasındakı nüfuzunu və təşkilatçılıq potensialını təsdiq etmişdir. Azərbaycanın Şərqi Avropa Qrupu ölkələrinin yekdil dəstəyi ilə bu tədbirə ev sahibliyi etməsi bütövlükdə region üçün mühüm əhəmiyyət daşımışdır. COP29-un ev sahibliyi üçün Ermənistan və Bolqarıstanın namizədliklərini geri çəkməsi Azərbaycanın diplomatik səylərinin nəticəsi kimi qiymətləndirilmişdir (Azərbaycan, 2024). Bu da dünya dövlətləri içərisində Azərbaycan Respublikasının artan nüfuzunun göstəricisidir.

COP29-un əsas tədbirləri Bakı Olimpiya Stadionunda keçirilmiş və konfransın miqyası ilə paralel olaraq, Azərbaycan dayanıqlı infrastruktur quruculuğu və logistika sahəsindəki təcrübəsini nümayiş etdirmişdir. Bu tədbir zamanı Azərbaycanın karbon emissiyalarının azaldılması, bərpa olunan enerji mənbələrinə keçid və iqlim maliyyələşdirilməsi ilə bağlı konkret təşəbbüsləri, ölkənin qlobal iqlim hədəflərinə sadiqliyini təsdiq etmişdir (COP29.az, 2024). COP29-un sədrlik planı iki əsas istiqamət üzrə qurulmuşdur: iqlim fəaliyyətlərinin sürətləndirilməsi və qlobal ambisiyaların artırılması. Azərbaycanın COP29-a ev sahibliyi etməsi, ölkənin beynəlxalq siyasətdə artan fəallığını və liderlik potensialını nümayiş etdirmişdir. Konfrans Azərbaycanın iqtisadi, siyasi və turizm sahələrində yeni imkanlar yaradaraq, regional liderlik iddiasını gücləndirmiş, ölkənin dayanıqlı inkişaf məqsədlərinə və bərpa olunan enerji sahəsindəki təşəbbüslərinə dəstək verən qlobal platformaya çevrilmişdir (Batman, 2024). Cənubi Qafqaz, Mərkəzi Asiya və MDB məkanında ilk dəfə olaraq 2024-cü il 11-23 noyabr tarixlərində Bakıda keçirilən COP29 dünyanın 196 ölkəsindən 70 mindən çox nümayəndəni qəbul etmişdir. Tədbirdə 80-dən çox prezident, vitse-

prezident və baş nazir iştirak etmişdir ki, bu da Azərbaycanın yüksək səviyyədə təşkilatçılıq qabiliyyətini bir daha sübut etmişdir (President.az, 2024a). Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev COP29 Liderlər Sammitinin açılış mərasimindəki çıxışı zamanı ölkənin iqlim dəyişiklikləri ilə mübarizə istiqamətində fəal iştirakını, əsas hədəflərini çatdırmış, Azərbaycanın ev sahibliyini beynəlxalq ictimaiyyətin yüksək etimadının göstəricisi kimi xarakterizə etmişdir.

Bir sıra beynəlxalq və yerli media subyektlərinin məlumatlarına görə, inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyinə uyğunlaşmasına dəstək vermək məqsədilə maliyyələşmə mexanizmləri COP29-un əsas mövzusu kimi müzakirə edilmiş, geniş diskussiyalar aparılmış, inkişaf etməkdə olan ölkələr bu məqsəd üçün 1,1-1,3 trilyon dollar arasında bir fondun yaradılmasını təklif etmişdir. COP29 zirvəsi iqlim dəyişikliyi ilə mübarizədə qlobal maliyyə mexanizmlərinin təkmilləşdirilməsi və genişləndirilməsi istiqamətində mühüm addımların atılmasını təmin etmişdir. Belə ki, konfransda müzakirə olunan əsas məsələlərdən biri İtkilər və Zərərlərə Cavab Fondunun yaradılması olmuşdur. Bu fond xüsusilə aşağı gəlirli ölkələrin iqlim dəyişikliyinin qarşısıalınmaz təsirlərinə qarşı mübarizəsini dəstəkləmək üçün nəzərdə tutulmuşdur. Bakıda keçirilən müzakirələr zamanı Yeni Kollektiv Kəmiyyət Hədəfi ilə uyğunlaşma imkanları da araşdırılmışdır. Əsas məqsəd iqlim fəlakətlərindən sonra bərpa işlərinin maliyyələşdirilməsi üçün effektiv və ədalətli mexanizmlər təmin etmək olmuşdur. Bu da bir çox transmilli media platformalarının səhifələrində yüksək dəyərləndirilmişdir. COP29 Paris Razılaşmasının 6-cı maddəsi çərçivəsində karbon krediti bazarlarının tənzimlənməsi məsələlərini də əhatə etmişdir. Bakıda keçirilən müzakirələrdə könüllü karbon bazarlarının təsirliliyi, şəffaflıq və hesabatlılıq standartlarının necə təmin ediləcəyi diqqət mərkəzində olmuşdur. Media resurslarının yazdıqlarına görə, əsas məqsəd karbon kreditlərinin həm iqtisadi səmərəlilik, həm də ətraf mühitin qorunması prinsiplərinə uyğun şəkildə istifadəsini təmin etmək olmuşdur.

COP29 həm tərəflər arasında konsensusa nail olunması, həm də beynəlxalq ictimaiyyətin iqlim dəyişikliyi ilə mübarizə sahəsində daha iddialı addımlar atma ehtiyacını ehtiva etmişdir. İki həftə davam edən danışıqlar 33 saat sonra yekunlaşmış, iqlim dəyişikliyinə görə, tarixi məsuliyyət daşıyan zəngin ölkələr, inkişaf etməkdə olan və az inkişaf etmiş ölkələrin ehtiyaclarını qarşılamaq məqsədilə yaradılan keçid fondunu illik 300 milyard dollara çatdırmaq qərarına gəlmişdir. Statistik araşdırmalar qeyd edilən rəqəmin indiyədək əldə olunan razılaşmalarda öz əksini tapan ən böyük data olduğunu göstərmişdir. Ümumilikdə, konfrans Azərbaycanın beynəlxalq mövqeyini gücləndirən və qlobal iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirakını nümayiş etdirən mühüm platforma kimi ölkənin diplomatiya, iqtisadiyyat və dayanıqlı inkişaf hədəfləri istiqamətində atdığı

strateji addımların əhəmiyyətini nümayiş etdirmişdir (Batman, 2024). Azərbaycanın COP29-a ev sahibliyi etməsi indiyə qədər təşkil edilmiş ən böyük beynəlxalq tədbir kimi xarakterizə olunaraq yüksək dəyərləndirilmişdir. 70 mindən çox iştirakçının qatıldığı tədbir mehmanxana, nəqliyyat və xidmət sektoru daxil olmaqla bir çox sahəyə təsir etmiş, Azərbaycanın beynəlxalq turizm bazarında tanınmasını şərtləndirmişdir. Birinci Avropa Oyunları və bu qəbildən olan tədbirlərlə müqayisədə COP29 turizm potensialını genişləndirmək baxımından unikal imkan yaratmışdır (Batman, 2024). Azərbaycanın iqtisadi müxtəlifliyini artırmaq üçün strateji vitrin olan konfrans, eyni zamanda, bərpa olunan enerji sahəsinə investorları cəlb etmək üçün faydalı olmuşdur. Xüsusilə "Yaşıl İqtisadiyyat" layihələrinə yönəlmiş investisiyalar, ölkənin iqtisadi gəlirlərini şaxələndirmək və dayanıqlı inkişaf hədəflərinə çatmaq istiqamətində mühüm addım olmuşdur. Ümumilikdə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası Azərbaycanın diplomatik sahədə nüfuzunu artırmış, ölkənin qlobal əməkdaşlıq və sülh təşəbbüslərində fəal rol oynadığını sübut etmişdir. Post-müharibə dövründə belə bir tədbirə ev sahibliyi etmək Azərbaycanın beynəlxalq ictimaiyyət tərəfindən həm etibarlı tərəfdaş, həm də sülhsevər aktor kimi qəbul edilməsinə şərait yaratmışdır. Bundan əlavə, COP29 vasitəsilə Azərbaycanın beynəlxalq ictimaiyyətə təqdim etdiyi dayanıqlı inkişaf vizyonu ölkənin qlobal səviyyədə ümumi mövqeyini gücləndirmişdir.

## 2. Türk dövlətlərinin COP29-da iştirakı: milli mənafe və regional əməkdaşlığın təhlili

COP29 tədbiri türk dövlətləri arasında əməkdaşlığın daha da genişlənməsinə töhfə vermişdir. Belə ki, 2024-cü ilin iyulun 6-da Türk Dövlətləri Təşkilatının Şuşada keçirilmiş qeyri-rəsmi Zirvə görüşü Türk dünyasının siyasi, iqtisadi və mədəni həmrəyliyini möhkəmləndirmək istiqamətində növbəti tarixi hadisə olmuşdur. Prezident İlham Əliyev Türk dünyasının birlik və bərabərliyindən, üzv ölkələrin TDT-nin qlobal səviyyədə güc mərkəzinə çevrilməsi üçün birgə səylərindən danışmış və Azərbaycanın təşkilatın büdcəsinə əlavə maliyyə dəstəyi göstərdiyini elan etmişdir. Şuşa Zirvə görüşündə Türk dünyasının iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlığını genişləndirmək məqsədi ilə müxtəlif təşəbbüslər müzakirə olunmuşdur. Prezident İlham Əliyev görüşlərdə Azərbaycanın iqlim məsələlərində fəallığını xüsusi qeyd etmiş, COP29-a ev sahibliyi edəcəyini ölkənin beynəlxalq mövqeyini daha da gücləndirəcəyi ilə əlaqələndirmiş, bunun Türk dövlətlərinin birgə fəaliyyətinin qlobal miqyasda təsirini artıracağına əminliyini ifadə etmişdir. Azərbaycanın "Rəqəmsal İpək Yolu" layihəsi vasitəsilə təkcə Türk dünyasında deyil, həm də qlobal səviyyədə dayanıqlı inkişaf və ekoloji təhlükəsizliyə töhfə vermək niyyətində olduğunu bildirmişdir. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev Trans-Xəzər beynəlxalq nəqliyyat marşrutunun

əhəmiyyətini və bu sahədə Azərbaycanın fəal rolunu diqqətə çatdırmışdır. O, Qazaxıstanın COP29 çərçivəsində iqlim məsələlərində Türk dünyası ilə əməkdaşlığı gücləndirmək niyyətində olduğunu bəyan etmişdir. Bu yanaşma Türk Dövlətləri Təşkilatının iqlim dəyişikliyi ilə mübarizədə qlobal səviyyədə nüfuzunu artırmaq baxımından əhəmiyyətli addım kimi qiymətləndirilmişdir. Qırğızıstan Prezidenti Sadır Japarov Azərbaycanın bərpa olunan enerji sahəsindəki təşəbbüslərini təqdir etmiş, Türk dövlətləri arasında əməkdaşlığın genişləndirilməsinin vacibliyini qeyd etmişdir. O, COP29-un iqlim maliyyələşdirilməsi məsələsində qlobal gündəliyi irəli aparacağına və Türk dövlətləri üçün yeni imkanlar yaradacağına əminliyini bildirmişdir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Şuşanın Türk dünyası üçün rəmzi əhəmiyyətini xüsusi qeyd edərək Qarabağda həyata keçirilən yenidənqurma işlərini yüksək qiymətləndirmiş, Azərbaycanın COP29-a ev sahibliyinin iqlim dəyişikliyi ilə mübarizədə qlobal səyləri gücləndirmək üçün tarixi fürsət olduğunu qeyd etmişdir. Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz COP29-un yalnız Azərbaycan üçün deyil, Türk dünyası üçün qürur mənbəyi olduğunu, iqlim maliyyələşməsi sahəsində qəbul ediləcək qərarların regiona mühüm təsir göstərəcəyinə inamını ifadə etmişdir (APA, 2024). TDT Baş katibi Kubanıçbek Ömüralıyev COP29-un iqlim dəyişikliyi ilə mübarizədə dünya liderlərini və mütəxəssislərini bir araya gətirəcəyini bildirmiş, bu işdə Azərbaycanın təşəbbüskar rolunu yüksək qiymətləndirərək konfransın Türk dünyası üçün qlobal səviyyədə yeni əməkdaşlıq imkanları yaradacağını vurğulamışdır (TURKLIB, 2024a). Türk dünyası liderləri növbəti dəfə 2024-cü il 6 noyabr tarixində Bişkekdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının 11-ci Zirvə görüşündə bir araya gəlmişlər. Prezident İlham Əliyev Türk Dövlətləri Təşkilatının fəaliyyətindən, uğurlu inkişaf yolundan danışmışdır. Bununla belə, təşkilatın mövcud büdcəsinin qarşıya qoyulan strateji hədəflərə çatmaq üçün yetərli olmadığını bildirmişdir: *"Ümid edirəm ki, Azərbaycanın Türk Dövlətləri Təşkilatının Katibliyinə 2 milyon və Ağsaqqallar Şurasına 100 min ABŞ dolları məbləğində maliyyə dəstəyi təşkilatın potensialının daha da güclənməsinə töhfə verəcək"* (President.az, 2024b). Prezident İlham Əliyev təşkilatın müdafiə, təhlükəsizlik və müdafiə sənayesi sahələrində əməkdaşlığının artırılmasının əhəmiyyətinə diqqət çəkmiş və üzv ölkələrin hərbi qüvvələri arasında keçirilən birgə təlimlərin, eləcə də hərbi təhsil müəssisələrində qardaş ölkələrin müdavimlərinin təhsil almasını qarşılıqlı etimadın və dostluğun göstəricisi hesab etmişdir. Eyni zamanda Prezident İlham Əliyev ölkələrarası ticarət və nəqliyyat, Orta Dəhlizin rəqəmsallaşdırılması və ticarətin asanlaşdırılması istiqamətində həyata keçirilən layihələrdən, Azərbaycan ərazisi üzrə keçən tranzit daşımalarının həcminin artmasından bəhs etmiş, Mərkəzi Asiya ilə Türkiyə arasında əlaqəni gücləndirmək üçün Azərbaycanın sərmayələrini artırdığını

bildirmişdir. COP29 konfransının yaxın günlərdə keçiriləcəyini vurğulayan Prezident İlham Əliyev bu tədbirin ölkənin beynəlxalq nüfuzunun göstəricisi olduğunu qeyd edərək, TDT-na üzv ölkələrin konfransda fəal iştirak edəcəyinə əminliyini ifadə etmişdir (TURKLIB, 2024b). Türk dövlətlərinin liderləri Bakıda keçiriləcək COP29 konfransı münasibətilə Prezident İlham Əliyevi təbrik etmişdir (Azərtac, 2024a). Türk dünyasının iqlim dəyişikliyi ilə mübarizə sahəsində əməkdaşlığını genişləndirmək məqsədi ilə Şuşa Zirvə görüşündə müzakirə edilən məsələlər 2024-cü ilin 13 noyabrında, COP29 çərçivəsində reallaşmışdır. Belə ki, Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentləri arasında keçirilmiş üçtərəfli görüş "Azərbaycan Respublikası, Qazaxıstan Respublikası və Özbəkistan Respublikası hökumətləri arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş"in imzalanması ilə nəticələnmişdir. Saziş Xəzər dənizinin dibi ilə elektrik kabelinin çəkilməsi kimi böyükmiqyaslı layihələri ehtiva edərək, regional enerji əməkdaşlığında yeni mərhələnin əsasını qoymuşdur. Prezident İlham Əliyev yaşıl enerji sahəsindəki layihələrin əhəmiyyətini vurğulamış, Xəzər dənizindən Qara dənizə və oradan Avropaya uzanan kabel layihəsi barədə məlumat vermiş, bu təşəbbüsün Mərkəzi Asiya, Qafqaz və Avropa arasında enerji dəhlizlərini birləşdirəcəyini və regional əməkdaşlığa mühüm töhfə verəcəyini qeyd etmişdir. Azərbaycan Prezidenti Qarabağın yenidənqurulması prosesində Qazaxıstan və Özbəkistanın dəstəyinə diqqət çəkmiş, Füzulidə Mirzə Uluqbəy adına məktəb və Kurmanqazı adına yaradıcılıq mərkəzi kimi layihələrin qardaşlıq əlaqələrini möhkəmləndirən amil kimi əhəmiyyətini vurğulamışdır (Azərtac, 2024b). Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev yaşıl enerji əməkdaşlığını Cənubi Qafqaz və Mərkəzi Asiya arasında iqtisadi inteqrasiyanın gücləndirilməsi üçün strateji addım kimi qiymətləndirmişdir. O, Sazişin təmiz enerjinin Avropa bazarlarına çatdırılmasında mühüm rol oynayacağını və Orta Dəhlizin "yaşıl körpü" kimi inkişaf etdirilməsinin iqtisadi və ekoloji təhlükəsizliyə töhfə verəcəyini vurğulamış, Qazaxıstanın bu layihədə tranzit ölkə kimi oynadığı əsas rolu xüsusi qeyd edərək, layihənin enerji sistemlərinin inteqrasiyasını təmin edəcəyini bildirmişdir.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev COP29-un uğurla keçirilməsi münasibətilə Prezident İlham Əliyevi təbrik etmiş və yaşıl enerji sahəsində əməkdaşlığın təkcə iqtisadi deyil, həm də sosial məsuliyyət baxımından əhəmiyyətini önə çəkmişdir. Ş.Mirziyoyev ölkəsində bərpa olunan enerjinin payının artırılması istiqamətində genişmiqyaslı layihələrin həyata keçirildiyini qeyd etmiş və bu təşəbbüslərin həm iqtisadi səmərə yaratdığını, həm də minlərlə iş yerinin açılmasına, texnologiyaların transferinə səbəb olduğunu bildirmişdir.

Üçtərəfli görüşdən sonra Azərbaycan və Özbəkistan liderləri bir araya gəlmiş, Xankəndi şəhərində tikiş fabrikinin videobağlantı vasitəsilə açılışında iştirak etmişlərdir (Azərtac, 2024c). Tədqiqatlar göstərir ki, ölkələr arasında reallaşdırılan layihələrin həyata keçirilməsi regional iqtisadi inkişaf üçün mühüm əhəmiyyət daşımaqla yanaşı ənənəvi dostluğun və strateji tərəfdaşlığın gücləndirilməsində mühüm mərhələ olmuşdur. Azərbaycan mediası Türk dövlətləri ilə əməkdaşlıq əlaqələrinə xüsusi həssaslıqla yanaşmış, bununla bağlı müxtəlif təhlili materiallar təqdim etmişdir. 2024-cü ilin oktyabrın 3-də Report İnformasiya Agentliyinin rəsmi internet saytında yayımlanan "Azərbaycan və Türkiyə arasındakı “yaşıl enerji” dəhlizi regionun geosiyasətini dəyişir" başlıqlı məqalədə iki ölkə arasında həyata keçirilməsi planlaşdırılan “yaşıl enerji” dəhlizinin əməkdaşlığı yeni səviyyəyə qaldırdığı və bunun regional enerji təhlükəsizliyinə əhəmiyyətli töhfə verdiyi vurğulanmışdır. Strateji layihənin yalnız region üçün deyil, həm də Avropa üçün geosiyasi baxımdan mühüm əhəmiyyət kəsb edəcəyi qeyd olunmuşdur. Məqalədə pandemiyadan sonra yaranan qlobal böhranların enerji sektoruna təsiri və bunun nəticəsində “yaşıl enerji” sahəsində geriləmələrin müşahidə olunduğu bildirilmiş, bununla belə, Azərbaycan və Türkiyənin reallaşdırdığı bu layihənin böhranların regional əməkdaşlıq üçün yeni imkanlar yaratdığının göstəricisi olduğu qeyd edilmişdir. Bununla yanaşı, yazıda Azərbaycan və Türkiyə arasında nəzərdə tutulan “yaşıl enerji” dəhlizinin Xəzər dənizindən Türkiyəyə, daha sonra Avropaya enerji ötürmək məqsədi daşıdığı bildirilmişdir (Məmmədov, 2024). Media Təhlil Mərkəzinin “Türkdilli dövlətlər Avropanın yaşıl enerji təchizatında vacib rol oynamağa iddialıdır” başlıqlı araşdırmasında TDT-nin üzv ölkələrin yaşıl enerji sahəsində əməkdaşlığı genişləndirmək istiqamətində atdığı mühüm addımlardan bəhs edilmiş, Azərbaycan, Qazaxıstan və Özbəkistan dövlət başçılarının imzaladığı Saziş əməkdaşlıqda yeni mərhələ olaraq dəyərləndirilmişdir. Materialda Qarabağ Bəyannaməsinin TDT-nin yaşıl enerji strategiyasına verdiyi töhfə xüsusilə qeyd edilmiş və Şuşada qəbul edilən bu sənədin Türk dövlətləri arasında bərpaolunan enerji potensialından birgə istifadəni, elektrik enerjisinin ixracı və tranzitini təşviq etməklə regionda dayanıqlı inkişafı dəstəkləyən əsas istiqamətlərdən birini müəyyən etdiyi vurğulanmışdır. Bu baxımdan, COP29 çərçivəsində qəbul edilən üçtərəfli Saziş Qarabağ Bəyannaməsinin hədəflərini reallaşdırmaq üçün konkret addım kimi qiymətləndirilmişdir (MTM.az, 2024). “Yeni Azərbaycan” qəzetinin “Türk dövlətlərinin birgə inkişaf perspektivi...” adlı məqaləsində Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin imzaladığı Saziş geniş şəkildə təhlil edilmişdir. Burada, ilk növbədə, Prezident İlham Əliyevin çıxışına istinad edilərək, sözügedən Sazişin türkdilli ölkələr arasında qardaşlıq münasibətlərini daha da möhkəmləndirdiyi və yaşıl enerji sahəsində əməkdaşlığı

yeni mərhələyə yüksəltdiyi vurğulanmışdır. Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevin bu təşəbbüsü "davamlı inkişaf üçün ümumi səylərin tarixində yeni səhifə" kimi xarakterizə etməsi, Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin isə bu layihənin regionun iqtisadi inkişafına və ekoloji davamlılığına mühüm töhfə verəcəyi barədə fikirləri də məqalədə öz əksini tapmışdır. Azərbaycanın yaxın tərəfdaşları olan Türk dövlətləri, xüsusilə Türkiyə və Mərkəzi Asiya ölkələrinin bu layihələrə böyük dəstək göstərdiyi qeyd edilmiş, Türkiyənin bərpa olunan enerji sahəsində təcrübəsini və texnoloji biliklərini Azərbaycanla paylaşması prosesin sürətlənməsinə mühüm töhfə verən amil kimi dəyərləndirilmişdir (İsmayılov, 2024). Müsavat.com saytının "Üç qardaş Bakıda birləşdi: "Yaşıl kabel"i belə çəkəcəklər – Nəhəng Saziş nələr vəd edir?" başlıqlı analitik materialında Prezident İlham Əliyevin Sazişi tarixi hadisə kimi qiymətləndirdiyi barədə fikirlərinə istinad edilərək Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji əməkdaşlığının yalnız üçtərəfli tərəfdaşlıq deyil, həm də genişmiqyaslı regional inteqrasiyanın əsasını təşkil etdiyi qeyd olunmuşdur. Sazişin "yaşıl enerji" dəhlizinin yaradılması, inteqrasiya olunmuş elektrik bazarlarının formalaşdırılması və bərpa olunan enerjinin Avropa da daxil olmaqla digər bazarlara çatdırılması üçün möhkəm təməl təmin etdiyi vurğulanmışdır. Materialda Qazaxıstan və Özbəkistan prezidentlərinin ölkələrinin "yaşıl layihələr" üzrə imkanları, Sazişin yalnız enerji ixracını deyil, həm də Orta Dəhliz layihəsi vasitəsilə iştirakçı ölkələrin iqtisadi inteqrasiyasını dərinləşdirəcəyi barədə fikirləri də öz əksini tapmışdır (Rəhimli, 2024). "Xalq qəzeti"nin "Göytürklərin ənənəsini "Yaşıl enerji"lilər davam etdirirlər" (Mirzəbəyli, 2024) və "525-ci qəzet"də yayımlanan "Azərbaycan - Qazaxıstan - Özbəkistan "yaşıl əməkdaşlığı" (Sultanova, 2024) başlıqlı materiallarda sözügedən Sazişin yaradacağı imkanlar, Mərkəzi Asiya və Cənubi Qafqaz regionlarında ekoloji və iqtisadi inkişaf perspektivlərinə təsiri ətraflı şəkildə təhlil edilmişdir.

"Respublika" qəzetində dərc olunan "Türkün gücü "yaşıl enerji" ətrafında birləşir" başlıqlı irihəcmli məqalədə Azərbaycanın COP29-a ev sahibliyi etməsi və Türk dünyasının bu tədbirdəki iştirakı geniş şəkildə təhlil edilmişdir. Materialda Şimal və Cənub, Qərb və Şərq arasında strateji mövqedə yerləşən Azərbaycanın təkcə coğrafi deyil, həm də siyasi, mədəni, enerji, ticarət və nəqliyyat sahələrində yeni əməkdaşlıq körpüləri yaratdığı vurğulanmış, xüsusilə, Avrasiyanın enerji və nəqliyyat xətlərini yenidən müəyyən edən meqalayihələrin Azərbaycanın beynəlxalq nüfuzunun artmasında mühüm rol oynadığı qeyd edilmiş, imzalanan Sazişin Türk dövlətləri arasında enerji sahəsində əməkdaşlığın yeni mərhələsini başlatdığı və regionda "yaşıl enerji" sahəsində inteqrasiya prosesini gücləndirdiyi bildirilmişdir. Bundan başqa, materialda COP29

çərçivəsində təşkil olunan "Türk ölkələrinin iqlim təşəbbüsü Forumu"nun Türk dövlətləri arasında ekoloji sahədə əməkdaşlığın güclənməsi üçün mühüm platforma rolunu oynayacağı vurğulanmış və Forumda Türk dünyasının iqlim dəyişikliyinə qarşı birgə səylərinin müzakirə olunduğu, regional ekoloji problemlərin həlli istiqamətində qarşılıqlı təşəbbüslərin planlaşdırıldığı diqqətə çatdırılmışdır (Eldarqızı, 2024).

"Azərbaycan" qəzetinin "Türk dövlətlərinin "yaşıl enerji" əməkdaşlığı daha da genişlənəcək" başlıqlı materialında TDT-nin Qarabağ Bəyannaməsində bərpa olunan enerji sahəsində əməkdaşlığın genişləndirilməsi məsələlərinə diqqət yetirilmiş, bu bəyannamənin Türk dövlətlərinin enerji inteqrasiyasını gücləndirmək, iqlim dəyişikliyinə birgə cavab vermək və dayanıqlı inkişaf prinsiplərini həyata keçirmək üçün yeni perspektivlər açacağı vurğulanmışdır. Materialda həmçinin Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında enerji sistemlərinin əlaqələndirilməsi və "Yaşıl Dəhliz" layihəsinin əhəmiyyəti önə çəkilmişdir. Bu layihənin enerji təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, Türk dövlətlərinin qlobal enerji bazarlarındakı mövqeyini möhkəmləndirmək baxımından da mühüm əhəmiyyətə malik olduğu qeyd edilmişdir. Eyni zamanda, layihənin Mərkəzi Asiyadan Avropaya elektrik enerjisinin ixracı ilə bağlı perspektivləri genişləndirdiyi bildirilmişdir (Sadıqlı, 2024). Yerli media subyektlərinin təqdim etdiyi informasiyalardan və araşdırma yazılarından da göründüyü kimi, COP 29 çərçivəsində gerçəkləşən Türk dövlətləri əməkdaşlığı müsbət ictimai rəy qazanmış, yeni perspektivləri isə yüksək formada qiymətləndirilmişdir.

**Nəticə**

Tədqiqatlar göstərir ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu Sessiyası (COP29) Azərbaycanın beynəlxalq iqlim diplomatiyasındakı fəallığını və dayanıqlı inkişaf strategiyasındakı liderlik iddiasını nümayiş etdirmişdir. İlk dəfə Cənubi Qafqazda baş tutan COP29 ölkənin regional və qlobal səviyyədə nüfuzunu artıraraq iqlim dəyişikliyi ilə mübarizədə fəal iştirakını təsdiqləmiş, Azərbaycanın "Yaşıl Keçid" təşəbbüslərinə diqqət çəkərək, bərpa olunan enerji sahəsindəki ambisiyalarını beynəlxalq ictimaiyyətə çatdırmaq üçün unikal platforma olmuşdur. Tədbirin təşkilatçılığı Azərbaycanın güclü diplomatik səylərinin və beynəlxalq əməkdaşlıq potensialının göstəricisi kimi qiymətləndirilmişdir. COP29 həmçinin ölkənin iqtisadi şaxələndirmə strategiyasına dəstək olmuş, bərpa olunan enerji və yaşıl iqtisadiyyat sahələrinə xarici investisiyaların cəlb edilməsinə töhfə vermişdir. Bundan başqa, 2024-cü ilin iyulunda Şuşada və noyabrında Bişkekdə keçirilmiş Türk Dövlətləri Təşkilatının Zirvə görüşləri Türk dünyasının həmrəyliyi, strateji əməkdaşlıq perspektivləri və qlobal problemlərə birgə

yanaşmalarını əks etdirən mühüm platformalar kimi yadda qalmışdır. Bu görüşlərin ardınca COP 29 çərçivəsində yaşıl enerji sahəsində Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında imzalanan Saziş Xəzər regionunun strateji əhəmiyyətini artıraraq regional və qlobal enerji təhlükəsizliyi üçün yeni perspektivlər açmışdır. Azərbaycan mediası, öz növbəsində, COP29 çərçivəsində yaşıl enerji sahəsində həyata keçirilən strateji əməkdaşlıq və regional inteqrasiya layihələrini geniş şəkildə işıqlandırmışdır. Mediada bu mövzu yalnız Azərbaycanda deyil, ümumilikdə Türk dünyasında yaşıl enerji sahəsindəki inkişaf və əməkdaşlıq proseslərinin regional və qlobal təsirləri baxımından geniş müzakirələrə səbəb olmuşdur. Media subyektlərinin xüsusən 2024-cü ilin oktyabr-noyabr aylarında yayımlanan yazılarında Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın yaşıl enerji sahəsində imzaladığı sazişlərin əhəmiyyəti və onun iqlim dəyişikliyi ilə mübarizəyə verdiyi töhfələrə xüsusi diqqət verilmişdir. Bu əməkdaşlığın həm regional inteqrasiyanın gücləndirilməsinə, həm də Türk dünyasının enerjiyə olan strateji mövqeyinin genişlənməsinə xidmət etməklə yanaşı, dünya səviyyəsində iqlim dəyişikliyi məsələlərinə qarşı mübarizəyə yeni perspektivlər təqdim etdiyi qeyd olunmuşdur. Ümumilikdə media COP29 və Türk dövlətləri arasında yaşıl enerji sahəsindəki əlaqələri, onun regional və qlobal təsirlərini təhlil edilərək Azərbaycana və Türk dövlətlərinə aid olan enerji strategiyalarının əhəmiyyətini, paralel olaraq bu əməkdaşlığın iqlim dəyişikliyi ilə mübarizə, iqtisadi inkişaf və ekoloji davamlılıq kimi vacib sahələrə töhfə verdiyini önə çəkmişdir. Mətbuatın qənaətinə görə, bu əməkdaşlıq Türk dünyasının strateji mövqeyini daha da gücləndirəcək və qlobal enerji bazarında önəmli mövqe tutmasına zəmin yaradacaqdır.

## Ədəbiyyat

APA. (2024). *Şuşada TDT dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib*. https://apa.az/resmi-xeber/susada-tdt-dovlet-bascilarinin-q

Azərbaycan. (2024). *COP nədir və COP29-a ev sahibliyi Azərbaycana nə verəcək*? https://www.azerbaijan-news.az/az/posts/

Azərtac. (2024a). *Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib.* https://azertag.az/xeber/biskekde_turk_dovletleri_

Azərtac. (2024b). *Bakıda Azərbaycan, Qazaxıstan və Özbəkistan prezidentlərinin üçtərəfli görüşü olub.* https://azertag.az/xeber/bakida_azerbaycan_qazaxistan_ve_ozbekistan_prezidentlerin

Azərtac. (2024c). *Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistan Prezidenti Şavkat Mirziyoyev ilə görüşüb: Görüşdə Xankəndidə tikiş fabrikinin videobağlantı vasitəsilə açılışı olub.* https://azertag.az/xeber/azerbaycan_prezidenti_ilham_eliyev

Batman, M.E. (2024). *COP 29'un Azerbaycan için önemi.* https://www.divandernegi.com.tr/2024/03/26/cop-29un-azerbaycan

COP29.az. (2024). *COP29 nədir?* https://cop29.az/az/conference/what-is-cop29

Eldarqızı, N. (2024). *Türkün gücü "yaşıl enerji" ətrafında birləşir*. https://respublika-news.az/az/n

İsmayılov, P. (2024). *Türk dövlətlərinin birgə inkişaf perspektivi*. https://www.yeniazerbaycan.c

Məmmədov, K. (2024). *Azərbaycan və Türkiyə arasındakı "yaşıl enerji" dəhlizi regionun geosiyasətini dəyişir*. https://report.az/energetika/azerbaycan-ve-turkiye-arasindak

Mirzəbəyli, İ. (2024). *Göytürklərin ənənəsini Yaşıl enerjililər davam etdirirlər*. https://xalqqazeti.az/az/siyaset/203458-goyturklerin-enenesini-yasil-enerjililer-davam

MTM.az. (2024). *Türkdilli dövlətlər Avropanın yaşıl enerji təchizatında vacib rol oynamağa iddialıdır*. https://mtm.az/x%C9%99b%C9%99rl%C9%99r/turkdilli-dovl%C9%99tl%C9%99r-

President.az. (2024a). *Bakıda COP29-un Liderlər Sammitinin açılış mərasimi keçirilib*. https://president.az/az/

President.az. (2024b*). İlham Əliyev Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə Görüşündə iştirak edib*. https://president.az/az/articles/view/

Rəhimli, Ş. (2024). *Üç qardaş Bakıda birləşdi: "Yaşıl kabel"i belə çəkəcəklər – Nəhəng Saziş nələr vəd edir?*https://www.musavat.com/news/uc-qardas-bakida-birlesdi-yasil-kabel-i-bele-

Sadıqlı, F. (2024). *Türk dövlətlərinin "yaşıl enerji" əməkdaşlığı daha da genişlənəcək*. https://www.azerbaijan-news.az/az/posts/detail/turk-dovletlerini

Sultanova, P. (2024). *Azərbaycan-Qazaxıstan - Özbəkistan yaşıl əməkdaşlığı*, https://525.az/news/279749-azerbaycan

TURKLIB. (2024a). *Şuşada Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşü keçirilib.* https://turklib.preslib.az/QV8GYOD.html

TURKLIB. (2024b). *Bişkekdə Türk Dövlətləri Təşkilatı Dövlət Başçılarının 11-ci Zirvə görüşü keçirilib.*https://turklib.preslib.az/YAjOu7X.html

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*
*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.11.2024*
*Kabul tarihi |Accepted:09.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Aynur Nəsirova**

*https://orcid.org/0000-0002-2463-8813*
*Doctor of Philosophy, Associate Professor, Baku State University, Head of the Department of International Journalism and Information Policy, Faculty of Journalism, Azerbaijan, aynur.bsu@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Nəsirova, A. (2024). Beynəlxalq və Yerli İdman Kanalları: Əsas Elementlər, Gəlir Mənbələri və Sosial Təsir. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 47-56.

# Beynəlxalq və Yerli İdman Kanalları: Əsas Elementlər, Gəlir Mənbələri və Sosial Təsir

***Xülasə***

*Məqalədə tematik kanalların bir növü olan idman televiziyalarının özəllikləri araşdırılıb. 20-ci əsrdə bir sahə kimi formalaşan idman televiziyaları idmanla bağlı yenilikləri daha geniş auditoriyaya çatdırır, izləyicilərə operativ informasiya ötürür. Tamaşaçıya fərdiləşdirilmiş məzmun təqdim edən idman kanallarının media və ictimaiyyət üzərində təsiri danılmazdır. Bu gün dünyanın müxtəlif ölkələrində fərqli-fərqli telekanallar izləyicilərə idmanla bağlı kontent təklif edir. İdman yayımının əyləncə ötürməsi ilə yanaşı izləyicidə sosial təsir yaratması, davranışı yönəltməsi araşdırmalarla sübut edilib. Bu sahədə aparılan tədqiqatlar göstərir ki, idman proqramları həm milli, həm də qlobal kimliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır. Məqalədə beynəlxalq və yerli idman televiziyalarının statistikası çıxarılıb, hər birinin özünəməxsus və oxşar tərəfləri təhlilə cəlb olunaraq ümumiləşdirmələr aparılıb. Tədqiqatın nəticələrinə görə, idman kanalları auditoriyanın idman təcrübəsinə olan yanaşmasına təsir göstərir. Canlı yayım, interaktiv platformalar və real vaxtda şərh kimi imkanlarla idman daha interaktiv hala gətirilir. Bu da onları eksklüziv yayım hüquqları və sponsorlar, liqalar və reklamçılar üçün böyük gəlir mənbəyinə çevirir. Məqalədə idman kanallarının idmanın qlobal fenomenə çevrilməsinə, idman oyunlarının qaydalarına təsiri, sosial və əyləncə*

CC BY NC
Creative Commons Licence

*funksiyaları, idman xəbərlərinin auditoriya ilə əlaqələri, izləyicilərin idman xəbərlərinə marağı, araşdırmaya cəlb edilib.*

***Açar sözlər:*** *İdman Kanalı, İzləyici, Auditoriya, Multiplatform Yayım, İnteraktiv Ünsiyyət*

## International and local sports channels: key elements, revenue sources and social impact

***Abstract***

*In this article, the characteristics of sports television, one of the thematic channel types, are analysed. Emerging in the 20th century, sports television provides up-to-date information to viewers by delivering news about sports to a wider audience. The impact of sports channels that offer personalised content to the audience on the media and public opinion is undeniable. Today, different television channels in different countries of the world offer sports content to their viewers. Research has shown that sports broadcasting, in addition to providing entertainment, has a social impact on viewers and directs their behaviour. Research in this field shows that sports programmes play an important role in shaping both national and global identity. In this article, statistics from international and local sports television channels are analysed and generalisations are made by examining the unique and similar aspects of each channel. According to the results of the study, sports channels influence viewers' approach to the sports experience. Sport is becoming more interactive with opportunities such as live streaming, interactive platforms and real-time commentary. This makes them a source of exclusive broadcasting rights and a major source of revenue for sponsors, leagues and advertisers. This article analyses the impact of sports channels on the transformation of sport into a global phenomenon, the rules, social and entertainment functions of sports events, the relationship of sports news with the audience and the audience's interest in sports news.*

***Keywords:*** *Sports Channel, Audience, Audience, Multiplatform Broadcasting, Interactive Communication*

### Giriş

Konkret maraq sahələrinə fokuslanan tematik kanallar xüsusi auditoriyaya xidmət edən televiziya növüdür. Bu tip televiziya kanalları tamaşaçıya fərdiləşdirilmiş məzmun təqdim edir. Hər kəs izləmək istədiyi kontenti özü seçə bilir. Bu, idmansevərlər üçün də keçərlidir. Artıq dünya üzrə yüzlərlə idman sahəsində ixtisaslaşan media kontent tirajlayır.

Araşdırmamızı televiziya üzərindən davam etdirsək, deyə bilərik ki, telekanallar əlçatan olduğuna görə daha çox izləyici əhatə etmək imkanı var. Uşaqdan-böyüyə auditoriyanın idmana marağı olan kəsimi bu telekanalları izləyə bilir. Bütün tematik kanallar kimi idman kanallarının da maliyyə imkanları digərləri qədər geniş olmur. Ona görə də onların auditoriyaya keyfiyyətli kontent təklif etmək şansları bir o qədər də yüksək deyil. İdman televiziyalarının media və ictimaiyyət üzərində mühüm təsiri var. İdman yayımı əyləncə ilə yanaşı izləyicidə sosial təsir yaradır və davranışa təsir göstərir. Bu sahədə aparılan tədqiqatlar

göstərir ki, idman proqramları həm milli, həm də qlobal kimliyin formalaşdırılmasında əhəmiyyətli rol oynayır (Spor, 2024). İdman kanalları reklam baxımından korluq çəkmir. İzləyici bazası əsasən idman həvəskarları olduğu üçün idman malları və xidmətləri ilə bağlı elanlar əsasən bu platformalarda yerləşdirilir. Olimpiya Oyunları, Dünya Kuboku, digər yarışlar kimi kütləvi idman tədbirləri həm yayım şirkətləri, həm də reklamçılar üçün mühüm gəlir mənbəyidir. Avropada artıq reklam bazarında ictimai yayım xidmətləri ilə özəl telekanallar arasında qarşıdurmalar da yaranıb. Özəl kanalların idman məzmunu əldə etmək üçün ictimai yayımçılardan daha çox məbləğ təklif etməyi onların reklam bazarındakı payını artırır (Spor Kitle İletişim Araçlarının Toplumun Davranışı ve Sağlığı Üzerindeki Etkisi, 2018). Bu gün dünyanın müxtəlif ölkələrində fərqli telekanallar izləyicilərə idmanla bağlı kontent təklif edir. Böyük Britaniya bu sahədə öncüllərdən biri sayıla bilər. BoxNation, BT Sport, BT Sport, ESPN, Eurosport 1, Eurosport 2, FreeSports, Setanta Sports, Premier Sports 1, Premier Sports 2, Racing TV, Sky Sports. Sky Sports, Setanta Sports, BT Sport kimi sırf idmanla bağlı olan telekanallar bütün dünyada məşhurdur (Kanallar, 2024). İrlandiyada fəaliyyət göstərən "Setanta Sports" bu gün Azərbaycan, Gürcüstan, Ukrayna, Belarus, Moldova, Estoniya, Litva, Latviya, Qazaxıstan və s. kimi ölkələrdə ingilis, gürcü, latış, ukrayna və rus dillərində yayımlanır.

Böyük Britaniyadan sonra bu sahədə inkişaf etmiş digər ölkə isə Almaniyadır. Almaniyadakı telekanallar alman dili ilə yanaşı ingilis dilində də yayımlanır (Spor kanalları listesi, 2024). Bəzi proqramlar sırf ingilis dilini bilən izləyicilər üçün nəzərdə tutulur. Ümumillikdə, Almaniyada fəaliyyət göstərən idman telekanalları bunlardır: "Sky Sport Deutschland", "Sport1", "Sportdigital", "Eurosport", "DAZN". Bu kanallardan daha çox izlənilən və tanınan "Sky Sport Deutschland" və "DAZN"-dır. Çünki bu kanallar futbol üzrə Almaniya "Bundesliqa"sının yayım hüququna sahibdir. Hər həftəsonu futbol azarkeşlərini ekran başına cəlb edən bu iki kanal çempionatın yayım hüquqlarına 5 illik yiyələnmək üçün birlikdə 4 milyarddan çox ödəniş edib. "Sky Sport" futbol, formula 1 və digər nüfuzlu idman yarışlarının yayım hüququna malikdir.

Yeri gəlmişkən "DAZN" kanalı Almaniyadan əlavə Avstriya, İsveçrə, ABŞ, Kanada, İspaniya, Braziliya və İtaliyada da fəaliyyət göstərir. İngilis, fransız, alman, italyan, yapon, portuqal və ispan dillərində yayımlanan kanalın əsası 2016-cı ildə qoyulub. Xüsusən də, İtaliyada olduqca məşhur olan "DAZN" Appenin yarımadasında yayıma 2018-ci ildə başlayıb. "DAZN" İtaliyadakı yeganə idman telekanalı deyil. "Eleven Sports", "Rai Sport", "Rai Sport + HD", "Sky Sport İtaliya", "Sportitalia" da İtaliyada idman sahəsində ixtisaslaşan

televiziyalardır. “DAZN” streaming xidməti olaraq idman yayımlarını rəqəmsal mühitdə təqdim edir (Spor kanalları listesi, 2024). Bu gün Pireney yarımadası ölkələri “İdman elmi” barəsində olduqca inkişaf etmiş hesab olunur. Təbii ki, bu da onların idman telekanallarına təsirsiz ötüşməyib. İspaniyanın elitası sayılan “La Liqa”nı “Movistar+”, “Movistar La Liga” və “DAZN” telekanalları yayımlayır. Həmçinin, bu kanallar İspaniyadan başqa qonşu ölkə Andorrada da qarşılaşmaların yayımını həyata keçirir. “Movistar Liga de Campeones” isə “Çempionlar Liqası” turnirinin yayımı ilə məşğul olur. İspan dilinin işlənmə arealı geniş olduğundan bu kanallar İspaniya və Andorradan başqa bir çox Mərkəzi və Cənubi Amerika ölkələrindən də izləyiciləri cəlb edə bilir. İspaniyanın ən böyük iki klubu olan “Real Madrid” və “Barselona”nın da özlərinə məxsus telekanalları mövcuddur. Bu telekanallarda klubun fəaliyyətinə dair müxtəlif kontentlər yayımlanır (Spor kanalları, 2024). Digər Pireney ölkəsi olan Portuqaliyada da idman və idman telekanalları böyük əhəmiyyət daşıyır. Eynilə ispan dili kimi portuqal dili də dünyada ən çox danışılan dillərdən biridir. Portuqaliyadan başqa Braziliya, Anqola, Kabo-Verde, Qvineya-Bissau, Mozambik və San Tome və Prinsipi kimi ölkələrdə portuqal dili rəsmi dövlət dili statusundadır deyə, portuqal telekanallarının izləyici kütləsi yetərincə böyükdür. Futbol üzrə Portuqaliya çempionatı olan “Primeyra Liqa”nın yayım hüquqları “Sport TV” qrupuna məxsusdur.

Fransız dili Afrikada populyar olduğuna görə, Fransanın idman telekanalları bu ölkələrdən bir çox izləyicini özünə cəlb edə bilir. Dünyaca tanınmış şirkətlərdən olan və Fransada fəaliyyət göstərən “beIN Sports” kanalı dünyanın müxtəlif ölkələrində 5 dildə - ərəb, fransız, ingilis, türk və ispan dillərində yayımlanır. Artıq getdikcə böyüməkdə olan bu şirkət müxtəlif idman yarışlarının yayım hüquqlarını əldə edərək izləyici kütləsini artıra bilib (Spor kanalları, 2024). Okeanın o tayında isə “ESPN” və “Fox Sports” öndə gələn idman telekanallarından hesab olunur. Bu telekanallar futbolla yanaşı amerikalıların sevimli idman növləri olan reqbi, beyzbol, hokkey kimi idman növlərinin yayımını da həyata keçirir. Hətta “NBA TV” ABŞ-də sırf “Milli Basketbol Assosiasiyası”nın çempionatının qarşılaşmalarını yayımlayır (Spor tv kanalları, 2024). Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən idman telekanalları aşağıdakı kimi qruplaşdırılır:

- “AFN Sports”
- “beIN Sports USA”
- “beIN Sports Xtra”
- “Fox Sports”
- “ESPN”
- “DAZN”

- “Eleven Sports Network”
- “NFL Network”
- “NFL RedZone”
- “NHL Network”
- “Sportsman Channel”
- “Tennis Channel”

1979-cu ildə fəaliyyətə başlayan “ESPN” müxtəlif və maraqlı proqramlarla izləyicilərin diqqətini çəkməyi bacarıb. Telekanal 1980-ci ildə ilk dəfə iki müxtəlif basketbol oyununu eyni anda yayımlayıb. “Stereo” səsli ilk idman yayımı ilə izləyiciləri ilk dəfə məhz “ESPN” tanış edib. Ekranın alt hissəsində müxtəlif qrafiklərin yayımlanmasını da televiziya tarixində ilk dəfə “ESPN” reallaşdırıb. Bütün bu yeniliklər sayəsində “ESPN” ABŞ-də öndə gedən televiziyaya çevrilib. 2005-ci ilə qədər kanalın abunəçilərinin sayı 75 milyona qədər çatmışdı. Dünyanın ən məşhur idman kanallarından biri olan “ESPN” futbol, basketbol, beysbol və digər idman növlərini yayımlayır (Kanallar, 2024). Təbii ki, ABŞ-də futboldan daha populyar idman növləri digər ölkələrə nisbətən daha çoxdur. Buna görə də sırf basketbol, hokkey və beyzbol üzrə ixtisaslaşmış telekanallar yüksək reytinq göstəricilərinə malikdir.

Yüksək maliyyə potensialına malik olan ərəb ölkələrində də son illərdə bu sahənin inkişafına böyük pullar ayrılır. Rusiyada “Match TV” olduğu kimi Qətərdə də “beIN Sports” böyük reputasiyaya malikdir:

- “beIN Sports HD”
- “beIN Sports News”
- “beIN Sports 1”
- “beIN Sports 2”
- “beIN Sports 3”
- “beIN Sports 4”
- “beIN Sports 5”
- “beIN Sports 6”
- “beIN Sports 7”

“beIN Sports HD” daha çox ərəb ölkələrində keçirilən futbol yarışlarının yayımı ilə məşğul olur. “beIN Sports 1”, “beIN Sports 2” kanalları isə müvafiq olaraq İspaniya və Fransada keçirilən yerli futbol yarışlarının yayımını həyata keçirir. Şirkət 2021-ci ildə yeni telekanalların da yayımına start verib.

Qətər kimi Birləşmiş Ərəb Əmirliklərində də (BƏƏ) televiziya sferasındakı inkişaf idman televiziyasına da təsirsiz ötüşməyib (Spor kanalları, 2024):

- “Abu Dhabi Sports 1”
- “Abu Dhabi Sports 2”
- “Abu Dhabi Sports 3”
- “Abu Dhabi Sports 4”
- “Abu Dhabi Sports Asia 1”
- “Abu Dhabi Sports Asia 2”
- “Abu Dhabi Sports Extra”
- “Abu Dhabi Fight”

Bu telekanallar BƏƏ-də yaşayan izləyicilərə Asiyada futbol üzrə olan yarışları maksimum operativliklə təqdim edir. Eyni zamanda kanalların efirində Hollandiya, Fransa, İngiltərə kimi ölkələrin futbol çempionatları da yayımlanır. Qeyd edək ki, sözügedən kanalların fəaliyyəti təkcə futbolla məhdudlaşmır. Basketbol, tennis, döyüş idman növlərində yarışmalar da məhz bu kanalların efirlərində özlərinə yer tapır.

Azərbaycanla qonşu olan ölkələrdə də idman televiziyası sahəsində inkişaf var. Türkiyədə fəaliyyət göstərən idman telekanalları izləyicilər üçün maraqlı kontentlər ərsəyə gətirir (Türkiyede yayın yapan spor kanalları, 2024).

- “beIN Sports”
- “A Spor”
- “S Sport”
- “TRT Spor”
- “Fenerbahçe TV”
- “Galatasaray TV”
- “Beşiktaş TV”
- “Trabzonspor TV”
- “Bursaspor TV”

Təbii ki, “NTV Spor” telekanalını da unutmamalıyıq. “Doğuş Media Group” şirkətinə məxsus olmuş bu telekanal 2004-2018-ci illər aralığında 14 il fəaliyyət göstərib. Azərbaycanda da böyük izləyici kütləsinə malik olan kanal hazırda öz fəaliyyətini internet üzərindən davam etdirir.

Futbol üzrə "Türkiyə Super Liqası"nın yayım hüquqları son 5 il ərzində "beIN Sports" telekanalına məxsus idi. Artıq Türkiyədə yerli çempionatı "S Sport" telekanalı yayımlayır. "A Spor" telekanalı isə "Turkuvaz Medya Grubu" şirkətinə məxsusdur.

İspaniyada olduğu kimi Türkiyədə də sırf futbol klublarına məxsus telekanallar var. "Fenerbahçe TV", "Galatasaray TV", "Beşiktaş TV", "Trabzonspor TV", "Bursaspor TV" telekanalları nümunə göstərilə bilər. Bu telekanallarda izləyicilərə sırf həmin klubun tarixinə və fəaliyyətinə dair kontent təqdim olunur.

Rusiyada eyni qaydada bu cür rəngarəngliyə rast gələ bilərik. Burada bir çox "qardaş" statusunda olan idman telekanalları mövcuddur (Rusya spor kanalları, 2024). Rusiyanın "Matç TV" şirkətinin 13 müxtəlif kanalı var və bu kanalların bəziləri müxtəlif idman növləri üzrə (futbol, döyüş və s.) ixtisaslaşıb.

- "Match TV"
- "Match Premyer"
- "Match! Strana"
- "Match! Futbol 1"
- "Match! Futbol 2"
- "Match! Futbol 3"
- "KHL"
- "KHL Prime"
- "Match! Boets"
- "Konnıy Mir TV"
- "Match! Arena"
- "Match! İqra"
- "Match! Planeta"

Azərbaycanın əksər kabel televiziyaları vasitəsilə bu kanalları izləmək mümkündür. Bir çox ölkədə fəaliyyət göstərən beIN Sports beynəlxalq idman yarışlarını yayımlayır. "Match TV", "Match Premyer", "Match! Strana", "Match! İqra" və "Match! Planeta" telekanalları daha çox universal xarakter daşıyır. Bu kanalların efirində müxtəlif idman növlərinə dair yayımları görmək mümkündür. "Match! Futbol 1", "Match! Futbol 2", "Match! Futbol 3" telekanalları isə tamamilə futbol üzrə ixtisaslaşıb və yayımlarını buna əsasən təşkil edir. Digər tərəfdən "KHL" və "KHL Prime" hokkey istiqamətli, "Match! Boets" isə döyüş idman növlərinə fokuslanmış telekanallardır. "Konnıy Mir TV" telekanalında isə atçılıqla bağlı

materiallar əsas yer tutur. Göründüyü kimi Rusiyada bu sahə üzrə telekanallar çox olsa da, bir-biri ilə bağlı, yəni "qardaş" telekanallardır. Ölkəmizdə fəaliyyət göstərən lisenziyalı idman telekanallarının sayı isə 2-dir - "İdman TV" və "CBC Sport". Azərbaycanın ilk idman kanalı "İdman TV" 2009-cu il prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. "İdman TV" Azərbaycan Televiziya və Radio Verilişləri QSC-nin nəzdində fəaliyyət göstərir (İdman, 2024). 2009-cu il yanvarın 1-dən 1 aylıq test yayımından sonra kanal tamaşaçılarına futbol, voleybol, güləş, cüdo, yüngül atletika və digər idman növləri üzrə beynəlxalq yarışları izləmək imkanı yaradır. Kanal 2015-ci ildən 24 saatlıq yayımdadır. 2019-cu ilə qədər adı "İdman Azərbaycan" olub, sonradan "İdman TV" kimi dəyişdirilib. 2022-ci ildən "Azerspace-1" peykində "HD" yayımdadır. "İdman TV"- də idman haqqında müxtəlif analitik proqramlar yayımlanır. Efir cədvəlində yerli müstəvidə olan idman yarışları ilə yanaşı xarici yarışlar da yer alır. Məs. 2015-ci ildə Bakıda keçirilən Avropa Oyunlarının qarşılaşmalarının yayımını məhz "İdman TV" həyata keçirib. 2015-ci ildə "Aztv" və o vaxtkı adı ilə "İdman Azərbaycan" Azərbaycan Premyer Liqasının yayım hüquqlarını əldə edə bilməyib. Liqanın yayımını həyata keçirmək üçün elan olunan müsabiqədə "CBC" kanalı tenderdən qalib çıxaraq 3 illiyinə yerli çempionatın yayım hüququnu əldə edib. Amma "CBC" kanalı xarici dildə fəaliyyət göstərdiyinə görə, yeni idman kanalının yaranması zərurəti yaranıb. Beləliklə də, "CBC Sport" kanalının yaradılması ideyasının əsası qoyulub. 9 avqust 2015-ci ildə internet yayımına çıxan "CBC Sport", 1 oktyabr 2015-ci ildə test, 1 noyabr 2015-ci il tarixində isə əsas yayıma başlayıb (21). Bununla da, "CBC Sport" Azərbaycan televiziya tarixində "İdman TV"-dən sonra ikinci idman, 10-cu ümumrespublika telekanalıdır. 2015-ci ildə "CBC Sport" MMC-yə 37 Mhs tezliyində ümumrespublika idman televiziya kanalının yayımı üçün müsabiqədənkənar 6 il müddətinə xüsusi razılıq verilib. Lakin həmin ilin dekabrın 21-də qanuna edilən dəyişikliyə əsasən lisenziya müddətsiz olub. Günümüzdə "CBC Sport" telekanalında müxtəlif idman yarışlarının yayımları həyata keçirilir.

**Nəticə**

Müasir dövrdə televiziya ən yaxşı maarifləndirmə vasitələrindən biridir. Təsadüfi deyil ki, insanlar hər sahədə yeniliklərdən xəbərdar olmaq üçün televiziyaya baxırlar. İdman jurnalistikası üçün də televiziyanın məsuliyyəti olduqca böyükdür. İdman kanalları futbol, basketbol, tennis və digər idman növləri üzrə verilişlərlə yanaşı, əsasən yüksək keyfiyyətli canlı yayımlarla reytinq qazanır ki, bu da onları ənənəvi televiziya ilə müqayisədə daha cəlbedici edir. Eksklüziv yayım hüquqları idman kanalları üçün qarantiya alınmış auditoriya deməkdir. Canlı yayımdan əvvəl və sonra verilən analizlər, ekspert rəyləri və gündəlik idman xəbərlərini də xüsusi vurğulamaq lazımdır. Bu proqramlar izləyicilərə oyunları birbaşa

izləmək şansı ilə bərabər, həm də komandaları və idmançıların performanslarını analiz etmək imkanı yaradır.

İnkişaf edən rəqəmsal texnologiyalar sayəsində idman telekanalları multiplatform yayımı və interaktiv ünsiyyəti genişləndirərək bazarda daha çox rəqabət aparır. Tədqiqatlar göstərir ki, onlayn yayım və sosial media vasitəsilə daha çox jurnalist və media qurumu izləyicilərlə birbaşa əlaqə saxlamağa çalışır, bu da ənənəvi media modellərini yenidən formalaşdırır (Kanallar, 2024). Bununla belə, idmançılar, komandalar, sponsorlar, təşkilatlar və s. xəbərlərlə idmanı izləyiciyə yaxınlaşdıran televiziya öz aktuallığını qoruyub saxlayır (Wenner, 2022). İdman kanalları auditoriyanın idman təcrübəsinə olan yanaşmasına təsir göstərir. Canlı yayım, interaktiv platformalar və real vaxtda şərh kimi imkanlarla idman daha interaktiv hala gətirilir. İdman jurnalistlərinin izləyici marağını qazanması üçün başlıca amil eksklüziv yayım, operativ məlumat və detallı görüntünün təqdim edilməsidir. İlk addım kimi taktiki lövhələrdən, monitorlardan istifadə əhəmiyyətli rol oynaya bilər. Beləcə izləyicilərə strateji gedişləri daha rahatlıqla izah etmək mümkün olacaq. Digər tərəfdən studiyada qonaq olan ekspertlərin də təcrübəli olması vacib amildir. Belə olan halda izləyicilər daha maraqlı və daha keyfiyyətli müzakirələrin şahidi ola bilərlər. İdman kanallarının real vaxtda, yüksək keyfiyyətli görüntülər və dərin təhlillə məlumat ötürməsi izləyici marağını artırır. Qeyd edilənlər idman kanallarının təkcə əyləncə vasitəsi olmadığını, ictimai marağı yönəltdiyini, idman maliyyəsini dəstəklədiyini və hətta idman təşkilatlarının idarəçiliyinə təsir göstərdiyini göstərir (Danilova, 2018). Araşdırmalarda idman media kommunikasiya fenomeni kimi qeyd edilir və onun geniş ictimaiyyət üçün cazibəsi, yəni auditoriyanı cəlb etməsi və tamaşaçıları özünə bağlaması vurğulanır (Danilova, 2018). İdman kommunikasiyasının müxtəlif sosial və əyləncə funksiyaları, idman xəbərlərinin auditoriya ilə əlaqələri, habelə tamaşaçıların bu xəbərlərə marağı idmanın qlobal fenomenə çevrilməsinə təsirini izah edir.

## Ədəbiyyat

Danilova, M.N. (2018). Sport kak fenomen mediakommunikatsii. *Voprosy teorii i praktiki zhurnalistiki,* 7(3), 519-538. https://dx.doi.org/10.17150/2308-6203.2018.7(3).519-538

https://az.wikipedia.org/wiki/BT_Sport

Idman https://az.wikipedia.org/w

Kanallar, 2024, https://www.espn.com/

Rusya spor kanalları, 2024 https://en.wikipedia.org/wiki

Spor kanalları listesi, 2024, https://en.wikipedia.org/wiki/

Spor kanalları listesi, 2024, https://en.wikipedia.org/wiki/

Spor kanalları, 2024, https://en.wikipedia.org/wiki/

Spor kanalları, 2024, https://en.wikipedia.org/wiki/List_of_

Spor Kitle İletişim Araçlarının Toplumun Davranışı ve Sağlığı Üzerindeki Etkisi, https://www.mdpi.com/1660-4601/16/3/486

Spor tv kanalları, 2024, https://en.wikipedia.org/wiki

Spor, https://www.cbcsport.az/
Türkiyede yayın yapan spor kanalları, 2024)https://tr.wikipedia.org

Wenner, L. A. (2022). *The Oxford Handbook of sport and society*. Oxford University Press.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:05.11.2024*
*Kabul tarihi |Accepted:09.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Könül Niftəliyeva**

*https://orcid.org/0000-0003-3565-5421*
*Associate Professor, Doctor of Philosophy in Philology, Baku State University, Faculty of Journalism, Department of New Media and Communication, Azerbaijan, kenul.nifteliyeva@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Niftəliyeva, K. (2024).Transnasional telekanalların tipoloji xarakterini formalaşdıran faktorlar (2000-2015-ci illər). *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue, 11* (1), 57-66.

# Transnasional telekanalların tipoloji xarakterini formalaşdıran faktorlar (2000-2015-ci illər)

***Xülasə***

*XX əsrin sonu və XXI əsrin başlanğıcında baş verən dəyişiklik və yeniləşmə prosesləri media aləmində daha çox hiss olundu. Jurnalistika, KİV sistemi yeni dövrə, yeni eraya keçdi. Məqalədə yeni əsrdə elektron jurnalistikanın yeni inkişaf dalğasına, elektron informasiya vasitələrinin digitallaşma prosesinə nəzər salınmışdır. Araşdırmada medianın yaradıcılıq xarakteri də dəyişilməsi, «məhəlli» jurnalistikada Qərb standartlarının formalaşması və tətbiq olunması təhlil edilmişdir. Beynəlxalq aləmdə transnasional mətbuatın, transnasional telesetlərin xarakterinə, onların hansı prinsiplərlə fəaliyyət göstərdiyi təhlilə cəlb etmək edilmişdir. Transnasional – qlobal telekanalların tipoloji xarakterinə və bu xarakteri formalaşdıran faktorlara diqqət edilmişdir. Çünki bu faktorların öyrənilməsi onların tətbiqinə və milli, məhəlli telekanalların beynəlxalq arenaya çıxmasına zəmin yarada bilər. Nəticə olaraq dünyanın informasiyaya möhtac olduğu dövrdə dünyanı məşğul edən, beynəlxalq mühitin maraq dairəsində olan informasiyaların əldə olunmasında və peşəkarlıqla ötürülməsində transmilli TV kanallarının çox ciddi yanaşdıqları bir fəaliyyət prinsipi olduğu qənaətinə gəlinmişdir.*

***Açar sözlər:*** *TV, TV kanal, tipologiya, kütləvi informasiya vasitələri, kanal, transmilli*

BY NC Creative Commons Licence

# Typological structure of transnational television channels Shaping factors (2000-2015)

***Abtract***

*At the end of the 20th century and the beginning of the 21st century, the processes of change and renewal were felt most in the media world. Journalism and the media system have entered a new era, a new age. This article examines the new wave of development of electronic journalism in the new century and the process of digitalisation of electronic media. It also analyses the changing creative structure of the media and the formation and implementation of Western standards in 'local' journalism. The aim is to analyse the nature and principles of functioning of transnational press and transnational television networks in the international world. The typological character of transnational-global television channels and the factors shaping this character are emphasised. Because the study of these factors can pave the way for their implementation and the opening of national and local television channels to the international arena. As a result, it is concluded that in a time when the world is in need of information, the acquisition and professional transmission of information of interest to the international community and of interest to the world is a principle of action that transnational television channels should take very seriously.*

***Keywords:*** *TV, TV channel, typology, mass media, channel, transnational*

## Giriş

XX əsrin sonu və XXI əsrin başlanğıcı nəinki ayrı-ayrı ölkələrdə, habelə bütün dünyada ciddi dəyişikliklərlə müşaiyət olundu. Bu dəyişiklik və onun fonunda baş verən yeniləşmə prosesləri media aləmində daha çox hiss olunmaqdadır. Jurnalistika, KİV sistemi yeni dövrə, yeni eraya keçmişdir. "*Transnasional planda dünya jurnalistikası tamamilə yeni bir keyfiyyətə keçir ki, bu da bir neçə faktla bağlıdır. Əvvəla, jurnalistin fəaliyyəti ilə, informasiya ötürülməsinin maksimum operativliyinə şərait yaradan yeni texnologiyanın inkişafi ilə, ikincisi, qloballaşma ilə"* (Zasurskiy, 1997, s. 3). Belə bir müşahidə çoxdan mövcuddur ki, "sputnik texnologiyası informasiyanın yer kürəsinin istənilən nöqtəsində fərdi istehlakçıya çatdırılmasına şərait yaradır" (Məmmədli, 2013, s.71). İnternet televiziyasının getdikcə geniş vüsət tapması ənənəvi telekanalları düşünməyə, rəqabətə dözüm üçün yeni forma və formatlar axtarmağa məcbur edir.

## 1. Yeni inkişaf dalğası

Yeni əsrdə elektron jurnalistikanın yeni inkişaf dalğası gözlənilir. «Bu dalğa artıq elektron informasiya vasitələrinin digitallaşma prosesi ilə bağlıdır. Rəqəmli elektron informasiya vasitələri kimi başa düşülən bu keyfiyyət jurnalistikada informasiyanın maneəsiz ötürülməsi, tezliyin dəfələrlə artımı, təsvirin stereosəviyyəsi deməkdir (Məmmədli, 2013, s. 83). Medianın yaradıcılıq xarakteri də dəyişməkdədir. Bu gün «məhəlli» jurnalistikada Qərb

standartları formalaşmış və tətbiq olunmaqdadır. "*Xarici kütləvi informasiya vasitələrinin təcrübəsi milli jurnalistikanın inkişafına çox kömək edir"* (Mixaylov, 2002, s. 7). Ona görə də beynəlxalq aləmdə transnasional mətbuatın, transnasional telesetlərin xarakterini, onların hansı prinsiplərlə fəaliyyət göstərdiyini təhlilə cəlb etmək çox vacibdir. İlk növbədə isə transnasional – qlobal telekanalların tipoloji xarakterinə və bu xarakteri formalaşdıran faktorlara diqqət etməliyik. Çünki bu faktorların öyrənilməsi onların tətbiqinə və milli, məhəlli telekanalların beynəlxalq arenaya çıxmasına zəmin yarada bilər. Bunun isə bariz nümunəsi kimi Al-Jazeera TV kanalını göstərmək olar. Təcrübə, fakt varsa, deməli, ideyanı həyata keçirməyin yolları da mövcuddur. Bu mənada transnasional telekanalların tipologiyası xüsusi maraq kəsb edir.

Əlbəttə, hər bir media qurumunda olduğu kimi, transnasional telekanallarda da tipoloji xarakteri formalaşdıran bir sıra faktorlar içərisində telekanalın informasiya siyasəti ilkin rol oynayır. Artıq dünya telemühitində xeyli vaxtdan bəri formalaşmış və transnasional telesetlər kimi qəbul olunmuş televiziya kanalları öz tematikasına görə informasiya, elmi-kütləvi və əyləncə istiqamətləri üzrə fəaliyyət göstərən obyektlərdir. Həmin telekanalların aşağıdakı təsnifatını vermək olar:

***Cədvəl: Telekanalların Təsnifatı***

| İnformasiya | Elmi-kütləvi | Əyləncəli |
|---|---|---|
| İnformasiyanı əsas tutan universal telekanallar<br>*CNN İnternational*<br>*BCC World* | Universal xarakterli<br>*National Geoqraphic*<br>*Discovery* | Musiqi kanalları<br>*MTV*<br>*VH-1*<br>*Mezzo* |
| Regional universal xəbər kanalları<br>*Euronews*<br>*Deutsche Welle*<br>*Al-Jazeera*<br>*ANN*<br>Maliyyə-iqtisadi xəbərlər kanalları<br>*CNBC*<br>*Bloomberq TV* | Tematik kanallar<br>*Discovery Travel and Adventure (səyahət və əhvalatlar)*<br>*Travel (səyahət)* | Kinofilm və telefilm kanalları<br>*TNT*<br>*TCM*<br>*MGM*<br>*Hallmark*<br>Uşaq kanalları<br>*Nickelodeon*<br>*Fox Kids*<br>*Cartoon Network* |
| Qlobal idman kanalları<br>*ESPN İnternational*<br>Regional idman kanalları | Tematik kanallar<br>*Discovery Civilization (sivilizasiya)* | Regional universal teleset<br>*BBC Prime* |

| | | |
|---|---|---|
| *Eurosportnews*<br>Regional idman - əyləncə kanalları<br>*TV-5*<br>*TV E*<br>*BBC Ameriqa*<br>*MBC* | *Discovery Science (elm)*<br>*Animal Planet (heyvanlar aləmi)* | Və digərləri<br>*Fashion TV*<br>*Reality TV* |

Cədvəldən də göründüyü kimi, CNN telekanalı öz tipoloji xarakterinə görə birbaşa informasiya kanalıdır, transnasional mahiyyət kəsb edir və demək olar ki, ötən əsrin 90-cı illərinin ortalarından daha çox hadisə yerindən canlı yayıma üstünlük verməsilə seçilir. Bu televiziyanın xəbərə bağlı tipoloji xarakteri onun yarandığı ilk çağlarından formalaşmağa başlamışdır. Bu mənada onun yaranma tarixinə qısa bir nəzər salaq.

**2. Kommersiya kanalları**

Qeyd edək ki, CNN kommersiya kanalıdır. "*Kommersiya televiziya kanalları – son illərdə dünyada ən çox inkişaf edən formadır. Kommersiya televiziya kanalları kommersiya məqsədi güdür, əsasən auditoriyaya işləyir. Dünya televiziyası hazırda bu tendensiya ilə inkişaf edir*" (Məmmədli, 2013, s. 545). Özəl telekanal anlayışı ilə də adlanan bu kanallar bazar münasibətləri strukturu kimi bazar qanunları ilə fəaliyyət göstərir. Məqsədi proqramlara qoşulan reklamlardan gəlir əldə etməkdir. Burdan da belə bir nəticə çıxır ki, özəl telekanal, əsasən proqramların reytinqinə söykənir. Burada reklam birinci, məzmun ikincidir. Ancaq bazarın sərt qanunları məzmuna etinasızlığı da bağışlamır və ona görə özəl kanallar bu cəhətə də ciddi fikir verməyə məhkumdur.

Kommersiya məqsədləri xüsusilə maarifçi, tərbiyəvi, dərkedici proqramları sonuncu plana keçirir.

*"İnkişaf etmiş Qərb ölkələrində, eləcə də ABŞ-da kommersiya televiziya kanallarının sayı və sambalı sürətlə artmaqdadır. Məsələn, ABŞ-da belə kanallar çoxdur. Onları ayrı-ayrı adamlar yaradır, təsis edirlər"* (Məmmədli, 2013, s. 545). CNN-in yaradıcısı Ted Terner 1938-ci ildə Ohayo ştatında doğulub. Orta hərbi məktəbdən sonra daxil olduğu Braun universitetindən qeyri-ciddi hərəkətlərinə görə qovulub. Yalnız 50 yaşında ali təhsil diplomu alıb. İntihar edib dünyasını dəyişən atasından da ona heç bir miras qalmayıb. Olan-qalan kiçik reklam müəssisəni atası əvvəlcədən rəqabət aparan müəssisəyə satmışdı. Belə bioqrafiya ilə hər kəs çoxdan ruhdan düşüb taleyini allaha tapşırardı. T.Terner atasının satdığı kompaniyanı geri qaytarır. Bu kompaniyada bir az pul qazanıb onu satır və Atlantada kiçik bir telestudiya alır.

Tezliklə burada işi qaydaya salır və sputnik antennası ilə bütün Amerikaya yayımlayır. On ildən sonra, TBS kabel TV stansiyasını təşkil edir. Daha bir ildən sonra o, qlobal sputnik kanalı təşkil etmək ideyasını gerçəkləşdirməyə başlayır. Sutkanın 24 saatını hadisə yerindən verilişləri yayımlayacaq bu kanal CNN olasıdır. Bu tipli kanal hələ dünyada yox idi. Bu ideyanı həyata keçirmək həm də ABŞ-ın ABC, NBC, CBS kimi nəhəng kanalları ilə mücadiləyə girmək demək idi.

1980-ci ildə o özünün 100 milyon dollarlıq bütün vəsaitini ideyanın gerçəkləşməsinə qoyur. 1980-ci il iyulun biri CNN-in doğum günüdür. İlk vaxtlar kanalın diqqəti cəlb etdiyi mövzular: rok-qrup konsertləri, prezident seçkiləri, kosmik gəminin havaya qalxması və s. Tarix tamaşaçıların gözü qarşısında yaranırdı. Düz bir ildən sonra CNN Yaponiyaya, Avropaya yayımlanır (Dobrovolskin, 2000, s. 32-33). 1989-cu ildə artıq CNN-in 50 milyon abunəçisi vardı. 1992-ci ildə bu rəqəm 198 milyona çatdı. İndi CNN-in 300 milyondan çox abunəçisi var. Hələ 2005-ci ilin faktları ilə danışsaq, ildə 800 milyon dollar gəlir götürür. Təmiz qazanc isə 250 milyon dollara yaxındır. ABŞ-ın daha bir transnasional telekanallarından olan “NBS News” televiziyası öz xarakteri ilə universal olub, xeyli dərəcələ informasiyaya meyli ilə fərqlənir. Bu kanalın ayrıca yaradıcılıq kodeksi ilk növbədə qurumun xəbər redaksiyasına istiqamətlənir.

Amerika Birləşmiş Ştatlarında fəaliyyət göstərən və dünya telekanalları içərisində özünəməxsus yeri olan bu telekanal özünün fəaliyyət prinsiplərini əks etdirən sənədinin birinci abzasında yazır: *"Jurnalistikanın çox maraqlı cəhətlərindən biri baş verəcək hər hansı situasiyanın qəti qərar tələb edən gözlənilməzliyidir. Ona görə də biz öz fəaliyyətimizdə xəbərlər şöbəsinin (“NBS News”) ənənəvi məqsədlərini, dəqiq və qərəzsiz olmaq prinsipini rəhbər tutmalıyıq. En-Bi-Si kanalına çoxdan şərəf gətirən vicdanlılıq və peşəkarlıq bizim işimizin əsasını təşkil etməlidir"* (Qolyadkin, 1995, s. 203). Göründüyü kimi, burada jurnalist yaradıcılığına, habelə telejurnalistə xas olan dörd əsas keyfiyyət diqqətə çatdırılır: dəqiqlik, qərəzsizlik, vicdanlılıq və peşəkarlıq. Telejurnalistikada dəqiqlik bir az da artıq əhəmiyyət kəsb edir. Çünki onun auditoriyası son dərəcə böyükdür. Bu auditoriya qeyri-dəqiq məlumatla fəsadlı nəticələrə düçar ola bilər.

### 3. Transnasional TV kanalları

Transnasional TV kanalları dəqiqliyə nail olmaq üçün çox müxtəlif yollardan istifadə edir. Faktların dəqiq təqdimi “En-Bi-Si nyus”un birinci dərəcəli vəzifəsidir" (Qolyadkin, 1995, s. 203). Biz bəzən eyni hadisənin təqdimində fakt müxtəlifliyinə tez-tez rast gəlirik. 2002-ci il sentyabrın 28-də Seneqalda baş verən bərə qəzası zamanı ölənlərin sayını Moskva, Türkiyə və Azərbaycan telekanalının hər biri müvafiq olaraq 40, 30, 50, 70 nəfər rəqəmləri ilə təqdim etdi. Belə anlarda hələ faktların dəqiqləşmədiyini tamaşaçıya bildirmək çox vacibdir.

Transnasional kanalların elə yaradıcılıq məqamları var ki, bu məqamlarda necə hərəkət etmək, hadisələri hansı yöndə, hansı prinsiplərlə işıqlandırmaq sahəsində artıq onların xeyli dəqiqləşmiş praktikası formalaşmışdır. Müntəzəm olaraq baş verən və baş verəcəyi labüd olan hadisələr mövcuddur ki, onların işıqlandırılmasında Qərb standartları vardır. Bu sırada seçki kampaniyaları, vətəndaş iğtişaşları, ictimai rəy sorğuları, terrorizm, mətbuat konfransları, ayrı-ayrı informasiya mənbələri kimi qəbul edilən adamlarla müsahibələr, jurnalist araşdırmaları, böhtan, şəxsi həyat məsələləri, məhkəmə prosesləri və s. mövzu dairələrini qeyd etmək olar.

Qeyd etdiyimiz məqamlardan, mövzulardan bəzilərinə diqqət edək: Vətəndaş iğtişaşları. Heç bir ölkə vətəndaş iğtişaşlarından sığortalanmayıb. Hər bir öləkədə bu və ya digər səbəbdən vətəndaş iğtişaşları baş verə bilər. Telejurnalistikanın mütləq işıqlandıracağı hadisələr sırasında vətəndaş iğtişaşları ictimai maraq dairəsində xüsusi yer tutur. İctimaiyyət bu ixtişaşların səbəbini, miqyasını, nəticələrini, görülən rəsmi tədbirləri bilmək istəyir. "NBS News" telekanalı öz prinsiplərində vətəndaş iğtişaşlarının işıqlandırılması ilə bağlı maraqlı model hazırlamışdır. Həmin modelə olduğu kimi diqqət edək: "NBS News"un fikrincə, vətəndaş iğtişaşlarının işıqlandırılması zamanı hər hansı bir komissiya və ya komitənin məsləhətlərinə deyil, təcrübəli, peşəkar jurnalistlərin yaxşı praktikasına söykənmək vacibdir. Bu tipli fövqalədə vəziyyət bəzən o qədər kəskin olur və ehtirasları elə coşdurur ki, hadisələrin təqdimatında redaktorlar dəqiqlik, vaciblik, mülahizələrin düzgünlüyü, olayların inkişafını analamaq, qərəzsizlik və informasiyanın harmoniyalılığı kimi məsələlərdə çox diqqətli və ehtiyatlı olmalıdırlar. 2011-ci ildən başlayaraq ərəb ölkələrində, xüsusilə Liviya, Suriya, Misirdə baş verən vətəndaş iğtişaşları bu barədə jurnalistin ehtiyatlı olmağına təcrübi əsas verir. Bu iğtişaşlarda, hətta, Ərəb Dövlətləri Liqası nümayəndələrinin də təzyiqlərə, güllələrə tuş gəldiyi faktları baş verdi. Transnasional telekanallar öz repotyorlarına tapşırırlar:

1. Əgər polis, yaxud digər məsul idarə və adamlar ixtişaşları «üsyan» kimi qiymətləndirmirlərsə, bu ifadəni siz də işlətməyin.
2. Sözü deyən adamı mütləq qeyd edin: Sözün müəllifinin kompetent informasiya mənbəyi olması çox vacibdir.
3. Dəqiqləşdirilməmiş şayiələr fəlakətə gətirib çıxara bilər.
4. Digər narahat rayonlarda «adamların yığılması» barədə xəbər verməkdən, habelə şəhərdə gərginliyin artacağı və yeni iğtişaşların mümkünlüyü barədə informasiyadan qaçın. Bizim borcumuz yalnız baş verən və baş verməkdə olan hadisələr barədə məlumat verməkdir. Biz hər hansı bir bankın iflası barədə əvvəlcədən xəbər vermədiyimiz kimi, zorakılıqlar barədə də öncəgörmələrlə məşğul deyilik.
5. Öz müxbirlərinizi tezliklə potensial münaqişə ocaqlarına göndərin. Hətta hadisələr

barədə tezliklə məlumat verə bilməsək də, öz müxbirlərimizin olayları yerində dəqiqləşdirməsi çox vacibdir.

6. İğtişaş iştirakçılarının hər hansı birindən aldığınız müsahibələrə şübhə ilə yanaşın. Belə müsahibələr çətin ki, obyektiv olsun. Bu müsahibələr informasiyadan çox emosiyaların coşmasına təsir göstərir. Faydalı faktları polis, hakimiyyət nümayəndələri, yaxud öz fikrini yaxşı ifadə edən müşahidəçilər verə bilər.

7. Yalançı «liderlərdən» müsahibə alarkən çox ehtiyatlı olmaq lazımdır. Çünki onlar daha çox özünü göstərir, əsəbləri gərginləşdirir, sensasiya yaradır və məsələyə dəxli ola biləcək heç bir informasiya verə bilmirlər. «Davakar» və ya «aktiv», təkbaşına qərar qəbul edən şəxsləri «lider» adlandırmayın. «Lider» - özünün ardıcılları olan və adətən tanınmış təşkilata rəhbərlik edən adamlara deyirlər. «Aktivistlər» hər hansı bir ictimai sahədən olub heç bir təşkilatı təmsil etmirlər.

8. Jurnalistlərin dilində qəlibləşən, fakta uyğun gəlməyən «gərginlik artdı», «şəhəri lərzəyə saldı», «polislər nümayişçilərlə toqquşdu», «yeni toqquşmalar təhlükəsi var» və s. tipli ifadələrdən qaçın. Baş verənələr haqqında sakitcə, fakta əsaslanaraq sadəcə xəbər verin.

9. İğtişaşların baş verdiyi yerlərdə çəkiliş vasitələrindən istifadə edərkən maksimum qüvvə sərf etmək lazımdır ki, kütlə sizi hiss etməsin. Kamera kütlənin ehtiraslarını coşdura bilər.

10. Ehtiyat tələb edən daha bir neçə məqam: Əldəqayırma silahların istehsalı üsullarını təsvir etməkdən çəkinin. Montaj zamanı biabırçı məqamları, söyüş və böhtanları süjetdən çıxarın. Yalnız hadisələrin əsl iştirakçılarının çıxışlarını lentə alın. Adamların diqqətini cəlb etmək üçün əvvəlcədən öz hərəkətlərini məşq etmiş və bunu aydın şəkildə nümayiş etdirməyə çıxan adamlardan və qruplardan uzaq olun.

11. Sonuncu və ən ciddi bir qeyd: Biz hadisələri quraşdırmırıq, imitasiya etmirik, qaydaları pozmağı və ona təsir göstərməyi təşkil etmirik. Biz baş verən hadisələri göstəririk, əgər hadisə anında orada olmamışıqsa, özümüzdən hadisə düzəltmirik. Habelə biz onların yaranmasına da cəhd göstərmirik. Bu sadə göstərişi pozmaq olmaz. Bu qaydanı pozmağa görə En-Bi-Si çox sərt cəza tədbiri tətbiq edə bilər (Qolyadkin, 1995, s. 203). Transnasional kanalların hər birinin həm ümumi, həm də birbaşa özünə məxsus prinsirləri mövcuddur.Ümumi prinsiplər sırasında *"dramatizm, faciəvilik, konfliktlilik, maraqların toqquşması, görümlülük, müharibə, qəzalar, terror hadisələri bu telesetlərin informasiya süjetlərində əsas yer tutur"* (Orlova, 2003, s. 34). Belə kanallar üçün gözlənilməz hadisələrə cəld reaksiya, baş verənlərə yeni münasibət, araşdırma marağı və s. kimi faktlar aparıcıdır (Orlova, 2003, s. 34). Bütün bunlarlabaölı, məsələn, CNN-in ABŞ-da 11 sentyabr 2001 –ci ildəki terror hadisəsinə, rus hərbi

təyyarəsinin Türkiyə tərəfindən vurulması, Parisdə törədilmiş terror aktı və s. hadisələrə canlı yayım müdaxiləsi kimi faktları misal göstərmək olar. Ayrı-ayrı telekanallarda hiss olunan özünəməxsusluq elementləri isə onların hər birinin yaradıcılıq xarakteridir ki, bunlarsız rəqabətə tab gətirmək çətin olardı. Xüsusi qeyd etmək istərdik ki, Azərbaycan telemühitində gtransmilli telekanalların bəzi informasiya formatları özünü göstərməkdədir. Məsələn, vaxtilə özünün dünya teletəcrübəsinə yaradıcı münasibətilə xeyli irəli gedən ANS BBC, CNN kimi transmilli TV kanallarının yaradıcılıq prinsiplərinə, xüsusilə informasiyanın gün ərzində müxtəlif formatlarda çatdırılmasına diqqət yetirməsi ilə seçilirdi. Beləliklə, telejurnalistikanın Qərb standartlarının, habelə transmilli TV-lərin təcrübəsinin bizim üçün də yararlı olduğu göz qabağındadır.

Haqqında bəhs etdiyimiz bu telekanallar, demək olar ki, dünyanın bütün regionlarını əhatə edir. Onların auditoriyası elə buna görə çox genişdir. Məsələn, tipoloji xarakterinə görə əyləncə istiqamətli (musiqi) MTV 700 milyonluq auditoriyaya malikdir. Bu televiziya gənclərin musiqi və dizayn zövqünün formalaşmasına təsir edir. «İnformasiya kanalları isə artıq dünya siyasətinin idarə olunmasında mühüm rol oynayır» (Kasls, 2002, s. 325). Belə telekanallar da iki növə ayrılır. Birincilər universal xəbər kanalları, ikincilər maliyyə-iqtisadi xəbərlər kanalları kimi qiymətləndirilir. Belə kanalların tipoloji xarakteri artıq çoxdan formalaşmışdır və onlar birlikdə xeyli müddətdir ki, informasiya bazarında «transnasional xəbər tetesistemi» (Orlova, 2003, s. 34) adlandırılır.

**4. Kanalların tipoloji xarakteri**

Tipoloji xarakteri çoxdan müəyyənləşmiş belə telekanalların sırası getdikcə, çətin olsa da, artmaqdadır. Qərb dünyasının və xüsusilə Amerika Birləşmiş Ştatlarını 2000-ci illərdə sarsıdan beynəlxalq terrorizm hərəkatının lideri Ben Laden fenomeni, ABŞ-İraq müharibəsi, Əfqanıstan hadisələri, Avropanın dəstəyi ilə həyata keçirilməkdə olan, müasir günlərimizin prioritet media faktına çevrilən «Ərəb baharı» iğtişaşları, "İŞİD" hadisələri və s. olaylara münasibətdə həm siyasətçilərin, ayrı-ayrı dövlətlərin maraq dairəsində olan faktların gizli məqamlarını ustalıqla, möhtəşəm peşəkarlıqla ortaya çıxaran, ən təhlükəli terror qüvvələrini efirə çıxara bilən, dünyanın gedişinə təsir gücü ilə heyrət doğuran «Al-Jazeera» televiziya kanalı bu sıraya qoşulan və öz reytinqinə görə bir az da qabağa gedən bir media qurumu kimi heyrət doğurmaqdadır. Bu tip telekanallar informasiya bazarında qəqabəti udmaq üçün bir tərəfdən faktı tapmaq, bu sahədə hamıdan operativ olmağa cəhd göstərirlərsə, digər tərəfdən peşəkarlığın ən mühüm komponentlərinə əməl etməklə dünya tamaşaçısının inamını, etibarını qazanırlar. Digər tərəfdən, bu kanalların rəqabətdə udmaları və qloballaşmağı onların dünya xəbərlərini demək olar ki, anında, «birbaşa, real zaman daxilində tamaşaçıya təqdimatları ilə də çox

bağlıdır» (Orlova, 2003, S.50-51). Özünün dəqiq tipoloji adına - «universal telekanal»-epitetinə malik belə kanallara qəqib kimi indi Avropada «Euronews», «Sky News», «Deuts che Welle», «Eurosportnews», ərəb ölkələrində «ANN», «Al-Arabiya», ABŞ-da «MSNBC», «Fox News», İngiltərədə «BBC News», Braziliyada «Globo News» kimi kanallar qoşulmaqdadır» (Orlova,2003, S.50). Bu telekanalların əksəriyyətində informasiya ilkin yerdə dayanır. Onlarda baş xəbərdən törəyən digər proqramlar var ki, həmin verilişlər günün əsas xəbərini dünyada qəbul olunmuş aparıcıların idarəsi və ən ciddi ekspertlərin iştirakı ilə təhlilə cəlb edirlər. Xeyli dərəcədə sadə şəkildə olsa da, günün prioritet xəbəri Azərbaycanın «ANS» telekanalında bu formatda təhlilə cəlb edilir. Deməli, transnasional telesetlərin təcrübəsi sadə, məhəlli şəkildə olsa da, bu milli telekanallara gəlib çıxmaqdadır.

**Nəticə**

Dünya informasiyaya möhtacdır. Informasiyasız bir gün boş və məzmunsuz görünərdi. Dünyanı məşğul edən, beynəlxalq mühitin maraq dairəsində olan informasiyaların əldə olunması və peşəkarlıqla ötürülməsi transmilli TV kanallarının çox ciddi yanaşdıqları bir fəaliyyət prinsipidir. Bu missiyanı peşəkarlıqla yerinə yetirən həmin telekanallar artıq dünya siyasətinin, diplomatik görüşlərin iştirakçısına çevrilmişlər. Bu kanallar beynəlxalq ictimai fikrin daşıyıcısı funksiyasına malik olub, dünya siyasətinin formalaşmasına öz təsirini göstərməkdədirlər. Məşhur telenəzəriyyəşi S. Muratovun fikrincə, bu günkü televiziya yaranacaq tarixin əvvəlidir. Tarix dünyaya baxışdan başlayır. Transmilli televiziyalar təkcə informasiya təqdim etmək deyil, həm də yeni anlayış kimi qəbul edilən dünya ictimaiyyətində yeni dəyərlər formalaşdıran vasitələrdir. Bu telekanallarınsubyekti-cəmiyyətdir. Dünyaya yeni baxışın yeni subyekti dünya birliyidir. Hər hansı bir konkret dövlət deyil, bəşəriyyətdir. Dünyaya baxış insan və bəşəriyyət arasında ən yaxın məsafədir (Muratov, 2001, s. 46). Dünya nəzəri fikrinin də gəldiyi nəticəyə görə, "*transmilli TV kanalı kimi çox möhtəşəm bir tipoloji xarakterə gəlib çıxmaq üçün televiziya transmilli problemlıri daim gündəmdə saxlamalıdır*" (Robinson, 2001, s.16). Transmilli telekanallar öz tamaşaçılarına hadisələrə qlobal bucaqdan baxmağı, məsələlərə beynəlxalq miqyasda nəzər salmağı məsləhət görürlər. Bu günkü qloballaşan dünyada böyük dövlətlərin kiçik dövlətlərdə yaşayan xalqların milli mədəniyyətlərinə etinasızlıq göstərməsi, bu mədəniyyətin əriyib sıradan çıxmasına çalışdığı bir vaxtda transmilli telekanallar bütün mövcud milli dəyərlərin qorunub saxlanması və zənginləşməsi prosesinə xüsusi dəstək olurlar. Onları bütün dünya tamaşaçılarlna qəbul etdirən mühüm keyfiyyətlərdən biri də məhz bu istiqamətdəki fəaliyyətləridir.

## Ədəbiyyat

Dobrovolskin, Y.A. (2000) Ted Terner. Çelovek sdelavşiy mir qlobalnoy derevney. *Broadcasting jurnalı,* 3.

Kasls, M. (2002). Informatsionnyy sezon. Ekonomika, okruzhayushchaya sreda i kul'tura. M.: GU VSHE.

Qolyadkin, N. A. (1995). *TV informasiya v SŞA*. Moskva.

Məmmədli, C. (2013). *Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi.* Təhsil nəşr.

Mikhaylov, S. A. (2002). *Sovremennyy voyennyy zhurnal: pravda i paradoks*. Byvshaya Mikhaylova VA.

Muratov, S. A. (2001). *Televideniye na telekanalakh.* M. MGU.

Orlova, B. B. (2003). *Global'nyye telekanaly — novichki v novostnoy lente.* M. Rip-kholding.

Robinson, P. (2001). Theorizing the influence of media on world politics: Models of media influence on foreign policy. *European Journal of Communication, 16* (4), 523-544.

Zasurskiy, YA.N. (1997). Zhurnalistika v perekhodnyy period. Vestnik Moskovskogo universiteta. *Seriya,* 10, 17-28.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*
*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:07.11.2024*
*Kabul tarihi |Accepted:10.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Gülnarə Sadıqova**

**https://orcid.org/0000 - 0001 -9296- 8956**
*Associate Professor, candidate of philological sciences, Baku State University, Faculty of Journalism, Department of New Media and Communication Theories, Azerbaijan, nunasadiq@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Sadıqova, G. (2024). Аналитическая публицистика в журналистской деятельности Алибека Гусейнзаде. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 67-75.

# Аналитическая публицистика в журналистской деятельности Алибека Гусейнзаде

***Резюме***

*В статье освещается аналитическая публицистика Алибека Гусейнзаде, внесшего весомый вклад в развитие журналистики в Азербайджане конца XIX- начала XX века. А.Гусейнзаде – журналист широкой эрудиции, острого ума и писательского таланта. Будучи публицистом, имел способность глубокого анализа, владел аналитическим и критическим мышлением, автор блестящих аналитических статей, написанных на азербайджанском, турецком и русском языках, отличающихся тематическим и жанровым разнообразием. Жанровая палитра публициста в основном состоит из глубоких по своему содержанию и осмыслению статей. Затрагивая самые актуальные проблемы своей эпохи, автором были написаны ряд статей. В исследование были включены статьи, написанные А.Гусейнзаде на русском языке. Это "Несколько слов о турецких армянах", "Немцы на Ближнем Востоке", "Мусульмане и научно-европейская медицина", "Предохранительные противохолерные прививки", "Еще о медицинской помощи Туземцам", "Прерванная жизнь", "Турецкая газета о*

CC BY NC Creative Commons Licence

*панисламизме", "Сон", "К причинам позорных событий в городе Баку", "Еще о примере женщины", "Англо-Германское столкновение и мусульманский мир", "Что такое младотуречество?" В статье подчеркивается богатое публицистическое мастерство А.Гусейнзаде, который пытался вести реформаторскую деятельность в общественно-политической и культурной жизни своего народа, сформировать идеологию «азербайджанства». Он остро реагировал на политические события в мире и давал блестящий анализ происходящему.*

***Ключевые слова**: аналитическая журналистика, аналитическая статья, анализ, логическое мышление, фактический материал, актуальная тема*

## Analytical journalism in the journalistic activity of Alibek Huseynzadeh

***Abstract***

*The article highlights analytical journalism of Alibek Huseynzade, who made a significant contribution to the development of journalism in Azerbaijan at the end of XIX-beginning of XX century. A.Huseynzade was a journalist of wide erudition, sharp mind and writing talent. Being a publicist, he had the ability of deep analysis, possessed analytical and critical thinking, the author of brilliant analytical articles written in Azer-Bajdan, Turkish and Russian languages, distinguished by thematic and genre diversity. The genre palette of the publicist mainly consists of articles that are deep in their content and reflection. The author wrote a number of articles touching upon the most urgent problems of his epoch. The study included articles written by A.Huseynzadeh in Russian. These are 'A few words about Turkish Armenians', 'Germans in the Middle East', 'Muslims and scientific-European medicine', 'Preventive anti-cholera inoculations', 'More about medical aid to the natives', 'Interrupted life', 'Turkish newspaper about pan-Islamism', 'Dream', 'To the reasons of disgraceful events in Baku city', 'More about the example of a woman', 'Anglo-German clash and the Muslim world', 'What is Young Turkism?'. The article emphasises rich publicistic skill of A.Huseynzade, who tried to conduct reforming activity in social-political and cultural life of his people, to form ideology of 'Azerbaijanism'. He reacted keenly to political events in the world and gave brilliant analyses of what was happening.*

***Keywords:** analytical journalism, analytical article, analysis, logical thinking, factual material, actual topic*

### Введение

«Начало XX века является эпохой возрождения в общественно-политической и культурно-нравственной жизни Азербайджана. Появление и расширение национальной печати помогло движению и активизации национально-освободительных процессов и демократических идей. В этот период под влиянием печати «В национальной Азербайджанской общественной мысли появились решения таких проблем как национализм, тюркизм» (Vəliyev, 1999). Если раньше людей этой национальности называли «мусульманами», «предками фарсов», «татарами» и т.д., то передовые

мыслители Азербайджана старались внушить своему народу его собственное расположение. И вся эта ситуация была результатом российской идеологии, старающейся растоптать культурное наследие народов и, таким образом, господствовать над ними. Самым страшным явлением для российского царизма была просвещенность и образованность угнетенных народов. Особое предостережение в этом отношении было к передовым мыслителям, перекрывались все пути, чтобы предотвратить осуществления передовых идей.

**1.Зарождение аналитической публицистики**

Особенностью и значимостью печати Азербайджана конца XIX, начала XX века было поднятие общественно-политических проблем. Это были первые шаги за независимость. Журналистика начинает выдвигать вперед идеи национализма, публикуя на страницах печати политические статьи. Вторая половина XIX века отличает деятельность классиков-публицистов Азербайджана особым развитием в аналитической журналистике. Этот период был ознаменован просветителями, ведущими активную пропаганду в повышении национального самосознания, знаний человеческих прав, в обогащении морально-культурных ценностей - как наследство для будущих поколений. Классики-публицисты Азербайджана М.Ф.Ахундов, Дж.Мамедкулизаде, А.Гусейнзаде, А.Агаев, М.А.Расулзаде, Уз.Гаджибеков и многие др. были людьми творческими, желающими блага для своего народа.

Именно под влиянием таких личностей в начале XX века формируются литературные школы. Сам период влияет на появление различного типа печатных органов. Недаром Дж.Мамедкулизаде писал, что «Моллу Насреддин» «создала сама история, его создала сама природа» (Məmmədquluzadə, 1967).

Считавшийся школой журналистского мастерства, он в первую очередь, является идеологическим движением против царизма и местного самоуправления. Журнал призывал народ к борьбе за освобождение, уничтожению несправедливости. Обращаясь к темному, забитому эксплуатацией народу «Молла Насреддин» указывал: «Если бы вы были бы людьми, ... если бы обладали бы мужеством, ... если бы были бы сознательными, ... то какой бы деспот посмел бы посягнуть на ваши человеческие права" (Molla Nəsrəddin jurnnalı, 1907). Развитие аналитической публицистики происходило в результате затрагиваемых актуальных тем того времени – это свобода слова, проблемы в области образования, политики и науки, национальных ценностей тюркских народов, вопросы исламской религии, юридическая защита прав женщин, и т.д. Прогрессивные идеи

излагались в таких ведущих печатных органах как «Экинчи», «Шерги-Рус», «Каспий», «Фиюзат», «Хаят», «Молла Насреддин» и др.

Главного редактора газеты «Экинчи» Гасанбека Зардаби можно считать основателем жанровых форм, в которых частично выявлялись элементы репортажа, отчета и статьи. Формирование аналитических жанров, в особенности статьи, берет свое начало с первых же номеров этой газеты. Например, в переписке Г.Б.Зардаби с М.Ф.Ахундовым ведутся диалоги, где обсуждаются проблемы образования, актуальное для конца XIX в.: «Если бы кавказские мусульмане отложили бы за год двадцать тысяч манатов, а не тратили бы их на пустые нужды, то можно было бы сделать вложение в образование, печатать газеты и научные книги, и дети могли бы учиться в школах и изучать иностранные языки... Но я понимаю, мой друг, мои слова тебе покажутся смешными, ведь все это не более чем мечта», - пишет Г.Зардаби. На что М.Ф.Ахундов отвечает: «Ты в каждом номере пишешь о том, что мусульмане должны учиться, изучать науки, ведешь активную пропаганду в целях образования - и это хорошо, только возникают вопросы: кто их будет учить и на каких языках?» (Yaqub, Aydınoğlu, Tofiqli & Zöhrablı, 2010). В результате активной творческой деятельности ведущих писателей-публицистов Азербайджана зарождались на страницах печатных органов аналитические материалы, которые публиковались и в русскоязычной прессе. Таковыми были газеты «Бакинский листок», «Бакинские известия», «Каспий» и др.

**2. Статьи А.Гусейнзаде**

Объектом данного исследования является аналитическая публицистика выдающегося просветителя, мыслителя, отлично владеющего аналитическим мышлением А.Гусейнзаде, которым в газете «Каспий» были опубликованы ряд аналитических статей: “Несколько слов о турецких армянах” (1904-24/I, №19), “Немцы на Ближнем Востоке” (1904-7/III, № 61), ”Мусульмане и научно-европейская медицина” (1904-7/IV, № 101), ”Предохранительные противохолерные прививки” (1904-18/VIII, № 187), ”Еще о медицинской помощи Туземцам” (1904-27/VIII, № 194), ”Прерванная жизнь” (1904-2/XII, № 270), ”Турецкая газета о панисламизме” (1904-19/XII, № 282), ”Сон” (1904-24/XII, № 286), ”К причинам позорных событий в городе Баку” (1905-18/II, № 26), ”Еще о примере женщины” (1905-20/II, № 28), ”Англо-Германское столкновение и мусульманский мир” (1905-25/II, № 32), ”Что такое младотуречество?” (1905-27/III, № 55). Эти статьи по своему общественно-историческому и аналитическому мышлению имеют значимость для научно-теоретических исследований.

А.Гусейнзаде как журналист-аналитик, имеющий свою точку зрения, и научный подход комментирует происходящие общественно-политические, общественно-культурные процессы и международные отношения. В его публицистике имеют место высказывания по поводу науки, политики, творчества и культуры Азербайджана. Одним из аналитических статей, затрагивающий международные отношения является ”Англо-Германское столкновение и мусульманский мир” (Quseynzade, 1905). «…Безпристанно, почти каждый день вы слышите нечто новое, поражающее своею неожиданностью: телеграфы и газеты то приносять известия о новых перестановках и сочетанияхь в политической группировке государстве о новых союзахь, о новых договорахь, заключенных в целях раздела какой-нибуд инетной, неподвижной, не знающей культурнаго движения страны, то сообщають о новых культурно политическихь движенияхь вь разных частяхь света, движенияхь совершенно до сихь порь неслыханных и неведомых то поражають ваш слух сообщениями о столкновениях между собою соседнихь, до сихь порь более чем дружных народностей. Члены тройственного союза Австрия и Италия угрожають другь другу войною. Угрожають другь другу и объединенныя в одно королевства Швеция и Норвегия: отношения славянских государств между собою все более и более обостряются, в самой столице союзницы России происходять анти-руския демонстрации; в мусульманском мире, на лоне халифата происходить какое то новое разединение; арабы ссорятся с турками и т.д. от всего этого получается впечатление, указывающее, что мы в настоящее переживаемь в высшей степени важный момент мировой истории, важной по своим социальным, экономическимь и политическимь последствиямь, что почти все возбужденное человечество, охваченное каким то неопределеннымь, но неудержимым и сильным движением, стремится е. чему то новому, желать стряхнуть с себя остатки и наследие прошлаго отвернуться от всего, что спокойно продолжало существовать еще до вчерашняго дня и произведя общий переворот создать совершенно новую эру!..» (Quseynzade, 1905). А.Гусейнзаде в статье «Англо-Германское столкновение и мусульманский мир» анализирует международное положение между Австрией и Италией, которые угрожают друг другу войной, угрожают друг другу и объединенные в одно королевство Швеция и Норвегия: отношения славянских государств между собою все более и более обостряются, в самой столице союзниками России происходят анти-русские демонстрации; в мусульманском мире, на лоне халифата происходит какое то новое разъединение; арабы сорятся с турками и т.д. Комментируя происходящие

процессы между странами, А.Гусейнзаде приходит к выводу, что от данной ситуации создается впечатление, что в настоящее время происходит важный момент в мировой истории, который может привести к социальным, экономическим и политическим последствиям. Почти все возбужденное человечество, охваченное каким-то неопределенным, но неудержимым и сильным движением, стремится к чему-то новому, желает встряхнуть с себя остатки и наследие прошлого, отвернуться от всего, что спокойно продолжало существовать еще до вчерашнего дня и сделав переворот создаст совершенно новую эру.

Наряду с актуальными темами страны, в творчестве А.Гусейнзаде главное место занимает тюркизм. Одну из них привлечем к анализу. Это масштабная аналитическая статья под названием «Немцы на Ближнем Востоке». В ней затрагиваются серьезные политические вопросы и международные отношения. Автор анализирует, используя сравнительный метод аналитической журналистики, сопоставив интересы восточных народов с прогрессирующим европейским народом: «В то время, как каждая нация и государство Европы в каждый данный момент точно определяет свои существенные, жизненные интересы и даже старается предугадать их для недалекого будущего, чтобы сообразовать с ними все свои социальные, политические и экономические действия, сближаться с другими народами, выражать свои симпатии, входить в союзы и т.д., - на Востоке продолжают жить легендами и гипнотизироваться страницами истории» (Quseynzade, 1904a). Во введении статьи «Немцы на Ближнем Востоке» Алибек Гусейнзаде дает знать об источнике информации, который стал поводом для анализа данной проблематики.

«В последнее время на персидском языке за границею, (а именно в Константинополе, хотя на обертке почему то значится в Египте) появилась одна довольно оригинальная книга под названием «Путешествие Ибрагим-бея по Персии». Книга, без сомнения, написанная свобода мыслящим персидским патриотом (имя автора не упоминается), подвергает сомой едкой сатиры современную Персию. Хотя книга эта была запрещена персидским правительством, тем не менее она сильно распространилась среди персиян. О содержании этого персидского «Дон-Кихота» мы поговорим в другой раз. Чудесь же коснемся политической статье, которая в виде приложения, помещена в конце этого сатирического сочинения. В ней автор подробно останавливается на вопросе о том, какой путь в политике должна начертать себе Персия, как ей следует опасаться Англии и т.д (Quseynzade, 1904a). В статье А.Гусейнзаде анализирует содержание книги,

вышедшей в Турции под названием «Путешествие Ибрагим-бея по Персии», автором которого, по словам Али бека является свободномыслящий персидский патриот. Имя автора книги, которая была запрещена персидским правительством, не упоминается и Алибек называет его «Дон-Кихот»ом. Он дает глубокий анализ приложению, помещенной в конце книги, написанный в сатирическом стиле: «Чудесь же коснемся политической статье, которая в виде приложения, помещена в конце этого сатирического сочинения» (Quseynzade, 1904a). В ней автор подробно останавливается на вопросе о том, какой путь в политике должна начертать себе Персия, как ей следует опасаться Англии и т.д.

«Автор, хотя и горячий патриот, очевидно, все еще руководствуется устарелыми взглядами и принимает во внимание более историю, чем жизненные современные интересы Персии. В этом отношении турецкая интеллигенция, далеко опередившая персидскую, и более чуткая к интересам настоящего, давно уже выяснила себе истинное положение дел и давно уже составила себе определенные и верные взгляды на положение Турции к иностранцам. По мнению посвященных турок, не загипнотизированных событиями истории, опасность турецкому народу грозит вовсе не со стороны славян, России, Франции или даже Англии: славянские государства Балкан слишком малы и слишком враждебны друг к другу, чтобы состязаться с Оттоманской Империей, да и такое состязание было бы громадной ошибкой, которой воспользовались бы общие враги как славян так и турок» (Quseynzade, 1904a). А.Гусейнзаде в статье проводит четкий анализ культурно-нравственным отношениям народов. Далее, раскрываются дипломатические отношения целых государств: «Истинно-образованные турки уверены, что Оттоманский империи и народу, а вместе с тем и всему мусульманскому миру в недалеком будущем грозит опасность «пангерманистов». Как это на первый взгляд не кажется странным, они приводят в подтверждение этого ряда веских доводов: если до сих пор немцам, этим «друзьям» и «инструкторам» не удается выступать на Ближнем Востоке активно в своей опасной роли, только потому, что она парализуется и уравновешивается Англией, Францией и особенно Россией. Вот почему, пока немцы предпочитают оставаться под маской «дружбы». Далее:

«В мировой политике, говорит посвященный турок, особо актуальную роль играют четыре первоклассных государства – Россия, Франция, Англия и Германия, эта последняя только со времени своего объединения, после французско-прусской войны 1971 г. (после испано-американской войны, кажется выступают в такой же роли С.-А.

Соединенные штаты). Из этих четырех государств Англия на морях почти повелевает. Она давно уже, пользуясь своими преимуществами островного положения, смутами и войнами на континенте Европы, захватила самые богатые и плодородные страны мира, овладела лучшими экономическими рынками и уже так насыщена, что, кажется, ей более некуда расширяться: Египет, Южная Африка, Индия, Австралия, Канада, ряд бесчисленных островов, проливов и проч. Фактически принадлежат ей. По своим обширным колониальным владениям в Африке, Азии и Америке, Франция следует за ней: Алжир, Тунис, Мадагаскар, Тонкинг, Гвиана и пр. Ее колонии. Обширная же Россия по своему географическому положению исторически благоприятным обстоятельствам имеет перед собой целую Азию и двигается в ней вперед без перерыв но и уже дошла до Тихого океана» (Quseynzade, 1904a). В полемической статье «Несколько слов о турецких армянах» автор затрагивает серьезные общественно-культурные вопросы касательно армян, проживающих в Турции: «Для наглядности сказанного приведем следующие данные из отчета Европейского армянского студенчества за 1900 г. Всех студентов в этом году насчитывалось 271, из числа коих 161 владели родным языком, а для 110 студентов родной язык был чужд. Между последними 22 студента были из Галиции (Авсрия) и только 4-е из Турции, а все остальные, подавляющее большинство, из России. Таковы успехи армянской школы в Турции» (Quseynzade,1904b). Своими доводами, точными фактическими данными, аргументациями, автор доказывает комфортное проживание армян, проживающих в Турции. В этой стране армяне получают образование, имеют доступ к печатным органам, участвуют в высших государственных структурах, одним словом, имеют все юридические права. Для доказательства А.Гусейнзаде использует сравнительный метод, характерный для аналитической журналистики. Демонстрируя на фоне активного национально-культурного состояния армян, проживающих в Турции с армянами, проживающими в России.

**Заключение**

Диапазон затрагиваемых Алибеком Гусейнзаде общественно-политических тем по своим масштабам - всесторонний. Наряду исследованными нами статьями на международные темы, в статьях «Мусульмане и научно-европейская медицина» Quseynzade, 1904c). «Предохранительные противохолерные прививки» (Quseynzade, 1904d). «Еще о медицинской помощи туземцам» (Quseynzade, 1904e). А.Гусейнзаде исследует вопросы медицины, социальное и общественно-культурное состояние страны. Ссылаясь на фактические данные критикует негативное положение медицины того

времени в Азербайджане - как профессиональный врач дает выход из проблемной ситуации. Статья «Несколько слов о турецких армянах» (Quseynzade, 1904b) занимает особое место среди аналитических материалов Алибека своим полемическим стилем, где дается оперативный отклик на необъективное выступление армянского журналиста относительно армянских школ в Турции. И является примером для современных журналистов-аналитиков в сфере полемических выступлений. Выдающийся просветитель своего времени мастерски подходит к глобальным проблемам, используя методы анализа, логическое мышление, комплекс положений, рассуждений, суждений и умозаключений, т.е. анализирует систему доказательств, опирающихся на фактические данные, анализирует международные отношения между странами, приводит факты, с профессионализмом аргументирует происходящие процессы. Алибек не просто дает информацию о происходящих насущных проблемах, он как аналитик показывает пути их решения. Исследование наследия А.Гусейнзаде имеет огромное значение с точки зрения определения принципов нынешней общественно-политической эволюции и сохранения национально-духовных ценностей.

**Использованная литература**

Quseynzade A. (1904e). *Eşe o mediçinskoy pomoşi Tuzemçam.* Qazeta Kaspiy. -27/VIII.

Quseynzade, A. (1904d). *Predoxranitelnıe protivoxolernıe privivki.* Qazeta Kaspiy, 18/VIII, № 187.

Quseynzade, A. (1904a). *Nemçi na Blijnem Vostoke.* Qazeta Kaspiy, 7/III, № 61.

Quseynzade, A. (1904b). *Neskolko slov o tureskix armyanax.* Qazeta Kaspiy, 24/I, №19.

Quseynzade, A. (1904c). *Musulmani i nauçno-evropeyskaya medisina.* Qazeta Kaspiy, 7/IV, № 101.

Quseynzade, A. (1905). *Anqlo-Qermanskoe stolknovenie i musulmanskiy mir.* Qazeta Kaspiy, 25/II, № 32.

Məmmədquluzadə, C. (1967). *Əsərləri,* (C.II). Azərnəşr.

*Molla Nəsrəddin jurnnalı.*(1907). 23.XII, № 48. № 194.

Vəliyev, Ş. (1999). *Fiyuzat ədəbi məktəbi.* Bakı.

Yaqub, M., Aydınoğlu, T., Tofiqli, V., Zöhrablı, N. (red. hey.; burax. məs. V. Tofiqli). (2010). *Həsən bəy Zərdabi və Əkinçi.* bioqrafik məqalələr, məktublar, xatirələr, tədqiqatlar. Bakı.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*
*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:10.11.2024*
*Kabul tarihi |Accepted:10.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Allahverdi Məmmədli**

**https://orcid.org/0009-0009-7936-5507**
*Professor, Baku State University, Faculty of Journalism, Department of Multimedia and Electronic Communication, Azerbaijan, allahverdimammadli1956@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Məmmədli, A. (2024). Şuşa zirvəsindən işıq saçan bədii söz sərrafı. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 76-86.

# Şuşa zirvəsindən işıq saçan bədii söz sərrafı

***Xülasə***

*Məqalədə Azərbaycanın və bütün türk dünyasının mədəniyyət paytaxtı olan Şuşada doğulmuş, bədii söz sənətimizin sarsılmaz sütunu olan görkəmli yazıçı-dramaturq, mollanəsrəddinçi ədib Əbdürrəhim bəy Haqverdiyevin həyat və yaradıcılıq yolundan bəhs edilir. Əbdürrəhim bəy o şəxsiyyətlərdəndir ki, UNESCO-nun görkəmli şəxsiyyətlər siyahısına daxil edilmiş və 2020 -ci ildə anadan olmasının 150 illik yubileyi təntənə ilə qeyd edilmişdir. Məqalədə əsas məqsəd Əbdürrəhim bəy Haqverdiyevin ömür yolunu vərəqləmək, bədii yaradıcılığını eımi təhlilə cəlb etməkdir. Bu yaradıcılığın məziyyətlərini və özünəməxsus cəhətlərini araşdırmaqdır. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycan xalqının dəyər verdiyi görkəmli şəxsiyyətlərdən biridir. O, həyatını və yaradıcılığını Azərbaycan xalqının inkişafına, Azərbaycan dilinin qorunmasına sərf etmişdir. Millətini sivil görmək onun yaradıcılığının əsas qayəsi idi. Məqalədə Əbdürrəhim bəy Haqverdiyevin həyatı araşdırılır, yaradıcılığına nəzər salınır. Əsasən, mollanəsrəddinçi ədib kimi yaradıcılığı təhlil obyektinə çevrilir. Belə bir elmi nəticəyə gəlinir ki, Əbdürrəhim bəy Haqverdiyev ictimai həyatdan tutmuş məişət həyatınadək bütün məqamlarda azərbaycanlınlı yüksəkdə görmək arzusu ilə yazıb-yaratmışdır. O, əsərlərində mollanəsrəddinçiliyə daim sadiq qalmış, Vətənin azadlığına, xalqın*

BY NC
Creative Commons Licence

*oyanışına, müstəqil düşünməsinə, haqqı nahaqdan seçməsinə, ana dilinin geniş yayılmasına və qorunmasına səy göstərmişdir.*

***Açar sözlər:*** *Şuşa, Əbdürrəhim bəy Haqverdiyev, "Molla Nəsrəddin", vətən, millət, ana dili*

## A literary metaphor shining from the summit of Shusha

***Abstract***

*The article discusses the life and creative path of Abdurrahim bey Haqverdiyev, born in Shusha, the cultural capital of Azerbaijan and the entire Turkic world, the unshakable pillar of our literature, the supporter of Molla Nasreddin, a prominent writer-dramatist. Abdurrahim Bey is one of the names included in the list of UNESCO's distinguished personalities and whose 150th anniversary of his birth was enthusiastically celebrated in 2020. The main purpose of the article is to examine the life journey of Abdurrahim Bey Haqverdiyev and comprehensively analyse his artistic creativity. It aims to explore the values and unique aspects of creativity. He devoted his life and creativity to the development of the Azerbaijani people and the preservation of the Azerbaijani language. The life and works of Abdurrahim bey Haqverdiyev are analysed in the article. It is scientifically concluded that Abdurrahim bey Haqverdiyev wrote and created with the desire to see Azerbaijanis at the top in every field from public life to daily life. In his works, he always remained faithful to the ideology of Molla Nasreddin and defended such goals as the freedom of the homeland, the awakening of the people, free thought, choosing the right from the wrong, the spread and protection of the mother tongue.*

***Keywords:*** *Shusha, Abdurrahim bey Haqverdiyev, Mullah Nasreddin, homeland, nation*

## Giriş

2020-ci ilin mayında Azərbaycan ədəbiyyatının gökəmli nünayəndəsi, böyük dramaturq, nasir, publisist, teatr təşkilatçısı, tanınmış ictimai xadim Əbdürrəhim bəy Haqverdiyevin anadan olmasının 150 ili tamamlandı. Ədibin adının UNESCO-nun 2020-2021-ci illər üçün görkəmli şəxslərin və əlamətdar hadisələrin yubileyləri siyahısına daxil edilməsi çoxəsrlik ədəbiyyatımızın parlaq siması olan ədibin mənəvi sərvətlərimizi və ali ümumbəşəri dəyərləri özündə təcəssüm etdirən humanist ruhlu yaradıcılığının lazımınca və yüksək qiymətləndirilməsinin aydın təzahürüdür.

Əbdürrəhim bəy Haqverdiyevin yaşadığı dövrdə milli özünüdərk, Vətənin istiqlalı, millətin oyanıb öz haqqını tələb etməsi, ana dilinin yad təsirlərdən qorunması, gözəl milli adət-ənənələrə sədaqət kimi amillərə diqqət artırdı. Şübhəsiz ki, Əbdürrəhim bəy Haqverdiyevin də bədii yaradıcılığı bu amillərdən qaynaqlanırdı. Azərbaycan reallığının böyük simalarından və "Molla Nəsrəddin" ədəbi məktəbinin sayğılı nümayəndələrindən biri kimi Əbdürrəhim bəy Haqverdiyevin yaradıcılığı xalqı ilə bir yerdə olmağın, ağrı-acılarını bircə yaşamağın, səmimi dərdləşməyin və xalqını böyük inkişafda görmək arzusunun bədii təcəssümüdür. Təkcə

Azərbaycanın deyil, bütövlükdə Şərqin qəflət yuxusundan oyanmasına güclü təsir göstərmiş "Molla Nəsrəddin" jurnalının özü və onun əsasında yaranan ədəbi məktəb və bu məktəbin nümayəndələri yüz illik tarixi dövrü aşaraq müasirliyini, aktuallığını bu gün də saxlamaqdadır. "Molla Nəsrəddin" ədəbi məktəbinin tanınmış nümayəndələri sırasında Əbdürrəhim bəy Haqverdiyevin də adı xalqımız və ədəbiyyatşünaslar tərəfindən böyük ehtiramla çəkilir. Tanınmış ədəbiyyatşünas alim Firudin Hüseynov yazırdı ki, "Molla Nəsrəddin" jurnalının azərbaycançılıq ideyasının daşıyıcıları – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Məmməd Səid Ordubadi və başqalarının durduğu cərgədə Əbdürrəhim bəy Haqverdiyevin öz yeri, öz xidmətləri var" (Hüseynov, 1984).

Azərbaycan reallığının böyük simalarından və "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli yazarlarından biri kimi "Əbdürrəhim bəy Haqverdiyevin bədii yaradıcılığı xalqı ilə dərdləşmək və onu böyük tərəqqiyə, təkamülə yetirmək vasitəsi olmuşdur" (Mütəllimov, 1988). Vətənini istiqlala qovuşdurmaq, millətini tərəqqiyə çatdırmaq, ana dilinin gözəlliyini qorumaq arzularının gerçəkləşməsi üçün Əbdürrəhim bəy Haqverdiyev bir tərəfdən bədii nəsrin, dramaturgiyanın imkanlarından, digər tərəfdən mətbuatın və xüsusilə "Molla Nəsrəddin" tribunasından məharətlə istifadə etmişdir.

## 1. Həyatı

Azərbaycan ədəbiyyatı tarixində silinməz izi olan, dramaturq, nasir, publisist, teatr təşkilatçısı, ictimai xadim Əbdürrəhim bəy Haqverdiyev 17 may 1870-ci ildə Şuşada rus və fars dillərini bilən məmur Əsəd bəyin ailəsində anadan olmuşdur. Üç yaşında atası vəfat edir. Anası ərə gedir. Onu bir müddət əmisi Əbdülkərim bəy saxlayır. Əmisi Əbdülkərim bəy də varlı və savadlı olub. Ancaq 5 yaşı olanda əmisi də vəfat edir. Acınacaqlı günlər yaşamalı olur. Əmisi arvadının və onun qardaşının şiddətinə məruz qalır. Evdən qaçır və anasının yanına gedir. Ögey atası Həsənəli bəy onu öz oğlu kimi qəbul edir, tərbiyəsinin və təhsilinin qayğısına qalır. Rus dilini ona ögey atası Həsənəli bəy öyrədir. 1881-ci ildə Şuşada rusdilli realnı məktəbə daxil olur. Sonra atalığı Həsənəli bəyin köməyi ilə Tiflisə gedir və orada 1890-cı ildə "Realni Məktəb"də təhsilini başa vurur. Tiflis mühiti onun dünyagörüşündə mühüm rol oynayır... Burada tamaşalara baxır və teatra marağı yaranır.

1891-ci ildə ali təhsil almaq üçün Peterburqa gedir. Yol Mühəndisləri İnstitutunda təhsilə başlayır. Ədəbiyyata olan marağı təhsilini yarımçıq qoymasına və Peterburq Universitetinin Şərqşünaslıq fakültəsində dinləyici kimi iştirak etməsinə səbəb olur... Peterburqda özü demiş "mükəmməl teatro" görür. Məhz elə Peterburqda ilk teatr əsərlərini "Yeyərsən qaz ətini, görərsən ləzzətini" (1892) komediyasını və "Dağılan tifaq" (1896) faciəsini yazır. Əbdürrəhim

bəy Haqverdiyevin ictimai – siyasi fəaliyyəti də zəngindir. Peterburqda yaradılmış Qarabağın yetim uşaqlarına, yoxsul və aclıq çəkən ailələrinə yardım edən "İslam Xeyriyyə Cəmiyyəti"nin əsas təşkilatçılarından olmuşdur. 1899-cu ildə, Peterburqda universiteti bitirdikdən sonra Şuşada və Bakıda fəaliyyət göstərmişdir. Şuşada ilk "Şərq konserti"ni təşkil etmişdir. 1905-ci ildə Yelizavetpol (indiki Gəncə) quberniyasından Birinci Dövlət Dumasının üzvü seçilmiş, 1906-cı ilin sonunadək Peterburqda yaşamışdır. Əbdürrəhim bəy Haqverdiyev Azərbaycanın ilk operasının ilk dirijoru kimi tarixə düşmüşdür. Bu opera 1908-ci ildə Bakıda tamaşaya qoyulan Üzeyir Hacıbəylinin "Leyli və Məcnun" operası idi. Əbdürrəhim bəy Haqverdiyev həm də tədqiqatçı olmuşdur. Mirzə Fətəli Axundzadənin həyatını və ədəbi irsini araşdırmışdır. Mirzə Fətəli Axundzadənin yubiley tədbirlərinin təşkilatçılarından olmuş və onun anadan olmasının 100 illiyi şərəfinə "Xəyalət" adlı pyes yazmışdır. 1916-1917-ci illərdə Tiflisdə "Şəhərlər İttifaqının Qafqaz bölməsinin xəbərləri" jurnalının redaktoru olmuş, Borçalı qəzasının komissarı seçilmişdir. 1918-1919-cu illərdə Gürcüstan parlamentində deputat kimi Gürcüstanda yaşayan azərbaycanlıları təmsil etmişdir. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Dağıstanda diplomatik nümayəndə kimi fəaliyyət göstərmiş, Ermənistanda səfir işləmişdir. Sovet hakimiyyəti illərində Azərbaycan Dövlət Teatrının komissarı, Dövlət Kinematoqrafiya Komitəsi İncəsənət şöbəsinin müdiri təyin olunmuşdur. 1921-1930-cu illərdə Bakı Dövlət Universitetində Azərbaycan ədəbiyyatı tarixini və Azərbaycan dilini tədris etmişdir. Universitetin Şərq fakültəsinin katibi vəzifəsində işləmişdir. 1924-cü ildə SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Ədəbi fəaliyyətinə, mədəni quruculuq sahəsində xidmətlərinə görə 1928-ci ildə ona Azərbaycan SSR-in Əməkdar İncəsənət Xadimi fəxri adı verilmişdir. Əbdürrəhim bəy Haqverdiyev 1933-cü il dekabrın 11-də Bakıda ürək xəstəliyindən vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

## 2. Mollanəsrəddinçi ədibin yaradıcılığına bir nəzər

Əbdürrəhim bəy Haqverdiyev hekayələrində tipik obrazlar yaradır və həmin obrazlar vasitəsilə milləti özünü dərk etməyə, istiqlalını qazanmağa, inkişafa hazırlayır. O, milli kolo-ritdən, milli məişətdən çıxış edərək ya bunu bəyənir, təbliğ edir, ya da köhnəliyi tənqid edib, yeniliyi duymağa çağırır. Bu mənada ədibin portret yaradıcılığı üzərində dayanmaq olar. Məsələn, ədib tipik bir azərbaycanlını, - *"Şeyx Şəbanı elə canlı və real rəsm etmişdir ki, biz onu nə vaxtsa, hardasa görmüş kimi çox yaxından tanıyırıq. Şeyx Şəbanın azərbaycanlı xarakterini… bütün aydınlığı ilə görə bilirik*" (Mütəllimov, 1981, s. 31-32).

Yazıçının digər əsərlərində yaratdığı ağ çuxalı, ağ arxalıqlı, buxara papaqlı, gümüş kəmərli, baməzə təbiətli, məğrur Mirzə Səfər, qarasaçlı, qaragözlü və "qara telli" Haqq

Mövcud, əynində qədim sazəndələrimizin milli geyimi olan sənət fədaisi tarzən Cavad, habelə ədibin zəngin həyat müşahidəsi və fantaziyasının köməyi ilə nəzərimizdə canlandıra bildiyi onlarla belə surətlər xalqımızın ictimai tarixindən, keçmiş məişət tərzindən, etnoqrafik əlvanlığından zəngin məlumat verir, öz zamanları haqqında maraqlı hekayələr danışırlar! Biz də bu surətlərin şəxsi xarakteri ilə çox yaxından tanış olduğumuz üçün onların taleyini bütün əsər boyu böyük maraq və həyəcanla izləyir, sevinc və kədərləri ilə yaşayırıq. Məhz belə orijinal surətlər silsiləsi, xarakterlər qalereyası Əbdürrəhim bəy Haqverdiyevi bədii yaradıcılıqda mahir portret ustası kimi şöhrətləndirmişdir. Ədib bədii portretdən mürəkkəb insan xaraekterinin tam açılmasında, psixoloji təhlildə əlverişli və qüvvətli bir vasitə kimi məharətlə istifadə etmiş, bəzən də onun ən səciyyəvi əlamətlərini məhz bu yolla aşkara çıxara bilmişdir. Əbdürrəhim bəy Haqverdiyevin bu əsərdə yaratdığı tipik obrazlar bütöv bir xalqın mənəvi dünyasının bədii təqdimi kimi azərbaycançılıq ideyasına xidmət edir. Bədii əsərdəki ideyanın həllində ordakı surətlərin fərdi və ictimai taleləri, arzu və idealları, əməlləri başlıca vasitədir. Müəllif fikri, adətən, əsərdəki surətlər vasitəsilə öz ifadəsini tapmış olur. Sənətkar əsərinin ideyasını özü üçün konkretləşdirdiyi kimi, həmin ideyanın bilavasitə "icraçıları" olan surətləri də canlı bir insan kimi konkret və aydın şəkildə görməyi və göstərməyi bacarmalıdır. Çünki bədii əsərlər müxtəlif taleli, müxtəlif xarakterli insanların həyatına dair ibrətli lövhələrdən, insanlıq haqqında sənətkar ideallarının bədii təcəssümündən ibarətdir. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığın bu keyfiyyətlərini özündə yaşadan sənətkardır. Qeyd edək ki, ədibin jurnalda fəaliyyəti mövzuları və problemlərin qoyuluşu baxımından birbaşa azərbaycançılıqla əlaqədardır. O, dövrü, zamanı, hadisələrin məcrasını çox gözəl anlayan bir ziyalı kimi redaksiyasına qədəm qoyduğu "Molla Nəsrəddin" jurnalının tribunasından maksimum istifadə etməyi bacarmışdı. .

Bütövlükdə, mollanəsrəddinçilərin gücü onların böyük ictimai idealları ilə bağlı olduğu kimi, bu yazıçının da yaradıcılıq taleyi xalqla bağlıdır. Onun ictimai idealları sırasında Azərbaycanın azadlığı və müstəqilliyi, xalqın mənəvi inkişafı, milli adət-ənənələrin, ana dilinin qorunması ön sıralarda dururdu. Əbdürrəhim bəy Haqverdiyev öz xalqının potensial gücünə bələd idi. Çünki o, *"öz xalqını və torpağını, onun qədim mədəniyyətini, tarixini, ədəbiyyatını çox yaxşı bilən, bütün qabiliyyətini, istedadını, milli tərəqqi və intibah yolunda əsirgəməyən vətəndaş sənətkar olmuşdu"* (Mütəllimov, 1981, s. 31-32). O, özünün irili-xırdalı bütün əsərlərində millətinin mənəvi dəyərlərinin qorunması, onun zənginləşdirilməsi, dünya dəyərlərini saf-çürük edərək azərbaycançılıq amillərinin gücləndirilməsi problemlərini önə çəkmişdir. Əbdürrəhim bəy Haqverdiyev felyetonları və satirik hekayələri ilə öz ideallarının xalqda gerçəkləşməsinə cəhd göstərmişdir.

"Molla Nəsrəddin"in əməkdaşları sırasında xalqı yaxşı anlayan və onun dərdlərinə əlac axtaran bir ədib kimi Əbdürrəhim bəy Haqverdiyev sözü özünə silah seçmişdir. Jurnalın yaradıcısı və ideya rəhbəri Cəlil Məmmədquluzadə "Xatiratım"da yazırdı: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil, "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam" (Məmmədquluzadə, 1985, s. 66). Bu "ağsaqqal yoldaşın" yaradıcılıq işində ən çox söykəndiyi ədiblər sırasında Əbdürrəhim bəy Haqverdiyev xüsusi yer tutur. "Molla Nəsrəddin"in müqtədir nasirlərindən, bədii gülüş ustası Əbdürrəhim bəy Haqverdiyev Xortdan, Ceyranəli, Mozalan bəy imzalarını qəbul etmişdi" (Hüseynov, 1986, s. 22). Onun Azərbaycan xalqının kamilləşməsi, pis adət və ənənələrdən uzaqlaşması məqsədi ilə qələmə aldığı "Cəhənnəm məktubları", "Marallarım" silsiləsindən satirik hekayələri, "Mozalan bəyin səyahətnaməsi" əsəri jurnalın səhifələrində işıq üzü görmüşdür. Mollanəsrəddinçilərin hamısının əsas idealı Azərbaycan, onun inkişafı olmuşdur. Mövhumat, cəhalət, ədalətsizlik, insan hüquqlarının tapdanması, milli azadlıq uğrunda mübarizə, imperiya qüvvələrinin ifşası, savadsızlıq kimi mövzular bu ədiblərin qələmindən çıxıb insanı, cəmiyyəti yeniliyə aparırdı. Lakin elə mövzular da vardı ki, bunların bədii ifadəsi heç də hamıda uğurlu alınmırdı. Məsələn, insan azadlığı, azyaşlı qızların qoca kişilərə ərə verilməsi, çoxarvadlılıq, siğə və s. kimi pis adətləri ifşa edən ayrıca qələm ustaları vardı. Bu qələm sahibləri sırasında Əbdürrəhim bəy Haqverdiyevin də adı çəkilməlidir. Onun bu mövzularda olan felyeton və hekayələri böyük tərbiyəvi əhəmiyyət kəsb edir.

Əbdürrəhim bəy Haqverdiyevin jurnalda dərc olunan "Xortdanın cəhənnəm məktubları" öz cəsarəti, qaldırdığı problemləri, mövzu aktuallığı və nəhayət, bədii sənətkarlığı ilə fərqlənir. Onun "Molla Nəsrəddin"ə qədər də mətbu yaradıcılığı vardı. 1906-cı ildə "Həyat" qəzetində dərc etdirdiyi "Ata və oğul", "Ayın şahidliyi" hekayələrində insanın xislətində olan naqislikləri ifşa ilə onu kamilliyə çağırırdı. *"Molla Nəsrəddin" kimi qüdrətli bir jurnalın fəaliyyətə başlaması isə onun bədii nəsrinə... geniş meydan açmışdır*" (Mütəllimov, 1988, s. 101-102). Əbdürrəhim bəy Haqverdiyevin nəsr əsərləri azərbaycançılıq, vətənsevərlik ideyaları ilə zəngindir. İnsanı buxovlayan fanatizmə qarşı mübarizə, azadlıq, müstəqillik, bərabərlik arzuları, elmə, təhsilə, mədəniyyətə çağırış, Azərbaycan qadınının hüquqsuzluğuna və savadsızlığına etiraz məsələləri bu yaradıcılığın əsasını təşkil edir. *"Bədii söz sənəti, ümumiyyətlə, insanı kamil görmək missiyası daşıyır. Bu missiyanı həyata keçirmək üçün isə bədii söz sənətkarları iki mühüm yol seçirlər: Tənqid və ifşa etməklə, təqdir etməklə..."* (Məmmədli, 1998, s. 95). Əbdürrəhim bəy Haqverdiyev özünün lirik-psixoloji nəsr əsərləri ilə

bərabər “Mirzə Səfər”, “Çeşmək”, “Qiraət”, “Bomba”, “Mütrüb dəftəri”, “Acından təbib”, “Pir”, “Seyidlər ocağı” və başqa hekayələrində “Molla Nəsrəddin” ruhuna uyğun olaraq məhz ikinci yolu – ifşa yolu ilə kamilliyə çağırmaq yolunu tutmuşdur.

Ədibin “Xortdanın cəhənnəm məktubları” povesti ictimai xarakterinə, qoyduğu problemlərə və üslubuna görə “Molla Nəsrəddin” ədəbi məktəbinin misilsiz nümunəsidir. Bu povestdə yazıçı XIX əsrin sonu, XX əsrin əvvəlləri Azərbaycan mühitinin bədii portretini yaratmışdır. Povestdə mühitin doğurduğu ictimai qüsurlar, eybəcərliklər satirik üslubda ifşa olunmuşdur. “Molla Nəsrəddin” jurnalında hissə-hissə dərc olunan bu povest artıq ədibin bir sənətkar kimi estetik ideallarının göstəricisidir. Bu ideallar sırasında isə povestin təqdim etdiyi millətin kamil millət olması arzusudur. Millətin oyanması, haqqı nahaqdan seçməsi, qanunsuzluqlara göz yummaması bir azərbaycançı yazıçı kimi onun təlqin etdiyi əsas qayə idi.

“Xortdanın cəhənnəm məktubları”nda müəllif xüsusi bir ustalıqla xalqın bir sıra hallarda özünün-özünə gətirdiyi bəlaların, pis adətlərin, ədalətsizliyin, qeyri-insani keyfiyyətlərin qrotesk ifşasının şahidi oluruq. Müəllifin o dünyaya səyahətindən əvvəl Bakıdan Şuşaya gedərkən yol boyu gördükləri rus inqilabçı-publisisti Aleksandr Radişşevin “Peterburqdan Moskvaya səyahət” əsərindəki eybəcərliklər qədər ağır və məşəqqətlidir. Bu yollarda insanların bir-birini aldatması, oğurluq, quldurluq, “mömünlərin” fırıldaqları işfa olunur.

Əbdürrəhim bəy Haqverdiyev nəsrinin poetikasını tədqiq edən professor Təhsin Mütəllimov doğru qeyd edir ki, “bu əsərdə əsas məqsəd feodal-patriarxal Azərbaycanın ən ciddi və tipik ictimai qüsurlarını, eybəcərliklərini konkret bədii lövhələr və obrazlar vasitəsi ilə göstərmək, siyasi-ictimai uyğunsuzluqların səbəb və səbəbkarlarını izah etmək, tanıtmaqdır” (Mütəllimov, 1988, s. 120). Müəllifə görə xalq bu səbəb və səbəbkarları görüb tanısa, onun sivil dünyaya qovuşması tez baş verər. XIX əsrin sonu və XX əsrin əvvəlləri Azərbaycan ziyalılığının əsas məqsədi isə azərbaycanlını sivil görmək arzusu olmuşdur. Bütün bunlar “Molla Nəsrəddin” ədəbi məktəbinin və onu təmsil edənlərin azərbaycançılıq ruhuna uyğun idi. Təsadüfi deyil ki, *“Əbdürrəhim bəy Haqverdiyevin hekayəçilik fəaliyyəti... xüsusən, “Molla Nəsrəddin”in nəşrindən sonra başlanır”* (Hüseynov, F. vd., 1982). s. 171). “Xortdanın cəhənnəm məktubları” da həmin dövrün məhsuludur. Azərbaycanda özünü göstərən gerilik, varlı-yoxsul münasibətlərinin fəsadları, saxta din xadimlərinin bəd əməlləri tənqid edilir. Həm də bunlar tipik portretlər qalereyası ilə təqdim olunur.

“Xortdanın cəhənnəm məktubları” satirik portretlərlə zəngindir. Bu satirik portretlərdə milli xüsusuyyətlər-azərbaycançılıq keyfiyyətləri qabardılır. İstər müfəssəl olsun, istərsə müxtəsər, satirik portretlərin demək olar ki, hamısında ədibin surətə olan mənfi münasibəti, hətta

kinayəsi çox aydın və qabarıq şəkildə özünü biruzə verir. Daha doğrusu, belə hallarda bədii portret həm də əlverişli ifşa vasitəsinə çevrilir. Məsələn, *"Bu şəxs həm də Qocaqurd mahalının bəylərindən idi. Yoğun cüssəli, yoğun sifətli, qırmasaqqal, boyunun gödəkliyindən başı iki çiyinlərinin arasında gizlənmiş, çuxasının qolları əllərini örtmüş, şalvarının yuxarısı dar, aşağısı enli, yerişi və danışığı vüqar və təmkinli, amma söz demək istəyəndə ağzından zəhrimar axırdı və ilan dilinə oxşar bir dil çıxarırdı"* (Haqverdiyev, 2005, s. 2, 70). Bu təsviri oxuduqda nəzərimizdə çox yöndəmsiz və eybəcər bir sima canlanır. Həmin surətin fiziki əcaibliyi geyimindəki yöndəmsizliyini çox yaxşı tamamlayır. Yerişindəki və danışığındakı lovğalıq onu daha gülünc göstərir. Lakin ədib özünün mənfi münasibətini daha kəskin deməyi lazım bilir və təsvirin sonunda onu açıq rüsvay edir.

Əbdürrəhim bəy Haqverdiyev obrazın təsvirində portret detallarından istifadə etməyi çox sevir. Belə hallarda surətin zahiri görkəminin mükəmməl təsviri verilmir. Yalnız ən zəruri, səciyyəvi əlamətlərindən bəzisi nəzərə çatdırılır. Bu üsula, əsasən, ikinci, üçüncü dərəcəli surətlərin təsvirində təsadüf olunur. Məsələn, *"Meydanda bir nəfər dəllək mənim diqqətimi cəlb elədi. Bu adamın nə başında, nə də sifətində dərman üçün bir tük yox idi. Boyu azından bir sajen"* (Haqverdiyev, 2005, s. 2, 34). Xortdanın Ağdam bazarında rast gəldiyi usta Qulunun tamam tüksüz sifəti və bir sajenlik boyu oxucuda gülüş doğurur. Bu dəlləyin qarşısına çıxdığı kəndlilərin başını zorla qırxmaq adəti də nəql edilərkən o, daha gülünc görünür. Beləliklə, kiçik bir parçada surətin gülünc xarakteri və görünüşü haqqında çox yığcam və dəqiq təsəvvür yaranır.

Başqa bir misal. *"Bir nəfər arıq, uzunboğaz, başı şapkalı, əynində bozarmış serqut, təxminən qırx sinində şəxs, qabağında bir istəkan dişləmə çay, tez-tez yumruğunu yerə döyüb burnunu çəkərək onunla yanaşı oturmuş tənuməd, yoğun, qarasaqqal bir hampa kəndli ilə mübahisə eləyirdi"* (Haqverdiyev, 2005, s. 2, 20). Burada işdən qovulmuş kənd "uçiteli" ilə bir hampanın çox xəsis detallarla təsviri verilmişdir. Kənd "uçiteli" "başı şapkalı" və "əynində bozarmış serqut" olması ilə seçilir. Bu portret detallarının hamısı müəyyən bir məqsədə - azərbaycançılığa xidmət edir. Əslində, bütün bunlar azərbaycanlının özü-özünü tanımasına, çirkinliyini, eybəcərliyini görüb, ondan imtina etməsinə yönəlib. Bu isə azərbaycanlını qüsursuz, kamil görmək arzusundan, ədibin azərbaycançılıq niyyətindən irəli gəlir.

Ədibin "Molla Nəsrəddin"dəki başlıca mövzuları real həyatın və vaxtı keçmiş münasibətlərin tənqidindən ibarətdir. *"Öz vətəni olan Qarabağda, sonralar İslam Şərqində müşahidə etdiyi cəhaləti, haqsızlıqları kəskin satira atəşinə tutan, kəndli və əsnafın avamlığını təbii bir gülüşlə bizə söyləyən ədib böyük bir dövrü xarakterizə edən hekayələrində əlvan tiplər*

*silsiləsi yaratmış və bunlara ümumi simvolik bir ləqəb verib "maral" adlandırmışdır"* (Hüseynov, F. vd., 1982, s. 171). Əsərdən kiçik bir parça da onun haqqında təəssürat yaratmağa qadirdir: *"Hər yer mənim marallarımla doludur. Gözəl marallarım, göyçək marallarım... Hacı marallarım, kərbəlayi marallarım, məşədi marallarım, molla, rövzəxan, bəy-xan marallarım. Başları qapazlı, üzləri tüpürcəkli marallarım..."* (Haqverdiyev, 1971, s. 1, 55). Böyük tədqiqatçı-alim və yazıçı Mir Cəlal və ədəbiyyatşünas Firuddin Hüseynov Əbdürrəhim bəy Haqverdiyevin "Marallarım" əsəri barədə yazıblar: *"Bizim heç birimiz istəmirik və istəməzdik ki, ata-babalarımız bu əsərdə göstərilən dəhşətli aləmdə yaşamış olsunlar. Madam ki, bu, bir həqiqət imiş, biz cahil keçmişə, bizi gözübağlı saxlayanlara dərin nifrət edirik, qəzəblənirik. Biz ədibin hekayələrindən ayrı nəticə çıxarırıq: köhnə cəmiyyətin mirası olan o cəhalət dəhşətlərinə son qoymaq, onun qalıqlarını məhv etmək üçün camaata, lap avam camaata kömək etmək, ən uzaq və kənar guşələrdə, hətta ən geridə qalmış adamları da o köhnə həyatın cəngəlindən, qalıqlarından xilas etmək uğrunda daha inadla, daha kəskin mübarizə aparmaq lazımdır"* (Hüseynov, F. vd., 1982, s. 172). Bu mübarizə millətin azad yaşaması uğrunda böyük savaşın tərkib hissəsidir.

Əbdürrəhim bəy Haqverdiyev XX əsrin əvvəlləri Azərbaycan tənqidi realist ədəbiyyatının öncüllərindən idi. Nöqsanları ifşa yolu ilə aradan qaldırmağa üstünlük verirdi. *"Əbdürrəhim bəy Haqverdiyev müəllim ruhlu, tərbiyə verməyi sevən, əxlaq üzərində çox düşünən yazıçıdır"* (Haqverdiyev, 1971, s. 1, 12). Yalançı və fırıldaqçı adamların cəmiyyətə, məişətə gətirdiyi pozğunluğu ifadə edən "Qiraət" əsərində avam, sadəlövh, eyni zamanda məsum, sədaqətli arvadını aldadıb "qiraət" öyrənmək adına aşnası Nataşanın yanına gedən və üstəlik "müctəhid" adına yazıq arvadına hazırlatdığı plovu da götürüb kef məclisinə aparan "Maşaduşka"nı (Məşədini) müəllif tipik bir surət səviyyəsinə təsadüfən qaldırmayıb. Müəllif Məşədi Qulamların bu əxlaqını ifşa edərkən elə onun öz dili ilə qanmazlıq məqamlarını da ortaya qoyur: *"Allah kəssin müsəlmanın (azərbaycanlının-A.M.) evini, eşiyini, diriliyini, səliqəsini! Gözəl xörəkləri ortalığa bir sifətdə çıxarırlar ki, adamın ürəyi ağzına gəlir. Qab çirkli, süfrə bir halətdə ki, itin üstünə atsan, qudurub qaçar. Qaşıqlar sınıq, iki ildən yuyulmamış əl dəsmalı... Tfu... Gedirsən Nataşanın evinə, süfrə qardan ağ, çəngəl-bıçağın şəfəqindən göz qamaşır... Ağ libaslı, ağ döşlüklü qulluqçu, gözəl səliqə ilə xörəyi ortaya çıxarır. Nataşa özü paltarlarının ən lətifini geyib, gəlib əyləşir, ustolun başında... di gəl arvad ölmüş, hər nə yarar paltarı var geyir toya, hamama, yasa gedir. Evdə də adamın qabağında türkmən dilənçisi kimi dolanır. Üst-başından bozbaş iyi gəlir..."* (Haqverdiyev, 1971, s. 1, 175). Bu bədii parça azərbaycanlını məişət məqamında başqa xalqlarla müqayisədə çox tipik ifadə

etməkdədir.

Əbdürrəhim bəy Haqverdiyev "Molla Nəsrəddin"ə sədaqətli olduğunu jurnalın Bakı dövründə də sübut etmişdir. Cəlil Məmmədquluzadə ilə məslək dostluğunu həmişə saxlamış, jurnalın müdafiəçisi olmuşdur. Onun sovet dövründə yazdığı əsərlərinin mayasında mollanəsrəddinçilik ruhu yaşayır. Ədibin "Ağac gölgəsində", "Ədalət qapıları", "Köhnə dudman", "Yoldaş Koroğlu" pyeslərində, "Söhbət", "Diş ağrısı", "İanə" hekayələrində cəmiyyətdə olan mənfi hallar kəskin tənqid olunur. Yazıçının dili aydın, rəvan və şirindir. Əsərləri folklorla zəngindir.

**Nəticə**

Əbdürrəhim bəy Haqverdiyev həyatı və yaradıcılığı onun haqqında müəyyən nəticələrə gəlməyə əsaslar yaradır. Zəngin və örnək ola biləcək ömür yaşayıb. Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak edib. Ədəbiyyatşünas, pedaqoq, redaktor, teatr təşkilatçısı, əməkdar incəsənət xadimi, drijor, deputat, səfir və ən nəhayət, "Molla Nəsrəddin" ədəbi məktəbinin görkəmli nümayəndələrindən biri olub. Bütün bunlar həm şəxsiyyət kimi, həm də ədib kimi onun mükəmməl dünyagörüşünün və geniş erudisiyasının göstəricisidir. Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığının elmi təhlili göstərir ki, o, Azərbaycan realist ədəbiyyatını və maarifçi-demokratik fikrini yeni mərhələyə qaldıraraq milli düşüncənin inkişafında əhəmiyyətli rol oynayıb. Ustad sənətkar öz yaradıcılığında tipik obrazlar, orijional surətlər silsiləsi, xarakterlər qalareyası yaradıb. Ədib həqiqətən, mahir portret ustası idi. Vətənini, millətini sonsuz məhəbbətlə sevən yazıçı xalqın arzu və istəklərini əsərlərində dolşun əks etdirib. Millətini mədəni oyanışa və tərəqqiyə səsləyib. Əbdürrəhim bəy Haqverdiyev milli ideyanın – azərbaycançılıq ideyasının daşıyıcısı olub. Vətəninin taleyini, millətinin müqəddəratını düşünüb. Azərbaycan türkünü sivil görmək arzusu ilə yazıb-yaradıb. Azərbaycan dilinin ən böyük təəssübkeşi olub. Onun şirinliyini, gözəlliyini ədəbiyyata gətirib, qoruyub, inkişaf etdirib. Elmi araşdırmadan belə bir qənaət hasil olur ki, Əbdürrəhim bəy Haqverdiyev yaradıcılığı öz mövzusu, məzmunu və milli ideyası ilə dünən də aktual idi, bu gün də aktualdır, sabah da aktual olacaq.

**Ədəbiyyat**

Haqverdiyev, Ə. (1971). *Seçilmiş əsərləri,* (C.I). Azərnəşr.

Haqverdiyev, Ə. (2005). Seçilmiş əsərləri. (C.II). (tərtib edəni və ön sözün müəllifi K. Məmmədov). Lider.

Hüseynov, F. vd. (1982). *XX əsr Azərbaycan ədəbiyyatı.* Maarif.

Hüseynov, F. (1984, 20 noyabr). *Xalq faciələrinin ustad ifadəçisi.* Ədəbiyyat və incəsənət

qəzeti, 44.

Hüseynov, F. (1986). *Molla Nəsrəddin və mollanəsrəddinçilər.* Yazıçı.

Məmmədquluzadə, C. (1985). Əsərləri, (C. VI). Azərnəşr.

Məmmədli, C. (1998). *Çağdaş Azərbaycan nəsrinin inkişaf meylləri.* Bakı Universiteti nəşriyyatı.

Mütəllimov, T. (1981). *Sənət duyğuları.* Yazıçı.

Mütəllimov, T. (1988). *Əbdürrəhim bəy Haqverdiyevin poetikası.* Yazıçı.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:11.11.2024*
*Kabul tarihi |Accepted:13.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Mahir Qəribov**

***https://orcid.org/0009-0002-8183-5802***
*Associate Professor Faculty of Journalism, Baku State University National Press History Department, Azerbaijan, mahir_garibov@yahoo.com*

***Atıf Künyesi | Citation Info***

Qəribov, M. (2024). İslam Məcmüəsi'ndə Əhməd Ağaoğlunun Dini-İdeoloji Görüşləri. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 87-95.

# İslam Məcmüəsi'ndə Əhməd Ağaoğlunun Dini-İdeoloji Görüşləri

***Xülasə***

*XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycanın və türk dünyasının görkəmli ziyalılarından biri olan Əhməd bəy Ağaoğlu türk millətinin milli birlik və həmrəylik ideyasının əsas təbliğatçılarından biri olub. Onun türkçülük anlayışında soy, milli dil, din və mədəniyyət anlayışı ayrılmaz vəhdət şəklində öz əksini tapır. Ağaoğlu türk və İslam dünyasında məzhəb və təriqətçiliyi milli birlik və bütövlüyü pozması səbəbiylə tənqid edir. "İslam Mecmuası" jurnalındakı məqaləsində Ağaoğlu İslam dininin müasir cəmiyyət üçün əhəmiyyətini eyni zamanda, dini dəyərlərin insanların əxlaqi və davranış qaydalarına təsirini vurğulamış, İslamın təkcə bir inanc sistemi deyil, insanlığın təməli olduğunu bildirmişdir. Onun islam dini ilə bağlı yazıları dövrün siyasi, mədəni hadisələrini şərh edərkən verdiyi örnəklərdə öz əksini tapır. Ümumiyyətlə islam tarix boyu müsəlman xalqlarının inkişafında müsbət rol oynayıb və indi də bu xalqların müasir tərəqqisini ondan kənarda təsəvvür etmək mümkün deyildir.*

**Açar sözlər:** *Mətbuat tarixi, milli birlik ideyası, mətbuat azadlığı, "İslam Məcmuəsi" jurnalı, Əhməd bəy Ağaoğlunun jurnalistika görüşləri*

BY NC
Creative Commons Licence

# Ahmed Agaoglu's Religious-Ideological Views in Islam Journal

***Abstract***

*In the late 19th and early 20th centuries, Ahmed Bey Agaoglu, one of the leading intellectuals of Azerbaijan and the Turkic world, was one of the main defenders of the idea of national unity and solidarity of the Turkish nation. In his understanding of Turkism, the concepts of race, national language, religion and culture are reflected in an inseparable unity. Ağaoğlu criticised sectarianism and sectarianism in the Turkish and Islamic world, stating that they undermined national unity and integrity. In his articles published in the journal Islam Mecmuası, Ağaoğlu emphasised the importance of Islam for modern society, expressed the influence of religious values on people's morals and behavioural rules, and stated that Islam is not only a belief system, but also that people who belong to a religion adopt Islam. His writings on Islam are also characterised by the examples he gives while interpreting the political and cultural events of the period. In general, Islam has played a positive role in the development of Muslim nations throughout history, and even today it is impossible to imagine the development of these nations today without Islam.*

***Keywords:*** *Press history, the idea of national unity, freedom of the press, Islam Mecmuesi magazine, Ahmet Bey Agaoglu's journalistic views*

## Giriş

XIX əsrin sonu XX əsr tarixində Azərbaycanın və türk dünyasının ən tanınmış ziyalılarından, ideoloqlarından olan Əhməd bəy Ağaoğlu geniş dünyagörüşlü, müxtəlif siyasi baxışları bir ideya ətrafında birləşdirəbilən, zəmanəsindən yüksəkdə dayanan siyasi və ictimai xadim olmuşdur. Onun əsas məqsədi Şərqlə Qərbin siyasi, ictimai, iqtisadi və mədəni əlaqələrinin inkişafına nail olmaq idi. Türkiyəyə mühacirət etdikdən sonra həmin dövrdə İstanbulda yayımlanan və Əhməd bəy Ağaoğlunun ideya və görüşlərinə uyğun mətbuat orqanı olan "İslam məcmuəsi"nin nəşr siyasətinin əsas istiqamətini də din və dil birliği təşkil edirdi. Onun fikir və düşüncəsi islam dininin üstünlüklərini, müasir dövrlə səsləşən xüsusiyyətlərini təsdiqlə yanaşı, xalqı, siyasət xadimlərini islam dininin qanun-qaydaları, tələbləri ilə hərəkət etməyə, azadlıq mübarizəsini islam ehkamları ilə əlaqələndirmək çağırışı olduqca qüvvətli idi. "İslam Məcmuası" jurnalında "İslam aləmində görülən inhitatın səbəbləri" adlı məqaləsini çap etdirməklə Ağaoğlu islam dinini təhriflərdən və qərəzli münasibətlərdən qorumağa çalışmışdır. Əhməd bəy Ağaoğlu islam cəmiyyətinin Qərb mədəniyyəti qarşısında son iki yüz ildə üstünlüyünü itirməsinin arxa planında duran amillər arasında mənəvi dəyərlərin itirilməsi və ya aşınmasından çox, islamiyyətin yeni şərtlərə uyğunlaşa bilməməsi qarşısında Qərbin maddi və mənəvi baxımdan üstünlüyü ələ keçirməsini xüsusi olaraq vurğulayırdı. Diqqətəlayıq haldır ki,

Əhməd bəy sadəcə problemlərə diqqəti cəlb etməklə kifayətlənmir, bu və ya digər problemin doğuran səbəblərini də açıb göstərirdi.

**1. "İslam aləmində görülən inhitatın səbəbləri"**

"İslam Məcmuəsi"nin 26 fevral 1914-cü ildə yayımlanan 54-cü sayında Aqayef soyadı ilə nəşr olunan "İslam aləmində görülən inhitatın səbəbləri" məqaləsində o, İslamın parlaq nuru ilə onlara qarşı mübarizə edənlərə, əqli və fəzilət dəlilləri ilə qarşı durmağın nəcib bir iş, ümdə bir vəzifə olduğunu qeyd edir (Agayef, 1332/13 Şubat 1329, s. 29). Məcmuənin ilk səhifəsində *"Müsəlmanların faydası üçün çalışmaq, dinli bir həyat, həyatlı bir din"* amalı "İslam məcmuəsi"nin başlıca məqsədi kimi göstərilir (İslâm Mecmuası, 12 fevral 1914). Ağaoğlu məqaləsində, dünya dinlərinin bir olan Allahın iradəsinin müxtəlif dillərdə, müxtəlif dövrlərdə təzahürü olduğunu, fəqət dünyanın müxtəlif yerlərində müsəlman icmalarının müxtəlif dillərdə danışdığını, müxtəlif təsirlərə məruz qaldığını, milyonlarla müsəlmanın eyni sosial problemlərdən əziyyət çəkdiyini, eyni vəziyyətin İslamdan başqa dinlərə mənsub xalqlara aid olmadığını ifadə edir və bildirir ki, xristian dünyasında İngiltərə və Həbəşistandan, bütpərəst dünyadakı Yaponiya və tibetlilərdən fərqli olaraq, onların hamısında ümumi sosial qarışıqlıq yoxdur, bəzi ölkələr inkişaf edib, bəziləri yox, lakin İslam dünyasında bu belə deyil, hal və tənəzzül ümumi xarakterdədir. Gerilik və cəhalət açıq-aydın hiss olunur (Agayef, Cemaziyelevvel 1332/27. Mart 1330/9 Nisan 1914, s. 55). Ağaoğlunun fikrincə, din bəndə ilə Allah arasındakı əlaqəni tənzimləyən prinsiplər sistemindən ibarətdir. Dinin mövzusu yalnız inanc və ibadətdir. İslamı digər dinlərdən fərqləndirən, dinin əsas mövzusunu təşkil edən və müsəlmanları bir arada tutan inanc və ibadətlərdir. Bundan əlavə, dində qeyd olunan digər məsələlər, hüquq, iqtisadiyyat, siyasət və digər məsələlərin ikinci dərəcəli olduğuna diqqəti çəkir. O, bu iddianın sübutlarını belə sadalayır:

**a**. İslamın əvvəlindən bəri Allahın vəhdəti və ibadət haqqında ayələrdə heç bir dəyişiklik olmadığı halda, bəzi ayələrin dünyəvi məsələlərlə bağlı müddəalarının götürülməsi və digər müddəaların daxil edilməsi dinin əsas mövzusunun inanc və ibadət olduğunu göstərir və insan həyatı ilə bağlı digər məsələlər dinin əsas mövzusunu təşkil etmir.

**b**. Əgər Hz. Peyğəmbər hicrətdən əvvəl vəfat etsəydi, İslamla bağlı yalnız iman, ibadət və əxlaqla bağlı ayələr olardı, dünya həyatını tənzimləyən ayələr olmazdı. Çünki dünya həyatını tənzimləyən ayələr Mədinədə nazil olmuşdur.

**c**. Bunun daha bir sübutu din alimlərinin irəli sürdüyü "Quranla rəvayət ziddiyyət təşkil edirsə, Quran üstün olmalıdır" prinsipidir. Çünki əqidə prinsiplərini bildirən mətnlərdə heç bir dəyişiklik yoxdur. Bütün bunlar isə sübut edir ki, dinin mahiyyəti inanc və ibadətdir. Məhz bunlarla biz dinə bağlıyıq, dünya işlərində azadıq (Mert, 2006, s. 10).

Ağaoğlu bu dəlillərə əsaslanaraq, insan həyatının təzahürləri olan hüquq, iqtisadiyyat, təhsil, incəsənət kimi məsələlərin birbaşa din sahəsini təşkil etmədiyi qənaətindədir və onları tamamilə şəxsin ixtiyarına buraxılan sahələr kimi görür. Ağaoğlunun fikrincə, tarix boyu müxtəlif tətbiqlər səbəbindən din anlayışında bəzi problemlər yaranıb. Zaman keçdikcə hətta milli adətlərə də dini mahiyyət verilmişdir. Bu vəziyyət bir çox adət və inanclarımızın nə qədər İslama zidd olsa belə, İslami sayılmasına səbəb olmuşdur (Ağaoğlu, 1923/1339). Ağaoğlunun sözlərinə görə, buna səbəb özlərini dinin nümayəndəsi hesab edən qruplardır. Onlar özlərini tək hakimiyyət kimi görürlər, eyni zamanda zaman və məkan şərtlərindən, fərdlərin və cəmiyyətin ehtiyaclarından xəbərsizdirlər.

Həmin dövrdə şərq cəmiyyətdə elmsizlik, cəhalət, nadanlıq, o cümlədən dinə, din xadimlərinə inamsızlıq, bəzən qəzəb və nifrət qarışıq münasibət özünü göstərirdi. Müsəlmanların güvənc yeri şeyxülislam, müfti hesab olunurdu. Bunlar dövlətlə kütlə arasında vasitəçi rolunu oynamalı, hakimiyyəti müsəlmanların ümumi vəziyyəti, yaşayış şəraiti, qarşılaşdıqları çətinliklər, istək və tələbləri ilə tanış etməli, onların hüquqlarını qorumalı idilər. Lakin onlar bu istiqamətdə yetərli qədər fəaliyyət göstərməyərək, müsəlmanların narazılığına səbəb olurdular. Buna görə də, cəmiyyətdə şeyxülislama, müftiyə inamsızlıq yaranırdı. Onun fikrincə, cəmiyyət həyatı, insanların güzəranı, elmi biliklər və Quranın məna və mətləbləri əvəzinə cürbəcür sxolastik təsəvvürlərə, təriqət cəfəngiyyata rəvac verənlərin başında gedən "ruhani"lərdir. Nəticədə onlar insanları ruhsuz qəliblərə çevirməyə çalışırlar. Halbuki insanla din arasındakı problemi həll etmək üçün çağı və dövrün ruhunu bilmək, dində əsasları və təfərrüatları ayırd etmək, onu dövrün ruhuna uyğunlaşdırmaq lazımdır (İslam Mecmuası-1914-1918, 2019; Agayef, Rebiyülevvel 1332).

### 2. Ağaoğluna görə İslamda elm və təhsilin dəyəri

İslam dininin elm tərəfdarı olması onun peyğəmbəri Məhəmmədin elm öyrənməyin zəruriliyi və vacibliyi haqqında söylədiyi kəlamlardan da aydın olur: *"Elmi öyrənmək beşikdən qəbrədək vacibdir", "Elm öyrənmək həm kişi, həm də qadın üçün zəruridir"* və s. Əhməd bəy Ağaoğlu da İslamın bu cəhətbrini nəzərə çarpdıraraq, onun nə dərəcədə kamil və humanist bir din olduğunu göstərir.

Ağaoğlu üçün vicdanın əmri, yaradıcı ilə qul arasındakı mənəvi bağı tənzimləyən bir amil olmaqla yanaşı, dini həyatımızın bütün maddi və mənəvi tərəflərinə hakim olan bir prinsiplər toplusu olaraq görür beşikdən məzara, geyimimizdən əşyalarımıza, məktəblərimizdən siyasətimizə qədər hər şeyi insanlıq tarixində dinlə bağlı bir dövr olaraq xarakterizə edir. Müasir Avropa dövlətləri bu mərhələni dörd yüz il əvvəl keçiblər. Yer üzündə elə bir mühit, elə bir

xalq yoxdur ki, bu mərhələni keçməmiş olsun (Bakırcı, 2004). İslam dini həmişə elmin, tərəqqinin, maarifin tərəfdarı və qayğıkeşi olmuş, insanları həyatı, həqiqəti dərk etməyə, ədalətli olmağa, vətəni, torpağı, namusu göz bəbəyi kimi qorumağa, valideynə, elm sahiblərinə, böyüklərə qarşı səmimi olmağa və hörmət göstərməyə qayğı ilə yanaşmağa çağırmışdır.

Tarix göstərir ki, hər bir vaxt İslamın qüvvət və zəifliyi, tərəqqi və tənəzzülü, cəlal və ölgünlüyü ruhanilərin halından asılı olub. Təəssüf ki, onlar dünyadan, ətrafdakı tərəqqi və yeniliklərdən bixəbərdirlər. Ağaoğlu İslam aləmində tənəzzül və geriliyin üləma, ümmət və qələm əhli tərəfindən törədildiyini qeyd edərək, hər bir xalqın təkamül yolu ilə tərəqqisinin o xalqın ziyalıları vasitəsi ilə mümkün ola biləcəyini vurğulayır. Lakin o, bildirir ki, bu zümrə öz vəzifələrini yerinə yetirməsə, həm mənsub olduqları mühiti, həm də ənənəvi prinsipləri tənəzzülə aparacaqlar. Ağaoğlu bunun ən yaxşı şahidinin İslam tarixinin özü olduğunu vurğulayır. Xilafətdə İslam prinsiplərinə tamamilə zidd olaraq özbaşına əməllər başladı. "Üləma və bilicilər" bu əməllərin əleyhinə çıxış etmədilər, hətta onları dəstəklədilər. Bu isə hakimiyyətin istibdad mənbəyinə çevrilməsinə səbəb oldu (İslam Mecmuası-1914-1918, 2019; Agayef, Rebiyülevvel 1332/13 Şubat 1329). İslamın yanlış təbliğinin və bu yolla insanları cəhalətə, fanatizmə, geriliyə sürükləyən din xadimlərini və onların təhsil sistemini Əhməd bəy tənqid edir. Gec olmadan müsəlmanların oyanması, birləşmək, ittihad etməklə din birliyi ətrafında ahəngdar birlik yaratmaq vaxtı olduğunu yazır. Əks halda elmsiz, cahil və bilgisiz yaşayan müsəlmanların başına böyük fəlakətlərin gəlməsi qaçılmazdır.

Əhməd bəyə görə, İslam sivilizasiyasının tənəzzülünün səbəbi onun təsisatlarının pozulması və funksiyalarının itirilməsi ilə bağlı idi. Əgər Qərbdəki kimi bəzi islahatlar aparılsa idi bunların qarşısı alına bilərdi. Ağaoğlu, müsəlmanların İslamın mahiyyətindən yayınmamaq, öz identikliklərini itirməmək şərti ilə Qərb sivilizasiyasını təqib edərək inkişaf edə biləcəkləri fikrində idi. Ağaoğlunun milliyyətçi ideyalarında din fenomeni, şübhəsiz ki, vacib bir mövqeyə sahib idi. O, dini millətin ayrılmaz və üzvi bir hissəsi, ehtiyat qüvvəsi olaraq görürdü. Ağaoğlu dinə millətin ruhu və mayası kimi baxırdı. Ona görə milli dilin, ənənə və adətlərin formalaşmasında dinin əhəmiyyətli dərəcədə təsiri vardır. Türklər islamı qəbul etdikdən bəri bu din ilə möhkəm bir əlaqə qurmuşlar. Bu səbəbdən türkçülər İslam hərəkatını qəbul etməlidirlər. Əhməd bəyin fikriycə, türklərin İslam dini ilə əlaqələrini qəbul etməyənlər həqiqi mənada milliyyətçi ola bilməyəcəklərini dilə gətirməkdədirlər. Türklərin müsəlmanlığa keçməsindən bəri İslam dini ilə sarsılmaz bir bağ qurmuşlar.

Ağaoğlunun düşüncəsinə görə dil, din və qan bağları təkbaşına bir millətin identiktliyini müəyyən etməkdə yetərli deyildir. Bu ünsürlərin eyni anda, lakin uyğun və tutarlı bir şəkildə sintezi vacibdir. Əhməd bəy Ağaoğlunun Bakıda nəşr olunan bir sıra dövri mətbuatda İslam

dininin yaranma tarixinə, inkişaf yollarına, başqa dinlərə təsirinə, münasibətinə, şəriət hökmlərinə və s. məsələlərə həsr olunmuş yazıları da onun bu dinə münasibətini tam aydın göstərir (Mustafayev, 1973).

Avropada təhsil almasına, Qərb ədəbiyyatı, tarixi, fəlsəfəsi, mədəniyyəti ilə yaxından tanış olmasına, dünyagörüşünün formalaşma prosesinin məsul bir dövründə xristian əqidəli mütəfəkkirlərin əhatəsində yaşamasına baxmayaraq, Əhməd bəydə İslam dininə, onun peyğəmbərinə, əhli-əyalına, Qurana dərin inam və etiqad var idi. O, dinlər içərisində İslama xüsusi hörmət bəsləyir, onun bəşər tarixində, xüsusən bədəvi ərəblərin həyatında, məişətində oynadığı mütərəqqi rolunu yüksək qiymətləndirirdi. Mütəfəkkir Qərbdə böyük səs-küyə səbəb olan, müxtəlif mövqelərdən yozulan "panislamizm"ə aid silsilə məqalələr həsr etmişdir. Məlumdur ki, vaxtilə panamerikanizm, panslavizm mütərəqqi bir hal: bir-birindən ayrı düşmüş xalqlann, millətlərin yaxınlaşması, yekdil olması, özbrini hər cür təcavüz və müdaxilədən qorumaq üçün vahid cəbhədə birləşməsi kimi müsbət mənada qarşılanırdı. Əhməd bəy də çalışırdı ki, panislamizm haqqında həyəcan təbili çalan, onu mürtəce bir hərəkat kimi qələmə verməklə, müsəlman olmayan xalqlarda İslam dininə qarşı qəzəb və nifrət oyatmağa, öz məkrli siyasətlərini həyata keçirməyə səy göstərənlərin iç üzbrini açıb göstərsin, bu barədə deyilənlərin doğru olmadığını, bu hərəkatın mütərəqqi xarakter daşıdığını sübut etsin. Əhməd bəy Ağaoğlu *"Panislamizmin əsası, yəni kökü olduqca dərindir. Həmin səbəbləri axtarıb tapmaq, onun xarakterini və istiqamətini müəyyənləşdirmək, imkan daxilində onun əsas mahiyyətinə nəzər yetirməkdən ibarətdir"* (Ağayev, 2016, s. 73).

Panislamizm ideyasmı sonradan nıeydana gəlmə hesab edib, müəyyən siniflərin, təbəqəbrin bundan öz siyasi məqsədbrini həyata keçirmək üçün istifadə etdiklərini söyləyənlərə cavab verərək göstərir ki, panislamizm ideyası İslamın özündə, onun tarixində və nəzəriyyəsində mövcuddur. İslamın müqəddəs kitabı olan Quran irqçiliyin əleyhinədir. Quran təsdiqləyir ki, bütün möminlər qardaşdırlar. Onlar Allah və Quran qarşısında bərabərdirlər. İslamda türk, ərəb, fars, hindu, zənci, ağ və qara anlayışları yoxdur. Bütün müsəlmanlar oxşar və bərabərdirlər. Hamı eyni bir atanın sevimli övladlarıdır. Fərq yalnız itaətin (təqvanın) dərəcəsindədir.

İslam dini və mənəviyyatının mərkəzində ən şərəfli və hörmətli, heç bir şeylə əvəz oluna bilməyən insan durur. İnsan nə qədər böyük işlər görərsə, cəmiyyətə nə qədər xeyir, fayda gətirərsə, nə qədər ali və ülvi məqsədlərin həyata keçirilməsinə çalışarsa, bir-birinin köməyinə yetişərsə, bir-birinə şəfqət və qayğı göstərərsə, zəruriyyət məqamında öz canını, malını

digərlərinin yolunda sərf etməkdə tərəddüd göstərməzsə, bir o qədər yaradanın iltifatını qazanar, ondan mükafatlar alar. Bütün bu keyfiyyətlər böyük yaradanın məziyyətləridir.

Əhməd bəy Ağaoğlu İslam dininin bir sıra müsbət cəhətlərini nəzərə çarpdırmaq məqsədilə yazır: "İslamın istər keçmişdə, istərsə də indiki müvəffəqiyyəti əsasən bununla izah olunur ki, Allah qarşısında itaətkarlıq, onun qoyduğu qanunlara dərin inam bütün insanları doğmalaşdırır. Hakim və məhkumlar, bütün sinfi zümrərlər, İslamı qəbul etmək nəticəsində təkcə inama, etiqada görə deyil, eyni zamanda dil, hüquq, adət-ənənə, hətta geyim etibarilə də bir olmuş, aralarındakı ictimai fərqlər silinib getmişdir. İndi ayrı-ayrı müsəlman xalqlarmm lüğətində "natsiya" anlayışına uyğun bir söz axtarmağımız belə artıqdır. Onlarm hamısında ərəb kəlməsi olan "millət" sözü işlənməkdədir. Bu anlayış irqi, qəbilə, etnik məzmundan daha çox dini birlik, dini vəhdət xarakteri daşıyır. Bu *"inamda vəhdət" ideyasınm mənəvi tərəfi heç vaxt, heç kim tərəfindən şübhə altına alınmamış, əksinə, bütün müsəlmanların şüurunda həmişə canlı olaraq saxlanılmışdır"* (Ağayev, 2016, s. 74). Ağaoğlu irsini araştırarkən görürük ki, o, islamçılıq və türkçülüyü tarixi bir müstəvidə uzlaşdırmağa çalışır. İslam tarixindən nümunələr gətirir, İslamın milliyyətə zidd olmadığını vurğulayarkən dil və din faktorunın milli birliyinin qurulmasında əvəzsis rol oynaya biləcəyini diqqətə çatdırır.

**Nəticə**

Ağaoğlunun məqaləsi türk kimliyinin necə təyin olunacağı məsələsi ilə dərindən əlaqəli idi. Daha aydın səviyyədə, II. Məşrutiyyət dönəminin iki güclü cərəyanı olan islamçılıqla türkçülük arasında uzlaşmanın qurulmasından bəhs edilir. Necə ki, Ağaoğlu Türk dünyasında birincisi Türklük qayğısı, ikincisi İslamiyyət qayğısı olmaqla iki cərəyanın mövcut olduğunu, eyni dərəcədə önəmli və faydalı təsirə malik olan bu iki cərəyanın "bəzən birləşərək, bəzən ayrılaraq, bəzən qarışıqlıq və bəzən də güzəşt ederek" birlikdə yol aldıqlarını bildirir (İslam Mecmuası-1914-1918, 2019; Agayef, Rebiyülevvel 1332/13 Şubat 1329). Ağaoğlu hesab edir ki, bu iki cərəyan arasında harmoniya yaratmaq olduqca vacibdir.

Əhməd bəy Ağaoğlu islamçılıq və türkçülüyün bir çox məsələlərdə uzlaşdığı qənaətindədir. İslamçılar "millət"ə qarşı mənfi münasibətlərindən əl çəkib türklər kimi müsbət mövqe tutsalar, iki cərəyan arasında qarşıdurma böyük ölçüdə aradan qalxar. Onların fikrincə, türkçülərin din-tayfa, türklük və islam arasında qurduqları əlaqə bu məsələni həll etmək üçün kifayət edir. Türklüklə İslam, din və millətçilik müstəvisində qurulan bu müsbət münasibət, türklük-islam münasibəti tarixi zəminini müəyyən edir (Ağaoğlu, 1932). Türklər İslamdan əvvəl tək tanrıçılıq inancında olduqları üçün İslamdan razıdırlar. Onların qədim tanrıçılıq əqidəsi İslam dinində, İslamda isə türk millətinin və mədəniyyətinin bütövlüyü əks olunur. Ağaoğluna görə din qovğaları tarixi-bəşəriyyənin ən mühüm və ən uzun səhifələrini təşkil

etmişdir (Mustafayev, 1973). İki böyük məzhəbə- sünnü və şiəyə bölünən müsəlmanlar bir çox məsələdə bir araya gəlməyərək, hətta bəzən düşmənçilik etsələr də milli-azadlıq hərəkatına münasibətdə yekdil idilər*: "Beləliklə, müsəlman dünyasının bir başından digərinə qədər müsəlman ruhaniliyi azadlıq hərəkatına qalxdı, müsəlman ölkələrində vətəndaş və siyasi azadlıqların möhkəmləndirilməsi uğrunda mübarizəyə xidmət edirdi və edir"* (Ağaoğlu, 2019).

Həqiqətdə də bəşər həyatında maddiyyat və mənəviyyat yan-yana yaşamış, biri o birini tamamlamışdır. Məgər bəşəriyyətin daimi tərəqqisi və təkamülünü təmin edən amil, hər mühit və camaat içində həmişə mövcud olan, münəvvərlər zümrəsinin yüksək və pak bir qisminin ehtiva etdiyi, şəxsi mənafeyi ayaqları altına alaraq mənəviyyat üçün nəfslərini fəda etmələri deyildirmi? Cəmiyyətdə belə bir zümrə təşəkkül edər-etməz, onun yüksək, pak qismi daima həqiqi ilham mənbələrini kəşf edər və camaatın həqiqi səadət və rifah yolunu göstərərlər. Təbiəti ilə belə bir zümrə, hər şeydən əvvəl camaatı təşkil edən ünsürün əksəriyyətini arar, onu anlamağa çalışar, ondan ilham almağa başlar, maddi, mənəvi ehtiyaclarını təminə çalışarlar. Ağaoğlunun fikrincə, İslam dünyasının fəlakətlərinin səbəbləri obeyktiv təhlil edilməli və islam millətlərinin qurtuluş yolu ruhanilərin təbliğ etdiyi islamda deyil, mötədil tərəqqipərvər ruhlu islamda axtarılmalıdır. Dini kimliklə milli kimlik, dini özünütəyinlə (islamçılıqla) milli özünütəyin (türkçülük) bir-birinə nəinki ziddir, hətta bir-birini tamamlayır.

**Ədəbiyyat**

Agayef, A. (1332/13 Şubat 1329). İslâm Âleminde Görülen İnhitatın Sebepleri. (İM, C. 1). 2, 30.

Agayef, A. (Cemaziyelevvel 1332/27. Mart 1330/9 Nisan 1914). İslam Aleminde Görülen inhitatın Sebebleri. *İslam Mecmuası,* 1, 2, 13, 22-26.

Agayef, A. (Rebiyülevvel 1332/13 Şubat 1329). İslâm Âleminde Görülen İnhitatın Sebepleri. (C. 1). 2, 30.

Ağaoğlu, Ə. (2019). Qafqazda milli məsələ. *Məqalələr və sənədlər toplusu*. Qanun.

Ağaoğlu, A. (1923/1339). Tarihi Celse, Hilafet ve Milli Hakimiyet. İstihbarat Matbaası.

Ağaoğlu, A. (1932). İptidaî Türk Aile Hukuku ile İptidaî Hindo-Avrupaî Aile Hukuku Arasında Mukayese. *Birinci Türk Tarih Kongresi: Konferanslar-Müzakere Zabıtları*.

Ağayev, M. (Sentyabr- oktyabr 2016). *Əhməd bəy Ağaoğlu İslam dini haqqında. Dövlət və Din* jurnalı, 05 (46), 72-78.

Bakırcı, M. (2004). II. Meşrutiyet Dönemi din sosyolojisinin önemli bir kaynağı: İslam Mecmuası (1914-1918). *Necmettin Erbakan Üniversitesi İlahiyat Fakültesi Dergisi, 17* (17).

Mert, M. (2006). Osmanlı’dan Cumhuriyet’e geçiş sürecinde Ahmet Ağaoğlu’nun dinî düşünceleri. *Hitit Üniversitesi İlahiyat Fakültesi Dergisi*, *5* (10), 7-27.

Mustafayev, Q. (1973). XX əsrin əvvəllərində Azərbaycanda islam ideologiyası və onun tənqidi. Maarif.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:01.11.2024*
*Kabul tarihi |Accepted:12.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Sabir Məmmədli**

*https://orcid.org/0000-0001-9176-2569*
*Professor, Doctor of Political Science, Baku State University, Department of International Journalism and Information Policy, Azerbaijan, sabir.rm@mail.ru*

*Atıf Künyesi | Citation Info*

Məmmədli, S. (2024). *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 96-107.

# Dünya Mediasının Müasir İnkişaf Meyilləri BMT-nin Fəaliyyəti Kontekstində

***Xülasə***

*Müasir dünya mediasında universallaşma, eyniləşmə prosesi getdikcə dərinləşir. Bu meyillər ilk növbədə beynəlxalq təşkilatların KİV və bütövlükdə informasiya sahəsində həyata keçirdikləri fəaliyyətlə bağlıdır. BMT, Avropa Şurası, ATƏT və digər dövlətlərarası təşkilatlar sistemli və məqsədyönlü şəkildə çoxsaylı media norma və prinsiplər hazırlayırlayıb dünya birliyinə təqdim edirlər və onların reallaşmasına çalışırlar. Qeyd etmək lazımdır ki, beynəlxalq təşkilatların müzakirəyə çıxarıb qəbul etdiyi ortaq dəyərlər özü-özlüyündə bir ideya xəzinəsidir və ondan yararlanmaq cəmiyyətin müasir inkişafına təkan verir. Ölkələr üçün tövsiyə və mütləq xarakterli olan qətnamə və qərarlar ümumbəşəri ideyaları özündə əks etdirməklə bərabər milli dəyərlərin qorunub saxlanmasını vacib hesab edir və bu prosesi dəstəkləyir. BMT və YUNESKO öz strukturlarında informasiya ilə iş üzrə çoxsaylı qurumlar yaratmışlar ki, bunlar bilavasitə KİV-in fəaliyyətini tənzimləyir və istiqamətləndirir. Bu baxımdan BMT-nin Düşüncə və İfadə azadlığı üzrə Xüsusi Məruzəçisi institutunun fəaliyyəti böyük əhəmiyyət kəsb edir. Hazırki dövrdə beynəlxalq təşkilatların əsas diqqəti media sahəsinə qair qəbul etdikləri qərarların dünyanın bütün bölgələrində reallaşmasına yönəlib.*

***Açar sözlər:*** *Media, beynəlxalq təşkilatlar, insan haqları, söz azadlığı,ümumi prinsiplər*

BY NC
Creative Commons Licence

# Modern Development Trends of World Media in the Context of UN Activities

***Abstract***

*The process of universalisation and identification in the modern world media is deepening. These trends are primarily associated with the activities of international organisations in the media and information sector. The UN, the Council of Europe, the OSCE and other intergovernmental organisations systematically and purposefully develop a large number of media norms and principles, present them to the world community and strive for their implementation. It should not be forgotten that the common values discussed and adopted by international organisations are a treasure trove of ideas in their own right and their utilisation gives impetus to the contemporary development of society. The decisions, which are advisory and binding for countries, reflect universal ideas, emphasise the protection of national values and support this process. The UN and UNESCO have established numerous information agencies that directly regulate and direct the activities of the media. In this context, the work of the UN Special Rapporteur on Freedom of Opinion and Expression is of great importance. Today, the main focus of international organisations is to ensure that their decisions on the media are implemented in every region of the world.*

***Keywords:*** *Media, international organisations, human rights, freedom of expression, general principles*

## Giriş

Sürətlə dəyişən və inkişaf edən müasir dünyada jurnalistika bir sıra yeni xüsusiyyətləri ilə səciyyələnir. Jurnalistin peşəkarlıq və yaradıcılıq meyarları ilə yanaşı medianın ictimai-siyasi mahiyyəti də dəyişir. Kütləvi informasiya vasitələri bir tərəfdən cəmiyyətin demokratikləşməsi prosesində başlıca rol oynayır, digər tərəfdən dövlətin idarə edilməsində mühüm vasitə kimi çıxış edir. İnformasiyanın həyatın bütün istiqamətlərinə təsir imkanlarının artdığı bir dövrdə xalqlar və dövlətlər ictimai-siyasi və sosial-iqtisadi sahədə bir-birinin təcrübəsindən hərtərəfli istifadə etməyə çalışır, bəşəriyyətin ümumi xəzinəsinə öz töhfəsini verirlər. Media, əsasən də onun müasir növləri xalqları, millətləri, cəmiyyətləri bir-birinə daha da yaxınlaşdırır və qovuşdurur. Artıq dünyanın istənilən ucqar nöqtəsindən alınan yararlı məlumat sadə, maraqlı xəbər olmaqla yanaşı həm də özündə əlverişli təcrübəni əks etdirən informasiya kimi qəbul olunur. Beynəlxalq informasiya axını müxtəlif ölkələrin jurnalistikasının qarşılıqlı əlaqələrinin genişlənməsinə, təcrübə mübadiləsinin güclənməsinə təkan verir və bu sahədə inteqrasiya proseslərini dərinləşdirir. Demokratik və inkişaf etmiş ölkələrin əsrlər boyu gərgin mübarizə və bəzən köklü sarsıntılar nəticəsində əldə etdiyi mütərəqqi dəyərlər, topladığı uğurlu nəticələr gənc ölkələr tərəfindən çətinlikləri təkrarlamadan rahat formada mənimsənilir. Media sahəsində dünya təcrübəsindən yararlanmaq hər bir ölkənin

jurnalistikasının başlıca mütərəqqi xüsusiyyətlərindən biri olmuşdur və olaraq qalmaqdadır. İnformasiya yayımı sahəsində ortaq meyarlar və yeni normalar əsasən beynəlxalq təşkilatlar, ilk növbədə Birləşmiş Millətlər Təşkilatı və onun ixtisaslaşdırılmış qurumu olan YUNESKO, Avropa Şurası, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı tərəfindən işlənib hazırlanır və gündəmə gətirilir, onların tətbiqetmə qaydaları müəyyənləşdirilir. Beynəlxalq qurumların fəaliyyət mexanizminin təhlili, bu sahədə mövcud olan normativ-hüquqi bazanın araşdırılması hər bir ölkənin, o cümlədən Azərbaycanın müasir dünyaya inteqrasiyasını gücləndirəcək və dövlətimizə dünya birliyində özünə layiqli yer tutmağa kömək edəcəkdir.

## 1. Əsas hissə

Müasir dövrdə beynəlxalq təşkilatlar faktiki olaraq dünyada informasiya mübadiləsinin norma və prinsiplərini müəyyənləşdirən mərkəzlər kimi çıxış edir. Zahirən xaotik görünən beynəlxalq informasiya axını faktiki olaraq ümumi konsepsiya və dünya birliyi tərəfindən qəbul olunmuş qaydalar əsasında cərəyan edir və geniş formada reallaşır. BMT, YUNESKO, Avropa Şurası, ATƏT və s. kimi beynəlxalq təşkilatlar dövlətlərarası informasiya mübadiləsini xalqları və ölkələri birləşdirən, vahid dünya yaradan, müasir sivilizasiyanın inkişaf istiqamətini müəyyənləşdirən başlıca amil hesab edirlər. Məhz həmin mövqedən çıxış edərək beynəlxalq qurumlar media, informasiya-kommunikasiya sahəsini müasir həyatın ən ali dəyəri kimi qəbul olunan insan haqları əsasında qurulmasını vacib sayırlar. BMT, YUNESKO, Avropa Şurası və ATƏT-in media siyasəti zəngin intellektual çəkiyə malik olan bir xəzinədir. Beynəlxalq təşkilatların proqram sənədləri, qətnamə və qərarları, hazırladıqları konsepsiyalar, bəyanat və bəyannamələri hərtərəfli tədqiq edilməli və mənimsənilməlidir. Beynəlxalq təşkilatların ümumi media siyasəti ölkədaxili KİV sisteminin inkişafını, milli informasiya vasitələrinin fəaliyyət meyarlarını müəyyənləşdirən ciddi amil kimi çıxış edir. Vahid siyasi yanaşma nəticəsində eyniləşmə meylləri KİV-in hüquqi əsaslarını, informasiya vasitələrinin təşkili prinsiplərini, fəaliyyət mexanizmini əhatə etməklə yanaşı jurnalistin yaradıcılıq xüsusiyyətlərinə, informasiyanın təqdimetmə metodlarına, materialın janr göstəricilərinə, media əməkdaşlarının araşdırma aparmaq texnologiyasına, problemli şəraiti çözmək yollarına, çap məhsulunun təsirliyini artırmaq imkanlarına, jurnalistin peşə davranış qaydalarına güclü təsir edir. Bu mənada BMT, Avropa Şurası və ATƏT-in sənədləri bütövlükdə üzv ölkələrdə, o cümlədən Azərbaycanda jurnalistikanın inkişaf konturlarını və istiqamətlərini artıq müəyyənləşdirməkdədir. Özündə xeyli mürəkkəb problemləri ehtiva edən bu proseslərin içində olmaq Azərbaycan jurnalistikasının uğurlu inkişafını təmin edəcəkdir. Kütləvi informasiya sahəsində beynəlxalq münasibətlərin tənzimlənməsi əsasən: a) KİV-dən istifadənin texniki

imkanlarını, b) materialların məzmununu, c) bu sahəyə aid beynəlxalq informasiya yayım qaydalarını əhatə edir ki, bunlar həm ikitərəfli, həm də çoxtərəfli müqavilələr əsasında tənzimlənir. Beynəlxalq miqyasda KİV-dən istifadənin texniki problemləri ilə əsasən Beynəlxalq Elektrorabitə İttifaqı məşğul olur (bu təşkilat 1932-ci ildə Madrid konfransında yaradılmışdır və indiyədək fəaliyyət göstərir). BMT yarandıqdan sonra BEİ onun ixtisaslaşdırılmış qurumu statusu almışdır. BEİ-nın nizamnaməsinə dəfələrlə düzəlişlər edilmişdir. Hazırda qüvvədə olan sənədin sonuncu redaksiyası 1998-ci ildə Minneapolis şəhərində keçirilmiş toplantıda qəbul edilmişdir. İttifaq 150-yə yaxın ölkəni birləşdirir.

Tədqiqatçıların fikrincə, BEİ-nin konvensiyasında informasiya yayımı texniki və digər vasitələrlə məhdudlaşdırılır. ABŞ-ın sabiq dövlət katibi C.Beker öz tədqiqatında qeyd edirdi ki, BEİ-nin təsis konvensiyasının 1947-ci ildə Atlantik-Siti şəhərində qəbul olunmuş redaktəsində dövlətlərə texniki vasitələrlə radiomaneələrin yaradılması qadağan edilir, çünki radiomaneənin yaradılması şəxslərin azad informasiya almaq hüququnu pozmuş olur (New Communication., 1991). Müəllif konvensiyanın 1965-ci ildə Montr şəhərində qəbul olunmuş redaktəsinin 48-ci maddəsinə istinad edərək vurğulayırdı ki, sənəd dövlətlərə müxtəlif radiomaneələrin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi haqqında müraciəti əks etdirir. 1968-ci ildə BMT-nin kosmos məsələlərinin araşdırılmasına həsr olunmuş konfransında isə qeyd olunmuşdu ki, BEİ əsasən texniki problemlərlə, yəni tezliklərin bölüşdürülməsi və istifadəsi ilə məşğul olmalı, birbaşa beynəlxalq televiziya yayımlarının təşkili məsələləri Birləşmiş Millətlər Təşkilatında həll olunmalıdır.

Beynəlxalq münasibətlərdə informasiyanın əhəmiyyətinin artması Birləşmiş Millətlər Təşkilatını sistemli şəkildə bu məsələyə yenidən qayıtmağa və onun müxtəlif aspektlərini müzakirəyə çıxarmağa vadar edirdi. Belə ki, 1972-ci ilin sentyabr-dekabr aylarında keçirilən BMT Baş Məclisinin XXVII sessiyası “Bilavasitə televiziya yayımı üçün dövlətlər tərəfindən süni peyklərdən istifadə prinsiplərinə dair beynəlxalq konvensiyanın hazırlanması haqqında” qətnamə qəbul etmişdir (OON-lén General'noj Assambleâezlén). Sovet nümayəndələri “Sərbəst informasiya axını”nı məhdudlaşdırmaq üçün üçüncü dünya ölkələri nümayəndələri ilə birlikdə qətnaməyə belə bir fikir daxil etmişdilər ki, buna əsasən süni peyklərdən istifadə edərək başqa ölkələrin ərazisinə bilavasitə televiziya yayımını yalnız ikitərəfli müqavilələr əsasında həyata keçirmək olar. Bu isə ilk növbədə həmin ölkələrin informasiya texnologiyalarının inkişafı sahəsində geriliyinin ört-basdır edilməsi ilə bağlı idi. Buna baxmayaraq, qətnamə böyük səs çoxluğu ilə qəbul edilmiş, onun əleyhinə yalnız ABŞ nümayəndələri səs vermişdilər. Sənəd kosmik fəzadan başqa ərazilərə yayımlanan televiziya verilişlərinin yalnız ikitərəfli müqavilələr

əsasında həyata keçirilməsinə dair konvensiyanın hazırlanmasını nəzərdə tuturdu. Qərb dövlətlərinin birgə fəaliyyəti nəticəsində həmin konvensiyanın meydana gəlməsinə imkan verilmədi, üstəlik bu, texniki cəhətdən də sadə məsələ deyildi. Bununla belə sosialist ölkələri 1982-cü ildə yenidən həmin ideyanı gündəmə gətirmiş və BMT Baş Məclisinin XXXVII sessiyasında bununla bağlı müvafiq qətnamə qəbul olunmuşdu ki, burada BMT qətnaməsinin yanaşma tərzi təkrar olunurdu.

BMT qətnaməsində dövlətlərin informasiya yayımına görə məsuliyyət daşıması prinsipi öz əksini tapmışdı ki, bu da insan haqları ilə birbaşa ziddiyyət təşkil edirdi, halbuki çox keçmədən növbəti BMT qətnaməsində həmin ideya bir qədər də təkmilləşdirilmişdi. Belə ki, BMT Baş Məclisi tərəfindən 10 dekabr 1982-ci ildə qəbul olunmuş "Bilavasitə beynəlxalq televiziya yayımı məqsədilə dövlətlərin süni peyklərdən istifadəsini tənzimləyən prinsiplər" haqqında qətnamədə vurğulanırdı ki, "dövlət onun yurisdiksiyası altında həyata keçirilən beynəlxalq televiziya yayımına görə bilavasitə məsuliyyət daşıyır". Sənəddə həm də qeyd olunurdu ki, "dövlətlər informasiya azadlığını nəzərə almaqla, peyk vasitəsilə başqa ölkələrin əhalisinə qarşı yönəlmiş bilavasitə televiziya verilişləri haqqında ilkin müqavilə bağlamalıdırlar" (OOH A/RES). Qətnamənin hazırlanması və qəbulu prosesində keçirilən diskussiyalar göstərdi ki, bilavasitə beynəlxalq televiziya yayımı yeni və son dərəcə təsirli kütləvi informasiya axını olduğu üçün onun nəinki texniki normaları, həm də yayımın beynəlxalq-hüquqi prinsipləri işlənib hazırlanmalıdır. Bilavasitə televiziya yayımı müxtəlif ölkələrdə elm və mədəniyyət sahəsində yeni bilgilərin təbliği, sosial inkişafın sürətləndirilməsi, həyat səviyyəsinin yüksəldilməsi məqsədlərinə xidmət etməli, xalqlar arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi və millətlərin qarşılıqlı anlaşması prinsipindən çıxış etməlidir. Qətnamə eyni zamanda bilavasitə yayımla bağlı ölkələr arasında anlaşılmazlıqlar yarandıqda müvafiq məsləhətləşmələrin aparılmasına imkan verir, başqa ölkənin ərazisinə bilavasitə yayımın təşkilindən əvvəl həmin ölkənin razılığının alınması və müvafiq müqavilənin imzalanması şərtini qoyurdu. İnformasiya texnologiyalarının sürətli inkişafı çox keçmədən dövlətləri belə ideyalardan əl çəkməyə məcbur etdi. Çünki peyk vasitəsilə yayımlanan informasiya siqnalların qarısını almaq sadə məsələ deyildi, bunun üçün yüksək elmi-texniki səviyyə, maliyyə imkanları, xüsusi qurğuların yaradılması tələb olunurdu. Dövlətlərin əksəriyyəti belə imkanlara malik deyildi. Ekspertlərin fikrincə, xarici ölkələrdən yayımlanan radiosiqnallara maneələrin yaradılması və ölkə əhalisinə xarici proqramları qəbul etməyə imkan verməmək BMT Baş Məclisinin 1989 (XVIII) saylı qətnaməsi ilə ziddiyyət təşkil edir və "informasiya azadlığı prinsipləri"nə uyğun gəlmir (General'noj Assambleâlén rešeniez).

XX əsrin sonlarından etibarən müşahidə olunan informasiya texnologiyalarının sürətli inkişafı bu sahə ilə bağlı beynəlxalq hüquq normalarının təkmilləşdirilməsini tələb edirdi. Belə ki, elektron kütləvi informasiya vasitələrinin transsərhəd yayımını tənzimləyən beynəlxalq-hüquqi normaların beynəlxalq hüququn müstəqil sahəsinə çevrilməsi aktuallaşmışdı. Normativ materialların bolluğu və hüquqşünaslar tərəfindən bir sıra xüsusi prinsiplərin işlənib hazırlanması dünyanın bütün regionlarında informasiya vasitələrindən eyni formada və eyni prinsiplərə əsasən istifadə edilməsinə imkan yaratmaqla informasiya mübadiləsinə ümumdünya xarakteri verəcəkdir. Hazırda isə dünya dövlətlərinin müasir elekron KİV-lərinin transsərhəd yayımı BMT-nin mövcud qətnamə və qərarları əsasında təşkil olunur və müvafiq dövlətlərarası sazişlərlə tənzimlənir. XX əsrin 90-cı illərində baş vermiş qlobal xarakterli məlum dəyişikliklərdən sonra dünyada yeni geosiyasi mənzərənin yaranması ilə əlaqədar Birləşmiş Millətlər Təşkilatı və digər beynəlxalq qurumların təşəbbüsü ilə 1990-cı ilin fevral ayında Parisdə Şərq-Qərb mətbuat nümayəndələrinin görüşü keçirildi. Tədbirdə müstəqilliyini yenicə əldə etmiş Mərkəzi və Şərqi Avropa ölkələri ilə yanaşı, Qərbi Avropa və Şimali Amerikadan gəlmiş 80-ə yaxın jurnalist və redaktor iştirak edirdi. Mərkəzi və Şərqi Avropada demokratik proseslərin inkişafına BMT-nin konkret töhfəsi olan bu görüşdə müzakirə olunan əsas mövzu jurnalistlərin öz işlərini yeni şəraitə uyğun qurması və Şərqlə Qərb arasında informasiya mübadiləsinin inkişaf etdirilməsi idi. Müzakirələr BMT və YUNESKO-nun bölgədəki fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rol oynadı.

BMT Baş Məclisinin 1990-cı ilin dekabrında keçirilən sessiyasında dünyada formalaşan yeni ictimai-siyasi qayda şəraitində beynəlxalq birliyin informasiya və kommunikasiya sahəsindəki vəzifələri müəyyənləşmişdi. Baş Məclisin 45/76 saylı "İnformasiya insana xidmət etməlidir" qətnaməsində informasiya sahəsində qabaqcıl ölkələrlə inkişafda olan dövlətlər arasında mövcud olan qeyri-bərabərliyin aradan qaldırılması yolları vurğulanmışdı. İnkişafda olan ölkələrin kommunikasiya infrastrukturunun inkişafı, həmin regionların dövlət və özəl şirkətlərinə sərbəst informasiya siyasətinin formalaşmasına yardım göstərilməsi, müstəqil KİV-lərin və ayrı-ayrı şəxslərin kommunikasiya prosesində iştirakının təmin edilməsi, bütün səviyyələrdə "Sərbəst informasiya axını"nın prinsiplərinə riayət edilməsi, inkişafda olan ölkələrin özəl və müstəqil kütləvi informasiya vasitələri üçün jurnalist kadrların hazırlanması, kommunikasiya texnologiyalarının inkişafı, həm ikitərəfli sazişlər əsasında, həm də beynəlxalq təşkilatlar çərçivəsində onların informasiya yayımına hərtərəfli dəstəyin verilməsi nəzərdə tutulurdu. Xüsusi olaraq vurğulanırdı ki, bu ölkələrin milli və regional resurslarının texniki cəhətdən inkişafına lazımi dəstək verilməlidir. "Kommunikasiyanın Beynəlxalq İnkişaf

Proqramı" çərçivəsində müstəqil KİV-lərin imkanlarının genişləndirilməsi üçün əlverişli layihələrin həyata keçirilməsi BMT qətnaməsinin başlıca tələblərindən idi. Asiyada müstəqil və plüralist informasiya vasitələrinə kömək məqsədilə 1992-ci ilin oktyabrında Alma-Atada BMT və YUNESKO-nun birgə seminarında Vindhuk Bəyannaməsinin ruhuna və fəlsəfəsinə uyğun olan və həmin prinsipləri Asiya qitəsinə daşıyan Alma-Ata Bəyannaməsi qəbul olundu.

Latın Amerikası və Karib hövzəsi ölkələrində kütləvi informasiya vasitələri və demokratiyanın inkişafına həsr olunmuş və 1994-cü ilin mayında Çilinin Santyaqo şəhərində keçirilmiş regional seminarda qəbul olunmuş Santyaqo Bəyannaməsi Vindhuk və Alma-Ata sənədləri əsasında hazırlanmış, eyni prinsipləri Latın Amerikası və Karib hövzəsi ölkələrinə gətirmişdi. YUNESKO-nun təklifi ilə Çili prezidenti Santyaqonun meydanlarından birinə Ümumdünya Mətbuat Azadlığı Günü şərəfinə "Mətbuat azadlığı meydanı" adı vermişdi. Vindhuk Bəyannaməsinin prinsiplərini ərəb ölkələrinə yaymaq məqsədilə BMT və YUNESKO 1996-cı ilin yanvar ayında Yəmənin Sana şəhərində beynəlxalq seminar keçirmiş və qəbul olunmuş Sana Bəyannaməsi ərəb kütləvi informasiya vasitələrində fikir müxtəlifliyinin inkişafına, media qurumlarının müstəqilliyinin qorunmasına yönəlmişdi.

Regional tədbirlərin yekunu kimi, Birləşmiş Millətlər Təşkilatı və YUNESKO 1997-ci ilin 10-13 sentyabrında Bolqarıstanın paytaxtı Sofiyada Avropa ölkələrinin informasiya vasitələrinin müstəqilliyini və plüralizmi inkişaf etdirmək üçün seminar təşkil etmiş, tədbirdə Mərkəzi və Şərqi Avropa ölkələrinin media vasitələri diqqət mərkəzində olmuşdur. Seminarda 40 ölkəni, o cümlədən Azərbaycanı 300-dən artıq KİV əməkdaşları təmsil etmişlər. Beynəlxalq forumda dünyanın nüfuzlu jurnalist təşkilatlarından Beynəlxalq Jurnalistlər Federasiyası, Beynəlxalq Qəzetlər Assosiasiyası, Sərhədsiz Reportyorlar Təşkilatı, Ümumdünya Mətbuat Azadlığı Komitəsi, Beynəlxalq Mətbuat İnstitutu, Beynəlxalq Jurnalistləri Müdafiə Komitəsi, "Article XIX" Təşkilatı, Avropa Yayım Birliyi, Avropa Radiolar Birliyi və s. fəal iştirak etmişlər (Məmmədov, 2016). Sofiya görüşündə dövlətlərarası və hökumətlərarası beynəlxalq təşkilatların, Avropanın nüfuzlu jurnalist birliklərinin nümayəndələri, informasiya vasitələrinin rəhbərləri dörd gün ərzində "İnformasiya vasitələri və demokratiya", "İnformasiya vasitələrinə qarşı zorakılıq", "İnformasiya vasitələri əməkdaşlarının professional səviyyəsinin artırılması", "Yeni kommunikasiya texnologiyaları: nəticə və perspektivlər" kimi mövzularda müzakirələr aparmış və bir sıra əhəmiyyətli qərarlar qəbul etmişlər. Forum Vindhukda, Alma-Atada, Santyaqoda və Sanada keçirilmiş seminarların davamı və axırıncısı idi. Bu seminar demokratiyanın əsas komponenti sayılan söz və mətbuat azadlığı prinsipinin dünyanın bütün

bölgələrində möhkəmləndirilməsi naminə yönəlmiş Birləşmiş Millətlər Təşkilatının və YUNESKO-nun səkkiz illik səylərinin yekunu olmuşdur.

Beynəlxalq forumun qəbul etdiyi Sofiya Bəyannaməsi dünyada böyük əks-səda doğurmuş, sənəd müstəqil, plüralist və azad kütləvi informasiya vasitələrinin yaradılması, müdafiəsi və möhkəmləndirilməsi sahəsində böyük əhəmiyyətə malik olmuşdur. Beynəlxalq forumda ilk növbədə KİV-in funksiyalarına diqqət yetirilmiş, mətbuatın əsasən iki funksiyanı yerinə yetirməsi: ictimai maraq kəsb edən informasiya və ideyaları cəmiyyətə ötürməsi və dövlət orqanlarının fəaliyyətinə nəzarəti həyata keçirməsi ayrıca qeyd edilmişdi ki, bunlar vətəndaş cəmiyyətinin qurulması üçün əsas prinsiplər hesab olunur. Əks halda totalitar rejimlərin bərpası qaçılmazdır. Ona görə də beynəlxalq forumun iştirakçıları demokratiya uğrunda ümumdünya hərəkatını dəstəkləməyə, fikir və informasiya azadlığını müdafiə etməyə səsləyirdilər:

*"Hər cür: bilavasitə və dolayısı ilə senzura yolverilməzdir. KİV əməkdaşları əvvəlkitək yenə də təqib, zor və işgəncələrə məruz qalır, hədələnir, tutulub saxlanılır, həbs olunur, oğurlanır və öldürülürlər. Onlar həmçinin siyasi və iqtisadi təzyiqlərə məruz qalır, siyasi motivlərə görə işdən çıxarılırlar, onlara qarşı qanunlar düzgün tətbiq olunmur, fəaliyyətlərini məhdudlaşdırmaq məqsədilə əlavə qanunlar qəbul edilir. KİV vasitəsilə informasiya və yeniliklərin sərbəst ötürülməsinə, dövri nəşrlərin ölkə daxilində və xaricdə yayılmasına mane olmaqla bərabər, onların çap avadanlığından, radioötürücü sistemlərdən, internet və digər rabitə vasitələrindən istifadə etməsinə tez-tez əngəl törədilir. Lisenziya alınması prosesi, nəzarətçi orqanların özbaşınalığı, mediaya qarşı tətbiq olunan yüksək tariflər kütləvi informasiya vasitələrinin imkanlarını daraldır, onların məlumat ötürmək və yaymaq hüququnu məhdudlaşdırır"* (Sofiya Bəyannaməsi. Prinsiplər və reallıq, 1997, s. 34-40 s. 35-36).

Bəyannamədə Mərkəzi və Şərqi Avropanın bir çox dövlətlərində çoxpartiyalı sistemin yaradılması və demokratiyanın inkişafı istiqamətində baş verən müsbət dəyişikliklər müstəqil və plüralist informasiya vasitələrinin təşkili üçün əlverişli şəraitin yaradılması kimi qiymətləndirilir və göstərilirdi ki, bütün dövlətlər əqidə və mətbuat azadlığının konstitusiya və hüquqi təminatını yaratmalı və möhkəmləndirməlidirlər. Demokratik azadlıqları məhdudlaşdıran qanunlara yenidən baxılmalı, onlar dəyişdirilməli və ya ləğv edilməlidir. Dövlətlər bu təminatlara xüsusi diqqət verməli, qanundankənar qadağa və tabular aradan qaldırılmalıdır.

Media əməkdaşlarının sərbəst yerdəyişməsi problemini xarici jurnalistlərə viza verilməsi prosesinin yüngülləşdirilməsi ilə bağlayan Bəyannamədə jurnalist fəaliyyəti məqsədilə ölkəyə

professional avadanlıqların gətirilməsinə və ondan istifadə edilməsinə dövlətin maneçilik törətməməsi, dövlət orqanlarının malik olduqları informasiyanı əldə etmək üçün jurnalistlərə heç bir maneə yaradılmaması, jurnalistin informasiya mənbəyini açmağa məcbur edilməməsi, müstəqil jurnalist təşkilatlarının yaradılması yolunda hər cür hüquqi və inzibati maneələrin aradan götürülməsi kimi tələblər əks olunmuşdu. Sofiya Bəyannaməsində jurnalist fəaliyyətinin peşəkar metodları dövlət qadağalarından və xüsusi qrupların təzyiqindən qorunmaq üçün ən yaxşı təminat kimi qiymətləndirilir və göstərilirdi ki, peşə fəaliyyəti sahəsində hər cür norma və rəhbər prinsiplərin yaradılması yalnız jurnalistlər tərəfindən müəyyənləşdirilə bilər. KİV və ya onların əməkdaşlarının peşə fəaliyyəti ilə bağlı mübahisələr yalnız məhkəmə vasitəsilə həll olunmalı, bu məsələlərə cinayət və ya hərbi məcəllə əsasında deyil, mülki məcəlləyə uyğun baxılmalı, bütün informasiya vasitələrinin təşkili məsələsində peşə müstəqilliyi və redaksiya-nəşriyyat azadlığı, dövlətə mənsub olan radio-televiziya orqanları və informasiya agentliklərində ilkin mərhələdə islahatlar aparılmalı, onlara tədricən açıq ictimai təşkilat statusu verilməli, radio və televiziya sahəsində yaradıla biləcək tənzimləyici orqanlar hakimiyyətdən asılı olmamalı, müstəqil informasiya agentliklərinin, habelə xüsusi və icma informasiya vasitələrinin yaradılması prosesi stimullaşdırılmalı - Sofiya Bəyannaməsinin bu prinsipləri artıq müxtəlif beynəlxalq hüquqi sənədlərdə öz təsbitini tapmışdır. Avropanın bir çox yerində sülh və demokratiya üçün real təhlükə yaradan ksenofobiya, müxtəlif etnik və dini qruplar arasındakı toqquşmalar jurnalist fəaliyyətinin daima diqqət mərkəzində olmalı, obyektiv politoloji təhlillərin aparılması yolu ilə münaqişələri şərtləndirən və nizamlanmasını mümkün edən amillər vaxtında aşkarlanmalıdır. Təsadüfi deyildi ki, sənəddə kütləvi informasiya vasitələrinin etnik və digər azlıqların problemlərini müntəzəm işıqlandırması, onların nümayəndələrinin jurnalistika sahəsinə cəlb edilməsi, jurnalistlərin münaqişə zonasından reportaj hazırlayarkən tərəfsiz olması, yalnız faktlara əsaslanması və yüksək peşəkarlıq normalarının qorunmasına diqqət yetirilməsi xüsusi qeyd olunurdu. Azad dünyanın nümayəndələri dərk edirdilər ki, cəmiyyətdə plüralizmə qarşı ən böyük təhlükə KİV üzərində dövlət nəzarətinin mövcudluğundan, media vasitələrinin bir əldə cəmləşməsindən və digər məhdudlaşdırıcı mexanizmlərdən doğur. Ona görə də onlar təklif edirdilər ki, media vasitələrinin dövlətin əlində cəmləşməsinə imkan verməyən qanunvericilik aktları qəbul edilsin və digər səmərəli tədbirlər görülsün. Cəmiyyətdə mülkiyyət müxtəlifliyi KİV sahəsində də özünü göstərir. KİV təsisçiləri və onları maliyyələşdirən qurumların fəaliyyəti haqqında ictimaiyyətə lazımi informasiya verilməlidir. Dövlətin ilkin vəzifəsi odur ki, müxtəlif mülkiyyət formalarının mövcudluğu şəraitində KİV mülkiyyətinə təzyiqlərə imkan verməsin

və həvəsləndirmə tədbirlərini həyata keçirsin. Yalnız bu yolla kütləvi informasiya vasitələrinə olan inamı qoruyub saxlamaq olar.

Sofiya toplantısının iştirakçıları və media üzrə dünya ekspertləri bir daha vurğulamışlar ki, mətbuat azadlığı, informasiya almaq və fikri sərbəst ifadə etmək hüququ əsas insan haqlarından biri hesab olunduğuna görə hökumətlərarası təşkilatlar və donor müəssisələri dünyanın bütün bölgələrində müstəqil və plüralist informasiya vasitələrinin yaradılmasına və möhkəmləndirilməsinə yardım etməli, Sofiya Bəyannaməsinin prinsiplərini həyata keçirmək məqsədilə Birləşmiş Millətlər Təşkilatının Baş Katibi həmin sənədi Baş Məclisə, YUNESKO-nun Baş direktoru isə Baş Konfransa təqdim etməli və bunun əsasında geniş müzakirələr aparılmalıdır. BMT-nin media siyasətinin nəticəsidir ki, artıq postsosialist və postsovet məkanında müstəqil kütləvi informasiya vasitələri yayımlanmaqdadır (Mihajlov, 2002). İfadə azadlığı və informasiya vasitələrinin sərbəstliyi - bu iki amil bir-birilə sıx bağlıdır. İnformasiya azadlığı ilə informasiya vasitələrinin sərbəstliyi arasında olan bağlılıq artıq beynəlxalq təşkilatlar tərəfindən də təsbit edilmişdir ki, bu təşkilatlar həm də insan haqları üzrə sazişlərin tətbiqi və izahı ilə məşğuldurlar. Sərbəst informasiya axını nəticəsində informasiya vasitələri cəmiyyətdə "gözətçi köpək" funksiyasını yerinə yetirir, eyni zamanda ölkədə və dünyada baş verən hadisələr haqqında ictimai fikri vaxtlı-vaxtında məlumatlandırırlar. Jurnalist peşəsi informasiya axtarmaq, almaq və yaymaq hüququnun üzərində qurulduğuna görə informasiya vasitələri bu haqqın həyata keçməsində mühüm rol oynayırlar. İnformasiya azadlığının hüquqi cəhətdən vacibliyi müasir dünyanın Yaponiya, Hindistan, Cənubi Koreya, Böyük Britaniya, Meksika, Tailand kimi dövlətlərini, Mərkəzi və Şərqi Avropanın əksər ölkələrini müvafiq qanunvericilik aktlarının qəbulunu sürətləndirməyə vadar etmiş, belə qanunvericilik aktları İsveç, ABŞ, Finlandiya, Hollandiya, Avstraliya və Kanadada artıq qəbul olunmuşdur. İnformasiya azadlığı hüququ Birləşmiş Millətlər Təşkilatı tərəfindən ifadə sərbəstliyi üçün əsas amillərindən biri kimi qəbul edilmişdir. İnformasiya vasitələrinin azadlığı hüququ eyniliklə bütün insanlara da aiddir. Çünki bu amil dünyanın hər yerində istifadə edilən birbaşa söz və informasiya azadlığı hüququndan irəli gəlir.

Aydındır ki, jurnalistin peşə fəaliyyəti üçün yalnız informasiya almaq və ötürmək azadlığı hüququ kifayət edərdi. Amma bütün beynəlxalq normativ aktlarda jurnalist cəmiyyətin başqa üzvlərindən kənarda götürülmür. Hətta informasiya azadlığı haqqında çoxyaşlı qanunun vətəni hesab olunan İsveçin 1766-ci ildə qəbul etdiyi (başqa ölkələrdən iki əsr əvvəl) normativ aktda (Məmmədov, 2016) informasiyaya çatım hüququ yalnız informasiya vasitələrinə məxsus olan azadlıq kimi qəbul edilmir, əksinə bütün ölkə vətəndaşlarının (hətta əcnəbilərin) informasiyaya

giriş hüququnun tərkib hissəsi kimi qəbul olunur. Bununla da vurğulamaq olar ki, informasiya fəaliyyətinin beynəlxalq prinsipləri dünya dövlətlərinin mütərəqqi tarixi təcrübəsinə əsaslanır və müasir meyarlarla zənginləşdirilir. Bütövlükdə isə müasir KİV-in demokratik prinsiplərə yiyələnməsi prosesində BMT-nin və başqa dövlətlərarası qurumların dünyanın müxtəlif regionlarında təşkil etdiyi beynəlxalq forumların və orada qəbul olunmuş sənədlərin xüsusi əhəmiyyəti olmuşdur.

**Nəticə**

Aparılan araşdırmalar göstərmişdir ki, beynəlxalq müqavilələr əsasında formalaşan dövlətlərarası informasiya münasibətləri dünya xalqlarının çoxəsrlik tarixi təcrübəsindən qaynaqlanmış, insan hüquqlarının aliliyi prinsipinə söykənmiş və inkişaf etmişdir. İnformasiya və media sahəsində ölkələrarası əməkdaşlıq ayrı-ayrı dövlətlərin hüquq normalarının və maddələrinin eyni cür izah edilməsinə və eyni məzmun daşımasına hərtərəfli şərait yaratmışdır. Beynəlxalq informasiya mübadiləsi müasir dünyada vahid media prinsiplərinin formalaşmasına güclü təkan vermişdir. Konseptual baxışların və beynəlxalq təşkilatların hazırlayıb ərsəyə gətirdiyi sənədlərin təhlili insan hüquqlarının tarixi köklərini, nəzəri əsaslarını dərindən mənimsəməyə imkan vermişdir. Bu hüquqlar müasir cəmiyyətin sosial-ictimai ruhuna uyğun olsa da, daha çox vətəndaşla dövlət arasında olan münasibətlərə aiddir və əsasən fərdi xarakter daşıyır. Mətbuat, söz və ifadə azadlığı insan, cəmiyyət və dövlət arasında olan qarşılıqlı münasibətləri tənzimləyir və demokratik idarəetmə prinsipinin əsasını təşkil edir. Söz və ifadə azadlığı hər bir ölkənin, millətin intellektual potensialının reallaşdırılması üçün geniş imkanlar yaradır. Müasir dövrdə söz və ifadə azadlığının təminatı və onun real vəziyyəti ölkələrdəki siyasi idarəetmənin xarakterini müəyyən edir və demokratik inkişafın başlıca amillərdən biri kimi çıxış edir. Beynəlxalq sənədlərdə vurğulanmışdır ki, insan hüquqlarının unudulması və ya ona biganəlik ictimai bəlaların və məmurların korrupsiyaya qurşanmasının əsas səbəblərindən biridir. BMT özünün fundamental xarakterli sənədlərində söz, mətbuat və ifadə azadlığı anlayışına daxil olan fəlsəfi və hüquqi komponentləri dünya dövlətləri ilə razılaşdırmış və beynəlxalq birliyə bəyan etmişdir. Azərbaycan öz müstəqilliyinə qovuşduqdan sonra beynəlxalq təşkilatlara və dünya birliyinə inteqrasiya xəttini tutmuş və bunun üçün dövlət başçısı mühüm addımlar atmışdır.

**Ədəbiyyat**

General'noj Assambleâlén rešeniez, http://www.un.org/ru/docum

Məmmədov, S. (2016). *Müasir Azərbaycan Mətbuatinin İnkişaf Problemləri Beynəlxalq Təşkilatlari Media Siyasəti Kontekstində* [Siyasi elmlər üzrə elmlər doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın A v t o r e f e r a t ı, Bakı Dövlət Universiteti]. AAK.

Mihajlov, S. A. (2002). *Voennojëslén tuala žurnalzy: zémlyk no paradoks.* Éks.

New Communication 1991, http://unesdoc.unesco.org/i

OON-lén General'noj Assambleâezlén rezolûciez http://www.un.org/en/

Sofiya Bəyannaməsi. Prinsiplər və reallıq. (1997). 1-2, 34-40.

OOH A/RES/37/92 // http://www.un.org/ru/documents/

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:15.11.2024*
*Kabul tarihi |Accepted:10.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Xatirə Hüseynova**

***https://orcid.org/0000-0003-0697-380X***
*Doctor of Philosophy, Associate Professor, Baku State University, Faculty of Journalism, Department of New Media and Communication Theory, Azerbaijan, hatirebsu@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Hüseynova, X. (2024). Televiziya Tənqidi Televiziyanın Nəzəriyyəsi və Təcrübəsini Birləşdirən Jurnalistika Sahəsidir. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 108-116.

# Televiziya Tənqidi Televiziyanın Nəzəriyyəsi və Təcrübəsini Birləşdirən Jurnalistika Sahəsidir

***Xülasə***

*Televiziya tənqidinə adətən beynəlxalq təcrübədə media tənqidinin bir qolu kimi baxılır. Televiziya tənqidinin bir termin olaraq müxtəlif yozumları var. Teletənqid "keyfiyyətsiz məhsul ilə mübarizə silahı", tamaşaçını maarifləndirən və yönləndirən amil kimi xarakterizə edilir. Tənqidçi auditoriyanın üzərinə yağdırılan saysız-hesabsız proqramlar arasında bir növ yönləndirici rolunu oynayır. Təcrübə göstərir ki, kütləvi auditoriyaya ünvanlanmış tənqidi materiallar da səmərəsiz qalmır. Belə halda teletənqidlə üzləşəcəyini labüd sayan proqram yaradıcısı daha artıq məsuliyyət və cavabdehlik hiss edər, verilişin doğuracağı peşəkar reaksiya ilə hesablaşmağı göz önünə alar. Peşəkar teletənqidçi oxucu üçün istiqamətləndirici rolunu oynayır, hər hansı bir teleproqramın onun xoşuna gəlib-gəlməməsini müzakirəyə çıxarmır. Tənqidçi əsərin, hər hansı teleproqramın və ya bütövlükdə bir kanalda yayımlanan verilişlərin mahiyyətini anlatmalı, qoyulan qaydalara uyub-uymadığını göstərməli, fikrini qəbul etdirməyə çalışmamalı, sadəsə informasiyalandırmalıdır. Böyük və ya kiçikliyindən asılı olmayaraq, hər hansı auditoriya qarşısına çıxan tənqidçi ilk növbədə televiziya mühitində, müxtəlif və çox zaman bir-birini təkrarlayan, o qədər də fərqlənməyən televiziya kanalları arasında mayak, yönləndirici vəzifəsini üzərinə götürməlidir.*

BY NC
Creative Commons Licence

***Açar sözlər:*** *Media Tənqidi, Televiziya Tənqidi, Jurnalistika, Televiziya*

## Television Criticism is a Journalism Field that Combines Television Theory and Practice

***Abstract***

*Television criticism is generally regarded as a branch of media criticism in international practice. There are various interpretations of television criticism as a term. Television criticism is characterised as 'a weapon against inferior products', an element that educates and guides the viewer. The critic acts as a kind of conduit between the myriad of programmes showered upon the viewers. Experience shows that critical material addressed to a wide audience is not without effect. In such a situation, the creator of a programme who feels that it is inevitable that he will encounter television criticism will feel more responsible and accountable, and will take into account the professional backlash that the programme will cause. A professional TV critic guides the reader and does not discuss whether he/she likes or dislikes a TV programme. The critic should explain the essence of the work, any TV programme or all the programmes broadcast on a channel as a whole, show whether they comply with the established rules or not, should not try to impose his/her opinion, but only inform. The critic, who appears before every viewer, no matter how big or small, must first of all undertake the task of being a guide and a guiding light in the television environment, among different and often overlapping and not so different television channels.*

***Keywords:*** *Media Criticism, Television Criticism, Journalism, Television*

### Giriş

Çağdaş informasiya məkanını televiziyasız təsəvvür etmək mümkün olmadığı kimi televiziyanı da prinsipial, peşəkar tənqidsiz düşünmək olmaz. Televiziya tənqidinin öyrənilməsi kifayət qədər aktualdır, çünki bu gün Azərbaycanda telekanalların o qədər də ürəkaçan olmayan durumu teletənqidin də zəif olduğunu göstərir. Televiziya tənqidçisi auditoriyanın üzərinə yağdırılan saysız-hesabsız proqramlar arasında bir növ yönləmdirici rolunun oynayır. Kütləvi auditoriyaya ünvanlanmış tənqidi materiallar səmərəsiz qalmır, teletənqidlə üzləşəcəyini labüd sayan proqram yaradıcısı daha artıq məsuliyyət daşıyır, verilişin doğuracağı peşəkar reaksiya ilə hesablaşmaq lazım gəldiyini anlayır. Nəticədə izləyiciyə daha keyfiyyətli məhsul - maraqlı proqram təqdim olunur. Azərbaycanda televiziya tənqidini araşdırmaq elə televiziyanın tarixini öyrənmək deməkdir. Televiziya tənqidinin tarixi elə müntəzəm teleyayımın başladığı vaxtdan hesablansa da indiyədək Azərbaycanda sistemliixtisaslaşmış teletənqidçilər ordusu yetişməyib. Araşdırmalarımız göstərir ki, 1956-cı ildən sonra kütləvi nəşrlərdə - qəzet və jurnallarda televiziya yayımı, yayımın texniki tərəfləri, televiziyada dil və nitq problemi, aparıcı problemi kimi mövzularda yazılara rast gəlinir. Bu materialların təhlili də teletənqidin inkişafının önəmini bir daha şərtləndirir.

## 1. Televiziya tənqidi media tənqidinin bir qolu kimi

Televiziya tənqidinə adətən beynəlxalq təsrübədə media tənqidinin bir qolu kimi baxılır. Xarici elmi-nəzəri ədəbiyyatda geniş istifadə olunan «media tənqidi» bir termin olaraq Azərbaycan jurnalistikası üçün yenidir. İngilisdilli ədəbiyyatda «media criticism» termin kimi iki anlamda izah olunur:

1.Bu termin araşdırmalarda kütləvi informasiya vasitələrinin fəaliyyətinin elmi təhlilinə aid edilir. Bu halda söhbət jurnalistika elminin ayrılmaz sahəsi olan elmi tənqiddən gedir.

2.Termin media istehsalının təhlilini gerçəkləşdirən, kütləvi informasiya vasitələrinin aktual problemlərini öyrənən jurnalist yaradıcılığı sahəsinə şamil edilir (Hüseynova, 2014).

Media tənqidini vahid kompleks halında araşdırmaq vacib olduğu kimi onun ayrı-ayrı komponentlərini – televiziya yaradıcılığını, radio jurnalistikasını, dövrü mətbuatın fəaliyyətini, internet yayımını hərtərəfli araşdırmaq da önəmlidir. Media tənqidi kütləvi informasiya vasitələrində informasiya istehsalının aktual yaradıcılıq, peşəkar-etik, hüquqi, iqtisadi və texnoloji aspektlərini araşdıran jurnalist yaradıcılığı sahəsidir. Bu zaman media məhsulunun yaradıcılıq tərəfinə daha çox üstünlik verilir. Beləliklə, media tənqidinin obyekti təkcə media məzmununu və media məhsulu müəlliflərinin yaradıcılığını əhatə etmir, çap və elektron medianın auditoriya ilə, ümumilikdə ictimaiyyətlə qarşılıqlı əlaqələrini kompleks şəkildə öyrənir.

Media tənqidinin aşağıdakı sahələrini müəyyən etmək olar:

- televiziya tənqidi;
- dövri mətbuatın tənqidi;
- radio tənqidi;
- yeni medianın tənqidi.

Televiziya tənqidi barədə hərtərəfli danışmaq üçün öncə önun mahiyyətini dərk etmək, "televiziya tənqidi nədir?" sualını cavablandırmaq vasibdir. Televiziya tənqidinin bir termin olaraq müxtəlif yozumları var. Teletənqid "keyfiyyətsiz məhsul ilə mübarizə silahı", tamaşaçını maarifləndirən və yönləndirən amil kimi xarakterizə edilir. 2002-ci ildə Avrasiya Televiziya Akademiyası ilə "Teleforum" jurnalı, Avrasiya Media Qrupu, Rusiya Kinematoqrafçılar İttifaqı və İnternyusla birgə televiziyanın nəzəriyyəsinə və tənqidinə həsr olunmuş seminarda televiziya tənqidinə "fərdi baxışın aqressiv telemühitdən müdafiəsi" kimi baxmaq qərara alınıb. Moskva Dövlət Universitetinin professoru, televiziyanın tanınmış araşdırıcılarından olan S. A. Muratov televiziya tənqidini "televiziyanın özünüdərki" adlandırıb (Muratov, 2016). Bəzi teletənqidçilər isə bu termini "teleproseslərə kənardan baxış" kimi səciyyələndirir. Peşəkar tənqidçi oxucu üçün istiqamətləndirisi rolunu oynayır, hər hansı bir əsərin onun xoşuna gəlib-

gəlməməsini müzakirəyə çıxarmır. Tənqidçi əsərin, hər hansı teleproqramın və ya bütövlükdə bir kanalda yayımlanan verilişlərin mahiyyətini anlatmalı, qoyulan qaydalara uyub-uymadığını göstərməli, fikrini qəbul etdirməyə çalışmamalı, sadəcə informasiyalandırmalıdır. Böyük və ya kiçikliyindən asılı olmayaraq, hər hansı auditoriya qarşısına çıxan tənqidçi ilk növbədə ədəbi mühitdə, müxtəlif və çox zaman bir-birini təkrarlayan, o qədər də fərqlənməyən televiziya kanalları arasında mayak, yönləndirici vəzifəsini üzərinə götürməlidir.

Bir sözlə, yaradıcı kollektiv yaradır, yayımçı – texniki avadanlıq və cihazlar vasitəsilə ötürür, auditoriya – izləyir, tənqidçi – incələyir, saf-çürük edir. Seçim hüququ isə yenə də auditoriyada qalır. Demək, əslində kütəlvi və dayanıqlı, nisbətən sabit auditoriya uğrunda durmadan mübarizə aparan televiziya kanallarının seyrçi qəlbinə yolu dolayısıyla tənqidçinin qələmindən də keçə bilər. Buna görə də tənqidçi öz işini yaxşı bilən, praktik mülahizələrinin arxasında möhkəm nəzəri dayaqlar qoymağı bacaran peşəkar olmalıdır. Çünki televiziya özü ictimai fikri formalaşdıran önəmli informasiya vasitələrindəndir. *"Təbiidir ki, kütləvi kommunikasiya vasitələri ilk növbədə dünyada cətəyan edən hadisələr barədə dinləyici və tamaşaçı auditoriyasına informasiya verərək hamını dünya vətəndaşına çevirməyə qadir olduğunu göstərir"* (Məhərrəmov, 2000, s. 41).

## 2. Ədəbi tənqid televiziya tənqidinin bazası kimi

Televiziya tənqidi nəzəri səhətdən ədəbi tənqidin bazası üzərində formalaşıb. Bu baxımdan teletənqidin nəzəri aspektdən araşdırılmasına ədəbi tənqidin bəzi məqamlarının xatırladılması ilə başlamaq daha məqsədəuyğun olardı. XIX əsr Azərbaycanın mütəfəkkir yazıçısı, həm ədəbi-bədii, həm ictimai-fəlsəfi, tənqidi, estetik, sosial baxışları ilə ədəbiyyat tariximizə öz möhürünü vuran Mirzə Fətəli Axundovun da tənqid barədə maraqlı fikirləri var. Axundov "tənqid" terminini müxtəlif mənalarda, həm konkret, həm də geniş anlamda işlədib. O, tənqidə ictimai inkişaf vasitəsi kimi baxaraq cəmiyyətin tərəqqisindəki faydasından danışır. Axundovun fikrincə, ədəbiyyat moizə, məsləhət yolu ilə gedə bilməz, o cəmiyyətin nöqsanlarını və eybəcərliklərini tənqidə tutmalıdır. Bununla da irəliləyişə təkan verməlidir. (Axundov, 1987). Ədib tənqid – kritika terminini bir də ədəbi tənqid mənasında işlədib. Axundov belə qənaətə gəlib ki, bədii ədəbiyyatın inkişafını istiqamətləndirmək, ona doğru yol göstərmək, oxusunun zövqünü yüksəltmək üçün ədəbi tənqid vasibdir. Avropada geniş tətbiq edilən bu üsul Şərqdə də dəbə düşməlidir. Ədəbi tənqidin bir nümunəsi olaraq Axundov İran şairi Süruşun, dramaturq Mirzəağa Təbrizinin, Rzaquluxan Hidayətin əsərlərini tənqid edib.

*"... bu qayda Avropada məlumdur və onun böyük faydaları vardır; məsələn: bir şəxs bir kitab yazdığı zaman, başqa bir şəxs onun əsərinin mətləbləri xüsusunda kritika yazır, bu şərtlə*

*ki, onun yazısında müəllif haqqında ədəbsiz və könül insidən bir söz belə olmasın. Hər nə deyilsə, incəliklə deyilsin. Bu işi "kritika", fransız istilahı ilə "kritik" adlandırırlar* (Axundov, 1987).

Müəllif ona savab verir. Ondan sonra üçünsü bir şəxs meydana çıxır, ya müəllifin savabını təsdiq edir, ya da kritika yazanın fikrini üstün tutur. Bu işin nətisəsi budur ki, get-gedə nəzm və nəsr, inşa və təsnif bütün Avropa xalqlarının dilində səlasət qazanır və mümkün qədər səmi nöqsanlardan təmizlənir. Müəllif və şairlər öz vəzifələri və təklifləri haqqında tamam xəbərdar olurlar (Axundov, 1987). Axundovun fikrinsə, mətbuat elə bir kritika çap etməlidir ki, o, obyektiv olsun, həqiqəti desin, müəlliflərə bir növ yol göstərsin. Kəsərli ədəbi tənqid olmadan bayağı ədəbiyyatla mübarizə aparmaq olmaz.

Təbii ki, tənqid hər hansı bir əsəri pisləmək, yalnız sözün əsl mənasında, tənqid etmək, nöqsanları qabartmaq demək deyil, onun əsas məqsədi əsəri təhlil etmək, onun kompanentlərinin qəbul olunmuş qaydalara və nəzəri müddəalara nə dərəcədə uyub-uymadığını aşkarlamaq, saf-çürük etmək və istiqamətləndirməkdir. Belinskiynin təbirincə desək, *"tənqid etmək - müəyyən hadisədə ağılın qarşıya qoyduğu ümumi qaydaları arayıb aşkara çıxarmaq deməkdir"* (Belinskiy, 1955).

Tənqidin əsl mahiyyətini açıq-aydın xırdalayan Belinskiy yazır: *"Tənqid etməyi çoxları danlamaq, tənqidi isə məzəmmət məqaləsi kimi başa düşürlər. Bu azmış kimi, satiranı da, paskvili də, tənqid adlandırırlar, əyalətlərdə isə səmiyyətin orta təbəqəsi arasında qeybət, dedi-qodu da tənqid hesab olunur. Tənqidi bu cür qəbul etmək bəraəti unudaraq ədaləti yalnız cəza ilə qarışdırmaq deməkdir. Tənqid daha çox insəsənətlə bağlı bir elm kimi tanınsa da, onun rolu bununla məhdudlaşmır. "Kritika" - mühakimə etmək mənasını verən yunan sözüdür. Ümumi mənada tənqid özü elə mühakimə deməkdir. Buna görə də tənqid yalnız ədəbiyyata və insəsənətə aid deyil, elmi predmetləri, tarixi, əxlaqı tənqid də mümkündür. Məsələn: Lüter papizmin, Bossyüet tarixin, Volter isə feodal Avropasının tənqidçisi idi"* (Belinskiy, 1955, s. 278).

Tənqidi müstəqil bir elm kimi dəyərləndirən Puşkin onun əsas vəzifələrini yığcam şəkildə belə göstərib: *"Tənqid – insəsənət və ədəbi əsərlərin gözəlliyini və qüsurlarını açan elmdir. O, rəssam ya da yazıçının öz əsərini yaradarkən istinad etdiyi qaydalar toplusundan qaynaqlanmalı, müasir yaradıcı mühitin müşahidəsi və nümunələrin dərindən araşdırılmasına əsaslanmalıdır. Tənqid tərəfsiz, inandırıcı və elmi olmalıdır*" (Pushkin, 1949, s. 58).

Puşkindən fərqli olaraq, böyük rus tənqidçisi I. V. Belinskiy belə düşünür ki, "kamil bədii əsərin nə gözəllikləri, nə də çatışmayan cəhətləri olmur. Yalnız bədii əsəri bir tam olaraq qavraya bilməyən estetik zövq onda gözəllikləri ya da mənfilikləri görə bilər". Belinskiynin

fikrincə, əsl tənqidin vəzifəsi şairin yaradısılığında xüsusi yox, ümumi; fərdi yox, bəşəri; ötəri yox, daimi; təsadüfi yox, zəruri cəhətləri aramaq və bunun əsasında da şairin ideyalarını, dəyərini, üstünlüklərini, yerini və əhəmiyyətini təyin etməkdir. Belinskiy yazır ki, heç nəyi şəxsi mövqe əsasında, fərdi təəssürata görə nə təsdiqləmək, nə də inkar etmək olmaz: mühakiməni şəxslərin deyil, ağılın öhdəsinə buraxmaq lazımdır və insan öz mövqeyinə görə deyil, ümumbəşəri ağıl naminə mühakimə yürütməlidir.

*"Söhbət yeməklərdən, şərabdan, yarış atlarından düşəndə «mənim xoşuma gəlir, mən bəyənirəm" ifadələri yerinə düşür, burada hətta hər kəsin öz avtoriteti də ola bilər. Amma söhbət ki tarixdən, elmdən, insəsənətdən düşür, burada yalnız öz hislərinə və düşüncələrinə əsaslanaraq özbaşına və sübutsuz hökm verən hər hansı "mən" ağıldankəmlər evində başına kağızdan tac qoymuş…. bədbəxti xatırladır"* (Belinskiy, 1955, s. 279).

### 3. Televiziya tənqidi informasiya axınında "kompas" kimi

Azərbaycanda televiziya informasiyası bazarında yer tutmaq cəhdlərinin artması televiziya tənqidinin zərurətini artırır. Fikrimizsə, televiziya tənqidi bir termin olaraq aşağıdakı kimi anlaşılmalıdır:

*Televiziya tənqidi ilk növbədə media tənqidinin birbaşa televiziya yaradıcılığı məhsulunu dəyərləndirən və təhlil edən sahəsidir;

*Televiziya tənqidi televiziyanın aktual problemlərini araşdıran nəzəri və praktik bazaya malik jurnalist yaradıcılığı sahəsidir;

*Televiziya tənqidi televiziyanın reklam və marketinq bazarına təsir güsünə malik televiziya-auditoriya münasibətlərini neytrallaşdıran amildir;

*Televiziya tənqidi sosial sifariş olaraq, telekanallar vasitəsilə tamaşaçının üzərinə yağdırılan aramsız informasiya axınında seçim etməsinə yardımçı olan «kompas» - bələdçidir.

*Teletənqidin əsas predmeti jurnalist və yaradıcı kollektivin əməyinin maddiləşmiş məhsulu olan proqramdır, obyekti teleinformasiyanın istehlakçısı olan auditoriyanın kütləvi şüurudur.

Nəzəri araşdırmalarda teletənqidə müxtəlif yanaşma yolları mövcuddur. Alabama universitetinin professoru, Amerikada teletənqidin ən güclü araşırıcılarından sayılan S.Batler teleproqramları anlatmağın iki yolunu göstərir:

1. Kütləvi kommunikasiya vasitəsinin tədqiqatı – elmi araşdırma metoduna əsaslanan empirik tədqiqat;
2. Ədəbiyyat, incəsənət, tarix, kino və teatrda istifadə olunan təhlil metoduna əsaslanan analitik tədqiqat – televiziyaşünaslıq (Butler, 2012).

Empirik yanaşma ilə tənqidi yanaşma arasındakı fundamental fərqləri təyin etmək vacibdir. Çünki televiziyanın ilk müstəqil təhlili məhz empirizmin dominantlığı ilə xarakterizə olunub. Empirik yanaşmanın əsas prinsiplərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Tənqid olunan obekt haqqında bilik bu obyektin özündədir, tədqiqatçı onu eksperiment və müşahidə vasitəsilə müəyyənləşdirir;

2. Tədqiqatçı obyektivdir, o rəqəmləri uydurmur;

3. Eksperimentlər təbii elmlərdə olduğu kimi təkrarlanan olmalıdır. Yəni eyni prosedurlar oxşar obyektlərə tətbiq olunmaqla eksperimentlər təkrarlanaraq eyni nəticələrə gətirib çıxarmalıdır.

4. Bu nəzəriyyə hipotezalar yaratmaq və ya empirik tədqiqat vasitəsilə əldə olunmuş faktlar haqqında yeni fikirlər yürütmək üçün istifadə olunur. Bundan başqa, toplanmış faktlar yeni nəzəri araşdırmalara yol aça bilər.

Tənqidi yanaşma bu cəhətin bəzi detallarını da ehtiva etməklə, interpretasiyanın prinsiplərinə də əsaslanır:

1. Tənqid olunan obyekt haqqında bilik tədqiqatçının fenomenlə interpretiv əlaqəsi nəticəsində üzə çıxır. Mənanın yaranması prosesi insan intellektinin müəyyən mətnlə reaksiyasından keçir.

2. Tənqidçilər obyektiv ola bilməz. Onların işinin təbiəti subyektivdir. Tənqidi araşdırmalar tədqiqatçının nəzəri baxışlarını, təlim səviyyəsini və hətta psixoloji durumunu üzə çıxarır.

3. Tənqidi yanaşmalar rəyə əsaslandığına görə təkrarlana bilməz. Yəni, tədqiqatın təkrarlandığı zaman eyni nəticərin alınacağı mütləq deyil.

4. Tənqidi araşdırmaların nəticələri qarışıq, dəyişkən, hətta arabir ziddiyətli ola bilər.

Televiziya proqramlarını interpretasiya etmək – onun mahiyyətini və əhəmiyyətini məyyənləşdirməkdir. Peşəkar teletənqidçi obyekt üzərində işləyərkən bir sıra mərhələləri keçməlidir:

- obyektlə intellektual (hətta emosional) səviyyədə məşğul olmaq;
- onun tərkib hissələrini diqqətlə araşdırmaq;
- müəyyən tənqidi fikir yürütmək;
- bütün bunları interpretasiyaya əsaslanan nəzəriyyə və metodun analitik ənənəsinə uyğun təhlil etmək.

S. Batlerin fikrincə, tənqidçilər obyektiv ola bilməz, “çünki onların işinin təbiəti subyektivdir”. Tənqid aktı – nəzəriyyənin işdə tətbiqi prosesidir (Butler, 2012).

Televiziya tənqidi təkcə TV-də baş verən və TV-nin təsiri ilə həyata keçən prosesləri analiz etmir, yalnız izləyicilərə deyil, televiziyanın özünə də təsir gücünə malikdir (Dautova, 2015, s. 14). Televiziya tənqidi ilə məşğul olan jurnalist teleekranda göstərilən reallıqları təhlil etməklə kifayətlənmir, həm də bu reallıqların TV-də əksinin keyfiyyətini araşdırır. *"Bu gün TV-lər tamaşaçıya çatışmazlıqlardan danışır və onu eşidən azdır"* (Quliyev, 2004, s. 224). Televiziyanın tamaşaçı ilə effektiv ünsiyyətinin qurulmasında Teletənqidin rolu böyükdür.

Bir sözlə, tele məhsulun əsas parametrləri – müəllif mətni, təsvir, mövzuya yanaşma tərzi, işlənmə dərəcəsi, operator işi, aparıcı amili, obyektivlik, operativlik və digər xüsusiyyətlər analiz obyektinə çevrilir. Tənqidi təhlil və qiymətləndirmə televiziya məhsulunun estetik, fəlsəfi və etik dəyərlərini də özündə əks etdirir.

Televiziya tənqidi çox zaman tamaşaçıya doğru informasiyanı seçməkdə, manipulyasiyadan qorunmaqda da yardım edir. Professor Qulu Məhərrəmli yazır ki, *"təbii ki, bütün kütləvi kommunikasiya vasitələrinin, o cümlədən TVnin nəhəng təsir gücü ondan daha çox təbliğat vasitəsi kimi istifadə etməyə səbəb olur"* (Məhərrəmov, 1996, s. 40).

**Nəticə**

Televiziya tənqidi telejurnalistikanın nəzəriyyəsi ilə təcrübəsinin qovşağında dayanır. Yalnız informativ deyil, eyni zamanda analitik, maarifləndirici, həm də ictimai funksiyaları yerinə yetirərək tamaşaçılara televiziya proqramlarının mədəni dəyərini daha dərindən anlamağa kömək edir. Tənqidi materialları monitorinq edərkən belə nəticəyə gəlmək olar ki, Azərbaycanda televiziya tənqidinin analiz obyektlərini təxminən belə klassifikasiya etmək mümkündür:

*Teleproqramın süjet xətti, ssenarisi, rejissor işi

*Sosial, siyasi və mədəni aspektləri

*Texniki elementlər, məsələn, vizual effektlər, operator işi və montaj

*Teleproqramın tamaşaçı auditoriyasına və ictimai rəyə təsiri.

Tənqid sadəcə teleməhsulun analizi ilə kifayətlənmir, peşəkar yanaşma və əsaslandırılmış rəylərlə tamaşaçılara tövsiyələr verir. Çağdaş televiziya tənqidi resenziya, məqalə, esselər, yaradıcılarla müsahibələr və hətta podkastlar kimi müxtəlif formatları əhatə edir. Hər bir formatın özünəməxsus məqsədləri və auditoriyası var. Texnoloji inkişaf televiziyalara öz kontentini internet üzərindən müxtəlif platformalara daşımağa imkan yaratdı. Təbii ki, burada auditoriya ilə əlaqə, interaktivliyin artması teleproqramların keyfiyyət göstəricisinə də təsirsiz ötüşmədi. Tənqidçilər baxış reytinqləri və auditoriya məlumatlarından istifadə edərək təkcə məzmunun populyarlığını deyil, həm də onun ictimai təsirini öyrənə bilirlər. Müasir dövrdə

televiziya tənqidçiləri bloqlar, YouTube və sosial şəbəkələr vasitəsilə materiallarını paylaşaraq, yeni epizodlara operativ reaksiya vermək və tamaşaçılarla daha sıx ünsiyyət qurmaq imkanı əldə edirlər. Bütün bunlarla yanaşı, teletənqidin qarşısında bir sıra problemlər durur:

1-Tənqidin əsas problemlərindən biri subyektivlikdir. Tənqidçinin şəxsi fikri çox zaman geniş tamaşaçı auditoriyasının rəyi ilə üst-üstə düşməyə bilər.

2 - Bəzi tənqidçilər media şirkətlərində işlədiklərinə və ya media rəhbərləri ilə müəyyən münasibətlərinə görə təhlillərində tam tərəfsiz ola bilmirlər. Bəzən obyektivliklə kommersiya maraqları arasında ziddiyyətlər yarana bilir.

3 - Kütləvi auditoriya iri həcmli materialları bir növ qəbul etmək istəmir. Məzmun çoxluğu şəraitində tamaşaçılar qısa və sadə tənqid formalarına üstünlük verirlər, bu isə dərin təhlil imkanlarını məhdudlaşdırır.

4 - Daha bir problem teleməkanda maarifləndirici məzmunun azlığı, əyləncənin ön plana gətirilməsi ilə bağlıdır. Bu, birbaşa televiziya tənqidçilərinin obyektini və predmetini zəiflədir.

Son olaraq, qeyd etmək lazımdır ki, televiziya tənqidinin öyrənilməsi kifayət qədər aktualdır, çünki bu gün Azərbaycanda telekanalların o qədər də ürəkaçan olmayan durumu teletənqidin də zəif olduğunu göstərir. Çağdaş informasiya məkanını televiziyasız təsəvvür etmək mümkün olmadığı kimi televiziyanı da prinsipial, peşəkar tənqidsiz düşünmək olmaz.

## Ədəbiyyat

Axundov, M. F. (1987). *Bədii və fəlsəfi əsərləri*. Yazıçı.

Belinskiy, I. G. (1955). *Polnoe sobranie soçineniy.* İzdatelstvo Akademii Nauk SSSR.

Butler, J. G. (2012). *Television: Critical methods and applications*. Routledge.

Dautova, R. V. (2015). *Osnovı televizionnoy kritiki.* Kazanckiy Universitet.

Hüseynova, X. İ. (2014). *Televiziya tənqidi.* Heroqlif.

Quliyev, E. H. (2004). *Televiziya: nəzəriyyə və inkişaf meylləri*. Şərq-Qərb.

Məhərrəmov, Q. M. (1996). *Televiziya haqqında etüdlər*. Azərnəşr.

Məhərrəmov, Q. M. (2000). *Audiovizual nitq*. Elm.

Muratov, S.A. (2016). *Televizionnaya kommunikatsiya na ekrane i za yego predelami: Uchebnik i praktikum dlya vuzov.* Izdatel'stvo Yurayt.

Pushkin, A.S. (1949). *Polnoye sobraniye sochineniy v 10 tomakh.* Izd-vo. YEA SSR.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

***Mass Communication Special Issue***
***Araştırma Makalesi | Research Article***
***Geliş tarihi |Received:25.10.2024***
***Kabul tarihi |Accepted:19.11.2024***
***Yayın tarihi |Published:15.12.2024***

**Sabina Izzatli**

***https://orcid.org/0000-0003-0091-4905***
*PhD student, Baku State University, New Media and Communication Theory Department, Azerbaijan, sabina.izzatli@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Izzatli, S. (2024). Content in the New Media Environment: The Interaction of Medium and Message. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue, 11* (1), 117-124.

# Content in the New Media Environment: The Interaction of Medium and Message

***Abstract***

*This article examines the intricate relationship between content and medium in the new media environment, emphasizing the transformative impact of digital technologies on communication practices. The rapid evolution from traditional media to digital platforms has fundamentally altered how content is produced, disseminated, and consumed. Utilizing Marshall McLuhan's assertion that "the medium is the message," the study investigates how diverse mediums such as social media, video-sharing sites, and digital texts shape the interpretation and reception of content. Through a mixed-methods approach, this research combines a theoretical analysis with an original survey of media and content consumers, aiming to capture how ordinary users perceive the relationship between media platforms and message influence. Survey results offer a practical view into audience attitudes, revealing insights on user engagement, participatory culture, and the shift from passive content consumption to active participation in content creation and distribution. By analyzing cultural context and the dynamics of user-generated content, this research demonstrates how the interplay between medium and message impacts audience perceptions and reshapes the media landscape. Understanding this interaction is crucial for navigating the complexities of contemporary information flows and informing future media practices and strategies. This article contributes to media studies discourse, providing insights into the evolving nature of content in the digital age.*

BY NC
Creative Commons Licence

***Keywords:*** *new media, content, medium, communication, user engagement, participatory culture, information technology, social media, audience interaction, media studies*

## Yeni Media Mühitində Məzmun: Medium və Mesajin Qarşiliqlı Əlaqəsi

***Xülasə***

*Bu məqalə yeni media mühitində məzmun və vasitə arasındakı mürəkkəb əlaqəni tədqiq edir və rəqəmsal texnologiyaların kommunikasiya praktikalarına olan transformativ təsirini vurğulayır. Ənənəvi mediadan rəqəmsal platformalara keçid məzmunun yaradılması, yayılması və istehlakını əsaslı şəkildə dəyişmişdir. Marşall Makluhenin "vasitə mesajın özüdür" ifadəsinə əsaslanan bu tədqiqat sosial şəbəkələr, video platformaları və rəqəmsal mətnlər kimi müxtəlif vasitələrin məzmunun qəbuluna və izahına necə təsir etdiyini araşdırır. Qarışıq metodologiyadan istifadə edən tədqiqat həm nəzəri təhlili, həm də media və məzmun istehlakçıları arasında keçirilmiş orijinal sorğunu özündə birləşdirir. Bu sorğu adi istifadəçilərin media platformaları ilə mesaj arasındakı əlaqəni necə qavradıqlarını göstərməyi hədəfləyir. Sorğunun nəticələri auditoriyanın rəyi ilə bağlı praktiki baxış təqdim edərək, istifadəçi iştirakı, iştirakçı mədəniyyəti və məzmunun passiv istehlakından onun yaradılması və yayılmasında aktiv iştiraka keçid barədə dəyərli məlumatlar ortaya qoyur. Mədəni konteksti və istifadəçi tərəfindən yaradılan məzmunun dinamikasını təhlil edərək, bu tədqiqat vasitə ilə mesaj arasındakı qarşılıqlı təsirin auditoriya qəbuluna və ümumi media mühitinin dəyişməsinə necə təsir etdiyini nümayiş etdirir. Bu qarşılıqlı əlaqəni anlamaq, müasir informasiya axınının mürəkkəbliklərini naviqasiya etmək və gələcək media praktika və strategiyalarını formalaşdırmaq üçün mühüm əhəmiyyət kəsb edir. Məqalə media tədqiqatları üzrə diskursa töhfə verərək, rəqəmsal dövrdə məzmunun inkişaf edən təbiəti haqqında dəyərli biliklər təqdim edir.*

***Açar sözlər:*** *yeni media, məzmun, ətraf mühit, kommunikasiya, istifadəçi cəlbi, iştirakçı mədəniyyət, informasiya texnologiyaları, sosial şəbəkələr, auditoriya ilə qarşılıqlı əlaqə, media araşdırması*

## Introduction

The new media environment represents a significant shift from traditional media paradigms, characterized by enhanced interactivity, user-generated content, and the proliferation of digital platforms. This transformation has altered how information is disseminated and consumed. McLuhan's assertion that the medium shapes the message remains highly relevant; the characteristics of each medium influence not only how content is presented but also how it is interpreted and understood by audiences. This thesis investigates the multifaceted interactions between medium and content, highlighting the implications for creators and consumers in the digital age. The phrase "the medium is the message," coined by Marshall McLuhan in his 1964 book *Understanding Media: The Extensions of Man*, remains central in media studies and

communication theory. McLuhan's theory suggests that the medium (the channel or technology) used to convey information has a more profound effect on human perception and society than the content it delivers. This theory has evolved and inspired a range of interpretations and critiques, many of which address the interplay between medium and message and debate the extent to which each influences society and communication. Here's an overview of key literature and perspectives that explore or expand on this concept:

1. **Marshall McLuhan's Core Theory**

In *Understanding Media*, McLuhan argues that each medium whether television, print, or digital shapes society through sensory and cognitive changes. For instance, television, combining image and sound, influences cognition differently than print, which is visual and linear. McLuhan famously views the medium itself as the "message," asserting that it fundamentally changes how people interact with and interpret information. In *The Gutenberg Galaxy* (1962), he examines how specific technologies, such as the printing press, transformed cultural and cognitive structures, emphasizing linear and individualistic thinking that reshaped Western society. Extending McLuhan's theory, Neil Postman's media ecology framework suggests that media environments shape public discourse and consciousness. In *Amusing Ourselves to Death* (1985), Postman argues that television prioritizes visual entertainment over rational discourse, affecting political and social discussions. Similarly, Joshua Meyrowitz, in *No Sense of Place* (1985), explores how electronic media blur public and private boundaries, emphasizing that each medium has distinct social impacts based on how it controls information and creates new "spaces." Technological Determinism and Social Shaping of Technology. McLuhan's ideas are often associated with *technological determinism*, the belief that technology itself drives societal change. Scholars like Raymond Williams and James Carey critique this view, advocating for a more *socially shaped* perspective. They argue that society and culture influence how media are developed and used, suggesting a dynamic relationship between technology, society, and meaning. In addition, Raymond Williams in *Television: Technology and Cultural Form* (1974) argues against a purely deterministic view, asserting that while media have structural impacts, society's values and interests also shape media development.

2. **"The Message is the Medium"-Reversed Interpretations**

Some scholars explore the inverse of how the content or message shapes the choice and impact of the medium. This concept suggests that the message can sometimes define the most

appropriate medium for its dissemination. For instance, Manuel Castells in *The Rise of the Network Society* (1996) suggests that in the digital age, the message (content) often dictates the medium. Social media, for instance, evolved in response to the types of content and social interactions users wanted to share. This view emphasizes how societal demand for certain types of messages influences medium evolution. The rise of digital and networked media has renewed interest in McLuhan's ideas. Media scholars, such as *Henry Jenkins* in *Convergence Culture* (2006), argue that the internet blurs the boundaries between producer and consumer, altering the medium-message relationship by enabling greater user control over both. In *The Shallows* (2010), *Nicholas Carr* argues that digital media alters cognitive processes. This aligns with McLuhan's thesis, showing how digital devices encourage fast, surface-level engagement rather than deep reflection, impacting both the content and form of media consumption.

The theory has been applied to analyze media choices in various fields, from advertising to politics, where the choice of medium (e.g., social media, print, or video) is often more significant than the message in shaping audience perception and behavior. This theory is particularly relevant in fields like education and psychology, where digital and interactive media's influence on cognition and behavior is extensively studied. Research in these areas often demonstrates how technology's structure influences learning processes and neurological development. In summary, while McLuhan's original theory prioritizes the medium's impact on perception, subsequent scholarship reveals a complex interplay where the content, context, and medium co-evolve. The digital age has brought further complexity, with platforms like social media reshaping what it means to convey a message and the medium's influence on shaping societal norms and personal cognition.

McLuhan's (1964) asserts that "the medium is the message" posits that the characteristics of the medium itself its form, structure, and method of delivery play a crucial role in shaping the interpretation and impact of the content. Digital platforms like social media amplify this effect by enabling instant sharing and multimedia integration, thus challenging traditional modes of storytelling and news dissemination (Katz, 2017). In this environment, the line between producer and consumer blurs, and content is shaped by the interactions between users and the algorithms that prioritize certain messages over others (Gillespie, 2018).

Empirical research has found that the credibility of content is influenced by the platform on which it appears. Studies by Flanagin and Metzger (2000) show that individuals tend to trust content differently based on its medium, with traditional news outlets often perceived as more

credible than social media sources. In contrast, social media platforms, with their potential for real-time updates and interactivity, are valued for their immediacy and perceived transparency (Newman et al., 2021). The digital medium thus directly affects user engagement, with platforms like X and Instagram favoring brief, visual content that captures attention quickly.

The results of our online academic survey with 106 participants via Google Forms offer different perspectives. Before diving into the findings, a brief overview of the respondents is provided. The majority of participants are women (61%) and primarily hold undergraduate degrees. Most responses came from people aged 16-24 (33%) and 35-44 (32%). Social topics were the most interesting for nearly half of the participants (49%). Over half (59%) stated that both medium and message are equally important and mutually reinforcing (Figure 1).

***Figure 1. Is the medium or the message more important?***




Participants indicated that they are most drawn to reading information or content based on the accuracy of facts and reliability of sources (34%). Content featuring statistics and research garnered substantial interest (21%), followed by the topic's relevance. Interestingly, very few selected multimedia as a primary interest, although 34% prefer news presented in multimedia formats, while the majority favor text. We believe this preference may be due to a lack of interactive, multimedia-rich news in the media landscape in Azerbaijan.

Although social media is the primary source of information for most participants (69%), other reliable sources mentioned include news websites and television (Figure 2).

*Figure 2. Which mediums are more reliable?*




## 3. The Interaction of Medium and Content

Medium as a Shaping Force: Different mediums, such as television, radio, and the internet, possess unique characteristics that affect content presentation and audience engagement. For instance, video content typically elicits a stronger emotional response than text-based content, impacting its shareability and reach (Burgess & Green, 2009). Formats and User Experience: The format in which content is delivered influences user experience. Social media platforms facilitate rapid dissemination and remixing of content, leading to new forms such as memes and viral videos (Shifman, 2011). The ease of sharing and creating content on platforms like TikTok and Instagram exemplifies this dynamic.

The new media environment fosters active interactivity and participation from users, transforming them from passive consumers to active contributors. Jenkins (2006) emphasizes the concept of "participatory culture," where audiences engage in content creation and dissemination, blurring the lines between producers and consumers. Cultural Context and Interpretation: The cultural context in which content is consumed significantly shapes its interpretation. Couldry (2010) argues that different social and cultural backgrounds influence how content is understood and shared. This highlights the necessity of considering cultural dynamics when analyzing media content.

The evolution from print to digital media has introduced complex dynamics in how messages are crafted and received. According to Ong (1982), the shift from oral to written culture redefined knowledge structures, and a similar transformation is evident today as society moves from print and broadcast to digital platforms. Kittler (1999) further argues that each medium carries inherent biases that shape societal structures and information flow, suggesting that the characteristics of

digital media such as interactivity and accessibility reshape public discourse by democratizing content production.

## Conclusion

In conclusion, the interaction between medium and message in the new media environment reveals critical insights into contemporary communication practices. The characteristics of each medium shape how content is created, shared, and consumed, while user engagement and cultural context further influence these dynamics. Understanding this interplay is essential for navigating the complexities of the digital information landscape. As media evolve, the relationship between medium and content will remain a vital area of inquiry for scholars and practitioners alike.

The interaction between medium and message in the new media environment reshapes not only how content is disseminated but also how it is perceived, interpreted, and trusted by audiences. The digital medium's emphasis on immediacy, interactivity, and algorithmic selection transforms traditional information channels, creating new challenges and opportunities for content creators and consumers alike. As media continues to evolve, further research on platform influence, content credibility, and ethical standards in content creation will be crucial to understanding the long-term impacts of digital media on society.

## References

Burgess, J., & Green, J. (2009). *YouTube: Online video and participatory culture*. Polity Press.

Couldry, N. (2010). *Media, society, world: Social theory and digital media practice*. Polity Press.

Couldry, N., & Hepp, A. (2017). *The mediated construction of reality*. Polity Press.

Flanagin, A. J., & Metzger, M. J. (2000). Perceptions of internet information credibility. *Journalism & Mass Communication Quarterly, 77*(3), 515–540. https://doi.org/10.1177/107769900007700304

Gillespie, T. (2018). *Custodians of the internet: Platforms, content moderation, and the hidden decisions that shape social media*. Yale University Press.

Jenkins, H. (2006). *Convergence culture: Where old and new media collide*. NYU Press.

Katz, E. (2017). Marshall McLuhan: The theorist who foresaw social media. *International Journal of Media and Cultural Politics, 13*(3), 319–328. https://doi.org/10.1386/macp.13.3.319_1

Kittler, F. (1999). *Gramophone, film, typewriter*. Stanford University Press.

McLuhan, M. (1962). *The Gutenberg galaxy: The making of typographic man*. University of Toronto Press.

McLuhan, M. (1964). *Understanding media: The extensions of man*. McGraw-Hill.

Meyrowitz, J. (1985). *No sense of place: The impact of electronic media on social behavior*. Oxford University Press.

Newman, N., Fletcher, R., Schulz, A., Andı, S., & Nielsen, R. K. (2021). *Reuters Institute Digital News Report 2021*. Reuters Institute for the Study of Journalism.

Ong, W. J. (1982). *Orality and literacy: The technologizing of the word*. Routledge.

Postman, N. (1985). *Amusing ourselves to death: Public discourse in the age of show business*. Viking Penguin.

Shifman, L. (2011). *Memes in digital culture*. MIT Press.

Williams, R. (1974). *Television: Technology and cultural form*. Schocken Books.

Carr, N. (2010). *The shallows: What the Internet is doing to our brains*. W.W. Norton & Company.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Araştırma Makalesi | Research Article*
*Geliş tarihi |Received:15.10.2024*
*Kabul tarihi |Accepted:14.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Rəhilə Kəsəmənli**

*https://orcid.org/0009-0009-0945-2453*
*Associate Professor, Doctor of Philosophy, Baku State University, Faculty of Journalism, Department of New Media and Communication Theories, Azerbaijan, rehilekesemenli2@gmail.com*

*Atıf Künyesi | Citation Info*

Kəsəmənli, R. (2024). Əhməd Bəy Ağaoğlu-Cəmiyyətin Həyatında Jurnalistikanın Yeri və Rolu Haqqında. *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue*, *11* (1), 125-140.

# Əhməd Bəy Ağaoğlu-Cəmiyyətin Həyatında Jurnalistikanın Yeri və Rolu Haqqında

***Xülasə***

*Cəmiyyətin həyatında jurnalistikanın mühüm rol oynadığını görən Əhməd bəy Ağaoğlu özü də bu sahədə çox böyük işlər görür. Mənsub olduğu cəmiyyətin insanlarını maarifləndirən böyük mütəfəkkir bunun üçün daim jurnalistikanın, qəzetlərin, jurnalların imkanlarından geniş istifadə edir. O vaxt Çar Rusiyasında hansısa bir mətbu orqanı təsis etmək demək olar ki, mümkünsüz bir iş idi. Lakin Avropada ali təhsil almış bir şəxsin orada qalmaq imkanları ola-ola Vətənə qayıtmasını əldə əsas tutaraq bütün çətinlikləri göz önünə aldığını və onları dəf etməyə hazır oldğunu görürük. Əhməd bəy Ağaoğlu jurnalistika ilə bütün ömrü boyu məşğul oldu. Daim bu tribunadan istifadə etdi. Əhməd bəy Ağaoğlunun hadisələrə münasibət tərzi də özünəməxsus idi. O, dövrün bir sıra jurnalistləri və publisistləri kimi yalnız cəmiyyətin eybəcərliyini açıb göstərmirdi. Eyni zamanda bundan çıxış yollarını da göstərirdi. Real mübarizə metodlarını, ondan istifadə üsullarını dönə-dönə öz məqalələrində əks etdirən Əhməd bəy gələcək nəsillərin*

BY NC
Creative Commons Licence

*bundan istifadə edəcəyi qənaətində idi. Həqiqətən də Əli bəy Hüseynzadə və onun tərəfindən əsası qoyulan, inkişaf etdirilən "türkləşmək, müasirləşmək, islamlaşmaq" fikri həm o zamankı, həm də bu günkü Azərbaycan, o cümlədən digər Türk dövlətləri üçün inkisaf və tərəqqi şüarına çevrildi.*

***Açar sözlər:*** *ictimai-siyasi, ədəbi-bədii, ədəbi tənqi, mətbuat, cəmiyyət*

## Ahmet Bey Ağaoğlu - On the place and role of journalism in public life

***Abstract***

*Ahmet Bey Ağaoğlu, who realises that journalism plays an important role in the life of society, personally carries out great works in this field. The great thinker, who educates the people of the society he belongs to, constantly uses the possibilities of journalism, newspapers and magazines for this purpose. At that time, it was almost impossible to establish a press in Tsarist Russia. However, we see that a person who had received higher education in Europe, taking into account the fact that he could return to his homeland if he had the opportunity to stay there, took into account all the difficulties and was ready to overcome them. Ahmet Bey Ağaoğlu was engaged in journalism all his life. He constantly used this tribune. Ahmet Bey Agaoglu's attitude towards events was unique. Like many journalists and publishers of the time, he not only exposed the ugliness of society. He also showed the way out. Ahmed Bey, who repeatedly reflected the real methods of struggle and the methods of using them in his writings, was convinced that future generations would also use them. Thus, the idea of 'Turkification, modernisation, Islamisation', founded and developed by Ali Bey Huseynzade, became the slogan of development and progress for Azerbaijan both then and now, including other Turkic states.*

***Keywords:*** *social-political, literary-artistic, literary criticism, press, society*

### Giriş

Artıq bir neçə əsrdir ki, insan cəmiyyətinin həyatında jurnalistika çox mühüm yer tutur. İctimai rəyin formalaşmasında, bizi əhatə edən aləmlə bağlı ən vacib xəbərlərin yayılmasında jurnalistikanın və jurnalistlərin oynadığı rolu danmaq mümkün deyil. Bu reallığı digər ölkələrin ziyalıları kimi Azərbaycan mətbuatının da öndə gedənləri hələ bir əsr əvvəlcədən duymuşdular. Ona görə də onların bütün çarpışmalarının və mübarizələrinin əsasında bir mətbu orqanı təsis edərək xalqı maarifləndirmək, dünyada baş verən hadisələrdən xəbərdar etmək, öz xalqının mütərəqqi bəşəri proseslərdən geri qalmamasına çalışmaq dururdu. Azərbaycan mətbuatının qaranquşu sayılan "Əkinçi"ni ərsəyə gətirən Həsən bəy Zərdabi və ondan sonrakı bütün vətənpərvər jurnalistlərimizin, böyük əksəriyyəti publisistlərimizin bu istiqamətdə çalışdığını söyləyə bilərik. Bir çox sahələrdə öz sözünü demiş Əhməd bəy Ağaoğlunun jurnalist kimi də çox zəngin və geniş fəaliyyət göstərdiyini söyləyə bilərik. Rusiyada və Avropada ali təhsil almış, o

dövrün inkişaf etmiş cəmiyyətlərinin nümayəndələri ilə tanış olmuş Əhməd bəy Ağaoğlunun mətbuatın rolunun nə qədər vacib olduğunu dərindən dərk etməsini onun bütün fəaliyyəti boyunca gördüyü işlərdən şahidi oluruq. Hələ Fransanın Sarbonna Universitetində təhsil alarkən şərqşünaslar E. Renan və J. Darmstaterin rəhbərliyilə "Jurnal de Debat", "Revü Veen", "Nouve Revü" kimi fransız mətbu orqanlarında çap etdirdiyi məqalələr bunu sübut edir. O, bununla da Fransa həyatında mühüm əhəmiyyətə malik olan bu mətbu orqanlar vasitəsilə öz fikirlərini, o cümlədən təmsil etdiyi ölkə, cəmiyyətlə bağlı fikirlərini çatdırmaq imkanı əldə etmişdi.

Vətəninə xeyir verməyə çalışan bir ziyalı kimi Fransada təhsilini başa vurandan sonra Azərbaycana dönən Əhməd bəy Ağaoğlu siyasi fəaliyyətlə yanaşı jurnalist kimi çalışmalarına da qətiyyən ara vermirdi. Onun Bakıya dönərək mətbu orqan təsis etmək üçün göstərdiyi bir neçə cəhdin uğursuzluqla nəticələndiyini söyləmək mümkündür. Lakin bütün bu süni maneələr Əhməd bəy Ağaoğlunu usandırmır. Təqdirəlayiq haldır ki, o, tutduğu yolun, mətbuatın millətə verə biləcəyi xeyiri əvvəlcədən gördüyü üçün işini inadla davam etdirir. Bir müddətdən sonra onun bu gərgin çalışmaları öz bəhrəsini verir. Dövrün maarifçilik hərəkatlarını, millətə xeyir verə biləcək prosesləri daim dəstəkləyən milyonçu Hacı Zeynalabdin Tağıyev "Kaspi" qəzetini alaraq bu mətbu orqanını bütövlükdə Əhməd bəyin ixtiyarına verir. Lakin Əhməd bəy Ağaoğlunun "Kavkaz", "Həyat", "Kaspi" kimi mətbu orqanlarındakı fəaliyyəti "İrşad" dakı qədər geniş olmayıb. Həqiqətən Əhməd bəy Ağaoğlu "İrşad" ın onun üçün yaratdığı meydandan hərtərəfli şəkildə istifadə edə bildi. Onun öz zəngin və çoxşaxəli yaradıcılıq potensialını burada nümayiş etdirə bildiyini söyləsək bəlkə də şişirtmə etmərik. Bu böyük insanın çalışqanlığı, aktivliyi o dövrün ziyalılarından olan Əli bəy Hüseynzadə, Cəlil Məmmədquluzadə, Süleyman Sani Axundov və başqaları tərəfindən yüksək qiymətləndirilib. Dörd il ərzində 536 nömrəsi çap olunan qəzetin rəhbəri kimi Əhməd bəy Ağaoğlu cəmiyyətin həyatında jurnalistikanın yeri və rolunu bildiyinə və yüksək qiymətləndirdiyinə görə burada ən müxtəlif mövzulara toxunur, insanları maraqlandıran polemikaları aça bilirdi. Onun məqalələri daim aktuallığı və əhəmiyyəti ilə diq qəti cəlb edirdi. Əhməd bəy Ağaoğlunun mətbuata verdiyi diqqəti "İrşad" a yanaşmada "təki bu tərəqqi olan sərmayə əlimizdən çıxmasın" deməsindən də aydın şəkildə görmək olur. O, bununla da apardığı mübarizənin millət namina olduğunu bir daha sübut edir. Onun qəzetin ictimai-mədəni səmərəsini daim belə bir şəkildə qiymətləndirdiyinin şahidi oluruq (İrşad, 16.04.1906). Əhməd bəy Ağaoğlu sadəcə olaraq jurnalistik fəaliyyətlə məşğul olmur, eyni zamanda digər həmkarlarını, həmfikirlərini də bu işdə aktiv şəkildə iştiraka həvəsləndirirdi. Onun Əli bəy Hüseynzadənin nəşr etdirdiyi

“Həyat” qəzetinə, “Füyuzat” jurnalına, Cəlil Məmmədquluzadənin naşiri olduğu “Molla Nəsrəddin” jurnalına göstərdiyi münasibətlərdə bu məqam üzə çıxır. Ona görə də Əhməd bəy Ağaoğlunun yalnız mətbuat orqanlarına qarşı deyil eyni zamanda onları nəşr edən jurnalistlərə qarşı tutduğu həvəsləndirici rolu qeyd etməmək mümkün deyil. “İrşad” ın birinci sayında “Qəzetəmizin məsləki” məqaləsində yatmış millətini sürətli karvan dalınca getməyə həvəsləndirəcəklərini bildirməklə o dövrün ən aktual və çətin bir problemini həll etməyə girişir. Zatən Əhməd bəy Ağaoğlu qəzetin, jurnalistikanın buna xidmət etməli olduğunu gözəl bilir. Maarifçilik funksiyasını həyata keçirən, kütlələrin gözünü açmağa çalışan bu böyük insan Həsən bay Zərdabi ənənələrini davam etdirir. Əhməd bəy Ağaoğlu cəmiyyətin həyatında jurnalistlərin çox böyük rol oynaya biləcəyini anlayır. O, Fransa və digər Qərb ölkələrində bunun şahidi olmuşdu. Azərbaycanın jurnalistika sahəsində Qərb ölklərindən, geri qaldığını görən Əhməd bəy Ağaoğlu bu sahənin inkişafı üçün əlindən gələni əsirgəmir. Həqiqətən də onun çox zəngin və gərgin əməli fəaliyyəti bu sahənin inkişafına müəyyən qədər təkan verir.

Bir şərqli kimi Şərq dünyasının dərin yuxuya getməsi qəzetin, junalistikanın əhəmiyyətini tam dərk edə bilməməsi onu çox narahat edir. Əhməd bəy Ağaoğlu dərin təəssüf hissi ilə qeyd edərək “İrşad” da olduğu kimi “Kaspi”də də bu məqamı daim narahatçılıqla qələmə alır. O, müsəlmanların çox ləng tərpənməsini, dəqiqlik və sürətli yanaşma tələb edən jurnalistikaya xüsusi diqqət ayırmamasını tənqid edir. Bir sıra qərəzli publisistlər kimi Əhməd bəy Ağaoğlu günahı heç də İslam dininin üzərinə yıxmır. Həqiqəti olduğu kimi təqdim edir. Bir mütəfəkkir kimi haqlı olaraq çap işini əngəlləyən məqamlar sırasında qanunun işləməməsini, çoxluğun idarəçilikdən kənarlaşdırılmasını göstərir. Həqiqət də belədir ki, jurnalistika bacardıqca həqiqəti dediyi üçün despot hakimlər onun inkişafına imkan vermirlər. Şərq isə bu cür hakimlərdən heç də xali deyildi. O, belə durumda ya çap işinin ümumiyyətlə inkişaf etməyəcəyini yaxud da başqa, lazım olmayan formada inkişaf edəcəyini deyir (Kaspi, N-255-262, 1899). Əhməd bəy Ağaoğlu problemin yalnız bununla bitmədiyini diqqətə çatdırır. O, şərhlərini daha ətraflı apararaq Şərqin əlifba problemi ilə də qarşı-qarşıya dayandığını söyləyir. O, bu cür əlifba ilə gündəlik çap məhsulları hazırlamağın mümkün olmadığını nəzərə çatdırır. Bütün bunlar Əhməd bəy Ağaoğlunun nə qədər dərin biliyə malik olduğunu göstərir. Eyni zamanda o mövcud problemin həllini dərindən bildiyini, onun yollarını göstərdiyini sübut edir.

## 1. Azərbaycan ədəbi-bədii dünyagörüşünün inkişafinda Əhmədbəy Ağaoğlunun xidmətləri

XX əsrin əvvəllərində Azərbaycan ədəbi tənqidinin inkişafında Ə. Hüseynzadə, F. Köçərli, N. Nərimanov, S. Hüseyn, A. Sur və başqaları kimi Əhmədbəy Ağaoğlunun da yüksək xidmətləri olub. Ictmai-siyasi baxımdan olduqca mürəkkəb bir dövildə milli, dini, əxlaqi dəyərləri, türkün tarixini, yaddaş məsələlərini, azadlıq və müstəqillik prinsiplərini heç nədən çəkinmədən təbliğ və tərənnüm etmək asan bir məsələ olmayıb. Ə. Ağaoğlu təkamül yolu ilə inkişafa üstünlük verir, yeni nəzəriyyələrini təbliğ edir, xalqı tərəqqiyə səsləyirdi. Tənqidçi ədəbiyyat və sənəti tərənnüm edərkən, heç zaman ümumbəşəri dəyərləri, əxlaq və mənəviyyat məsələlərini, humanizm prinsiplərini unutmayıb. Ona görə də Ə. Ağaoğlu dünyada baş verən ictimaisiyasi hadisələri araşdırarkən təmiz ideyaları ön plana çəkir, təkamül yolu ilə inkişafa və dəyişməyə bəraət qazandırırdı.

Ə. Ağaoğlunun ədəbi-tənqidi sahədə xidmətlərindən danışarkən, təkcə onun klassik irsə ümummilli sərvət kimi baxmasını söyləmək kifayətdir. O, Rusiya, Fransa, Hindistan, Türkiyə, İran, ədəbiyyatının ən yaxşı nümunələrini bütün bəşəriyyətin uğuru kimi qiymətləndirirdi. Tənqidçi yeni ədəbiyyatın özəlliyini onun müasir həyatla səsləşməsində, mövzu və qəhrəmanların orijinallığında görürdü. Tənqidçi bu xüsusiyyətlərə malik ədəbiyyatın yaradılmasını, sivil cəmiyyətin uğuru kimi qiymətləndirirdi (Hüseynov, 6-12 avqust 2005). Əslində XX əsrin əvvəllərində çar Rusiyası ərazisində müstəmləkə şəraitində yaşayan millətlərin öz hüquqları uğrunda mübarizəyə qalxdıqları bir vaxtda bu fikirlər son dərəcə aktual idi. O, təkcə Azərbaycanda deyil, bütövlükdə çar Rusiyası ərazisində millətçiliyin meydana gəlməsini aydınlaşdırmağa çalışırdı. Tənqidçi xalqın tərəqqisi üçün milli mətbuatın sərbəst fəaliyyətini vacib sayırdı. O, milli mətbuatı ictimai-siyasi təzyiqlərdən qoruyur, qəzet və jurnalların problemlərinə can yanğısı ilə yanaşırdı. O, mətbuat və ədəbiyyatı bir-birinə qarşılıqlı təsir göstərən amil kimi qiymətləndirir və hər ikisinin mühafizəsinə çalışırdı. Yeni ədəbiyyatın yaradılması, realist və romantik cərəyanların eyni səviyyədə inkişafı, dünya ədəbiyyatının uğurlarından bəhrələnmə, milli təfəkkürün, dünyagörüşünün formalaşması hər zaman Ə. Ağaoğlu yaradıcılığının mərkəzində dayanıb. Mənsub olduğu cəmiyyətin insanlarını maarifləndirən böyük mütəfəkkir bunun üçün daim jurnalistikanın, qəzetlərin, jurnalların imkanlarından geniş istifadə edir. O vaxt çar Rusiyasında hansısa bir mətbuat orqanı təsis etmək demək olar ki, mümkünsüz bir iş idi. Lakin Avropada təhsil almış bir şəxsin orada qalmaq

imkanları ola-ola Vətənə qayıtmasını əldə əsas tutaraq bütün çətinlikləri göz önünə aldığını və onları dəf etməyə hazır olduğunu görürük.

Əhməd bəy Ağaoğlu jurnalistika ilə bütün ömrü boyu məşğul oldu. Daim bu tribunadan istifadə etdi. Baxmayaraq ki, belə bir mövqeni saxlamaq ona həddindən artıq baha başa gəlirdi. Problemlərə və düşmənlərə qarşı fikirlərində həddindən artıq cəsarətli, bəzən hətta sərt olan Əhməd bəy Ağaoğlu qarşı tərəfdən də bu cür münasibət görürdü (Ə. Ağaoğlunun ədəbi-tənqidi görüşləri, 2006). Lakin onun fəaliyyətini təqdir edən, hətta ona bu işdə yardımçı olan ziyalılar, söz sahibi olan insanlar da var idi. Onlar Əhmədbəy Ağaoğlunun milli-ideoloji, ideya-siyasi mübarizəsinin düzgün istiqamətdə aparıldığının şahidi olaraq bu işdə onu dəstəkləyirdilər. Geniş yaradıcılıq fəaliyyətinə görə həm Nəriman Nərimanov, həm də Atatürk onu birgəişləməyə dəvət eləmişdilər. Əhməd bəy Ağaoğlunun uzun müddət Türkiyədə mətbuat sahəsində aparıcı bir mövqeyə sahib olması, çoxşaxəli fəaliyyət qurması da onun istedadına verilən qiymətdir. Əhməd bəy Ağaoğlu mətbu orqan vasitəsilə cəmiyyəti maarifləndirmək üçün heç nədən çəkinmirdi. Hətta ömrünün sonlarına yaxın mətbu orqan təsis edərkən onun fəaliyyətinə şərait yaratmaq üçün evinin əşyalarını satmaqdan belə çəkinməmişdir. Əhməd bəy Ağaoğlunun hadisələrə münasibət tərzi də özünəməxsus idi. O, dövrün bir sıra jurnalist və publisistləri kimi yalnız cəmiyyətin eybəcərliyini açıb göstərmirdi. Eyni zamanda bundan çıxış yollarını da göstərirdi. Real mübarizə metodlarını, ondan istifadə üsullarını dönə-dönə öz məqalələrində əks etdirən Əhməd bəy gələcək nəsillərin bundan istifadə edəcəyi qənaitində idi. Həqiqətən də Əli bə Hüseynzadə və onun tərəfindən əsası qoyulan, inkişaf etdirilən "türkləşmək, müasirləşmək, islamlaşmaq" fikri həm o zamankı, həm də bu günkü Azərbaycan, o cümlədən digər Türk dövlətləri üçün tərəqqi şüarına çevrildi. İctimai rəyin formalaşmasında, bizi əhatə edən aləmlə bağlı 10, ən vacib xəbərlərin yayılmasında jurnalistikanın və jurnalistlərin oynadığı rolu danmaq mümkün deyil. Bu reallığı digər ölkələrin ziyalıları kimi Azərbaycan mətbuatının da öndə gedənləri hələ bir əsr əvvəlcədən duymuşdular. Ona görə də onların bütün çarpışmalarının və mübarizələrinin əsasında bir mətbu orqan təsis edərək xalqı maarifləndirmək, dünyada baş verən hadisələrdən xəbərdar etmək, öz xalqının mütərəqqi bəşəri proseslərdən geri qalmamasına çalışmaq dururdu. Bir çox sahələrdə öz sözünü demiş Əhməd bəy Ağaoğlunun jurnalist kimi də çox zəngin və geniş fəaliyyət göstərdiyini söyləyə bilərik. O, Rusiyada və Avropada ali təhsil almış, o dövrün ziyalı nümayəndələri ilə tanış olmuş Əhməd bəy Ağaoğlu cəmiyyətin Hələ inkişafında mətbuatın rolunu yüksək qiymətləndirirdi. Fransanın Sarbonna Universitetində təhsil alarkən şərqşünaslar E. Renan və J. Darmstraterin rəhbərliyilə

"Jurnal de Debat", "Revü Veen", "Nouve Revü" kimi fransız mətbu orqanlarında çap etdirdiyi məqalələr bunu sübut edir. O, bununla da Fransa həyatında mühüm əhəmiyyətə malik olan bu mətbu orqanlar vasitəsilə cəmiyyətlə bağlı fikirlərini xalqa çatdırmaq imkanı əldə etmişdir.

Vətəninə xeyir verməyə çalışan bir ziyalı kimi təhsilini başa vurandan sonra Azərbaycana dönən Əhməd bəy Ağaoğlu siyasi fəaliyyətlə yanaşı jurnalist kimi çalışmalarına da qətiyyən ara vermirdi. Onun Bakıya dönərək mətbu orqan təsis etmək üçün göstərdiyi bir neçə cəhdi uğursuzluqla nəticələndiyini söyləmək mümkündür. Lakin bütün bu süni maneələr Əhməd bəy Ağaoğlunu usandırmır. Təqdirəlayiq haldır ki, o, tutduğu yolun, mətbuatın millətə verə biləcəyi xeyiri əvvəlcədən gördüyü üçün işini inadla davam etdirir. Bir müddətdən sonra onun bu gərgin çalışmaları öz bəhrəsini verir. Milli ədəbiyyatın xaraktersizlik böhranı keçirməsini əsaslandırmağa çalışan Ə. Ağayev məsləkdaşından bir neçə il əvvəl "Kaspi" (1903) qəzetində çıxış edərək Şərq xalqlarını dini-mistisizmdə ittiham edirdi edirdi (Axundov, 1980). Dövrün maarifçilik hərəkatlarını, millətə xeyir verə biləcək prosesləri daim dəstəkləyən milyonçu Hacı Zeynalabdin Tağıyev "Kaspi" qəzetini alaraq bu mətbu orqanı bütövlükdə Əhməd bəyin ixtiyarına verir. Əhməd bəy Ağaoğlu sadəcə olaraq jurnalistik fəaliyyətlə məşğul olmur, eyni zamanda digər həmkarlarını, həmfikirlərini də bu işdə aktiv şəkildə iştiraka həvəsləndirirdi. Onun Əli bəy Hüseynzadənin nəşr etdiyi "Həyat" qəzetinə, "Füyuzat" jurnalına, Cəlil Məmmədquluzadənin naşiri olduğu "Molla Nəsrəddin" jurnalına göstərdiyi münasibətdə bu məqam üzə çıxır. Əhməd bəy Ağaoğlunun yalnız mətbuat orqanlarına qarşı deyil eyni zamanda onları nəşr edən jurnalistlərə qarşı tutduğu həvəsləndirici rolu qeyd etməmək mümkün deyil. Diqqətəlayiq haldır ki, Ə. Ağaoğlu klassik əsər və şəxsiyyətlərə bu ehkam, doğma normaları ilə deyil, analitik təhlil prinsipləri ilə yanaşır, tənqidi təfəkkürün imkanlarından istifadə edərək milli tarixi gerçəkliyə işıq salırdı.

XX əsrin əvvəllərində Azərbaycanın ictimai-mədəni həyatda canlanma baş verməsində, ayrı-ayrı təbəqələrin sosial-siyasi hüquqlar uğrunda mübarizəyə qalxmasında, milli fikirdə irəliləyişlərin yaranmasında, ən əsası isə ədəbi-bədii dünyagörüşünün inkişafında Ə. Ağaoğlunun xidmətləri çox olub. O, XX əsrin əvvəllərində hələ yenicə formalaşmağa başlamış tarix və yaddaş problemini publisistikanın başlıca mövzularına çevirdi. Ağaoğlunun yaradıcılığı vasitəsilə xalq pantürküst, panislamist anlayışlarının əsil mahiyyətinin nədən ibarət oluduğunu anladılar. İslahatçılığa meyilli olan tənqidçi öz publisistik yazılarında xalq mentalitetinin müsbət keyfiyyətlərini üzə çıxarmaqla tarixi ənənələrin əleyhinə olmadığını sübut etməyə çalışırdı. Əslində yaradıcılığının mərkəzində elmilik və fəlsəfilik, tarixi yaddaş və müasirlik, əxlaqpərəstlik,

millilik və bəşərilik, dini mühakim, ictimai-siyasi motivlər, avropaçılıq kimi prinsiplər dayanırdı. Bu ictimai-siyasi xadim xalqın ədəbi-bədii dünyagörüşünün inkişafına təsir göstərməyə bilməzdi (Axundov, 1980). Publisistin digərlərindən fərqli olaraq "Quran" a yalnız müsəlmanların müqəddəs kitabı kimi deyil, hikmət, təfəkkür, əxlaq mənbəyi kimi münasibəti əslində Azərbaycanın yox, bütün türk dünyasının, müsəlman aləminin uğuru idi. Tənqidçinin ictimai-siyasi məsələlərə açıq-aşkar rəy bildirməsi, məqalələrində Rusiya, Avropa, Yaxın və Orta Şərq xalqlarının ictimai-mədəni həyatlarına toxunması, milliyətçilik, müstəqillik kimi mövzulara biganə qalmaması xalqın diqqətindən kənarda qala bilməzdi. Əslində bəzi hakim qüvvələrin Ə. Ağaoğlu yaradıcılığını cəfəngiyat adlandırmaları, publisisti qeyri-obyektivlikdə günahdırmaları və ona "pantüküst", "panislamist" damğası vurmaları heç də təsadüfi deyildi. Çünki Ə. Ağaoğlunun ədəbi irsi, söylədiyi tənqidi fikirləri, ictimai-siyasi sahə ilə bağlı irəli sürdüyü mülahizələri onların dediyi kimi, bəsit bir cəfəngiyat olsaydı, tənqidçi nə bu qədər təqiblərə məruz qalar, nə də ömrünün sonunadək mühacirət həyatı sürməyə məcbur olardı.Ə. Ağaoğlu Azərbaycan ədəbiyyatında ilk dəfə olaraq real görünənlərlə ideal olanlar arasındakı fərqin elmi və fəlsəfi tərifini verdi. O, ilk dəfə əsil dinlə mövhumatı, təbii milli ruhla şovinizmi, dəyişdirilmiş tarixlə həqiqi faktları, köhnənin buxovundan çıxa bilməyən cəmiyyətlə sivilizasiyanı üz-üzə qoydu. Əslində Ə. Ağaoğlu hansı sahəni əhatə etməsindən asılı olmayaraq, heç bir yeniliyi ideal formada təbliğ edib onu insanlara kor-koranə qəbul etdirməyə çalışmırdı. O, köhnə ilə təzani konkret faktlarla müqayisə edir, hər ikisinin mənfi və müsbət cəhətlərini ortaya qoyur və sonda oxucuya azad seçim imkanı yaradırdı. Doğrudan da ədəbi tənqidin oxucuya müəyyən bir əsil mahiyyəti də elə bundan ibarətdir mövzunu başa düşməkdə, ona münasibət bildirməkdə kömək etmək.

## 2.Əhməd bəy Ağayevin "Dəbistan" və "Molla Nəsrəddin" məqaləsi və mətbuata dair fikirləri haqqında

Əhməd bəyin "Dəbistan" və "Molla Nəsrəddin" məqaləsində əsas diqqət XX əsrin əvvəllərində milli mətbuatın inkişafının səbəbləri, əhəmiyyəti və cəmiyyətin, yaradıcı şəxslərin bu yolla öhdəsinə düşən vəzifələrin müəyyənləşdirilməsi və onların həlli yollarına yönəldilmişdir. Əhməd bəyin haqlı qənaətinə görə, min illərlə qəflət yuxusuna uyub hər bir tərəqqi və inkişafdan geri qalan, getdikcə gücü tükənməkdə olan Qafqaz müsəlmanlarının milli ruh yüksəkliyi ilə hərəkətə gəlmələrinin əsas səbəbi azadlıq hərəkatıdır.

Ə. Ağayev bütün bunlarla yanaşı, Azərbaycan xalqının potensial imkanlarının, istedad və qabiliyyətinin hüdudsuzluğuna, tanrının və təbiətin ondan heç bir şey əsirgəmədiyinə də güvənir,

həmin imkanların, güc və qabiliyyətin hərəkətə gəlməsi, onların düzgün istiqamətə yönəldilməsi nəticəsində tezliklə inkişaf etmiş millətlərin sırasında dayana biləcəyimizə inanırdı... Eyni zamanda dərin təəssüf hissi ilə bütün güc və qabiliyyətimizin uzun əsrlər boyu milli inkişafımıza zidd olub, bizi geriliyə, məhvə sürükləyib ayaqlar altında qalmağa, başqalarının əlində xarü zəlil olmağa sürükləyən əməllərə sərf olunduğunu da diqqətə çatdırırdı (Hüseynzadə, 18.05.1906). Bütün bunların artıq arxada qaldığı, dövrün tələbinə uyğun olaraq, cavanlarımızın yavaş-yavaş tərbiyə tapıb, məktəb görüb, qeyri tayfaların və dünyanın əhval və əxlaqından müxbir olub qeyrətə gələrək iş görmələri, millət fikrinə düşmələri müəllifin ruhunu yüksəldir, işıqlı sabaha inamını artırırdı. Təkcə soydaşlarının milli tərəqqi istiqamətində hərəkətə gəlib çoxlu sayda milli qanlı əliqələmli ziyalı cavanların olması deyil, həm də onların əksəriyyətinin işbilən, istedad sahibi olmalarıdır. “Molla Nəsrəddin” jurnalının karikatura və yazılarının həm, ideyası, həm məzmun və məna dərinliyi, həm də bədii tərtibatı və mədəni, mənəvi təsir gücünün yüksəkliyi haqda söylənən fikirlər də bunu təsdiq etməkdədir. “Molla Nəsrəddin” dən alınan təəssürat, onun hər cəhətdən yüksək səviyyədə olmasından gəlinən qənaət “Dəbistan” jurnalının da səviyyəli və milli ruhlu, təlim tərbiyənin sirlərinə, metodlarına kifayət qədər bələd olan müəlliflər tərəfindən çıxarılması müəllifdə onun da səviyyəli olacağı inamını yaradır. Ona görə fikrinə belə davam edir:

“Əminik ki, “Dəbistan” da öz dairəsində bir layiq, möhtərəm, bəsirət artıran, məlumatlı cəridə olacaq; üsuli-tərbiyəmizə böyük- böyük xidmətlər edəcək” (Hüseynzadə, 18.05.1906). “Dəbistan” kimi tədris, tərbiyə məsələlərinə üz tutan, pedaqoji sahəyə dair problemləri işıqlandırıb onların həlli yollarını göstərməyi qarşısına məqsəd qoyan bir nəşrin o dövr üçün (həm də indi) xüsusi dəyərə malik olduğunu, vacibliyini müəllif belə əsaslandırırdı:

“Bu maddə, yəni üsuli tərbiyə məsələsi biz müsəlmanlar üçün ən böyük, ən mühüm maddələrdən biridir. “Dəbistan” və “Molla Nəsrəddin” məqaləsi haqqında ətraflı və əsaslı söhbət açıb onu geniş ictimaiyyətə çatdırmaq həm elmi, həm mədəni, mənəyi, həm ideoloji cəhətdən vacib məsəldir (Ağayev, 16.04.1906). Milli mədəni, mənəvi, əxlaqi şüurun formalaşıb dövlətçilik, `vətəndaşlıq istiqamətində inkişaf etməsində pedaqoji mətbuatın rolunu, əhəmiyyət və dəyərini şərh etməklə yanaşı, oxucuların, xalqın bu sözlərə, məsləhət və tövsiyyələrə qulaq asıb-asmayacağının da vacibliyi diqqətə çatdırılır. Göstərilir ki, başlanan xeyirxah işin yariməsi üçün iş sahiblərinə, fikir və məqsəd sahibinə qulaq asıb, deyilənlərə əməl etməyi bacaranların - oxucu və camaatın olması da əsas şərtlərdəndir. Əks halda bütün görülən işlər, söylənən dəyərli fikirlər havaya, boşuna atılan güllələr kimi olar. Doğrudan da, oxucusu olmayan mətbu orqanın işi, fikri

və amalı işə keçməz, o iş başında dura bilməz. Ona görə Əhməd bəy oxuculara qəzet (jurnal) çıxartmağın, jurnalistikanın ağırlığı, çox xərc, zəhmət və vətəndaş fəallığı hesabına ərsəyə gəldiyi barədə də məlumat verməyi lazım bilərək oxucuları bir bu qədər zəhmət və məşəqqət, xərc və məhrumiyyət hesabına başa gələn, millət və milli tale üçün dəyərli nemətin qədrini bilməyə, onu yaşatmaq, həm də özünün işıqlı sabahını təmin etmək naminə fəallığa, maddi və mənəvi dəstəyə səsləyirdi. Göstərilirdi ki, əks təqdirdə qələm əhli olan ziyalılarımız küskünləşərək, işdən soyuyub hərəsi bir başqa sənətin dalınca gedər. Nəticədə indi çatdığımız son dərəcə əhəmiyyətli nemətə - mətbuata bir daha çətin ki, əlimiz çata. Belə bir aqibət isə, əlbəttə, milli və dövləti fəlakət olardı. Ancaq Əhməd bəy Ağayev milli mətbuatın və inkişafın işıqlı sabahına belə bir əminliklə inanırdı. Böyük jurnalist, ictimai xadim və mütəfəkkirin ümid və arzuları, vətəndaş narahatlıqları bu gün öz bəhrəsini vermişdir; milli mətbuat və dövlətçiliyimizin uğurları fikrimizə əsasdır.

**3. Ə. Ağaoğlu və “Kaspi” qəzeti**

XIX əsrin sonu XX əsrin əvvəllərində bu vəzifəni daha çox həyata keçirən mətbuat orqanları sırasında "Kaspi" qəzetini və onun yazarlarından çoxşaxəli yaradıcılıq yolu keçən Ə. Ağaoğlunun əsasən publisist, naşir, redaktor kimi dövrü mətbuatın və milli ictimai fikrin inkişafında önəmli yeri və rolunu xüsusi qeyd etmək lazımdır. 1881-ci ildə Bakıda rus dilində qeyri-rəsmi, ictimai, ədəbi və siyasi bir orqan kimi nəşrə başlayan “Kaspi” qəzeti təkcə mətbuatımızın deyil, mədəniyyətimizin, ictimai-siyasi fikir tariximizin inkişafında da xüsusi yer tutur. O, Bakı milyonçusu Zeynalabdin Tağıyevdən rus dilində nəşr olunan “Kaspi” qəzetində çalışmaq təklifi alır. “1898-ci ildən 1905-ci ilə kimi Ə. Ağaoğlu “Kaspi” nin fəal mühərriri və ədəbi tənqid şöbəsinin müdiri olmaqla yanaşı, faktiki olaraq nəşrin qeyri-rəsmi redaktoru vəzifəsini də icra edirdi. Əhməd bəy Ağaoğlu “Kaspi” qəzetində Qərb və Şərqin müxtəlif ictimai-siyasi, ədəbi, dini-fəlsəfi tərəflərini işıqlandıran 200-dən çox məqalə yazmışdır. Bu məqlələrin siyahısı publisistin hərtərəfli maraqlarından xəbər verir, milli dirçəlişin bütöv bir proqramını əhatə edir. “Vətənə etibarlı, ruhən təmiz niyyətli insanlar lazımdır” deyən Əhməd bəy Ağaoğlunun fikrincə, ümumən müsəlman milli düşüncəsinin inkişafında obyektiv faktorlarla yanaşı, millətin ideoloqlara, düşünən beyni olan ziyalılara ehtiyacı var. Əhməd bəyin millətlərarası münaqişələrə həsr etdiyi məqələləri bu gün də aktualdır. Bugünkü Şərq dünyasının siyasi mənzərəsinə diqqət yetirsək, Ə. Ağaoğlunun “Kaspi”də dərc olunan yazılarının mövzu və problematikasının müasirliyi, günümüz üçün aktuallığı qiymətləndirilir.

Ümumiyyətlə, Ə. Ağaoğlunun "Kaspi" dəki məqalələrinin əksəriyyəti xalqının siyasi mübarizəsinə həsr edilmişdir. Bu heç də təsadüfi deyil. Çünki, onun bir publisist-jurnalist kimi fəaliyyət göstərdiyi illər çox mürəkkəb, ziddiyyətli siyasi mübarizələrlə zəngin olan dövr idi.
Ə. Ağaoğlu ətalətdən və cəhalətdən yaxa qurtara bilməyən müsəlman dünyasının ən böyük bəlasını fanatizmdə görürdü. Və bu yoldan qurtarmağın, nicat tapmağın çarəsini yalnız elmin, təhsilin inkişafı ilə bağlayırdı (Kaspi, N-255-262, 1899). "Kaspi" qəzetində dövrün mətbuat orqanlarına dair xeyli xülasələr, analiik yazılar dərc olunmuşdur. Ictimai rəyin formalaşmasında, bizi əhatə edən aləmlə bağlı ən vacib xəbərlərin yayılmasında jurnalistikanın rolunu dərk edən Ə. Ağaoğlunun yazılarında cəmiyyətin həyatında mətbuatın rolu, vəzifələri, jurnalistin yaradıcılıq problemləri, həmçinin qəzetçiliyin bir sıra mühüm məsələlərinə dair mülahizələr, tövsiyyələr vardır. Böyük mütəfəkkir bu qənaətə Fransada mətbu fəaliyyəti zamanı əmin olnuşdur. "Kaspi" qəzetində fəaliyyəti zamanı mətbuat problemlərinə dair dərc etdirdiyi yazılarında jurnalistlərin böyük rolunu diqqətə çatdırır.

Şərqdə mətbuatın xarakterinin müxtəlifliyini vurğulayan mütəfəkkir Ə. Ağaoğlu bu məqamda müsəlman xalqlarının jurnalistikasının icmalına keçir və bildirir ki, "maneələrin təsir qüvvəsi konkret xalqın mədəniyyət və tərəqqi səviyyəsi ilə tərs mütənasibdir və müsəlmanlar arasında mətbuat milli xüsusiyyətlərin və cəmiyyətin vəziyyətinin ifadəçisinə çevrilməyə başlamışdır" (Kaspi, N-255-262, 1899). Şərq xalqları arasında mətbuatın inkişafına mane olan səbəblərin dərinliyini dərk edən publisist: "dövri mətbuat, xüsusən, gündəlik jurnalistika icrada çeviklik və sürət tələb edir. Bir mütəfəkkir kimi cəmiyyətin inkişafında mətbuatın rolunun vacibliyini qeyd edən Ə.Ağaoğlu bu sahənin geriliyini çap işinin zəif inkişafında görürdü. Şərqdə qanunun işləməməsini, despot hakimlərin həqiqi söz tribunası olan mətbuatın inkişafına mane olmalarını vurğulayır. Ədib qeyd edir ki, jurnalistika bacardıqca həqiqəti dediyi üçün hakim dairələr onun inkişafına imkan vermirlər. O, belə durumda ya çap işinin ümumiyyətlə inkişaf etməyəcəyini, yaxud da başqa, lazım olmayan formada inkişaf edəcəyini deyir. "Kaspi" qəzeti və onun yazarı Ə. Ağaoğlu cəmiyyət həyatının aktual, həlli vacib problemlərini ortaya qoymaqla ictimai rəyə təsir edir, onu formalaşdırır və istiqamətləndirir.

Azərbaycan Xalq Cümhuriyyətinin lideri olan M.Ə. Rəsulzadənin "Ağaoğlunun o zamankı fəaliyyəti Azərbaycanın "Oyanış tarixində" başdan- başa bir dövrdür", deməsi bir daha göstərir ki, Ağaoğlu öz fəaliyyəti ilə xalqını istiqlala, yeniliyə aparan yolun başlanğıcında cəsarətlə addımlamışdır. "Ağaoğlu dünyada baş verən hadisələri, ictimai- siyasi hərəkat və sənət

nəzəriyyələrini araşdırarkən humanizim meyarlarına əsaslanır, inqilabi-demokratik prinsipləri ön plana çəkir, fəlsəfi modernizim-islahatçılıq ideyalarına arxalanır, təkamül yolu ilə inkişafa, yeniləşmə və dəyişməyə haqq qazandırırdı" (Hüseynzadə, 18.05.1906). Ə. Ağaoğlunun "Kaspi" qəzetindəki fəaliyyəti ilə tanış olarkən bir daha əmin olduq ki, onun bir mütəfəkkir alim və istedadlı publisist kimi yetişməsində bu qəzetin və onun ətrafında olan istedadlı qələm sahiblərinin rolu çox böyük olmuşdur. Sovet siyasi rejiminin süqutu və istiqlaliyyətin əldə edilməsi Azərbaycanda ədəbi- mədəni dəyərlərə milli və ümübəşəri meyarlar mövqeyindən yanaşmaq zərurəti doğurdu. Məhz bunun nəticəsi kimi, mətbuatımızda və ədəbiyyatımızda adları yasaq edilmiş müəlliflərin yaradıcılıq irsinin, eləcə də iştirak etdikləri mətbuat orqanlarının fəaliyyətinin öyrənilməsi üçün şərait yarandı. Son illərdə "Kaspi", "Həyat", "Füyuzat", "Açıq söz" və digər mətbuat orqanlarının, M.Ə. Rəsulzadə, O. Hüseynzadə, Ə. Ağaoğlu. Ü. Hacıbəyli və bir çox müəlliflərin fəaliyyət yollarının araşdırılması ilə yanaşı, sovet dövründə həm yaradıcılığına, həm də mövqeyinə görə sinfilik və partiyalıq prizmasından yanaşılan və qiymətləndirilən bu kimi mətbuat orqanlarının və müəlliflərin ədəbi irsi yeni metodoloji prinsiplər əsasında tədqiq olunmağa başladı.

### 4. Ə. Ağaoğlunun dini-fəlsəfi görüşləri

Ə. Ağaoğlunun fəaliyyətə başladığı dövr, xüsusilə 1880-1900-cü illər milli oyanış mənasında Azərbaycan xalqının intibah dövrü kimi qəbul edilə bilər. Bu dövrdə çar Rusiyası tabeliyində olan müsəlmanların islama məhəbbətindən, islami dəyərlərin təbliğindən ehtiyat etmişdir. Ona görə də öz xalqına, millətinə bağlı olan, H. Zərdabi, Ə. Ağaoğlu, F. Köçərli, Ə. Hüseynzadə, Ö.F. Nemanzadə, C. Məmmədquluzadə, N. Nərimanov, M.Ə. Rəsulzadə kimi qabaqcıl ziyalılar bundan ciddi narahat olur və öz əsərlərində islamın elmi şərhini verməyə cəhd göstərirdilər.

Ə. Ağaoğlunun islam və islami dəyərlərlə bağlı publisistik- fəlsəfi əsərləri daha çox "Kaspi" qəzetində özünü göstərmişdir. Ədib "Kaspi" qəzetinin səhifələrində islama dair silsilə məqalələr yazmışdır. "Müsəlman xalqlarının vəziyyəti" ümumi başlığı ilə dərc olunan bu yazılarda islam və islam tarixi geniş şərh edilmişdir. O, "islamdakı təhrifləri ...cəmiyyətin əsaslarını sarsıdan" keyfiyyət kimi şərh etmiş və göstərmişdir ki, islamda tənəzzül olmasaydı cəmiyyət daha düzgün yolla inkişaf edərdi (Agayev, 21.04.1900). Müəllif bu məqalələrində islamın XVII-XVIII əsrlərdə tənəzzül etdiyindən narahat olurdu. Bu tənəzzülün səbəblərini o ətraflı araşdırır, islamın dirçəlişində türk-tatar irqisinin mühüm rolundan bəhs edirdi. Ə. Ağaoğlu islam dəyərlərinə həsr olunmuş məqalələrində geniş oxucu kütləsinə, Rus imperiyasının oxucularına daha çox müraciət edirdi. O, bu oxuculara mü- səlman xalqlarını tanıtmaq istəyirdi. Təsadüfi deyil ki, müəllif bir çox

məqalələrində islam dini haqqında Rusiyada nəşr olunmuş kitablara, yaxud qəzetlərdə dərc olunmuş məqalələrə cavab və izah verməli olurdu.

Yazılarının birində publisist “Zəkat” adətinin mahiyyətindən söz açır. Məqalə rusiyalı müəllif V. Çerevanskinin “Мир ислама и его пробуждение” kitabının bəzi müddəalarına cavab xarakteri daşıyır. Əsərdə bir çox təhriflərə yol verdiyindən publisist əsərin yalnız “zəkat” haqqında bölməsinə müraciət edir və burada V. Çerevanskinin səhvlərini göstərməyə çalışır. Məlumdur ki, zəkat (ərəbcə- “təmizlik”) müsəlmanlardan alınan, Quranla rəsmiləşdirilmiş, toplanılma qaydası və həcmi şəriətlə müəyyən edilmiş vergidir. Əsasən “zəkat” ehtiyacı olanların xeyrinə ödənilən “könüllü vergidir”. Ə. Ağayev müsəlman qanunvericiliyində nüfuz sahibi olan Əllamei-Fəhhami Düməşkiyə istinad edərək “zəkat” ın əsl mahiyyətini izah edir

Ə. Ağaoğlu burada verginin “müqəddəs müharibə” ylə hər hansı bir əlaqəsi varmı?” deyə, oxucuya sual edir və “zəkat” ın yalnız nəcib məqsədlərə xidmət etdiyini göstərməyə çalışır. Publisistin görüşlərinə görə, “zəkat” ın təsis edilməsi labüd və mütləq idi. Çünki məlumdur ki, Qurani Kərimə əsasən kapitaldan faiz əldə etmək qəti qadağandır (Gazeta Kaspiy, 23.03.1901). Əməyi, zəhməti tərənnüm edən Məhəmməd peyğəmbər Ə. Ağayevin mülahizələrinə görə, yoxsullara, kimsəsizlərə, əlil və yetimlərə maddi köməyi “zəkat” vergisi qismində təsis etmişdir və bu vergi yalnız xeyriyyəçilik məqsədi ilə əhalidən könüllü yığılırdı. “Menşikov və islam” adlanan digər yazısında Ə. Ağayev rus ictimai fikrində dolaşan və heç nəyə əsaslanmayan, əslində isə islam dünyasına ləkə yaxmaq məqsədi güdən bəzi iftiralara cavab verməyə məcbur olur. Ədib islamın dəyərlərindən heç bir təsəvvürü olmayan A. Menşikovu islam adından danışmamağa çağırır və bildirir ki, hələ Məhəmməd tərəfindən islam dünyasında xalq nümayəndəliyinin yaranması mümkün və labüd kimi göstərilmişdir. Ümumiyyətlə, Ə. Ağayev islam tarixinə, müsəlman dünyasına aid rus və xarici mətbuatda yol verilən səhvləri həssaslıqla qarşılayırdı, məsələlərə aydınlıq gətirməyi, lazım olan hallarda hətta kəskin cavab verməyi özünə borc bilirdi. Publisistin görüşlərinə görə, Rusiyada və Qərbdə XIX əsrin ikinci yarısına qədər islam dini, Məhəmmədin nəzəriyyəsi təhrif olunurdu, ən qabaqcıl qərb mütəffəkirləri qəsdən, yaxud məcburən İslama qara yaxırdılar. Volterin və Şekspirin Məhəmməd haqqında fikirlərini Ə. Ağaoğlu “İslamda qadın və islama görə qadın” adlı əsərində müfəssəl araşdırmışdı. Onun fikrincə, islam və müsəlman dünyasına qarşı Qərbdə formalaşmış mövhumat Qərb və Şərq arasında əsrlər boyu davam etmiş xristian və islam dinlərinin müba- rizəsinin nəticəsidir. Bu mənada ədibin fikrincə, orta əsr

ədəbiyyatı, səlib müharibələri dövrü islama və Məhəmmədə qarşı xususi amansızlıqla fərqlənmişdi.

Ədibin fikrincə, XIX əsri haqı olaraq elmi tənqidin təşəkkülü və inkişafı əsri adlandırırlar. Publisistin yazdığı kimi, XIX əsrin ortalarından Qərbin elmi dairələrində islam dininə münasibət xeyli dəyişir. İslamın mahiyyətini dərindən öyrənən alimlər meydana gəlir. Təkcə islam deyil, bütün şərq dünyasını araşdıran elmi istiqamət - oriyentalistika öz təşəkkülünü tapır. Elmi dairələrdə islam dini ilə bağlı fərqli mülahizələr yer alır. Elm sahəsindəki bu yeniliklər ədibə gələcəklə bağlı ümidverici fikirlər söyləməyə əsas verir (Hüseynova, 2006). Ə. Ağaoğlu təkcə islam deyil, digər dinlər barəsində də fürsət düşdükcə fikirlərini söyləyirdi. Belə ki, Roma papasi XIII Levin ölümüylə əlaqədar publisist ümumiyyətlə papalıq barəsində mülahizələriylə silsilə məqaləsində bölüşür. Papa- hq institutunun yaranma tarixinə baş vuraraq ədib katolik kilsəsinin dünya tarixində, dünya siyasətində yerindən və rolundan söz açır:

“К чему стремилось папство? Девизом его служила старинная формула, недопускающая по самой своей сущ- ности и религиозности никаких, смягчающих обстоя- тельств. Формула эта: «Без католичества нет спасения!” (Agayev, 13.08.1903). Bu kəlam, ədibin yazdığına görə, qədim romalıların müqəddəs ehkamlarını xatırladır. Hər bir dindarı inan- dırmağa çalışırdılar ki, katolik kilsəsi - sarsılmaz və yenilməz bir qayadır, bu qayaya arxalanan yeganə Allah kilsəsi - katolik kilsəsi qurulub.

Müsəlman dünyasının da islaha ehtiyacı olduğunu Ə.Ağaoğlu dəfələrlə məqalələrində qeyd edirdi. Onun bu görüşləri daha çox panislamizm cərəyanı ilə bağlıdır. Məlumdur ki, panislamizm islami dəyərlər və Avropa düşüncə tərzini özündə ehtiva edirdi. Eyni zamanda İslama qarşı müstəmləkəçi dövlətlərin düşünülmüş siyasətinə qarşı mübarizəni də vacib hesab edirdi. Mustəmləkəçi dövlətlərin Şərq dünyasının inkişafında qoyduğu əngəlləri göstərməklə yanaşı, Ə. Ağaoğlu öz xalqının, millətinin geriliyini tənqid etməkdən çəkinmirdi. Bu yolda C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. B. Haqverdiyev, Ü. Hacıbəyov kimi görkəmli ədəbi simalar də öz millətinin çatışmazlıqlarını ədəbi-bədii təfəkkürün tənqid formaları ilə təsvir edirdilər. Onlardan fərqli olaraq Ə. Ağaoğlu yalnız arqument və faktlara əsaslanaraq çıxış edirdi. Özü də bu fəaliyyətə adları çəkilən ədiblərdən xeyli əvvəl başlamışdı. O, araşdırmalarında çox doğru olaraq sosioloji, kulturoloji, sosial-psixoloji və psixoloji amilləri Qərb-Şərq müstəvisində müqayisəli şəkildə verirdi. Xristian və islam dinlərinin hər birinin Qərbdə və Şərqdə insan həyatına nüfuz etməsini

yaxşı anlayaraq, publisisit bu mənəvi atributların rolunun yüksək olduğunu qeyd edirdi. Amma bu məsələdə də, dini mənlik məsələsində Ə. Ağaoğlunun fikrincə, Şərq Qərbdən xeyli geridə qalırdı.

**Nəticə**

Ə. Ağaoğlu ədəbi-tənqidi axtarışlarında istər dil, istərsə də din, dövlət, millət anlayışlarına ümumxalq, ümumbəşəri məfhum kimi yanaşırdı. Tənqidçinin Qərb və Şərq qarşıdurmasına aydınlıq gətirməsi, vahid dünyəvi mövqedə dayanması, xalqın ədəbi-bədii dünyagörüşünün inkişafına xidmət edən ideyalar idi. O, həllində, milli-mədəni intibahın cəmiyyətdəki problemlərin həllində, yaranmasında, əxlaqi-mənəvi dəyərlərin qorunub saxlanmasında ədəbi-bədii fikrin böyük rol oynayacağına bütün qəlbi ilə inanırdı (Mirəhmədov, 1984). Ə. Ağaoğlunun XX əsr ədəbi-bədii dünyagörüşünün inkişafında göstərdiyi ən böyük xidməti bundan ibarət idi ki, tənqidçi hansı mövzuya toxunmasından asılı olmayaraq, mütləq müasir oxucularin tələblərini nəzərə alır, ədəbiyyatın müasir həyatla səsləşdiyi məqamlara aydınlıq gətirirdi. Tənqidçi araşdırmalarında həyatiliyi, gerçək həqiqətləri, obyektiv reallıqları ön plana çəkir, real həyatı ətraflı təsvir edə biləcək bədii sənət nümunələrinə üstünlük verirdi. Məhz onun kimi ziyalıların sayəsində müasir ədəbi prosesə mane olan təqlidçilik, ideyasızlıq, köhnəni təkrarlayan epiqonçuluq kimi problemlər XX əsrin əvvəllərində qismən də olsa həllini tapdı. Təkcə Azərbaycanda deyil, həm də Qərb və Şərq dünyasının ictimai mühitində baş verən hadisələrə münasibət bildirən tənqidçinin yaradıcılığı xalqımızın mədəni-mənəvi inkişafında mühüm rol oynayib. Buna görə də, indiyənədək aktual olaraq qalan Ə. Ağaoğlu irsi hər zaman diqqət mərkəzindədir. Çağdaş ədəbi proseslərin və XX əsr ədəbi-tənqidinin yaradıcılarından olan Ə. Ağaoğlunun elmi-tənqidi müasir ədəbiyyatımız mətbuatımız üçün ideal bir örnəkdir. Ə. Ağaoğlunun publisistikası çox zəngin, mövzu və problemcə əhatəlili və dolgundur. Onunu yaradıcılıq nümunələri müəllifin dərin müşahidələrindən, bu gün üçün də maraqlı görünən mülahizələrindən xəbər verir. Ə. Ağaoğlu Azərbaycan ictimai fikrinə görkəmli filosof, gözəl publisist və fədakar insan kimi daxil olmuşdur. Müəllif qazandığı bilik və bacarıqlardan bəhrələnərək yaradıcılığında maarifçilik prinsipini önə çəkmişdir. Belə bir nəticəni də qeyd etmək vacibdir ki, Azərbaycanın müasir publisistləri məhz klassik məktəb nümunələrinə söykənməklə ümumxalq rəğbətini qazanan, müstəqilliyimizin tam formalaşmasına təkan verən yaradıcılıq işi görməkdədir.

**Ədəbiyyat**

(16 Nisan 1906). *İrşad qəzeti.*

(23 Mart 1901). *Gazeta Kaspiy.*

(N-255-262, 1899). *Kaspi qəzeti.*

Agayev, A. (1903 Ağustos 13). *Papstvo*. Kaspiy.

Agayev, A. (1900 Nisan 21). *Polozheniye musul'manskikh narodov*. Kaspiy.

Ağayev, Ə. (1906 Nisan 16). *Dəbistan jurnalı.* Kaspi nəşriyyatı.

Axundov, N. (1980). *Sənədlərin dili ilə*. Azərbaycan SSR dövlət nəşriyyatı.

*Ə. Ağaoğlunun ədəbi-tənqidi görüşləri.* (2006). Nurlan nəşriyyatı.

Hüseynov, Ş. (2005 avqust 6-12). *Ə. Agaoğlunun dünya görüşü*. Günayqəzeti.

Hüseynova, Ü. (2006). *Əhmədbəy Ağaoğlunun ədəbi-tənqidi görüşləri.* Nurlan nəşriyyatı.

Hüseynzadə Ə. (1906 mayıs 18). *Dəbistan jurnalı haqqında*. Kaspi qəzeti.

Mirəhmədov, Ə. (1984). *Əhməd Ağaoğlu, Fikrin karvanı.* Yazıçı nəşriyyatı.

*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*11(1) 2024*

*Mass Communication Special Issue*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received:11.11.2024*
*Kabul tarihi |Accepted:12.12.2024*
*Yayın tarihi |Published:15.12.2024*

**Nərmin Nəbiyeva**

***https://orcid.org/0009-0006-7904-4322***
*PhD student, Baku State University, Faculty of Journalism, Department of Multimedia and Electronic Communications, Azerbaijan, narmin.n.noqte@gmail.com*

***Atıf Künyesi | Citation Info***

Nəbiyeva, N. (2024). 44 Günlük Vətən Müharibəsi Sənədli Telefilmlərin Mövzu Predmeti Kimi . *Akademik Tarih ve Düşünce Dergisi Mass Communication Special Issue, 11* (1), 141-153.

# 44 Günlük Vətən Müharibəsi Sənədli Telefilmlərin Mövzu Predmeti Kimi

***Xülasə***

*İstər ümumölkə, istərsə də onlayn və regional televiziya kanalları, demək olar ki, son 4 il ərzində proqramlaşdırma siyasətində "Böyük Qayıdış" adı altında 44 günlük Vətən müharibəsi mövzusunu gündəmdə saxlamışlardır. Ərazi bütövlüyünü bərpa edən Azərbaycanın mübarizəsi, bu mübarizənin qəhrəmanları telefilmlərin mövzu seçimində və bilavasitə qəhrəman prototipinin ekran həllində ön sırada dayanmışdır. Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən döyüş əməliyyatları ilə bağlı intensiv çəkilişlərin aparılması, dron və PUA çəkilişlərinin qurumun rəsmi veb-saytında və sosial şəbəkə hesablarında operativ şəkildə yayımlanması jurnalistlərə kifayət qədər zəngin sənədli xronikal kadrlar vermişdir. I Qarabağ müharibəsi veteranlarının və hərbi ekspertlərin sərrast təhlilləri, müharibənin şahidlərinin sinxronları xronikal kadrların müşayiəti ilə yüksək sənədlilik keyfiyyəti qazanmışdır. Bu araşdırmada II Qarabağ müharibəsi mövzusunu əhatə edən ekran nümunələrinin sənədli telefilmlərin nəzəri-estetik tələblərinə cavab verib-verməməsi təhlilə cəlb olunmuş filmlərdən gətirilən nümunələr əsasında tədqiq edilmiş, kino mütəxəssislərinin müsahibələri əsasında isə "Müharibə mövzusunda bədii, yoxsa sənədli filmlər daha təsirlidir?" sualına cavab axtarılmışdır.*

BY NC
Creative Commons Licence

***Açar sözlər:*** *sənədli televiziya filmi, sənədli telefilm, vətən müharibəsi, qəhrəman prototipi, mövzu seçimi*

# The 44-Day Patriotic War as the Subject of Documentary Television Films

***Abstract***

*Both national, online and regional television channels have been keeping the topic of the 44-day Patriotic War under the name 'Great Return' in their broadcasting policies for about 4 years. The struggle to restore the territorial integrity of Azerbaijan and the heroes of this struggle have been at the forefront of the choice of the theme of television films and the direct projection of the hero prototype on the screen. The intensive filming of combat operations by the Ministry of Defence of the Republic of Azerbaijan and the rapid publication of UAV and UAV footage on the official website and social media accounts of the organisation provided journalists with a very rich documentary chronicle. Accurate analyses of the First Karabakh War by veterans and military experts, synchronicity of war witnesses, accompanied by chronic footage, have reached a high documentary quality. In this study, it was investigated whether the screen samples dealing with the Second Karabakh War met the theoretical and aesthetic requirements of documentary television films through examples taken from the films subject to analysis, and based on interviews with film experts, an answer was sought to the question 'Is this subject the subject of documentary television films?'. The question 'Are fictional films or documentary films dealing with the subject of war more effective?' was answered. The answer to the question was sought.*

***Keywords:*** *Documentary Television Film, Documentary Television Film, Patriotic War, Hero Prototype, Topic Selection*

## Giriş

Sənədli televiziya filmləri (STF) ictimai-siyasi, iqtisadi, eləcə də elm və mədəniyyət sahəsində baş verən hadisələri, yenilikləri və dəyişiklikləri ekrana gətirərək nəinki dövrün güzgüsü rolunu oynayır, eyni zamanda dövrün arxivini, salnaməsini yaradır. Sənədli telefilmlər üçün xarakterik olan bu keyfiyyət STF üzərində çalışan jurnalistlərin, yaradıcı kollektivlərin, həmçinin televiziya kanallarının çiyninə birbaşa və ya dolayı yolla müvafiq məsuliyyətləri yükləyir: gündəmi izləmək, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən mövzuları müəyyənləşdirmək, mövzularla bağlı qəhrəmanlara çıxış əldə etmək və əlaqəli sənədli materialları, xronikal kadrları filmlərin ssenariləşdirilməsi prosesində istifadə etmək.

2020-ci ildə 44 gün davam edən Vətən müharibəsinin "kiçik ekran"a köçürülməsi, Azərbaycanın tarixi bütövlüyünün bərpasının sübutu olan bu mühüm tarixi hadisəyə mövzu predmeti kimi müraciət edilməsi zəfər tariximizin sənədlər əsasında arxivləşdirilməsində mühüm

rol oynadı. İstər “böyük ekran”, istərsə də yerli televiziya kanalları proqramlaşdırma siyasətində bütün gücünü bu istiqamətdə səfərbər etdi. Məsələn, 2021-ci ildə Mədəniyyət Nazirliyi tərəfindən elan olunan “Böyük Qayıdış” qısametrajlı bədii, sənədli və animasiya film layihələri müsabiqəsi keçirildi (Ələkbərova, 2021). Eyni zamanda “Azərbaycan Televiziyası”, “Mədəniyyət TV”, İctimai Televiziya, “ARB TV”, “Xəzər TV”, “Space TV”, “Real TV” kimi ümumölkə, eləcə də “Baku TV”, “Kəpəz TV”, “Qafqaz TV”, “Kanal S”, “CTV”, “Naxçıvan TV” kimi onlayn və regional televiziya kanalları sənədli televiziya filmlərinin mövzu və qəhrəman seçimi mərhələsində “Qarabağ səhifəsi”ni açdı. Bu isə öz növbəsində ekranlaşdırılmış hər bir sənədli televiziya filminin sənədli ekran publisistikası baxımından, eləcə də jurnalistika kontekstində təhlil olunması üçün ciddi zəmin yaratdı. Nəticədə, müharibə mövzusuna müraciət edən jurnalistlərin STF-nin nəzəri-estetik tələblərini nə dərəcədə bilmələrinin və qazandıqları nəzəri biliklərin filmlərin hazırlanması prosesində düzgün tətbiq edib-etməmələrinin təhlili üçün kifayət qədər praktik nümunələr əldə olundu.

II Qarabağ müharibəsinin sənədli ekran nümunələri əsasında təhlili göstərir ki, müəllif yozumunun əsas daşıyıcısı olan fərdi üslubun təsiri altında müharibə mövzusu fərqli istiqamətlərdə, formatlarda və estetikada özünün vizual həllini tapır. Bu isə sənətkarlıq meyarları baxımından sözügedən filmləri sistemləşdirməyə və təhlil etməyə əsas verir. Eyni zamanda mövzuya müvafiq qəhrəman prototipini qarşılıqlı təsiretmə mexanizmi əsasında çeşidləməyə meydan yaradır. Həmçinin texnologiyanın inkişaf etdiyi rəqəmsallaşma dövründə, multimedianın monomedianı üstələdiyi bir zamanda müharibə mövzusunun işıqlandırılması prosesində istifadə olunan texnoloji yeniliklər, qrafik həllər imkan verir ki, tarixi faktların vizuallaşdırılması prosesində onların rolu və əhəmiyyəti müfəssəl şəkildə araşdırılsın.

## 1. Müstəqillik dövründə müharibə mövzusu: yanaşmalar, istiqamətlər və sənətkarlıq xüsusiyyətləri

1988-1993-cü illəri əhatə edən daxili siyasi böhran, Dağlıq Qarabağ və ətraf rayonlarda başlayan döyüşlər, 20 Yanvar hadisələri, “əsrin faciəsi” kimi qan yaddaşımıza həkk olan Xocalı soyqırımı, müstəqilliyini qazanan Azərbaycanın ərazisinin 20%-inin işğalı, mülki və hərbi itkilər, ağır döyüşlər və 2020-ci ilə kimi davam edən müharibə şəraiti sənədli televiziya filmləri üzərində çalışan televiziya işçilərinin, kino nümayəndələrinin diqqətindən qaça bilməzdi. I Qarabağ

müharibəsi kimi tarixə yazılan bu dövrdə ekranlaşdırılan sənədli telefilmlər mövzu baxımından dörd istiqamətdə hazırlanırdı:

1. Vətən nisgilini, işğal acısını əks etdirən sənədli telefilmlər;
2. İşğal altında olan bölgələrimizin tarixi, mədəniyyəti, sərvətləri barəsində tamaşaçıları bilgiləndirən sənədli telefilmlər;
3. Müharibənin birbaşa şahidi olan məcburi köçkünlərin, əsirlikdə olan qurbanların xatirələrini, başlarına gələn real hadisələrin nəqlini ekrana gətirən sənədli telefilmlər;
4. Torpaqlarımızın bütövlüyü, toxunulmazlığı uğrunda son damla qanına kimi döyüşən və şəhidlik zirvəsinə ucalan qəhrəmanlarımızı xalqa tanıdan, şəhid ailələrinin ağrısını, həmçinin qürurunu əks etdirən sənədli telefilmlər.

Qeyd edək ki, I Qarabağ müharibəsinin sənədli ekran həlli yüzlərlə filmdə öz əksini tapmışdır. “Ağdamlı günlərimiz” (“Azərbaycan Televiziyası”, 2001), “Ali məqam” (“Lider TV”, “Azərbaycan” redaksiyası, 2002), “40-cı qapının qıfılı” (“STV”, 2003), “20 il. Müstəqillik” (“Azərbaycan Televiziyası”, 2011), “Xocalıya Amerikadan baxış” (“İTV”, 2012), “Günəşin batdığı yer” (“ATV”, “Televiziya Filmləri Studiyası”, 2012), “Azadlıq döyüşü: Horadiz əməliyyatı” (“Azərbaycan Televiziyası”, 2013), “31 Mart soyqırımı” (“İTV”, 2014) “Xocalı dərsi” (“ARB Aran”, “Qulp Studio”, 2018), “Əsgərlər unudulanda ölürlər” (“Aranfilm”, 2018), “Bir qəhrəman vardı” (“İTV”, 2019) kimi sənədli telefilmlər onlardan yalnız bir neçəsidir.

Təhlilə cəlb olunan sənədli telefilmlər belə qənaətə gəlməyə əsas vermişdir ki, sözügedən ekran nümunələrində Dağlıq Qarabağ və ətraf rayonlarımızın işğalı, Xocalı soyqırımının şahidləri və qurbanları, 20 Yanvar faciəsi, eləcə də doğma yurd-yuvasından didərgin düşən yüz minlərlə soydaşımızın ağrı-acısı ekrana gətirilmiş, şahidlərin sinxronları arxiv materialları, real kadrlar və sənədli xronika materiallarının müşayiəti ilə özünün ekran həllini tapmışdır. Bu filmlərdən bəzisi görüntü və səs sırasının müşayiəti ilə müəllif mətni olmadan hazırlanmışdır. Müəlliflər təkcə arxiv materiallarından, əlyazmalardan, müxtəlif sənədli xronika materiallarından istifadə etməmişdilər, eyni zamanda müharibənin qaranlıq qalan məqamlarını araşdırmış, öz yozumlarını və yeni baxış bucağını ekrana gətirmişdilər.

2017-ci ildə “ARB Media Qrup” və “Qlup Studio”nun ekranlaşdırdığı “Şuşanın dağları qara dumanlı” sənədli televiziya filminə nəzər salaq (Youtube.com, 2017a). Film xarıbülbülün görüntüsü və Şuşanın işğaldan öncəki sinxron kadrları ilə başlayır. Təsirli diktor mətni ilə müşayiət olunan təsvir sırası, xüsusilə kadrarxası mətnin sinxron kadrlarla tamamlanması və

əyani şəkildə hadisələrin ekrana gətirilməsi filmin təsir gücünü artırır. Müharibə illərində və işğaldan sonra Şuşanın başına gələn tarixi fəlakətlər, şahidlərin dilindən səsləndirilən real həyat hekayələri müşayiətçi kadrlarla təqdim olunur.

Filmin kulminasiya nöqtəsini ermənilərin Qarabağda başlatdıqları separatçı hərəkatın ən qızğın vaxtında – 1991-ci ilin dekabrında Şuşa rayon İcra Hakimiyyətinin başçısı Mikayıl Gözəlovu öz kabinetində qətlə yetirən ömürlük məhkum Elbrus İbrahimovla söhbət təşkil edir. Baş verən hadisənin canlı şahidlərinin, eləcə də qatilin öz dilindən cinayətin addım-addım nəqli seyrçini gərginlikdə saxlayır. Sonrakı kadrlarda Mikayıl Gözəlovun ailəsinin fotoları ekranda görünür, gərginlik dağılır və sənədli film tamaşaçıya kədər sükunətini ötürür. Ardınca şahidlər – o vaxtlar onunla çiyin-çiyinə çalışan insanlar mərhum icra başçısının Şuşa üçün gördüyü işlərdən, öz vəzifəsini inamla və vicdanla idarə etməsindən danışırlar.

Kadrlardan birində 1991-ci ildə MTN-nin Qarabağ üzrə məsul şəxsi olan Ağalar Əliyev: "Bu hadisənin Şuşanın işğalına birbaşa təsiri olub", – deyərək qəhərlənir. Ardınca Aşağı Gövhər Ağa Məscidi göstərilir, fonda isə hıçqırıq səsləri və xanəndə Tacirin ifasında "Bayatı Şiraz" eşidilir. Növbəti kadrda Ağalar bəyin kameraya baxaraq için-için ağladığını görürük. Musiqinin müşayiəti ilə Şuşadan didərgin düşən Üzeyir bəyin güllələnmiş heykəli, Şuşanın müharibə illərində və işğaldan öncəki kadrları bir-birini əvəzləyir.

2020-ci ildə 44 günlük Vətən müharibəsində ordumuzun əldə etdiyi şanlı qələbə "Böyük Qayıdış" adı altında müharibə mövzusunda yeni cığır açdı. Artıq mövzu Azərbaycan xalqının qələbəsi, qəhrəman isə müzəffər ordumuz, şəhidlərimiz, igid hərbçilərimiz və Azərbaycan xalqı idi. Tədqiqatçı N. Quliyev deyirdi ki, müharibə illəri insan xarakterinin açıq şəkildə təzahür etdiyi bir dövrdür və məhz buna görə (…) müharibə mövzusu heç vaxt qurtarmır; o, fasiləsiz olaraq davam və inkişaf edir, yeni-yeni keyfiyyətlər hesabına zənginləşir və dərinləşir (Quliyev, 1981, s.10). N.Quliyevin səsləndirdiyi bu fikirlər bilavasitə çağdaş ekranın sənədli filmlərində öz əksini tapır. Belə ki, hər bir müəllif, yaradıcı kollektiv fərqli yanaşma tərzini, müəllif yozumunu ortaya qoyaraq müharibənin unikal ekran həllini yaratmağa çalışır.

Qeyd edək ki, II Qarabağ savaşında xalqımızın əldə etdiyi şanlı qələbə, Azərbaycan Ordusunun ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda göstərdiyi qəhrəmanlıq mübarizəsi, yurd həsrəti ilə alışıb-yanan həmyerlilərimizin dədə-baba torpaqlarına qovuşması, habelə arxa cəbhədə yumruq kimi birləşən vətəndaşlarımızın fəaliyyəti sənədli telefilmlərin əsas mövzu

istiqamətlərindəndir. Təhlilə cəlb olunan filmlərin mövzu istiqamətlərini aşağıdakı şəkildə sistemləşdirmək mümkündür:

1. Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi;
2. Ali Baş Komandan İlham Əliyevin öndərliyi ilə Azərbaycan xalqının, rəşadətli Azərbaycan Ordusunun düşmən qüvvələri üzərində şanlı qələbəsi;
3. Azərbaycan Ordusunun döyüş əməliyyatları (hərbçilərin döyüşlər barədə xatirələrini paylaşmaları, döyüş əməliyyatlarının həyata keçirilməsi ilə bağlı təhlillər aparmaları, onların sinxronlarının Müdafiə Nazirliyinin təqdim etdiyi real kadrların müşayiəti ilə vizualizasiyası);
4. Şəhid və qazilərimizin qəhrəmanlıqlarının əbədiləşdirilməsi və arxivləşdirilməsi (ailə üzvlərinin, döyüş yoldaşlarının sinxronları, qəhrəmanlarımız barəsində xatirələri);
5. İşğaldan azad olunan torpaqlarda yenidənqurma və bərpa işlərinin aparılması, şəhərsalma məsələlərinin qısa zamanda öz həllini tapması;
6. İşğaldan azad olunan ərazilərdə daimi məskunlaşmanın təmin edilməsi;
7. İşğaldan azad olunan torpaqlarda mədəni, tarixi abidələrin dağıdılması, Ermənistan hərbi qüvvələrinin vandallıqları.

Famil Mehdinin fikrincə, biz çox vaxt qəhrəmanı bir insan olaraq unuduruq, onun ən adi, insani hisslərini kölgədə qoyuruq. İnsanı qarşılaşdığı bütün çətinliklərlə, keçirdiyi müxtəlif psixoloji vəziyyət və əhval-ruhiyyələrlə təsvir etmədən əsla ucaltmaq mümkün deyildir (Mehdi, 1982). STF-nin müasir mərhələsində müharibə, hərbi-vətənpərvərlik mövzularında ekranlaşdırılmış filmlər müxtəlif janrlarda, rəngarəng təqdimat formalarında ekrana gətirilir. Qəhrəmanların xarakterləri ailə üzvlərinin, döyüş yoldaşlarının, dostlarının xatirələri ilə zəngin sinxronların hesabına açılır, biz onları fərqli istiqamətlərdə, yönlərdə tanımağa, kəşf etməyə başlayırıq.

"Azərbaycan Televiziyası"nda istehsal olunan "Zəfərin qəhrəmanları" (2022), Qazi Sahil Həsənliyə həsr olunan "Salam, Sahil" (2022), minaaxtaranlardan danışan "Gizli düşmən" (2022), erməni işğalçıları tərəfindən Xocavənd rayonunun Tuğ kəndindən zorla çıxarılan Qaraşovlar ailəsinin 29 il 7 ay sonra kəndlərinə qayıtmasından danışan "Biz qayıtdıq" (2024), "Qapı" (2024), eləcə də "İTV"də ekranlaşdırılan "Görünməyən qəhrəmanlar" sənədli filmlər silsiləsi (2021-2023), Ali Baş Komandan İ.Əliyevin bənzərsiz siyasətinə işıq salan "Kişi sözü" (2023), 32 illik fasilədən sonra köhnə Laçının 2 saylı məktəbinin məzunlarının çalınmayan "son zəng"lərini yeni Laçında çalmalarını göstərən "Çalınmayan son zəng" (2024), "ATV"nin imza atdığı "Qalib

komandan" (2021), "44 gün, 44 an" (2021), bununla yanaşı, "Xəzər Media"nın istehsalı olan "Dəmir yumruğa çevrilən ölkə" (2021), "Qartal zirvədə" (2022), "Şuşanın 270 anı" (2022), "ARB TV"də ekranlaşdırılan "Səbrin son gecəsi" (2021), "Müharibə hekayələri" sənədli telefilmlər seriyası (2022), "Laçın" (2023), "Döyüşçü" (2024), 2023-cü ildə "Mədəniyyət TV"nin ard-arda imza atdığı "Vətən aşiqləri", "Zəfər bayrağı", "Səndən sonra", Real TV-nin məhsulu olan "Bütövlüyün möhür yeri" (2024), "Ruh yüksəkliyi Kəlbəcər" (2024), regional telekanallarda istehsal olunan "4 Aprel. İnqilab Quliyev" ("ARB Kəpəz", 2019), "Bir gün xəbər gəldi" ("ARB Cənub", 2021), "Səssiz nalə" ("Kəpəz TV", 2021), "Şahgündüz zirvəsi" ("EL TV", 2022), "Sədərəkdən Şuşaya" ("Naxçıvan TV", 2023) kimi sənədli televiziya filmləri bu baxımdan maraqlıdır.

## 2. "Zəfər"in "kiçik ekran"da əks etdirilməsi üsulları: müəllif yanaşmasının formaları

Müəllif yozumunun daşıyıcısı olan fərdi üslub II Qarabağ müharibəsinin ekran həllinə olan jurnalist yanaşmasında koloritliliyi və çoxçeşidliliyi ortaya çıxarmış, xüsusilə üslub normalarında şaxələnmələr nəzərdən qaçmamışdır. Bu müxtəlifliyi bir sıra müəllifin ekranlaşdırdığı sənədli telefilmlərdə görmək mümkündür.

Real TV-nin baş direktoru Mir Şahinin özünəxas yüksək publisistik üslubu imza atdığı sənədli telefilmlərdə, xüsusilə faktların şərhində, müəllif mətnində, tarixi hadisələrin ekrana köçürülməsində özünü göstərir. Kalambur formatından (söz oyunu) istifadə onun bənzərsiz fərdi üslubunun ən önəmli özəlliklərindən biridir. Bunu onun müəllifi olduğu "Dəmir yumruq" (2021), "Dövlət belə quruldu..." (2023), "O-nun böyük iyirmiliyi" (2023), "Bütövlüyün möhür yeri" (2024), "Dumanın üç qatı" (2024) və onlarla digər sənədli telefilmlərdə görə bilirik. Məsələn, "Dəmir yumruq" filmində (Youtube.com, 2021b) müəllif stəndap edir və filmin adı ilə bağlı bənzərsiz yanaşmasını maraqlı formatda ortaya qoyur: "Beş barmağın beşi də bir olmaz" söyləyir. Bu zaman kamera iri planda onun əlini çəkir. Daha sonra orta planda Mir Şahini kameraya baxıb, danışan görürük: "Amma anatomiyanın yazılmamış qanunu və vücudun belə bir halı var ki, beş barmağın beşi də bir ola bilir". Kamera yenidən iri planda onun əlini çəkir və o, barmaqlarını bükərək yumruq işarəsini göstərir: "Bu halın adı yumruqdur". Ardınca "oyun" elementini daşısa da, Azərbaycanda yaşayan azsaylı xalqlarımızın öz dillərində 44 günlük Vətən müharibəsinə könüllü yollanmalarını əks etdirən kadrlar ekrana gətirilir. Beləliklə, bu cür vizual həll bütün Azərbaycan xalqını filmin əvvəlində müəllifin göstərdiyi "yumruq" halında birləşdirir.

"Xəzər TV"nin əməkdaşı Elmin Bayramlının ssenari müəllifi olduğu "Pusqu" (Youtube.com, 2023c) sənədli televiziya filminə nəzər salaq. Filmdə müəllif sadə və lakonik təqdimat formasından istifadə etmişdir. Film müəllif mətnindən daha çox real faktlar, görüntülər, sinxronlar üzərində qurulmuşdur. Qeyd edək ki, Elmin Bayramlı müəllifi olduğu filmlərdə, əsasən, situasiyaya müvafiq olaraq tematik, hadisəli və sinxron reportaj formatlarından istifadə edir. Ümumiyyətlə, hər bir yaradıcı kollektiv, müəllif bu və ya digər şəkildə çalışdığı qurumun dəstxətini, "imza"sını, üslubunu mənimsəyir, bu da ortaya çıxan ekran məhsulunun təqdimat formasında, üslub normalarında, audiovizual dilində öz əksini tapır. Belə ki, "Xəzər TV"nin ekranlaşdırdığı və 44 günlük Vətən müharibəsini əks etdirən sənədli telefilmlərdə analoji yanaşmanı, ən əsası "xəbərçilik ənənəsini" daha sıx görə bilərik. "Dəmir yumruğa çevrilən ölkə" (2021), "Kod adı: Yaşma" (2021), "Qartal zirvədə" (2022), "Əks-hücuma 10 dəqiqə qalmış" (2023), "Danışır Xocalı" (2024) kimi filmlər buna misaldır.

Müharibə mövzusunu əhatə edən bəzi sənədli televiziya filmlərində isə bədii-publisistik üslub hakim olur. Belə filmlərdə metaforalardan, mübaliğə və bənzətmələrdən istifadənin sıxlığı gözdən qaçmır. "ARB TV"nin ekranlaşdırdığı "Səbrin son gecəsi" (Youtube.com, 2021d) filmindən bir hissəyə baxaq:

***K/A (kişi səsi):*** *Mən əsgər formasıyam. Amma adi əsgərin forması yox. Qalib əsgərin forması! Kimin üçün isə bəy paltarına, kimin üçün isə ağ kəfənə növbə çəkdim.*

***K/A (qadın səsi):*** *Şaxtalı Qarabağ gecələrində anaları kimi qucaqladım onları. Ana qucağının istisi kimi olmasa da, onları ana qucağından əmanət aldım.*

Göstərilən nümunələrdə kadrarxası müəllif mətnində istifadə olunmuş cümlələrin strukturu sadə, fikir və məzmun anlaşıqlı, nitq isə rəvandır. Xüsusilə ikinci nümunədə film boyu əsgər formasının, ayaqqabısının və papağının "dilə gəlməsi", onları qürurla daşıyan sahibinə kənardan baxışları situativ metaforanın gücünü ortaya qoyur. Müəllifin kadrarxası mətnin məntiqini izləyərək *"qalib əsgərin forması"* hissəsindəki mətnin səsləndirilməsində kişi, *"anaları kimi qucaqladım onları.."* hissəsinin səsləndirilməsində isə qadın səsindən istifadə etməsi təqdirəlayiqdir. Bununla belə, filmin şərti alleqoriya üzərində qurulması, metaforalara ağırlıq verilməsi, müəllif mətnində və səsləndirmədə bədii-publisistik, yüksək publisistik üslubun hakim olması onu sənədli televiziya filminin reallığından uzaqlaşdırmış, müəllif yorumunun gerçəkliyə müdaxiləsi gözdən qaçmamışdır.

Müasir dövrdə müharibə mövzusu üzərində araşdırma aparan zaman jurnalistlərin imza atdıqları sənədli telefilmlərin təhlili müvafiq nəticələrə gəlməyə əsas vermişdir:

– Bədii-publisistik, yüksək publisistik üslublara üstünlük verilmişdir;

– Reportaj (situativ, tematik və sinxron) formatından daha sıx istifadə edilmişdir;

– Əsasən, portret, portret müsahibə janrına müraciət olunmuşdur;

– Sənədlilik keyfiyyəti daşıyan, amma veriliş formatında ekran həllini tapan filmlərin STF adı altında təqdim olunması gözdən qaçmamışdır.

**3. Vətən müharibəsinin sənədli ekran həllinin kinoşünaslar tərəfindən təhlili**

Dramaturji strukturun mərhələlərinin gözlənilməsi, qəhrəmanın ziddiyyətdən doğan hadisəlilik əsasında daxili xarakterinin, əsl kimliyinin açılması, eyni zamanda psixo-estetik keyfiyyət daşıması, tamamlanmış sonluğunun olması STF-ni digər sənədli ekran nümunələrindən fərqləndirir. Təhlil olunan sənədli televiziya filmləri isə belə qənaətə gəlməyə əsas verir ki, araşdırdığı mövzudan asılı olmayaraq, jurnalistlər STF-nin nəzəri-estetik tələblərini nəzərə almadıqlarından müharibə mövzusunda ekranlaşdırılmış filmlər daha çox veriliş, reportaj təəssüratı oyadır. Ona görə də kino mütəxəssisləri müasir dövrdə televiziya filmlərinin "Qarabağ səhifəsi"nin təhlilinə birmənalı yanaşmırlar və sözügedən ekran nümunələrini sənətkarlıq yanaşması baxımından tənqid etməkdən çəkinmirlər.

Çağdaş efir məkanında tez-tez Milli Qəhrəmanlar haqqında çəkilən sənədli telefilmlərə rastlayırıq. Onların əksəriyyətinin veriliş estetikasında hazırlanması gözdən qaçmır. Bu sahədə Azərbaycanın kifayət qədər təcrübəsi olduğunu deyən sənədli film mütəxəssisləri – Təranə Əlizadə, Əlisa Cabbarov bildirirlər ki, televiziya rejissorlarının bu işə cəlb edilməsi müəyyən hallarda filmləri veriliş səviyyəsinə endirir. Bu işlə sırf sənədli kino rejissorlarının məşğul olmalı olduğunu düşünən ekspertlər vurğulayır ki, televiziya rejissoru sənədli filmə uğur gətirə bilməz (Sarıyeva, 2017).

Maraqlıdır ki, bir sıra kino işçiləri və ictimai xadimlər müharibənin ekran həllinin məsuliyyətini daha çox sənədli deyil, məhz bədii filmlərə kökləyirlər. Məsələn, rejissor Tahir Əliyev bildirir ki, kinomuzun Qarabağ səhifəsi son 30 ildə yalnız ümid, "biz qayıdacağıq", "gələcək bizimdir" kimi şüarlar üzərində qurulmuşdur. Yəni bu o deməkdir ki, II Qarabağ müharibəsinə qədər ekranlaşdırılmış filmlərdə sonluq yox idi. Qələbə isə artıq filmlərin tamamlanması, bəlli sonluğun verilməsi deməkdir. Tahir Əliyev həmçinin müharibəni təqdim etmək üçün sənədli, yoxsa bədii effektivlik məsələsinə də toxunur və deyir ki, müharibənin aktiv dönəmində əsas güc xronikanın

üzərinə düşür, amma Dağlıq Qarabağ müharibəsinin həqiqətlərini dünyaya çatdırmaq üçün əsas olan bədii filmlərdir (Azəri, 2020). Millət vəkili, yazıçı Aqil Abbas da öz növbəsində hesab edir ki, müharibə haqqında sənədli filmlər çəkilməlidir, amma ən vacibi bədii filmlərin çəkilməsidir. Çünki sənədli filmdən fərqli olaraq bədii filmin auditoriyası genişdir və o, daha çox təsir gücünə malikdir (Oxu.az, 2021).

"Xalq qəzeti"ndə dərc olunan "Müharibə mövzusu böyük ekranda" sərlövhəli məqalədə isə qeyd olunur ki, Ali Baş Komandanın 44 gündə xalqa müraciətləri, əsgərlərimizin qəhrəmanlıqları əsl salnamədir, tarixdir, bütöv seriallar üçün münbit materialdır. Həmçinin bildirilir ki, dünya insanına toxunacaq filmi ərsəyə gətirmək üçün yaradıcı heyətin 60-70%-nin yerli kino işçilərindən ibarət olması labüddür. Çünki faciəni yaxından yaşamayan, hiss etməyən insan onu doğru duyğularla ekrana daşıya bilməz (Nəcəfxanlı, 2023).

"Səs" qəzetində yayımlanan "Haradasan, ay Azərbaycan kinosu?!" başlıqlı məqalədə isə 44 günlük Vətən müharibəsinin qürurunu, şəhid-qazilərimizin igidliyini, ordumuzun gücünü, dövlətimizin iradə və əzmini ortaya qoyan sanballı bir filmin hələ də ərsəyə gətirilməməsi məsələsinə toxunulmuşdur. "Haradasan, Azərbaycan kinosu? Biz səni gözləyirik!" cümləsi ilə məqaləsini tamamlayan müəllif Mətanət Məmmədova çağdaş televiziya məkanında tarixi tarixə bağlayan, faktlar toplusu olan filmlərin hələ də ekranlaşdırılmamasını ciddi şəkildə tənqid etmişdir (Məmmədova, 2023). Tanınmış kino mütəxəssislərinin və ictimai xadimlərin yerli media subyektlərinə təqdim etdikləri müsahibələrdən də göründüyü kimi, 44 günlük Vətən müharibəsinin salnaməsinin, arxivinin yaradılması üçün sənədli filmlərin əhəmiyyəti vurğulansa da, məhz tarixi həqiqətlərimizin dünyaya çatdırılmasında əsas gücün, məsuliyyətin bədii, bədii-sənədli filmlərin üzərinə düşməsi məsələsi qabardılmışdır. Eyni zamanda II Qarabağ savaşını dərindən əks etdirən sanballı ssenarilərin hazırlanmaması da tənqid olunmuşdur.

Senari məsələsinə gəlincə, Vətən müharibəsi mövzusuna müraciət edən jurnalist sənədli telefilm üçün ssenarini hazırlamazdan öncə dəlillər, faktlar toplamalı, onları mənimsəməli, paralel olaraq real kadrları, real hadisələri, real qəhrəmanları ekrana gətirməli və əlbəttə ki, oyun elementlərindən, yenidən canlandırma üsullarından qaçmalıdır. Həmçinin dramaturji strukturun nəyə xidmət edəcəyini araşdırmaq, tutarlı sənədli materiallar toplamaq, ssenarinin yalnız söz yığınından, söz oyunundan, bənzətmələrdən ibarət olmamasına diqqət yetirmək lazımdır.

"Dəmir" ssenari və dəyişdirilmiş ssenari əsasında ekranlaşdırılan bu filmlərdə qəhrəmanların sinxronlarına müdaxilə olunmaması, qazilərin, şəhid ailələrinin əsl hiss-

həyəcanlarını, duyğularını dilə gətirmələri, yüksək emosionallıqla xatirələrini bölüşmələri, bəzi məqamlarda isə nəql etdikləri hər hansı xatirənin ssenarinin gedişatını dəyişməsi filmlərin estetik bünövrəsini daha da möhkəmləndirir. Bu məqamda jurnalist hadisələrin reallığından doğan gedişat hesabına filmin sonrakı taleyini müəyyənləşdirməli, amma eyni zamanda bu dəyişikliyin dəyişməz müəllif yozumuna xidmət göstərməsinə çalışmalıdır.

**Nəticə**

Sənədli televiziya filmləri televiziya proqramlarının elə bir sənədli formasıdır ki, istənilən sahədə baş verən yeniliklər və dəyişikliklər bilavasitə onun mövzu siyasətində və qəhrəman prototipinin axtarışında öz əksini tapır. Bu baxımdan ən yeni tariximiz olan, həm döyüş meydanında, həm də arxa cəbhədə Azərbaycan xalqının, ordusunun birliyini əks etdirən sənədli televiziya filmlərinin ekranlaşdırılması olduqca önəmlidir. Çünki bu filmlər təkcə müasir tariximizin deyil, eyni zamanda televiziyanın özünün arxivini, salnaməsini yaradır. Salnaməsi olmayan televiziyada isə hər hansı ciddi uğurdan, inkişafdan söhbət gedə bilməz.

I və II Qarabağ müharibəsini ekranlara daşıyan STF-nin təhlili belə qənaətə gəlməyə əsas verir ki, 2020-ci ilə kimi ekranlaşdırılmış sənədli telefilmlərin mövzusunda vətən həsrəti, məğlubiyyət hissi, işğal altında qalmış torpaqlarımızı uzaqdan izləyərək keçirdiyimiz gizli utanc duyğusu hakim idisə, 44 günlük Vətən müharibəsində istər müəllif mətnində, istər kadrarxası mətnlərdə, istərsə də sinxronlarda qələbə, qalib xalq, bütövlüyünü bərpa edən Azərbaycanın qüruru ön plandadır. Üstəlik işğaldan azad edilmiş ərazilərə köçürülmə, quruculuq və bərpa işlərinin hesabatı da filmlərin tədqiqat mövzusuna daxildir.

Bundan əlavə, 2020-ci ildə Dağlıq Qarabağ istiqamətində döyüş əməliyyatları zamanı Müdafiə Nazirliyinin PUA-lar və digər texniki vasitələrlə apardığı çəkilişlər sənədli televiziya filmləri üzərində çalışan yaradıcı heyətə ciddi sənədli xronikal kadrlar, arxiv materialları verdi. Xüsusilə ssenariyə müvafiq olaraq bəzi informativ materialların qrafik həllər, infoqrafika vasitəsilə təqdimatı STF-nin estetik mahiyyətinə canlılıq gətirdi, quru müəllif mətnini informasiyanın texnoloji yeniliklərin təsiri altında vizualizasiyası əvəzlədi. Müasir dövrdə II Qarabağ müharibəsini əhatə edən sənədli televiziya filmlərinin estetik təhlili ilə bağlı əldə olunan nəticələrə gəlincə:

– Filmlər daha çox bədii-publisistik, yüksək publisistik üslubda hazırlanır;

– Mövzu əsas etibarilə portret müsahibə janrında, “danışan başlar” prinsipi əsasında özünün ekran həllini tapır;

– Bənzətmələrdən, söz oyunlarından, mübaliğələrdən sıx istifadə olunur;

– Müəllif yozumunun gerçəkliyə müdaxiləsi, tamaşaçılara istiqamət verməsi, bəzən ittihamçı, bəzi hallarda isə müdafiəçi mövqeyində dayanması gözdən qaçmır;

– Dramaturji strukturun qaydaları gözlənilmədiyindən filmlər reportaj, veriliş təəssüratı bağışlayır.

Son olaraq, kino mütəxəssislərinin ayrı-ayrı media qurumlarına verdikləri müsahibələr belə qənaətə gəlməyə əsas verir ki, xalqımızın tarix yaddaşının daim iti qalması, eyni zamanda həm dövrün, həm də televiziyanın özünün vizual salnaməsinin yaradılması üçün sənədli televiziya filmlərinə müraciət olunması olduqca önəmlidir. Lakin tarixi həqiqətlərimizin dünyaya çatdırılması, dünya mediasının haqlı davamızın əsl mahiyyətini anlaması üçün güclü estetik bünövrəsi olan bədii filmlərin istehsalı zəruridir.

**Ədəbiyyat siyahısı**

Azəri, L. (2020). Vətən müharibəsinin kino yolçuluğu. https://www.medeniyyet.az/page/news/55074/Veten-muharibesinin-kino-

Ələkbərova, L. (2021). 2021-ci ildə kino yaddaşına yazılanlar. https://www.medeniyyet.az/page/news/60504/.html

Quliyev, N. İ. (1981). *Vətənpərvərlik və qəhrəmanlıq motivləri*. Yazıçı.

Mehdi F. A. (1982). *Bədii publisistika*. Maarif.

Məmmədova, M. (2023). Haradasan, ay Azərbaycan kinosu?! https://sesqazeti.az/news/social/1079710.html

Nəcəfxanlı, Ə. (2023). Müharibə mövzusu böyük ekranda. https://xalqqazeti.az/az/medeniyyet/144707-muharibe-movzusu-boyuk-ekranda

Oxu.az. (2021). Vətən müharibəsi filmlərdə necə əks olunacaq? https://oxu.az/medeniyyet/veten-muharibesi-filmlerde-nece-eks-olunacaq

Sarıyeva, İ. (2017). Milli Qəhrəmanlar haqda çəkilən sənədli filmlərdə nələr çatışmır? https://www.baki-xeber.com/medeniyyet/66833.html

Youtube. (2017a). Şuşanın dağları qara dumanlı. https://www.youtube.com/watch?v=GZzkumdn_CE&t=6s&ab_channel=QULPSTUDIO

Youtube. (2021b). Dəmir yumruq.
https://www.youtube.com/watch?v=5D2eJG9Gz6w&t=1970s&ab_channel=REALTV

Youtube. (2021d). Səbrin son gecəsi.
https://www.youtube.com/watch?v=zufk0cYC3WM&ab_channel=ARBTV

Youtube. (2023c). Pusqu.https://www.youtube.com/watch?v=Xtk4KzEjMao&t=444s&a